Bismillahir-rəhmanir-rəhim

# İSLAM VƏ ZAMANIN TƏLƏBLƏRİ

## ŞƏHİD MÜRTƏZA MÜTƏHHƏRİ

# BİRİNCİ CİLD

## *BİRİNCİ HİSSƏ*

## *DÖVRLƏRDƏKİ TƏLƏBLƏRİN DƏYİŞMƏ SƏBƏBLƏRİ*

«**Biz əmanəti [Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi] göylərə, yerə və dağlara təklif etdik. Onlar onu götürməkdən qorxub çəkindilər. Çox zalim və çox cahil olan insan isə, onu götürdü. İnsan bu ağır əmanəti götürməklə, özünə zülm etdi və cahilliyi üzündən onun çətinliyini, ağır nəticəsini bilmədi**»[1].

Yuxarıda qeyd olunan ayə, Quranın olduqca böyük əhəmiyyət daşıyan ayələrindən biridir. Şübhəsiz ki, Quranın bütün ayələri dərin mənalı və böyük əhəmiyyət kəsb edir. Lakin ayələrin bəziləri mətləbi elə tərzdə bəyan edir ki, insanları onun haqda düşünüb-daşınmağa vadar edir.

Quranın bir çox ayələrində insanlar bir-başa və ya müxtəlif yollarla düşünüb-daşınmağa dəvət olunurlar. Birbaşa olaraq düşüncə və təfəkkürə dəvət edən ayələr, məhz belə bir ünvan daşıyır və bu ayələrdə düşünüb-daşınmamaq qətiyyətlə pislənilir: «**Allah yanında yer üzündə gəzən canlıların ən pisi [haqqı] dərk etməyən korlar və lallardır**»[2].

Allahın nəzərində canlıların ən pisi hansılardır? Görəsən, nəcis (murdar) adlandırdıqlarımızdırmı? Ya misal olaraq çəkdiyimiz heyvanlardırmı? Xeyr! Allah-təalanın nəzərində canlıların ən pisi o kəslərdir ki, qulaqları olduqları halda kar, dilləri olduqları halda lal, əql və düşüncə qabiliyyətinə malik olduqları halda, həqiqəti dərk etməyənlərdir. Qurani-kərimdə bu məzmunda kifayət qədər ayə mövcuddur.

Qurani-kərimdə ayələrin bir qismi insanların birbaşa deyil, müxtəlif yollarla dünüşcə və təfəkkürə dəvət edir. Mətləbdən uzaq düşməmək üçün biz yalnız onlardan bir neçəsinə işarə edəcəyik. Ayələrin bir qismi mətləbi elə tərzdə bəyan edir ki, insanları düşüncə və təfəkkürə sövq edir. Bu da insanın zehnini düşünüb-daşınmağa vadar edən özünəməxsus üsullardan biridir. Aşağıdakı ayəyə diqqət yetirin:

«**Biz əmanəti [Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi] göylərə, yerə və dağlara təklif etdik. Onlar onu götürməkdən qorxub çəkindilər. Çox zalim və çox cahil olan insan isə onu götürdü. İnsan bu ağır əmanəti götürməklə, özünə zülm etdi və cahilliyi üzündən onun çətinliyini, ağır nəticəsini bilmədi**»[3].

«Biz əmanəti göylərə və yerə və dağlara təklif etdik». Əmanət dedikdə nə nəzərdə tutulur? Necə və kimə təklif olundu? Yerə, göyə, dağlara necə,

---

[1] «Zumər» surəsi, ayə 72

[2] «Ənfal» surəsi, ayə 22

[3] «Zumər» surəsi, ayə 72

əmanət təklif etmək olar? «Biz yerə, göyə və dağlara əmanət təklif etdik, amma onlar bunu qəbul etməkdən imtina etdilər».

«**Əbəyyənə yəhmilnəha - əmanəti götürməkdən qorxub çəkindilər**».

Buradan məlum olur ki, əmanət dedikdə, elə bir şey nəzərdə tutulur ki, varlıqlar onu məhz qəbul etməli deyil, ona dözməyi bacarmalıdırlar.

Birinə əmanət verilərkən, adətən «filan kəs əmanəti üzərinə götürdü» deyil, «qəbul etdi» deyirik. Lakin göründüyü kimi, ayədə «əmanəti [üzərinə] götürməkdən qorxub çəkindilər» deyilir. Əmanəti üzərinə götürmək ərəb və fars dillərində özünməxusus bir mövzuya çevrilmişdir.

Hafiz şerlərinin birində deyir:

Asiman əmanət yükünü çəkə bilmədi
Fal açıb mənə dəli divanə dedilər.
İnsan isə onu [öz üzərinə götürdü].

Buradan dərhal belə bir sual meydana gəlir: Biz bütün insanları görür, onların üzərində isə heç bir şey [əmanət, yük] müşahidə etmirik. Onların üzərinə qoyulan yük nədən ibarətdir? Demək, buradan heç də cismani yük nəzərdə tutulmur. Yer, göy və dağlar onu qəbul etməkdən imtina etsələr də, insan cəsarətlə bu ağır [mənəvi] yükü qəbul etməyə hazır olduğunu bildirir.

Ayə`nin sonunda buyurur: «**Çox zalim və çox cahil olan insan isə...**».

Zalim olan insan bu əmanəti üzərinə götürən yeganə varlıq oldu. «Zəlum» zulm kəlməsində götürülmüşdür. Zəlum, son dərəcədə sitəmkar və zalım bir şəxsə deyilir. Bu əmanəti üzərinə götürən belə bir varlıq, olduqca zalım və sitəmkardır.

Cəhl, cəhalət və nadanlıq mənasını daşıyır. Cəhul isə son dərəcədə nadan şəxsə deyilir. Buradan daha bir neçə sual meydana gəlir: Allah-təala bu əmanəti qəbul etmək, ya ondan imtina etmək üçünmü təklif etmişdir? Sözsüz ki, qəbul olunması üçün. Elə isə insan bu ağır əmanəti qəbul edən yeganə varlıq olduğu bir halda, Qurani-kərim nə üçün onu zalım və cahil adlandırır?

Ayədə istifadə olunan bu iki ibarət təfsir və irfan alimlərini maraqlandıran suallardan biri olmuşdur.

Ayədən bir çox suallar meydana gəldiyi üçün söhbətimizin əvvəlində onun dərin məna daşıdığı və olduqca böyük əhəmiyyət kəsb etdiyini vurğuladıq.

Əlbəttə, bütün sünnü və şiə təfsirçiləri ayədə əmanət deyildikdə, hər-hansı bir maddi əşyanın deyil, mənəvi varlığın nəzərdə tutulduğuna işarə etmişlər. Yə`ni məxluqat arasında əmanət adlanan mənəvi məfhum vardır. Bunun nə üçün əmanət adlandırılması haqda isə hələlik söhbət açmırıq. Növbəti bəhslərimizdə fürsət tapdıqda, bəlkə də bu mətləbə işarə etdik.

Yaradılış aləmində Allah-təala əmanət adlı mənəvi bir məfhum yaradıb, onu məxluqata təklif etdi. Onlar isə üzərlərinə götürməyə qadir olmayıb, qəbul etməkdən boyun qaçırdılar.

Təklif etmək deyildikdə, nə nəzərdə tutulur? Təklif, Allah-təalanın bütün məxluqata təklif etdiyi və onların istedad və bacarıqlarından asılı olaraq qəbul edib və ya edə bilmədikləri kamala deyilir. Peyğəmbərliyi, əmanəti, elmi və istədiyiniz hər bir şeyi misal çəkə bilərsiniz.

Peyğəmbərlik adlanan ilahi bəxşiş, insanların bəzilərinə təklif, bəzilərindən isə əsirgənirmi? Yə`ni peyğəmbərlik peyğəmbərə təklif olunmuş və o da qəbul etmiş mənə isə təklif olunmamışdır. Əgər mənə təklif olunsaydı, qəbul edərdimmi?

Vəhy, peyğəmbərlik, risalət adlanan həqiqət elə bir həqiqətdir ki, Allah-təala tərəfindən kimsədən əsirgənməz və O bütün məxluqata təklif olunur. Əgər qəbul edə bilərsə, daşa da təklif olunar, lakin daş onu qəbul edə bilməyir, heyvan qəbul edə bilməyir, müəyyən şəxslər istisna olmaqla, insanlar da onu qəbul etməyə qadir deyillər.

Demək, insan elə bir istedada malikdir ki, digər məxluqat belə bir istedada malik deyildir. Belə bir istedada malik olduğu üçün bu ilahi əmanət məhz ona verilmişdir.

## *ƏMANƏT NƏDİR?*

Əmanət nədir? Biz bunun «yəhmilnəha – üzərinə götürdü» kəlməsindən nə olduğunu başa düşə bilərik. Məlum olur ki, cismani və maddi olmasa da, bir növ çətinliklərə dözməli və üzərinə götürülməlidir. Nəql olmuş hədis və rəvayətləri nəzərdən keçirdikdə, bunun həmin mənada təfsir olunduğunun şahidi oluruq. Lakin əmanət nədir? Onun vəzifə, qanun olduğu haqda fikir irəli sürmüşlər. Yə`ni insan bütün məxluqatdan fərqli olaraq, üzərinə müəyyən vəzifə və məsuliyyətlər düşdüyü üçün öz həyatını qanun çərçivəsində başa vurmalı olur. Digər məxluqat gördükləri bütün işləri icbari olaraq görsələr də, o, şüurlu bir varlıq olduğu üçün bütün işlərini özünün tam ixtiyar və iradəsi ilə yerinə yetirir. Onun qarşısına iki yol qoyulmuşdur: Əbədi səadətə aparan təkamül və tənəzzülə aparan əbədi bədbəxtçilik yolu. Bu iki yoldan birini seçmək, onun öz ixtiyarına qoyulmuşdur. İnsanın qarşısına qoyulan bu iki yol, «həyat yolu» adlanır və bu yolu qət edən hər bir şəxsin üzərinə müəyyən məsuliyyət və vəzifələr düşür.

Bura qədər dediklərimiz bir növ müqəddimə xarakteri daşıyırdı və gələcək fəsillərimizdə biz bu məsələyə bir daha qayıdacağıq.

Haqqında söhbət açmaq istədiyimiz məsələ «zamanın tələbi»dir. Bu sual daim ziyalı təbəqəni özünə cəlb etmişdir. Bir çoxlarında belə bir sual meydana gəlir: görəsən insan müsəlman olmaqla yanaşı, öz həyatını zamanın tələbi ilə uyğunlaşdıra bilərmi? Bəzən soruşurlar: «Zamanın tələbatı dəyişdiyi bir halda, insan necə dindar qala bilər?». Çünki dindar olan hər bir şəxs, özünü zamanın tələbləri qarşısında qorumağı bacarmalıdır. Bəzən insanın özünü zamanın tələbləri ilə necə uyğunlaşdırması haqda soruşurlar. Bəziləri deyir: «Zamanın tələbləri ilə uyğunlaşmaq dinlə ziddiyyət deməkdir».

Bəziləri də bunu dinin əleyhinə təbliğ edərək deyirlər: «Din, yenilik və inkişafın qarşısını aldığı üçün dindar həyatı yaşamaq qeyri-mümkündür. Çünki əgər insan yaşadığı dünyada inkişaf və tərəqqiyə nail olmaq istəyirsə, yeniliyin tərəfdarı, köhnə düşüncə və tərzi-təfəkkürün tam əleyhinə olmalıdır». Bəlkə də bəziləri bu məsələnin əhəmiyyətinə diqqət yetirməsinlər. Lakin onlar bilməlidirlər ki, bu məsələ onlar üçün əhəmiyyət kəsb etməsə də, gələcəkdə öz övladlarının həyatına böyük təsir göstərəcəkdir. Onlar üçün də əhəmiyyət kəsb etməzsə, onların övladlarının həyatında heç də təsirsiz olmayacaqdır. Bunun üçün də bu məsələnin dərinliyinə varıb, İslamın zamanın tələbatına necə münasibət bəslədiyini araşdırmalıyıq.

Ümumiyyətlə, bir çoxları ruhanilərə «zəmanə ilə uyğunlaşın» deyərək onlara irad tutduqda, hansı məntiqə əsaslanmalıyıq? Bu haqda söhbət açmaq, bizə digər mətləblərə toxunmağa köməklik edəcəkdir. Məsələn, bir çoxlarını maraqlandıran «əxlaq» mövzusu. Bəziləri əxlaqı nisbi hesab edir. Onların fikrincə, qəti (mütləq) olaraq yaxşı və pis əxlaq mövcud deyildir. Yə`ni yaxşı əxlaq hər zaman yaxşı, pis əxlaq isə heç də hər zaman pis deyildir. Belə ki, müəyyən dövrlərdə bəzi əxlaq normaları bəziləri üçün müsbət, bəziləri üçün isə olduqca mənfi qəbul olunur.

Bu məsələ ilə əlaqəli olaraq, tarixin bünövrəsi haqda da söhbət açmağı məqsədə uyğun hesab edirik. Marksist və qeyri-marksist məktəblər bu barədə müxtəlif nəzəriyyələr irəli sürmüşlər və biz növbəti bəhslərimizdə onların hər biri haqda ətraflı söhbətlər açacağıq.

## *İNSANIN İCTİMAİ HƏYATI İLƏ HEYVANLARIN İCTİMAİ HƏYATI ARASINDA OLAN FƏRQLƏR*

Ayənin məna və məfhumunu dərk etmək üçün bir mətləbə xüsusi diqqət yetirməliyik. İnsan ictimai həyat tərzi sürür, yəni o cəmiyyətlə yaşamalı və ondan ayrı düşməməlidir. Əks təqdirdə, məhv olub aradan gedəcəkdir. Lakin insan ictimai həyat tərzi keçirən yeganə varlıq deyildir. Belə ki, heyvanların bir çoxu ictimai həyat tərzi keçirirlər. Bunu da qeyd edək ki, onların bir yerdə olmaları, ictimai həyat keçirmələrinə dəlalət etmir. Məsələn, ceyranlar sürü halında birgə gəzir, otlayır lakin ictimai həyat keçirməyirlər. Çünki onlar üzərlərinə düşən vəzifələri öz aralarında bölünməmiş və özlərində heç bir məsuliyyət hissi keçirmirlər. İctimai həyat ona deyilir ki, cəmiyyət üzvləri üzərlərinə düşən vəzifələr bir-birlərinin aralarında bölüşdürmüş olsun. Lakin heyvanların bəziləri üzərlərinə düşən vəzifələri bir-birlərinin arasında bölüşdürmüş və insanlar kimi ehtiyaclarını ödəmək üçün ictimai həyat tərzi keçirirlər...

Bir neçə il əvvəl amerikalı professorun yazdığı «insan yaradılışının sirri» adlı kitabı çap oldu. Fars dilinə tərcümə olunmuş kitabını dəfələrlə oxuyub, bir çox hallarda onun yazdıqlarına istinad etdim. O yazırdı: «Həşəratların bir çoxu olduqca kiçikdirlər. Onların qidalandıqları özlərinə məxsus sahələri

vardır. Onlar südə bənzər mayeləri digər həşəratlardan sağır və öz aralarında bölürlər».

İnsanlar arasında mövcud olan təşkilatçılıq onların arasında da müşahidə olunur. Onların da özlərinin başçısı, əsgəri və işçi qüvvələri vardır. Həşəratların ictimai həyat keçirmələrinə dair təlif olunmuş kitablar olduqca maraqlı və diqqəti cəlb edəndir. Deməк, ictimai həyat tərzinə malik olan varlıq yalnız insan deyildir.

Lakin onların arasında əsaslı bir fərq vardır. Alimlərin apardıqları təhqiqat və etdikləri mütaliələr göstərir ki, insan kimi ictimai həyata malik olan varlıqlar dünyaya qədəm qoyduqları ilk gündən həmin təşkilata (müəyyən qanun çərçivəsində cəm halda yaşamağa) malik olmuş və bu günə qədər davam etməkdədir. Yə`ni bəşəriyyətin sivilizasiya tarixinin tam əksinə olaraq. Belə ki, insan ibtidai icma quruluşundan sonra daş, dəmir, buxar və daha sonra atom dövrünü yaşamışdır. Heyvanlar isə belə deyillər. Onların hər birinin özlərinə məxsus həyat tərzi vardır. İnsandan fərqli olaraq heyvanlar heç bir ixtira və yeniliyə nail ola bilmədikləri üçün onların həyatlarında heç bir dəyişiklik baş vermir. Bəs nə üçün? Ayə bizə belə cavab verir: «**Biz əmanəti göylərə təklif etdik».**

İnsan xilqətin vüqarlı övladıdır. Ona azadlıq verilərək, öz ixtiyarına buraxılmışdır. Təkamülə doğru aparan yolu da o, özü qət etməlidir. İnsan Quranın verdiyi hökmə əsasən, «**İnsan zəif yaradılmışdır**», feliyyət baxımından aləmə bütün heyvanlardan zəif və bacarıqsız olaraq qədəm qoyur. <u>Dünyaya isə isteyaya isə istedad baxımından bütün varlıqlardan daha hazırlıqlı gəlir</u>. İnsana ixtira və yaratmaq bacarağı verilmişdir. O, istifadə etdiyi alət və ləvazimatı daha da mükəmməl edərək, maddi ehtiyaclarının təmin olunmasında daha böyük nailiyyətlər əldə edə bilir. Heyvanlar üçün sabit olduğu bir halda, zamanın tələbatına müvafiq olaraq o, yaşadığı mühiti özünə sərf edəcək tərzdə dəyişir və onu öz istəyinə tabe edir. Sonuncu din və həyat qanunu olan İslam, zamanın daim dəyişməkdə olan tələbatına necə münasibət bəsləyir? O, bizə inkişaf və irəliləyişin qarşısını almağımı əmr edir? Ya əksinə, zamanın tələbatına təslim olmağımı tövsiyə edir? Yoxsa, izahata ehtiyac duyulan başqa bir üçüncü nəzər irəli sürür? Bütün bunlar haqda növbəti fəsillərimizdə söhbət açacağıq.

## İKİNCİ FƏSİL

### *ZAMANIN İKİ DƏYİŞİKLİK NÖVÜ*

«**Biz əmanəti [Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi] göylərə, yerə və dağlara təklif etdik. Onlar onu götürməkdən qorxub çəkindilər. Çox zalim və çox cahil olan insan isə onu götürdü. [İnsan bu ağır əmanəti götürməklə, özünə zülm etdi və cahilliyi üzündən onun çətinliyini, ağır nəticəsini bilmədi]**»[4].

### *İNSANLA HEYVANLARIN İCTİMAİ HƏYATI ARASINDA OLAN ƏSASLI FƏRQLƏR*

Əvvəlki bəhsimizdə qeyd etdik ki, insan ictimai həyat tərzi keçirən varlıqlar arasında təkamül mərhələsini keçən yeganə şüurlu varlıqdır. Yəni Allah-təala digər varlıqları sabit həyat tərzində yaratmış və dünyaya gəldikləri ilk gündən ömürlərinin sonunadək vahid nizam üzərində yaşamağı müəyyən etmişdir. İllər, əsirlər keçməsinə baxmayaraq, onların həyatında heç bir dəyişiklik baş verməmişdir. İki min il əvvəl bal arılarının həyatından xəbər verən alimlər bu günümüzədək onların həyatında heç bir dəyişiklikdən xəbər verməmişlər. Halbuki, bu müddət ərzində bəşəriyyət tarixində minlərlə dəyişikliklər baş vermişdir.

Nə üçün? Nə üçün onlar dəyişməz, biz isə daim dəyişməkdə olan həyata malik olmalıyıq? Çünki onlar əql ilə deyil, elmə məlum olmayan sirli instiklər əsasında yaşayırlar. (Məlum deyildir dedikdə, maddi nöqteyi-nəzərdən izah olunmaması nəzərdə tutulur.)

Nəhl surəsinin 68-ci ayəsində Allah-təala bu mətləbə işarə edərək buyurur: «**Rəbbin bal arasına belə vəhy [təlqin] etdi: «Dağlarda, ağaclarda və insanların qurduğu yerlərdə [evlərin damında, üzümlüklərdə] özünə yuva tik**».

Elmdə «instik» adlanan bu gizli anlatma üsulu, Qurani-kərimdə «vəhy» ünvanını almışdır. Bu hiss daim onlarda olmuş və həyat axarına istiqamətləndirmişdir. Lakin insan belə yaradılmamışdır. Ona «əql» və «kəşf» adlı qüvvə də verilmişdir. İnsanın malik olduğu bu xüsusiyyət, heyvanat aləmində müşahidə olunmur.

Kəşf – yəni, hər hansı bir yeniliyə və yaradıcılığa nail olmaq deməkdir. Heyvan ona vəhy yolu ilə anladılanı başa düşsə də, özü hər hansı bir yeniliyə nail ola bilməyir. Lakin insan əql kimi qəribə bir qüvvəyə malik olduğu üçün buna qadir olduğunu sübuta yetirir. İnstikt qüvvəsi ondan alınmış və əql

---

[4] «Əhzab» surəsi, ayə 72

qüvvəsi ilə yaşamaq əmr olunmuşdur. Əlbəttə, əql və hissiyat heç bir nəticə vermədikdə, Allah-təala özünün seçilmiş bəzi bəndələrinə vəhy edərək, peyğəmbərlik məqamını ucaltmışdır. Vəhy insanın köməyinə gələrək ona rəhbərlik etmiş və eyni zamanda kəşf və ixtira qüvvəsi ondan alınmamışdır. O, bu qüvvədən istifadə edə biləcəyi həddə vəhydən kömək almır. Çünki, insan elə bir qüvvəyə malikdir ki, öz həyatını sıfırdan başlayıb, özünün ixtira qüvvəsi ilə qədəmbəqədəm irəliyə doğru gedərək, həyatında əsaslı dəyişikliklər aparmalıdır. Başqa sözlə desək, o bir mərhələdən başqa bir mərhələyə qədəm qoyaraq, özünü sivilizasiya dövrünü qət etmiş olur. Əgər zamanın tələbatı dəyişilik deyilirsə, «insanın sivilizasiyasının müəyyən dövrləri vardır, heyvanların isə yox» fikri tamamilə doğrudur. Zamanın tələbatının dəyişilməsi də, insan xilqəti ilə bağlılığından irəli gəlir. Zamanın tələbatı heyvanat aləmi üçün dəyişilməsə də, insanlar üçün əsaslı şəkildə dəyişilir. Heyvanlarda yenilik meyli olmasa da, bu hiss insanda çox güclüdür.

Zaman heyvanlar üçün eyni və dəyişilməz, insan üçün isə dəyişgən və fərqlidir. Heyvanlar özlərində nə məsuliyyət hiss edir, nə də vəzifə daşıyırlar, insan isə üzərinə ağır məsuliyyət düşdüyü və vəzifə daşıdığını hiss və dərk edir. Heyvan gördüyü işlərin məsuliyyətini daşımasa da, insan gördüyü hər bir iş üçün özündə böyük məsuliyyət hiss edir.

Məsuliyyət və vəzifə deyildikdə, Quranda əmanət adlanan ibarət nəzərdə tutulur: «**Biz əmanəti [Allaha itaət və ibadəti, şəri hökmləri yerinə yetirməyi] göylərə, yerə və dağlara təklif etdik. Onlar onu götürməkdən qorxub çəkindilər. Çox zalim və çox cahil olan insan isə onu götürdü. [İnsan bu ağır əmanəti götürməklə, özünə zülm etdi və cahilliyi üzündən onun çətinliyini, ağır nəticəsini bilmədi**»[5].

Yəni insan üzünü Allah dərgahına tutaraq deyir: «İlahi! Bu məsuliyyəti öz üzərimə götürürəm. Mənə bəxş etdiyin əql və yaradıcılıq qüvvəsi ilə kamal və səadət yolunu özüm öz ayaqlarımla qət edəcəyəm».

## *İNSANIN SÜQUT VƏ AZĞINLIĞA YUVARLANMASININ MÜMKÜNLÜYÜ*

Buradan başqa bir mətləb meydana gəlir, başqa sözlə desək, əsaslı fərq nəzərə çarpır və o da bundan ibarətdir ki, heyvanlar öz ictimai həyatlarında tərəqqi və təkamül mərhələsini qət etmədikləri üçün tənəzzülə də uğramayırlar. Yuxarıya doğru hərəkət etmədikləri kimi, aşağıya doğru da hərəkət etmirlər. Yəni, siz heç vaxt bal arılarının həyatında hən hansı bir pozğuntuluğa və ya dəyişgənliyə yol verildiyini müşahidə edə bilməzsiniz. Lakin insan həyatında bu kimi hallara çox rast gəlmək olur. O, öz istedad və bacarığından səmərəli istifadə edərək, həm irəliləyə bilir, həm də xudpəsəndlik və havapərəstlik üzündən özünü tənəzzülə uğradır. Onun

[5] «Zumər» surəsi, ayə 72

süquta uğraması isə, ya başqalarının hüququnu taptalayaraq zülm və sitamkarlıqdan, ya da cəhalət və nadanlıqdan irəli gəlir. Cəhalət və nadanlıq nə deməkdir?

Cəhalət və nadanlıq dedikdə, insanın səhvə yol verməsi nəzərdə tutulur. Heyvanat aləmində isə belə bir hal müşahidə olunmayır. Müşahidə olunsa da, çox nadir hallarda və tez bir zamanda aradan qaldırılır. Məsələn, işçi bal arıları gözəl qoxulu güllərin əvəzinə pis iyli güllərdən şirə çəkdikləri zaman yuvaya daxil olduqda, nəzarətçi arılar tərəfindən qoxulur və dərhal yuvadan qovulurlar. Bu yolla verilən səhv tez bir zamanda aradan qaldırılmış olur. Bunun üçün də Qurani-kərimdə təklif olunan əmanətin yalnız insan tərəfindən qəbul olunduğu bəyan edildikdən sonra deyilir: **«Çox zalim və çox cahil olan insan isə onu götürdü**».

Bu iki istedad yəni, tərəqqi və təkamül, bir tərəfdən süqut və tənəzzül, digər tərəfdən zülm və ya nadanlıq üzündən bir-birindən ayrılmırlar. Dəhr surəsinin ilk 1-3-cü ayələrində bu mətləbə toxunularaq deyilir: «**İnsanın elə bir dövrü olub keçmişdir ki, o, xatırlamağa layiq bir şey olmamışdır!**».

Yaxud insanın elə bir dövrü olub keçmişdir ki, o, həmin dövrdə xatırlanası bir şey olmasın?! Əlbəttə, olmuşdur. İnsan əvvəlcə mövcud deyildi. Sonra o, yəni ulu babamız Adəm torpaqdan və sudan yoğrulub insan şəklinə salınmış, ona ruh verilmiş və o, həyat sürməyə başlamışdır. İnsanın nə üçün yaradıldığını əvvəlcə göy əhli, nə də o özü bilirdi. Tədriclə mələklər və o, özü nə üçün yaradıldığını anladı.

«**Həqiqətən, Biz insanı [sonrakı mərhələdə ata-anasının toxumundan ibarət] qarışıq bir nütfədən yaratdıq. Biz onu [dünyada özünü Allaha itaət edib-etməyəcəyi ilə] imtahana çəkəcəyik. Biz onu eşidən və görən yaratdıq**».

«**Biz ona haqq yolu göstərdik. İstər [nemətlərimizə] minnətdar olsun, istər nankor [bu onun öz işidir]**».

İmtahan dedikdə nə nəzərdə tutulur? İnsan hansı vasitələrlər imtahana çəkilmişdir?

Şüurlu bir varlıq olduğu üçün insanın üzərinə məsuliyyət və vəzifə qoyulmuşdur. Onun taleyi öz ixtiyarına qoyularaq, səadət və tənəzzül yolunu seçməkdə azad buraxılmışdır. Haqq yolunu qət edərsə səadətə qovuşar, ondan uzaq düşərsə, əbədi bədbəxtçilik və tənəzzülə uğrayacaqdır.

«**Biz onu eşidən və görən yaratdıq**».

Daha sonra buyurur: «**Biz ona haqq yolu göstərdik, istər [nemətlərimizə] minnətdar olsun, istər nankor [bu onun öz işidir]**».

İnsan belə bir xilqətə (xüsusiyyət) malik olan yeganə varlıqdır. O, olduqca qəribə təbiətə malikdir. Məhz belə bir mürəkkəb xilqətə malik olduğu üçün bəzən irəliləyir, bəzən də inkişafdan qalır. Başqa sözlə desək, zəmanəyə məhkum olan heyvandan fərqli olaraq, bəzən öz zəmanəsini yaxşılaşdırır, bəzən də daha da dözülməz edir. Heyvan tamamilə zamandan asılıdır. İnsan isə müəyyən qədər də olsa, zəmanəyə hökmranlıq edə bilir.

Buradan belə bir nəticəyə gəlirik ki, bəşəriyyətin həyatında baş verən dəyişikliklər iki hissəyə bölünür: doğru və düzgün, yalnış və qələt {səhv} dəyişikliklər.

Bizdən zamanda baş verən dəyişikliklərlə həmahənglik etməliyik, ya yox soruşulduqda isə, deməliyik: «Zamanda baş verən dəyişikliklərlə nə tam şəkildə həmahənglik etməliyik, nə də onunla müxalif olmalıyıq». Çünki zamana istiqamət verən insanın özüdür. O, zamanı həm müsbət, həm də mənfi və olduqca xoşagəlməz istiqamətə yönəldə bilər. Demək, müsbət istiqamətə yönəldikdə, onunla tamamilə həmahəng, mənfi istiqamətə yönəldikdə isə nəinki həmahəng olmamalı, bəlkə müxalif olmaq belə lazımdır.

## *MÜSBƏT VƏ MƏNFİ DƏYİŞİKLİKLƏRİN MEYARI*

Buradan başqa bir sual meydana gəlir: Hansı növ dəyişiklikləri inkişaf və tərəqqiyə və ya tənəzzül və süquta səbəb olacağını hesab etməliyik? Həmahənglik etmək üçün dövr və zəmanənin yaxşılığa doğru yönəldiyini və ya müxalif olmaq üçün onun pisliyə doğru hərəkət etdiyini necə başa düşməliyik? Bunun üçün ən başlıca meyar nə olmalıdır?

Qeyd etməliyik ki, bu işdə əql insan üçün ən yaxşı bələdçi ola bilər. Allah-təala onu insana haqla batil arasında fərq qoya bilməsi üçün bəxş etmişdir. Bəşər tarixi bunu göstərir ki, o bəzən doğru və düzgün yolu seçmiş, bəzən də havapərəstlik və nadanlıq üzündən haqq yoldan sapınmışdır.

Ən başlıca meyar isə müxtəlif dövrlərdə meydana gəlmiş şeylərin hansı səbəblər üzündən və hansı istiqamətdə yönəlməsinə diqqət yetirməsindən ibarətdir. Yəni insanın istedad və bacarığının məhsulu olan ixtira və nailiyyətlər, hansı istiqamətə yönəldilmiş və verdiyi nəticələr nədən ibarət olmuşdur? Baxaq görək, bütün bu nailiyyətlər həqiqətən insan şüurunun məhsulu olmuşdur, ya müxtəlif amillər də ona öz təsirini göstərmişlər. Siz hər bir şeyi nəzərdən keçirdikdə bunun şahidi olacaqsınız ki, əldə olunan nailiyyətlər bəzən əql və elmin, bəzən isə istismar olunan elmin məhsulu olmuşdur. Məsələn, dünyada geniş yayılmış elmlərdən biri də, fizikadır. Bu elmin inkişafında yüzlərlə alim və mütəxəssis böyük zəhmətlərə qatlanmışlar. Fizikada bəhs olunan məsələlərdən biri də, işıq mövzusudur. İşığın nədən ibarət olduğu haqda min illər boyu alimlər bir çox elmi təhqiqatlar aparmışlar. İnsan görürsə necə görür? İşığın sınma və əks etməsi necə baş verir?

İbni Heysəm fizika-riyaziyyat sahələrində böyük şöhrət tapmış İslam alimlərindən biri olmuşdur. Onun işıq barədə bir çox maraqlı təhqiqatları olmuşdur. Bir çox avropa alimləri özlərinin elmi əsərlərində onun nəzəriyyələrindən istifadə etmişlər. İbni Heysəmin «Mənazir» adlı kitabı hal-hazırda mütaliə və təhqiq olunur. İspaniyada İslam imperatorluğu hakim olduğu illərdə, on ikinci əsrdə yaşamış dahi avropa alimlərindən olan Racer

Beyken özünü bütün elmi nailiyyətlərində İbni Heysəmə borclu olduğunu etiraf etmişdir. Vil Dorant özünün «Tarix sivilizasiyası» həmçinin Qustav Nuben özünün «İslam və ərəb tarixi sivilizasiyası» adlı kitablarında Racer Beykenin dilindən yazırlar: «Bu elmdə mənim həqiqi ustadım İbni Heysəm olmuşdur, mən onun kitablarından çox bəhrələnmişəm».

Əlbəttə, sonralar işıq mövzusunda bir çoxları daha da inkişaf etmişlər.

İşığın nədən ibarət olduğu elmə məlum olduqdan sonra bəşər şəkil və kino çəkmək sənətinə yiyələnməyə başladı. Bütün bunlar elmi mövzulardır. Belə bir nailiyyətlər əldə etməklə, elm inkişaf etmiş olurmu? Sözsüz ki, inkişaf etmiş olur. Bəşər isə bu yolla elmdən istədiyi kimi istifadə edir.

Elm öz işini görür, elmi ixtira və kəşflər olunur. Elə bu əsnada, pulpərəst və havapərəst bir şəxs meydana çıxıb elmdən insanlardan sui-istifadə etmək və onların əxlaq və mənəviyyatına xələl gətirmək üçün istifadə etməyə başlayır. Qeyri-əxlaqi filmlər çəkərək, geniş şəkildə onu cəmiyyətdə yaymağa başlayır. Bir sözlə, elmi öz əsarətinə alaraq ondan sui-istifadə edib, insanların əxlaq və mənəviyyatına mənfi təsir göstərmiş olur. Belə olduğu bir halda, onu əsrin və elmin bəhrəsi kimi qəbul edə bilərikmi? Xeyr! Bu yalnız elmin bəhrəsi deyildir, elmin bəhrəsi tam başqa bir şeydir. Bu öz əsarəti altına almış bir qrup şəhvətpərəst insanların məhsuludur.

Başqa bir misal çəkək: Kimya adlanan bir elm yaşadığımız dünyada hal-hazırda inkişaf etməkdədir. Əşyaların, maye və qazların tərkib hissələri haqda söhbət açan bu elm, insana müxtəlif tərkib hisslərindən bir çox çeşiddə dəva-dərman hazırlamağa imkan vermişdir. Elm getdikcə inkişaf edir və maddələrin tərkib hissələri haqda yeni-yeni məlumatlar əldə olunur. Elmin belə bir irəliləyişi ilə həmahənglik etməliyikmi? Bəli, onunla həmahəng olmağımız lazım və zəruridir. Lakin bəzən elə bir mərhələyə gəlib çatır ki, elm fasid insanların ixtiyarına düşərək, böyük təhlükəyə çevrilir. İllər boyu təhsil alıb maddələrin tərkib hissəsi ilə yaxından tanış olduqdan sonra təsir və məstetmə baxımından tiryekdən dəfələrlə güclü olan heroin adlı bir maddə də əldə edir. Ən ismətli qadınlar belə ona mübtəla olduqda ehtiyac duyduqları zaman ona xatir özlərini başqalarının ixtiyarına qoymağa belə hazır olarlar. Bu ümumbəşəri bəladır! Heroinin hazırlanmasında elmin bir rolu olmuşdurmu? Bəli, olmuşdur. Lakin onu elm deyil, insanların şəhvəti meydana gətirmişdir. Elm bəşəriyyətin əlində daim nur saçan bir çıraqdır. O, əlindəki çırağı özü ilə hara apararsa, yalnız həmin yeri və həmin yolu işıqlandırmış olur. Hər şeydən önəmlisi isə, əlində çıraq tutmuş şəxsin onu özü ilə hara aparmasıdır.

Ali təhsil almış doktor özü-özlüyündə fikirləşir. İndi ki ali təhsil almışam aptek açıb məsələn, ayda bir milyon manatlıq ticarət etməkdənsə, heroin düzəldib sataraq, yüz milyon manat əldə etmiş olaram. Belə olduğu bir şəraitdə biz heroini zaman və dövrün inkişafı ilə əlaqələndirərək onu elmin nailiyyəti adlandıra və daha sonra «zamanın tələbatıdır» - deyə istifadə edə bilərikmi?! Burada Quranın istedad adlandırdığı iki şey «**Biz əmanəti təklif**

**etdik**» və «**o çox zalim və çox cahil**» eyni ünvan altında birləşir. Bəşəriyyətin yenilik istedadı onun zülm, sitəmkarlıq və nadanlığı ilə birlik təşkil etmiş olur. Yəni bəşəriyyətin zülmkarlıq istedadı onun yeniliyə olan meyl istedadını öz ixtiyarına almış olur. Yenilik qüdrətini şəhvət və heroinin ixtiyarına düşdükdə isə, əldə olunan şey, əxlaqsız filmlərin çəkilib geniş şəkildə yayılması olur.

Başqa bir misal çəkək: İyirminci əsri adətən «Atom əsri» adlandırırlar. Lakin bəşər atom nüvəsindən azacıq istifadə etməzdən əvvəl dünyanın istismarçı qüvvələri azad nəfəs alan hər bir şəxsə hədə-qorxu gəlmək üçün alimləri «atom bombalarını» düzəltməyə vadar etmişlər. Belə olduğu bir halda belə bir qorxulu silahı, atom kəşfinin və yaşadığımız əsrin bəhrəsi adlandıra bilərikmi? Həmçinin, biz onu bəşəriyyətin ilahi və zamanın tələbatı hesab edə bilərikmi? Əgər zamanın tələbatı ilə həmahənglik etmək lazımdırsa, bəs nə üçün bəşəriyyət «silahlanma rəqabətinə son qoymaq lazımdır!» deyərək nalə edirlər? Özü də atom kimi dəhşətli bir silaha. Əgər bu həqiqi inkişaf və irəliləyişdirsə, bəs nə üçün bütün bunlarla mübarizə aparmaq istəyirlər? Bu elmin nailiyyətidir, lakin azad elmin yox. Burada da bəşərin ixtira və yenilik istedadı istemarçılıq və hökmranlıq meylinə tabe olmuşdur.

Deyilənlərə görə, Amerikada Enşteyn üçün fəxri bayram məclisi qurulur. Orada iştirak edən alimlər bir-bir onun nailiyyətlərindən və elmi dərəcəsindən söhbət açır. Özünə söz verildikdə deyir: «Siz elə bir şəxs üçün bayram keçirirsiniz ki, dünyada atom bombasının düzəlməsinə səbəb olmuşdur».

Əlbəttə, atomu ixtira etmək ondan məqsədi, atom kimi dəhşətli nüvə silahı düzəltmək yox, bəşəriyyətin tərəqqisi naminə istifadə etmək olmuşdur. Lakin o istəyinə nail olmazdan əvvəl ruzveltlər, stalinlər, çerçellər, xuruşovlar, ayzenhaverlər öz qüdrətlərini bəşəriyyətə göstərmək üçün öz mənfəətləri naminə istifadə etməyə başlamışlar.

Maqnitafon və digər səs yazan qurğuları ixtira edən şəxsin ən ümdə məqsədi, elmi konfrans və çıxışları yazıb elmin tərəqqisinə xidmət etmək olmuşdur. Lakin iki-üç konfrans və elmi mühazirə yazılmamış, mənəviyyata mənfi təsir göstərən şəhvətamiz təsnif və mahnılar bütün aləmi bürüyür. Buna səbəb olan nə olmuşdur? Bəşərin şəxsi mənafei üçün istifadə etdiyi şəhvətpərəst istəyi.

## *AZAD VƏ ƏSARƏTDƏ OLAN ELM*

Artıq burada bizə məlum olur ki, bəşər irəliləyişi ilə yanaşı, öz istedad və bacarığından sui-istifadə etəməyə belə qadirdir. Hələ qədim zamanlardan əxlaq alimləri bu mətləbə xüsusi diqqət yetirərək demişlər: «Bir şəxsin hər hansı bir elmə yiyələnməsi heç də onun bəşəriyyətin tərəqqisi naminə sərf

edəcəyinə dəlalət etmir. Ola bilsin, bir şəxs alim olsun və öz elmindən şəxsi istək və məqsədi üçün istifadə etmiş olsun».

Əli (ə) buyurur: «Mən çox şeyləri bilirəm, lakin əfsuslar olsun ki, təlim etmək üçün kimsə tapmıram». Sonra buyurur: «Bəli, hərdən bəzilərini tapıram, lakin tapdıqlarım şəxslər qəlbi yumşaq olsalar da, axmaq kimi heç nəyi və ya dediklərimin əksini başa düşürlər. Bəzilər isə olduqca zirək olarlar, lakin məndən əldə etdikləri məlumatları dərhal öz şəxsi mənafeləri üçün istifadə edirlər».

Sani deyir: «Elm öyrəndikdə ona qarşı o qədər həris ol ki, gecənin zülmətində oğru çırağla gəlib onu qarət etməsin».

Tamamilə düzdür! Çünki biri alim olduqda, heç də o demək deyil ki, onun gördüyü bütün işləri doğru və düzgün hesab edək. Hər şeydən əvvəl baxıb görməliyik ki, yönəldiyi elm azaddır, ya yox? Onun yiyələndiyi elm əqlin hökm etdiyi istiqamətə yiyələnmişdir, ya şəxsi məqsədlərə? Əlinin (ə) buyurduğu kimi - «Dünya naminə istifadə olunan dini alət olmamalıdır».

Bütün bunlar bir adama şamil olur, o ki, qaldı qrup halında fəaliyyət göstərən və bəşəriyyəti öz arxasınca aparan alim və təhqiqatçılara. Çünki öz mənafelərini güdən bəzi havapərəst insanlar daim onların elmlərindən sui-istifadə etməyə sə`y göstərmişlər.

Bütün bunları nəzərə alaraq, dünyada və yaşadığımız cəmiyyətdə baş verən dəyişikliklərin hansılarının yaxşı və hansılarının pis olduğunu müəyyən edə bilərik. Baş verən dəyişikliklərdə elmin rolu olsa belə, əgər şəxsi mənafeyə istiqamətlənərsə, onunla həmahənglik olunmamalıdır. Belə bir dəyişikliklə həmahənglik etmək, süqut və tənəzzül ilə nəticələnir.

Əgər «yaşadığımız əsr elm və texnologiya əsridir» desəniz, cavabında deməliyik: Bəli, yaşadığımız əsr elm və texnologiya əsridir. İnsanın vücudu necə yalnız elmdən ibarətdir və elmdən savayı onun vücudunda heç bir qüvvə yoxdurmu? Xeyr, vardır.

Elm yaşadığımız əsrdə bəşərin əsir və köləsi olduğu qədər heç bir dövrdə olmamışdır. Bu əsri, «elm əsri» yox, «elmin əsarəti əsri» adlandırmalıyıq. Elə bir dövr ki, elmi bir an belə azad nəfəs almağa qoymamışdır. Arxada qoyduğu bütün dövrlərdə indikindən daha azad və müstəqil olmuşdur. Heç bir dövrdə elm və alim bu günkü kimi bədbəxt və çarəsiz olmamışdır. Əgər yaxşı diqqət yetirsəniz bunun şahidi olacaqsınız ki, dünyanın hansı guşəsində olursa-olsun, məşhur bir ixtiraçı və ya psixoloq meydana gəldikdə, dünyanın hegemon ölkələri dərhal onu istismar edərək, özlərinin mənafelərinə uyğun fəaliyyət göstərməyə vadar etmişlər. Enşteyn bunun üçün ən gözəl misal ola bilər. Dünyada ondan bədbəxt ikinci bir şəxs ola bilərmi? Harada olurlarsa olsun, atom sahəsində şöhrət tapmış alimlər dərhal qüdrətli dövlət və siyasətçilər tərəfindən həbs olunaraq, onların mənafelərinə müvafiq olaraq fəaliyyət göstərməyə vadar olunmuşlar. Xüsusi göstərişlər alan alimlər ciddi nəzarətlər altında saxlanılır və öz məlumatlarını başqalarına ötürə bilməsinlər deyə, yaxın qohum-əqrəbaları ilə ünsiyyətdə olmağa icazə verilmir. Bəs bu

necə elm əsridir? Elm əsridir, lakin azad elmin deyil, əsarətdə və köləlikdə olan elmin. Elə bir əsr ki, elm qüdrətindən başqa ayrı bir qüdrət cəmiyyətə hökmranlıq və alimləri öz mənafelərinə müvafiq olaraq fəaliyyət göstərməyə vadar edir.

Demək, zamanın tələbləri ilə tam mənada ayaqlaşmalıyıq deyiriksə, bu heç də elmlə müxalif olmaq deyildir. Belə bir araşdırmadan bizə məlum olur ki, azad elm və insan şüurunun şəhvət və havapərəstliyə qalib gəldiyi əsr deyildir. Yəni yaşadığımız əsr enşteynlərin hakim və ruzveltlərin onlara tabe olacağı əsr deyildir.

## *ƏFLATUNUN «MƏDİNEYİ-FAZİLƏ» NƏZƏRİYYƏSİ*

Əflatunun (...) adlı məşhur nəzəriyyəsi vardır. O, irəli sürdüyü bu nəzəriyyədə deyir: «Dünya yalnız o zaman səadətə çatacaqdır ki, dövlətə hikmət sahibləri rəhbərlik, rəhbərlər də hikmət sahibləri olsunlar. Nə qədər onlar ayrı-ayrı təbəqə olacaqlarsa, dünya səadətə doğru getməyəcəkdir».

Biz müsəlmanlar belə bir əqidədəyik ki, dünyada səadət, sülh və əmin-amanlıq yalnız İmam Zaman (ə) zühur etdikdə bərqərar olacaqdır. O dövrün ən başlıca xüsusiyyətlərindən biri, elmin azad və hakim olmasıdır.

Əli (ə) o dövr haqda buyurur: «Camaat o dövrdə səhər və axşam elm və hikmət piyaləsi içəcəkdir».

Üsuli-Kafi adlanan hədis kitabında nəql olunmuş rəvayətlərdən birində deyilir: «İmam Zaman zühur etdikdə, Allah-təala əlini insanların başı üzərinə qoyacaq və bəşəriyyətin şüur və düşüncəsi artacaqdır».

Bəlkə də mətləbi istədiyim kimi bəyan edə bilmədim. Lakin bunu bilmək lazımdır ki, yaşadığımız əsri elm, təfəkkür, şüur və düşüncə adlandırmaq olduqca səhv və yalnış fikirdir. Çünki, yaşadığımız hal-hazırki əsrdə elm və əql heç bir azadlığa malik deyildir. Hələ də dünyaya şəhvət, qüdrət və havapərəstlik hakimdir.

Şəban ayında Xuzistana etdiyi səfərdə çıxışlarımın birində bu mətləbə toxunaraq dedim: «Əgər yaşadığımız əsrin nə əsri olduğunu və bəşəriyyətə nəyin hakim olduğunu bilmək istəyirsinizsə, «Bitlz» musiqi qrupuna nəzər salın. Gör, bu dörd nəfər şəxs dünyaya necə səs-küy salmışlar. Qəzet və jurnallar yazır ki, onlar Amerikaya getdikləri zaman bütün siyasi cərəyanları öz təsiri altına salmışlar. Bu da Amerika millətinin ruhiyyəsindən xəbər verir. Həmin gün «Bitlz» ilə birlikdə Amerikaya İngiltərənin baş katibi Vilson da gəlir. Amerikanın bütün məşhur informasiya yayımları o, cümlədən «Nyu-york tayms» qəzeti onun gəlişindən dörd sətir yazdıqdan sonra qəzetin bütün səhifələrini Bitl qrupuna həsr edir. Onlar o qədər şöhrət tapa bilmişlər ki, özlərini hətta İsa Məsihdən də məşhur olduqlarını iddia etmişlər. Belə olduğu bir halda yaşadığımız əsri elm və texnologiya əsri adlandıra bilərikmi? Demək, əsr vilsonların deyil, bitlzların əsridir. Görəsən, vilsonların əsri olsaydı, necə olardı?».

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, dünyada baş verən cərəyanları tam mənada təsdiq etməməli və zamanın tələbləri bizi aldatmamalıdır. Baş verən dəyişikliklərin tamamilə düzgün olmasına hələ çox qalmışdır. Burada söhbətimizi başa çatdırırıq.

## ÜÇÜNCÜ FƏSİL

### *İNKİŞAFDA OLAN İCTİMAİYYƏT*

**«İnclidə isə, onlar elə bir əkinə bənzədilirlər ki, o artıq cücərtisini üzə çıxarmış, onu bəsləyib cana-qüvvətə gətirmiş, o da möhkəmlənib gövdəsi üstünə qalxaraq, əkinçiləri heyran qoymuşdur**»[6].

### *İSLAM ÜMMƏTİNİN İNKİŞAF VƏ TƏKAMÜLÜNÜN MİSALI*

Göründüyü kimi ayədə Allah-təala, Peyğəmbər (s)-ın göstərişlərinə tabe olan iman sahiblərinə, yəni müsəlmanlara məsəl çəkir. Çəkilən məsəl, haqqında söhbət açdığımız mövzu ilə sıx əlaqəlidir. Ayədə deyilir:

İncildə onlara belə məsal çəkilir: «Onlar torpağa əkilən dən kimidirlər. İlkin mərhələdə cücərərək, nazik yarpaq halında olur. Əgər torpağa buğda dənəsi əkilərsə, əvvəl nazik yarpaq tək yerdən baş qaldırır. Lakin sabit qalmayıb (o artıq – fəazərəhu – cücərtisini üzə çıxarmış) tədriclə böyüyür, gövdə halına düşərək möhkəmlənir. Fəstəğləzə - onu bəsləyib cana-qüvvətə gətirmiş – get-gedə daha da möhkəmlənərək gövdəsi üzərində dayanır – fəstəva əla suqihi – o da möhkəmlənib, gövdənin üstünə qalxaraq. {fikir natamamdır}

Belə olduqda əkinçilərin, yəni əkinçilik sahəsində fəaliyyət göstərən mütəxəssisləri heyran qoyur. Onlar bütün bu mərhələlərə təəccüb edirlər. Yuğə buzzurra -əkinçiləri heyran qoymuşdur.

Məhz belə bir ictimaiyyət, dirçəliş və irəliləyiş düşmənlərinin qəzəbinə səbəb olur, kafirlər bunu müşahidə etdikdə, hiddətlə qəzəblənərlər. Bu nə məsələdir?

Özü cavabında buyurur: «Peyğəmbərlə olanlar düşmənlərə qarşı sərt və barışmaz, bir-birləri ilə isə səmimi və mərhəmətlidirlər: «**Onunla birlikdə olanlar [möminlər] kafirlərə qarşı sərt, bir-birlərinə [öz aralarında] isə mərhəmətlidirlər**».{Bax: ayənin mənbəyi yazılmayıb} Onları daim ibadətlə məşğul, səcdə və rüku halında görmək olar.

Nəzərdən qaçırmamalıyıq ki, ibadət və pərəstiş İslamın ayrılmaz bir hissəsidir. İslam dininin ictimai təlimləri ilə tanış olan bəzi şəxslər ibadətin heç bir məna daşımadığını hesab etmişlər. Lakin bu heç də belə deyildir. Onların arasında ayrılmaz, sıx əlaqə vardır. Əməli olaraq da bu iki şey bir-birindən ayrılmazdır. Yəni ibadət və şəri hökmlər ictimai təlimlərlə (...) olmayınca, öz xüsusiyyətini itirmirlər. Həmçinin ictimai təlimlər də ibadətlə (...) olmayınca, öz xüsusiyyətini itirmirlər.

(...) malik olduqlarına qane olmayıb, Allahdan daha çox şey istəyirlər. Lakin daim var-dövlət arzusunda olan maddipərəst şəxslər kimi yox. Onlar

[6] «Fəth» surəsi, ayə 29

eyni zamanda Allahın razılığını da qazanmaq istəyirlər. Haqq və həqiqət yolunda daha çox şeyə nail olmaq istəyirlər.

(ərə)

Dedikdə nə nəzərdə tutulur? Bu heç də o demək deyildir ki, səcdə etməkdən alınları qabar bağlasın. Həqiqi ibadət, insanın xarici görünüşündə də öz təsirini qoymalıdır. Belə olduqda, insanın ruh və cismin arasında sıx bağlılıq bərqərar olur. İnsanın əqidə, əxlaq və tərzi-təfəkkürü onun simasında özünü təcəlli etdirir. Namaz qılanlarla, namazı tərk edənlərin xarici görünüşündə nəzərə çarpacaq qədər fərq müşahidə etmək olar. İslamın zühur etdiyi ilk illərdə Allah-təalanın müsəlmanlar üçün çəkdiyi bu misal hansı məna daşımışdır?

Təkamül, inkişaf və dirçəliş inkişafı. Zərif toxum tək yerdən baş qaldırıb, getdikcə böyüyür və inkişaf edir. Lakin onların bu inkişafı başqalarında bir qədər fərqilidir. Bəşəriyyətin sair əkinçi, müəllim və tərbiyətçiləri belə bir sürətlə baş verən inkişafı görüb təəccüblənərək, heyrətə gəlirlər. Sokratçıları da heyrətə gətirən, məhz belə bir inkişafdır.

## *MÜSƏLMANLARIN İNKİŞAF SÜRƏTİ*

Bəşəriyyət müsəlmanların belə bir sürətli inkişafının sirrindən agah olmayıb, hələ də heyrət içindədir. Quran bu həqiqəti belə bəyan edir: «».

(ərə)

Avropa alimlərindən biri deyir:

Əgər üç şeyi nəzərə alsaq, Məhəmməd (s) kimi dünyada ikinci bir şəxsiyyətin (rəhbər) mövcud olmadığını etiraf edəcəyik.

1. Hədəfinin əhəmiyyət və böyüklüyü qarşısına qoyduğu hədəf.

Yəni cəmiyyətin əxlaq, ruhiyyə və ictimai quruluşunu tamamilə dəyişmək olduqca əhəmiyyətli idi;

2. Vasitə və imkanatın azlığı;

Onunla tərəf müqabili olan və öz müxalifətini bildirən özünün yaxın qohum-əqrəbaları idi. Pulu, qüdrəti olmadığı bir təqdirdə, ona iman gətirmiş ilk saf niyyətli möminləri ətrafına yığıb, dövrünü böyük qüdrət mərkəzinə çevirdi;

3. Qısa müddət ərzində qarşısına qoyduğu məqsədə çatması.

Yarım əsrdən az bir müddət ərzində dünya əhalisinin yarısını gətirdiyi dinə təslim etdi. Bütün bunları nəzərə alaraq cəsarətlə deyə bilərik ki, dünyada onun kimi ikinci bir rəhbər tarix boyu mövcud olmamışdır.

Bunun üçün də Quran misal çəkərək buyurur: «Əbədi olaraq (əkinçiləri heyrətə gətirir)». Axı onlar belə bir sürətli irəliləyişə necə nail ola bilmişlər? Bu misal Qurani-kərimin özündə müsəlman ümməti üçün çəkilir.

Burada belə bir sual meydana gəlir: Görəsən, İslamın zühur etdiyi ilk illərdə müsəlmanlar belə bir xüsusiyyətə malik olmalı idilərmi? Ya bu İslama xas olan bir xüsusiyyətdir. Yəni İslam nə zaman və harada olmasından fərqli

olmayaraq zühur edərsə, ona iman gətirmiş şəxslər hökm və göstərişlərinə əməl etməklə başqalarını heyran etmiş olurlarmı? Sözsüz ki, bu insanların deyil, İslamın xüsusiyyətidir və bu İslama olan iman və onun hökmlərinə əməl etməkdən irəli gəlir. İslam, ictimaiyyəti və müsəlman ümmətini inkişafdan qalmağa vadar etmək üçün zühur etməmişdir. İslam, əməli olaraq cəmiyyəti inkişafa aparan sonuncu ilahi dindir. Bir anlıq zühur etdiyi ilk dörd əsrə nəzər salın. Vil Dorant özünün «Tarix sivilizasiyası» adlı kitabında yazır: «İslam sivilizasiyasından güclü və heyrətə gətirəcək ikinci bir sivilizasiya yoxdur. O öz xüsusiyyətini əməli olaraq açıq-aşkar tərzdə biruzə verə bilmişdir. Əgər İslam irəliləyiş və inkişaf dini olmasaydı, gərək ərəb cəmiyyətini olduğu halda saxlayıb inkişafının qarşısını alaydı. Lakin baxıb görürük ki, bir çox böyük sivilizasiyaları özündə cəm edərək, olduqca böyük, əzəmətli, yeni bir sivilizasiya meydana gətirmişdir. Deməli, İslam zamanın irəliləyişi ilə heç də müxalif deyildir.

## *QUSTAV LUBENİN SƏHVİ*

Qustav Luben bir çox təhqiqatlar aparmış və bu sahədə dəyərli kitablar təlif etmişdir. Lakin bəzən dedikləri sözlər insanda təəccüb doğurur. O, İslam tarixində apardığı araşdırmalarda belə bir mətləbə toxunur. Müsəlmanlar böyük nailiyyətlər əldə etdikdən sonra nə üçün tənəzzülə uğramışlar? Nə üçün İslam sivilizasiyası qürub edərək davam gətirməmişdir? O, bunun bir neçə səbəbinə işarə edir: «Zamanın tələbləri ilə ayaqlaşmamaları.

Zaman dəyişsə də, müsəlmanlar İslamı əvvəlki əsrlərdə olduğu kimi saxlamaq istəyirdilər. Bir halda ki, bu qeyri-mümkün idi. Onlar İslam təlimlərini buraxıb zamanın tələbləri ilə ayaqlaşmaq əvəzinə, yenə dini təlimlərə üz tutub tənəzzülə uğradılar».

Bir anlıq belə bir böyük şərqşünasın çəkdiyi misala diqqət yetirin. Görəsən, İslamın hansı təlimləri zamanın tələbləri ilə ziddiyyətlik təşkil etmiş və müsəlmanlar ayaqlaşmayıb tənəzzülə uğramışlar? Qustav Luben İslam dinində nə kimi nöqsan tapmışdır ki, müsəlmanlar ona bağlı olmaqla zamanın tələblərindən daha dəqiq desək, inkişafdan geri qalmışlar?

Qustav Luben deyir: «İslam zühur etdiyi ilk illərdə bir çox millətlərin, xüsusilə qeyri-ərəb olan millətlərin həsrətində olduqları və hər şeydən daha çox müsbət nəticə verən xüsusiyyətlərdən biri, bərabərlik və ədalət prinsipi olmuşdur. İslamı qəbul etməklə, onlar hər şeydən əvvəl burada irq, qəbilə, milliyyətin heç bir məfhum kəsb etmədiyinin şahidi olurdular. Bu səbəbdən İslamı daha da rəğbətlə qəbul edirdilər. Bərabərlik prinsipi ilk illərdə İslam cəmiyyətinin xeyirinə idi. Lakin müsəlmanlar sonralar da bunun həyata keçirilməsində böyük sə`y göstərirdilər. Öz hakimiyyətlərini qoruyub-saxlamaq istədikdə isə, buna göz yumurdular. Ərəblər hakimiyyəti ələ keçirdikdən və digər millətlər İslamı qəbul etdikdən sonra siyasəti dəyanətdən üstün hesab etməli idilər. Hakimiyyəti daha da gücləndirmək

üçün siyasət digər millətləri tam mənada istismar etməyi tələb edirdi. Lakin onlar hakimiyyəti ələ aldıqdan sonra ədaləti əsas tutaraq ərəblə qeyri-ərəb arasında heç bir fərq qoymadılar. Əksinə, onları ən yüksək vəzifələrə təyin etmiş və beləliklə, qeyri-ərəb millətlər hakimiyyəti tamamilə öz ixtiyarlarına almışlar».

Abbasilərin xilafəti dövründə hakimiyyəti ilk dəfə olaraq iranlılar (Bərməkilər və Zurriyasətəyn qəbilələri) vasitəsilə öz ixtiyarlarına alırlar. Dövləti ələ keçirdikdən sonra öz qohum-əqrəbalarını böyük vəzifələrə təyin edərək, ərəbləri hakimiyyətdən kənarlaşdırmağa başlayırlar. Bütün bunlar hicrətin II əsrində baş verir. Milliyətcə fars olan Məmunun xilafəti dövründə, bu siyasət özünün son həddinə çatır. Belə ki, günlərin bir günündə Məmun küçədən keçərkən, bir ərəb onun qabağını kəsib deyir: «Fərz et mən də iranlıyam, mənə də köməklik et».

Xilafətə qardaşı Mötəsimə çatır. Mötəsimin anası orta Asiya türklərindən idi. O öz mövqeiyyətini qoruyub-saxlmaq üçün qardaşının apardığı siyasətin tam əksini icra edir. Mötəsim türklərə üstünlük verərək, nə ərəblərə, nə də iranlılara yer verir. Bəni-Üməyyənin tərəfdarları olduqları üçün ərəblərə qarşı sərt mövqe tutur. Çünki, Bəni-Üməyyənin siyasəti, ərəb siyasəti idi. Onlar daim ərəbləri qeyri-ərəb millətlərdən üstün tutmağa çalışırdılar. Bəni-Abbas isə Bəni-Üməyyənin tərəfini saxladığı üçün ərəblərə qarşı müxalif mövqe tuturdu. Fars dilini də gücləndirməkdə əsas məqsədləri, iranlıların ərəblərə qarışmaqlarının qarşısını almaq olmuşdur. İbrahim ibni İmam özünün xilafət dövründə İranın bütün məntəqələrində qüvvədə olan hökm çıxarır. (Corc Zeydan öz kitabında bu hökmü qeyd etmişdir). Bu hökmə əsasən, İranın hər bir məntəqəsində ərəb görən hər bir şəxs onu qətlə yetirməli idi.

Mötəsim, ərəblərin Bəni-Üməyyə, iranlıların isə Bəni-Abbası himayə etdiklərini görüb, anasının orta asiyada məskunlaşan qohum-əqrəbalarını dövlət işlərində yüksək vəzifələrə təyin edir. Beləliklə, ərəb və iranlılar hakimiyyətdən uzaqlaşdırılaraq, türklərin ixtiyarına keçirir. Qustav Lubenin demək istədiyi budur ki, Abbasi xəlifələri ərəb olduqları bir halda, nə üçün Bəni-Üməyyə ərəbçilik siyasətindən istifadə etməmişdir?

Göründüyü kimi o, imamın gözəl xüsusiyyətlərindən olan bərabərliyi ona nöqsan tutaraq, müsəlmanların zamanının tələbləri ilə ayaqlaşmayıb geridə qalmalarına səbəb olan əsas amillərdən biri hesab edir. O deyir: «Belə bir hakimiyyət üsulu əxlaqi baxımdan yaxşı, siyasət baxımından isə bəzən yaxşı, bəzən də pisdir. Belə ki, bəzən digər millətləri İslama dəvət etmək üçün bərabərlik siyasətini həyata keçirmək müsbət nəticə verir. Başqa bir vaxta isə müsəlmanlar, daha dəqiq desək, ərəblər siyasi baxımdan da olsa, İslamın bərabərlik üsuluna göz yummalı idilər.{nitqin harada sona yetdiyinə diqqət et}.

## *AVROPA SİYASƏTİ*

Qustav Luben belə bir tərzi-təfəkkürə əsaslanmaqla, böyük səhvə yol vermiş olur. Əvvəla ona görə ki, İslam Avropa ideologiyası üzərində qurulmuş siyasət üsulu deyildir. Digər tərəfdən, əgər müsəlmanlar İslamı onun dediyi kimi, siyasi oyuna çevirsəydilər, bu gün İslam nə bir din kimi mövcud və nə də müsəlmanlar bir ümmət kimi İslamın ən başlıca hədəfi - ictimaiyyətdə bərabərliyi bərqərar etməkdən ibarət olardı. Əgər İslam camaatdan istifadə edərək qanun və nizamnamə təyin edib və sonra dəyişdirsəydi, bu həqiqi İslam deyil, ümumbəşər adlanan Avropa siyasəti olardı. Belə ki, digər millətləri öz əsarəti altına alır, istismar etdikdən sonra isə bütün bunların mənasız olduğunu bildirir. İslamın zamanın tələbləri ilə ayaqlaşdığını hesab edən təhqiqatçıların tərzi-təfəkkürü məhz bundan ibarətdir. İslam dünyada mövcud olan bu kimi siyasətlərlə mübarizə aparır və bunun zamanın təlabatı hesab etmir.

Əli (ə)-a tutulan iradlardan biri də, məhz budur. Onun barədə deyirdilər: «Əli elm, əməl, təqva, hikmət, moizə və məhəbbət adamı idi. Lakin böyük bir eybi var idi, o da onun siyasətçi olmaması idi. Əli (ə) nə üçün siyasətçi deyildi? Nə üçün tam ciddi və kimsəyə güzəşt etmirdi? Əli (ə) məsələləri nəzərə almırdı. Siyasətçi olan bir şəxs, yeri gəldikdə yalan söyləməli, vədə verib əməl etməməlidir. Əhd-peyman bağlayıb istəyinə çatdıqda, hər şeyi alt-üst etməyi və yeri gəldikdə, özünə tabe etmək üçün kiminləsə gülər üzlə davranmağı, tabe etdikdə isə, onu məhv edib aradan aparmağı bacarmalıdır».

Onlar Əbu Müslümlə əhd-peyman bağladığı üçün Mənsur Dəvaniçini siyasətçil hesab edirdilər. Əbu Müslim, Mənsurun xeyrinə qiyam edib, Xorasanda Bəni-Abbas üçün nə kimi cinayətlərə əl atmadı? Daim onu «milli qəhrəman» adlandırıb, bununla öyünmüşük. Yalnız onu qətlə yetirdiyi şəxsləri hesaba alsaq, dörd yüz mindən artıq olduğunun şahidi olacağıq. Hətta bəziləri onun qətlə yetirdiyi şəxslərin sayınının altı yüz min olduğunu göstərmişlər. İnsan nə qədər qəddar və cani olar?!

Bəli, onlar Mənsuru dahi siyasətçil hesab edirlər. Əbu Müslim, Mənsurun bütün düşmənlərini aradan götürməklə, özü onun qəti düşmənlərində birinə çevrildi. O, böyük bir qoşunla Məkkəyə [Həcc ziyarətinə] gəlir. Qayıtdıqda, Reyin yaxınlığında Mənsurdan dəvət məktubu alır. Lakin Əbu Müslim onun dəvətini rədd edir. Mənsur dəfələrlə Əbu Müslimə dəvət məktubu yazmasına baxmayaraq, ondan mənfi cavab alır. Nəhayət, ona təhdidamiz {«təhqiramiz» olma ehtimalına bax}məktub göndərib, qayıtmasını tələb edir. Əbu Müslim gedib-getməməsinə tərdid edir. Bir çoxları ilə bu barədə məsləhətləşir və onlar Əbu Müslimə Xorasana qayıtmamağı tövsiyə edir, qayıtdıqda, orada ciddi xətərlə üzləşəcəyinə xəbərdarlıq edirlər. Lakin necə deyərlər, əcəli çatmış Mənsur ona tək gəlməsini əmr edir. Mənsur da onun hüzuruna tək gedib, qarşısında təzim edərək baş əyir. Bir qədər hal-əhval tutduqdan sonra Mənsur qəzəblə ondan nə üçün filan əmrini yerinə yetirmədiyini, filan yerdə

əmrə tabe olmadığını soruşur. Əbu Müslim, xəlifənin onu edam etdirəcəyini görüb deyir: «Əmir, düşmənlərini aradan götürmək üçün möhlət ver və öldürməkdən çəkin». Əbu Müslim deyir: «Bu gün mənim səndən təhlükəli düşmənim yoxdur». Mənsur, Əbu Müslim onun hüzuruna gəlməzdən əvvəl, öz adamları qapının arxasında dayanıb onun əlamətini gözləməsini və onlara xəbər verdikdə, dərhal otağa daxil olub Əbu Müslimi qətlə yetirmələrini əmr edir. Əbu Müslimi yaxşıca danladıqdan sonra onlara işarə edir. Dərhal otağa daxil olub Əbu Müslimi qətlə yetirib tikə-tikə edib, bədənini palaza bükürlər.

Qustav Luben və onun kimi belə bir yalnış tərzi-təfəkkürə əsaslanan şəxslər, düşmənini bu yolla aradan götürən şəxsləri güclü siyasətçi hesab edirlər. Əli (ə)-a irad tutaraq deyirlər: «Nə üçün Əli, Mənsur Dəvaniqinin siyasətini həyata keçirmirdi? Nə üçün Müaviyə ilə yumşaq davranıb, onu xilafətdən kənarlaşdırmadı? Nə üçün bir yolla Müaviyəni mərkəzi xilafətə yaxınlaşdırıb, birdəfəlik qarşısından götürmədi? Nə üçün yalan danışmırdı? Nə üçün öz adamları arasında, xüsusilə dövlət adamlarında fərq qoymurdu? Nə üçün rüşvət almırdı? Nə üçün Beytul-malı Müaviyə kimi mənimsəmirdi?». Bütün bunları İslam dininə irad tutaraq deyirlər: «İslam zamanın tələbləri ilə ayaqlaşmır və İslamın hökmlərinə əməl edən hər hansı bir şəxs, heç vaxt yaxşı siyasətçi ola bilməz».

İslam bu kimi siyasətçilər ilə mübarizə aparmaq üçün gəlmişdir. Bəşəriyyətin keşiyində duran İslam, yalnız ona xidmət etmək üçün gəlmişdir. Əgər İslam onların dedikləri kimi dəyişkən və güzəştli olsaydı, onda o ilahi din deyil, siyasi oyun olardı. İslam həqiqi olaraq haqq-ədalətin keşiyində durmuşdur. İslamın fəlsəfəsi də məhz bu kimi halların qarşısında durmaqdan ibarətdir.

Əli (ə)-ın öz rəftar və davranışı əsrlər boyu qəlblərə hakim olmuşdur. Əli (ə) öz təfəkkür və ideologiyasını öz dövründə qanun halına salaraq, bu günlərədək dünyada yaşatmışdır. Bu səbəbdən də, Əli (ə)-ın həyat və siyasət üsulu, iman şəklində insanlar arasında qalmaqdadır. Demək, Əli (ə) öz siyasətində məğlub olmamışdır. Əgər Əli (ə)-ın hədəfi Müaviyə tək beş günlük dünya nemətlərindən bəhrələnmək olsaydı, onda o məğlub olmuş olardı. Lakin o, iman, təqva sahibi və qarşısına məqsəd qoyduğu üçün məğlub olaraq, siyasətin qurbanı olmamışdır.

Demək, Qustav Lubenin əsassız heç bir dəlili olmayan nəzəriyyəsinə əsasən, siyasətçilər dövr və zaman dəyişdikdə müxtəlif cildlərə girərək, zamanın tələbatı ilə ayaqlaşmaq bəhanəsi ilə lazım gəldikdə hər bir hiyləyə əl atmalı və beləliklə, dövrün və zamanın tələbləri ilə ayaqlaşmağı bacarmalıdır. Məhz bunu İslam dininə irad tutaraq, müsəlmanın zamanın tələbləri ilə ayaqlaşa bilmədiyini hesab etmişlər.

İslam belə bir həmahəngliyin qarşısını alır və bu, onun üstün xüsusiyyətlərindən birini təşkil edir. Hüseyn ibni Əl (ə)-ın bu günlər qəlblərinizə hakim olmasının əsas səbəbi də, onun zamanın qarşısında təslim olmamasıdır. O, peyğəmbər hakim olarsa peyğəmbərin, Müaviyə hakim

olarsa Müaviyə`nin və Yezid hakim olarsa Yezidin istədiyi kimi yaşamaq istəmirdi. İmam Hüseyn (ə) zaman nəyi tələb edirdisə, onu da seçir.

Aşura faciəsi baş verməzdən əvvəl Mərvan Həkəm imam Hüseyn (ə)-la görüşdükdə, ona deyir: «Ya Əbu Əbdillah! Sənə xeyrinə olacaq bir məsləhət vermək istəyirəm». Buyurur: «De». Mərvan deyir:« Yezidə beyət edib, onun hakimiyyətini qəbul etməyin məsləhətdir». İmam Hüseyn (ə) «bu mənim xeyrimə olmayacaqdır» deməyir, bəlkə buyurur: «Yezid kimi çoban ümmətə hakim olarsa, onda gərək İslamın fatihəsini oxuyaq».

## DÖRDÜCÜ FƏSİL

### *İFRAT VƏ TƏFRİTLƏR*

«**[Ey müsəlmanlar!] Beləliklə də, sizi orta [ədalətli və seçilmiş] bir ümmət etdik ki, insanların əməllərinə [qiyamətdə] şahid olasınız, Peyğəmbər də [Məhəmməd əleyhissəlam da] sizə şahid olsun**»[7].

Müqəddəs İslam dininin ən böyük xüsusiyyətlərindən biri də, onun (...) olmasıdır. Qurani-kərim özü müsəlman ümmətini orta [ədalətli və seçilmiş] bir ümmət adlandırmışdır və bu, olduqca qəribə və çox gözəl bir ibarətdir. Elə bir ümmət ki, sözün əsl mənasında Quran tərbiyəsi görmüş, ifrat və (...) yol verməz müxtəlif cinahlara yönəlməkdən daim çəkinərlər. Quran təlim-tərbiyəsi daim (...) tələb edir. Kitabın bu fəslində haqqında söhbət açdığımız mövzuda, yəni zamanın tələbləri ilə ayaqlaşmaq mövzusunda həm ifrati, həm (...), həm də fikir və düşüncə tərzi mövcuddur. İslam aləmindəki bəzi ideoloji cərəyanlar da ya məhz ifrati və ya (...) yönümdən meydana gəlmişdir. Mən bu ifratçı cərəyanların adını cəhalət, təfritçilərin? adını isə hərəkətsizlik qoyuram. Bu barədə bir qədər sonra ətraflı izahat verəcəyik.

Bu günlər dini hökmlərdə ziyalı və geniş dünya görüşlü adlandırdığımız, özünün tərzi-təfəkkür və dünyagörüşündə ifrata varmış şəxslərdən biri də, II xəlifə olmuşdur. O, bir çox məsələlərə, necə deyərlər həddindən artıq ziyalçıcasına baxır və bir çox hallarda ifrata belə varırdı. Məsələn, Peyğəmbər (s) hər hansı bir məsələdə hökm verir, xəlifə isə bunu zamanın tələbatına cavab vermədiyini bildirərək asanlıqla, hökmü əvəz edirdi. Bəlkə də, kimsə bunu xəlifənin bilərəkdən dinə zərbə vurmaq və Peyğəmbər (s)-la düşmənçilik etmək məqsədilə həyata keçirdiyini hesab etsin. Lakin xəlifənin tərəfdarlarının narazılığına səbəb olmasın deyə, bütün bunları onun siyasət və dövləti idarə etmə üsulunda səhvə yol verməsi adlandıra bilərik. Azanı götürək. Azanın necə verilməsi Peyğəmbər (s)-ın özü tərəfindən təyin olunmuşdur. Bildiyimiz kimi (Həyyə əla xeyril əməl – yəni xeyirli olan əmələ [namaza] tələsin) cümləsi azanın bir hissəsini təşkil etmişdir. Lakin Ömərin xilafət dövrü gəlib çatır. Elə bir dövr ki, İslam dünyası cihada digər dövrlərdən daha çox ehtiyac duymağa başlamışdır. Elə bir dövr ki, İslam dünyası özünün qarşısında iki böyük cəbhə ilə qarşılaşır. Bu qüdrətli ölkələrdən biri İran [Bizans], digəri isə Rum imperatorluğu idi. Müsəlmanların sayı qırx və ya əlli mindən artıq olmasına baxmayaraq, eyni zamanda bütün dünyaya müharibə elan edir. Bu, hər hansı bir ölkənin, hal-hazırda dünyanın iki qüdrətli ölkəsi olan ABŞ və Rusiyaya qarşı müharibə elan etməsinə bənzəyir. Bunun üçün də bir çox Avropa alimləri etiraf edirlər

[7] «Bəqərə» surəsi, ayə 3

ki, əgər müsəlmanlar güclü imana malik olmasaydılar, bu qeyri-mümkün olardı. Necə olursa olsun, bu bir növ möcüzədir, lakin iman möcüzəsi. O dövrdə müsəlmanlar çoxsaylı və güclü iradəyə malik olan orduya ehtiyac duyurdu və yaranmış şəraitdə cihad müsəlmanlar üçün vacib və zəruri məsələlərdən biri idi.

Xəlifənin zehninə yeni bir fikir gəlir. «Həyya əla xeyril əməl» cümləsinin azadan çıxarılmasını əmr edir. Verdiyi hökmü belə izah edir: «Namaz əməllərin ən xeyirlisi olduğu üçün azanda «Həyyə əla xəyril əməl» nidasını verdikdə, onlar namazın cihaddan üstün olduğunu güman edib, namaz haqda düşünəcək və döyüş meydanına getməkdən çəkinəcəklər». Bu səbəbdən də «Həyyə əla xəyril əməl» nidasını «Əssəlatu xəyrun minənnəum – namaz yatmaqdan xeyirlidir» nidası ilə əvəz etməsini əmr edir. Xəlifə bunu zamanın tələbi hesab edirdi.

Belə bir hökm çıxarmaq düzgün idimi? Xeyr! Tamamilə səhv və düşünülməmiş bir hökm idi. Xəlifədən soruşmaq lazım idi ki, ixtiyarında olan az saylı və az təchiz olunmuş ordu dünyanın iki qüdrətli ölkəsi ilə necə mübarizə aparıb onları məğlub edə bilərdi? Bu digər millətlərdən fərqli olan ərəb millətinə xas olan bir xislət olmuşdurmu? Əgər bu ərəb millətinə xas olan bir xislət idisə, - qeyd edək ki, ərəb milləti heç də yeni meydana gəlməmiş, bəlkə neçə min illik tarixə malik olmuşdur - nə üçün İslam zühur edənədək daim zərər çəkirdi? Deməк, yeni bir amil meydana gəlmişdir. O da, Allaha olan imandır. Güc, qüdrət və şücaəti müsəlmanlara bəxş edən, onların Allaha olan imanı olmuşdur. İmanı gücləndirən məhz namazdır. Onlar şücaəti «Allahu Əkbər» «Əlhəmdu Lillah» və «Subhanəllah» nidalarından almışlar.

Peyğəmbər (s) «namaz dinin sütunudur» deməklə, namazın əhəmiyyətini dərk etdiyi üçün onu xeymənin dirəklərinə bənzətmişdir. Bilirdi ki, namaz insanların ruhiyyəsinə böyük təsir göstərir. Namaz olmazsa, heç nədən söhbət etmək olmaz. Əgər xəlifə əsgərlərin namazı cihaddan üstün tutub döyüş meydanına getməməsindən qorxurdusa, hökmü dəyişmək əvəzinə, bu yalnış fikrin onun fikrindən çıxarmağa çalışmalı idi. O həm namazın, həm də cihadın əhəmiyyətini öz əsgərlərinə başa salmalı, nə namazın cihadı, nə də cihadın namazı qüvvədən salmadığını izah etməli idi. Əsgərlərə, namaz və cihaddan birini seçmək əvəzinə, ruha qida verən namazla imanlarını daha da gücləndirib, döyüş meydanına atılaraq, düşmənlərlə mübarizə etmə fikrini aşılamala idi. Çünki əsgərin namazla cihaddan birini seçməsi, onun meyvə almasına bənzəyir. O öz-özünə fikirləşir: «Görəsən armud alım, ya yemiş. Gördükdə ki, yemiş almaq ona daha sərfəli olacaq, armud almaqdan çəkinib, yemiş almaq qərarına gəlir. {münasib olan misalla əvəz et}Namaz və cihada gəldikdə isə, belə düşünmək olmaz. Namaz və cihad bir-birindən ayrılmaz iki ilahi hökmdir. İslam namaz qıl, cihad etmə və ya cihad et, lakin namaz qılma demir. İslam, namaz qıl ki, cihad edəsən, cihad et ki, namaz qıla biləsən deyir.

Demək, əsgər səhvə yol verdikdə, hər şeydən əvvəl onun səhvlərini aradan qaldırmaq lazımdır.

Bəzi varlı şəxslər deyirlər: «Bizim ki, pulumuz var, namaz qılmaz əvəzinə pul veririk və bununla, üzərimizə düşən vəzifə götürülmüş olur!». Məgər bu mümkündürmü? İslam namazdan ayrı olan sədəqəni əsla qəbul etmir. Bunun əksini fərz edək, pulpərəst bir şəxs deyir: «Sədəqə vermək əvəzinə, 17 rükət vacib namazla yanaşı, əlavə olaraq 51 rükət və buna da əlavə olaraq 102 rükət namaz qılacağam. Məsələn, başqalarının qəza namazlarını qılacaq, lakin kimsəyə sədəqə verməyəcəyəm». İslam bunu qəbul edirmi? Xeyr. Deməк, insanlara başa salmaq lazımdır ki, İslam dininin müqəddəs təlimləri bədən üzvləri tək biri-birindən ayrılmazdılar. Namaz öz yerində, həcc öz yerində, xüms-zəkat öz yerində. Onların hər birinin tutduqları mövqeiyyəti olduğu kimi tanımaq lazımdır.

Namaz barədə «Həyyə əla xəyril əməl» nidasını verən şəxs bunu deməzdən əvvəl, hər tərəfli onun əhəmiyyətini dərk etmişdir. Əgər əsgərlərin dünya ilə qarşı-qarşıya durublarsa, yenə də namazı «Həyyə əla xəyril əməl» – xeyirli olan əmələ [namaza] tələsin» nidası ilə yad etmək lazımdır.

## *İFRATÇILIQ VƏ YA CƏHALƏT*

Zamanın tələbləri ilə belə bir ayaqlaşmanı biz cəhalət və ya ifratçılıq adlandıra bilərik. Çünki bütün bunlar nöqsan və çatışmamazlıqlardan irəli gəlir.

Kimliyi bizə bəlli olmayan Həbib Burqibə hər il bir dəfə oruc tutanlara qarşı çıxaraq deyir: «Oruc tutmayın! Oruc tutmaqla fəhlələr zəifləyir, işdən soyuyurlar». Əlbəttə buna dini don da geyindirib deyirlər: «İslam iş və zəhmətə böyük əhəmiyyət verdiyi üçün insan onu işdən soyudan bütün şeylərdən uzaq olmağa çalışmalıdır. Əksinə, insana qüvvət verən yemək və içməklərdən istifadə etməli və beləliklə, daha çox fəaliyyət göstərməlidir».

Deməк, fəhlə mümkün qədər çox işləmək və fəaliyyət göstərmək üçün oruc tutmamalı və gün ərzində bir neçə şüşə şərab içməlidir.

Vəlid ibni Əbdülməlik və ya Vəlid ibni Yəzid ibni Əbdülməlik günlərin bir günündə sübh namazında pişnamaz durmaq üçün məst halında məscidə gəlir. Sübh namazını iki rükət qılmaq əvəzinə dörd rükət qılır. Arxada duran möminlər də çarəsizlikdən sübh namazını dörd rükət qılırlar. Namazı qılıb qurtardıqdan sonra üzünü camaata tutub deyir: «Bu gün özümü başqa vaxtlardan daha yaxşı hiss edirəm, əgər istəyirsinizsə sizin üçün bir az da namaz qılım«.

Həbib Burqibinin səhvi haradadır? O, insanı daim hərəkətdə olan maşın hesab edir. Belə ki, ondan nə qədər çox mümkündürsə bəhrələnməli və şəxsi mənafe naminə istifadə olunmalıdır. Oruc isə onun dediyi kimi, fəaliyyətinə maneəçilik törətdiyi üçün tutmamalıdır. O, bu həqiqəti dərk etməmişdir ki, həqiqi oruc tutan şəxsin gördüyü iş və çəkdiyi zəhmət, başqalarından on dəfə

çoxdur. Oruc bəşər ruhunun mənəvi qidasıdır. Bizlərdən hər birimiz hazırda gün ərzində nə zaman və nə qədər qida məhsullarından istifadə edəcəyimizi əvvəlcədən müəyyən etdiyimiz bir şəraitdə yaşayırıq. Belə ki, cəmi bir gün bu sistem pozularsa, gördüyümüz bütün fiziki işlərdə çətinliklərlə qarşılaşmalı oluruq. Bəşərin dəyişilməz qanunu da budurmu? Xeyr! Tərtib etdiyimiz və hal-hazırda onun əsasında yaşadığımız həyat tərzi bizi nəfsimizin köləsinə çevirmişdir. Lakin əgər insan öz həyat tərzini dəyişib, özünü yediyinin yarısına adət etdirsə, gündəlik fəaliyyətini iki dəfə artıra bilər. Belə ki, insan vərdiş etməklə,gün ərzində iki badam ləpəsi yeyib bir kilo yemək yeyən şəxsin gördüyü işləri yerinə yetirə bilər. Bəli, əgər insan öz həyat tərzini dəyişərsə, başqa bir əhval ruhiyyə tapmış olur.

Bir vaxtlar bir çox qəzet və jurnallar on iki il bir dəfəyə olaraq ayaq üstə durub və bu müddət ərzində yatmayan buda barədə ardı-arası kəsilməyən məlumatlar verirdilər. Həmin şəxs on iki ildən sonra özlərinin dedikləri kimi, ruhi paklıq mərhələsinə son qoyub, oturdu. Bu münasibətlə Hindistanda böyük bayram keçirildi və həkimlər həmin şəxsi müayinə etdikdən sonra hamılıqla tam sağlam olduğunu bildirdilər. Bu bir daha bunu sübuta yetirir ki, insan öz həyat tərzini və yaşadığı şəraiti dəyişməklə, tam fərqli hala düşür və özündə böyük dəyişikliklər hiss etməyə başlayır. Əlbəttə, bütün bunlar istisna hallarda baş vermiş nailiyyətlərdir və biz bunu sadəcə olaraq insanın nəyə qadir olduğunu göstərmək üçün misal çəkdik.

## *ƏLİ (Ə)-IN KƏLAMI*

Bir anlıq Əli (ə)-ın həyat tərzinə nəzər salaq. O, Osman ibni Hənifə göndərdiyi məktubda yazır: «Sizin rəhbəriniz (özünü nəzərdə tutur) yaşadığı dünyada iki tikə çörək və iki dəst paltar ilə kifayətlənirdi». Camaatın «əgər Əlinin yeməyi yalnız bundan ibarət olsaydı, zəifləyər nə ayaq üstə dura bilər, nə də döyüş meydanlarında düşmənlərin üzərində zəfər çala bilərdi» deməlerinə Əli (ə) belə cavab verir: «Səhviniz var, bu təbiətin qanunudur. Vərdiş halını alan adətlər isə, təbii qanunların əksinədir. Səhra bitkiləri möhkəm, abu-havası mülayim olan məntəqələrin bitkiləri isə zərif olar. Vəhşi bitkilərin acısı isə olduqca çox və davamlı olur. İstər bitki, istər heyvan, istərsə də insan nə qədər çox qayğı görərsə, bir o qədər zərif və gücsüz olur. Az qayğı göstərilib öz çətinlikləri ilə qarşı-qarşıya qaldıqda isə, daha bacarıqlı və qüdrətli olur. Dağ, səhra və meşələrdə bitən ağacları ev şəraitində bitən bağbanların əzab-əziyyətlə yetişdirdikləri ağaclarla müqayisə edin. İnsan da belədir. Heç də belə deyildir ki, insan gün ərzində üç dəfə yemək yeməsə, zəifləyib xəstələnəcəkdir. Həyatın ağrısını-acısını dadmaq üçün onu çətinliklərini həll etməkdə sərbəst buraxın. Bu tarixi həqiqətdir, həqiqi və danılmaz tarix. {Niqtin harada bitdiyinə diqqət et}

Süffeyn, Cəməl və Xəvaric döyüşləri Əli (ə)-ın zamanında baş verir. O zaman Əli (ə)-ın 60 yaşı var idi. Nə qədər qüdrətli olsaq da qırx yaşına

çatdıqda, ondan əl çəkməli oluruq. Əlli yaşına çatdıqda, özümüzdə qocalıq və süstlük hiss edirik. Əli (ə) necə? O, özündə 30 yaşı və 60 yaşı arasında heç bir fərq görmür. Cavan yaşlarında Əmr ibni Əbdu Vəd kimi basılmaz pəhləvan ilə döyüşürdüsə, 60 yaşında Kəriz ibni Səbah kimi cəngavər ilə mübarizə aparırdı. Əli (ə)-ı istisna bir şəxsiyyət hesab etməyin. Bütün təqva sahibləri belədirlər. Süffeyn döyüşündə fədakarlıq göstərən Malik Əştərin təqribən 60 yaşı var idi. Cəməl döyüşündə həmin Malik Əştər, cavan və olduqca cəngavər Abdulla ibni Zubeyr ilə qarşı-qarşıya durur. Qılınc və qalxanla bir-birinə qalib gələcəyini görə bilməyib əlbəyaxa döyüşə atılırlar. Malik əlbəyaxa döyüşdə Abdullaha qalib gəlir. Abdulla özünün məğlub olduğunu görüb uca səslə deyir: «Məni də öldürün Maliki də! Nəhayət onları bir-birlərindən ayırırlar. Cəməl döyüşü başa çatır və bu əhvalatdan bir müddət keçir. Günlərin bir günündə Malik, Abdulla ilə xala qızı olan Aişə ilə qarşılaşır. Aişə gileylənərək Malikə deyir: «Döyüşdə bacım oğluna çox əziyyət etmisən». Malik and içir ki, döyüşdən əvvəl üç gün heç bir şey yeməmişdir. (Onlara ar gələn şeylərdən biri də bu idi ki, döyüşdə qətlə yetirildikdə düşmən qarınlarını yardıqda, qarınlarından ifrazat xaric olmasın, bunun üçün də mümkün qədər az yemək yeyirdilər). Malik sonra deyir: «Əgər mən bir şey yemiş olsaydım, bacın oğlu canını əlimdən qurtara bilməzdi».

Xəndək döyüşündə müsəlmanlar aclıqdan qarınlarına daş bağlayıb mərd-mərdanə döyüşürdülər. Bütün bunlar yaradılış və təbiət qanunundan xaric deyildir. Ümumiyyətlə, oruc tutmağın fəlsəfəsinin biri də, insanın özünü çətinliklərə adət etdirməsidir. Ramazan ayının ilk günləri adət etdiyimiz şəraitdən xaric olmaq üçün adətən bizlərə bir qədər çətin gəlir. Bu günlər başqa günlərdən fərqli olaraq, bir qədər zəif və halsız oluruq. Lakin Ramazan ayının son günləri oruc tutmadığımız günlərlə səhhətimizdə heç bir dəyişiklik hiss etməyirik.

Bəzən hər hansı bir məsələyə dair səhv və yalnış təsəvvürə qapılaraq, insanlardan bəziləri oruc tutmayan şəxslərin üzrlərini qəbul etməyib deyirlər: «Xəstəliyi bəhanə edib oruc tutmaqdan boyun qaçırırlar. Oruc tutmadıqları üçün zəifləyir, zəiflədikdə isə, bunu oruc tutmamalarına bəhanə gətirirlər».

«Oruc tutmaq insanı zəiflədir» deyənlər doğrudan da böyük səhvə yol verirlər. Məgər bəşər yalnız iş görməlidirmi? Məgər bəşər istehsal alətidirmi? Məgər o yük daşıyan heyvandırmı? Onun qəlbi yoxdurmu? Məgər bəşərin təqvaya ehtiyacı yoxdurmu? Məgər bəşərin ehtiyac duyduğu şey yalnız işdirmi? Onun digər insani ehtiyacları yoxdurmu? Onun mənəvi saflığa, şəhvətinə güc gəlməyə, özünün əqlani və insani iradəsini gücləndirməyə ehtiyacı yoxdurmu? Hər şeyə iş və fiziki fəaliyyət gözü ilə baxmalıyıqmı?! Hüquq mühafizə orqanlarından soruşun görün ki, Ramazan ayında cinayətlərin sayı nə qədər azalır! Görün oğurluğun, qarət, qətl və digər bədbəxt hadisələrin sayı nə qədər azalır! Bu müqəddəs ayda insanın xeyirxah işləri nə qədər çoxalır. İnsanlar nə qədər mənən saflaşırlar, ehsan edənlərin,

sədəqə verənlərin, qohumlar arasında səmimi münasibətlərin sayı nə qədər artır!

Biz bunları da nəzər almalı və hər şeyin işdən ibarət olduğunu hesab etməməliyik. Adını ifrat və cəhalət qoyduğumuz və qarşısını almalı olduğumuz şeylər də, məhz bunlardan ibarətdir.

Buradan məlum olur ki, bütün bunları zamanın tələbi adlandıran və «əgər Peyğəmbər (s)-in zamanında camaat oruc tuturdusa, bu o dövrün fiziki fəaliyyətlərin az olduğundan irəli gəlirdi, yaşadığımız əsrdə isə ehtiyaclar çoxaldığı üçün zamanın tələbləri ilə ayaqlaşmaq lazımdır, elə isə orucluq məsələsini aradan götürmək lazımdır» - deyənlər açıq-aşkar ifrat və cəhalətə düçar olmuşlar.

## *TƏFRİTƏ VARMAQ VƏ YA DONUŞLUQ*

Təfritçilər (...) öz həyatında bunun tam əksini tətbiq edirlər. Onlar İslamın müvafiq olmadığı məsələlərə təkid edir və ondan əl çəkməyə əsla razı olmurlar. Bunun təhlükəsi cəhalətdən heç də az deyildir.

Din daim orta yolun tərəfdarıdır. Zamanın tələbləri ilə ayaqlaşma məsələsində xəlifə və Burqibə kimi dində istənilən dəyişikliklər aparmamalı, dinlə heç bir bağlılığı olmayan məsələləri onunla əlaqələndirməməliyik. Məsələn, iki ayağımızı bir başmağa dirəyib təkidlə deyək ki, əgər uşaq dərs oxumaq istəyirsə, hökmən ilk təhsilini «Əmmə cüz» (Quranın sonuncu otuzuncu hissəsi)-dən başlamalıdır. Məgər bunu bizlərə Peyğəmbər (s) və ya İmamlar tövsiyə edibmi? Xeyr! Belə bir üsul müsbət nəticə verməməklə yanaşı, Qurana qarşı da hörmətsizlik belə ola bilər. Özümüz oxuyub başqalarından da görmüşük ki, təmizliyin nə olduğunu bilməyən uşaqlar, Əmmə cüzi oxuduqları müddət ərzində onun səliqəsindən istifadə edərək, yararsız vəziyyətə salırlar. Bununla yanaşı Əmmə cüz kənara qoyulmaqla, uşaqların Qurandan uzaq düşmələri bəhanə olmamalıdır. Şagirdin on illik məktəb təhsilini Qurana yiyələnmədən başa vurması onun cəhalət və fəaliyyətsizliyindən xəbər verir.

İmamın tövsiyə etdiyi orta yolunu tutun və nə ifratçı olun, nə də təfritçi (...?).

Əli (ə) bu barədə buyurur: «Məqsədə çatmaq üçün sağ və sol tərəfə yönəlmədən düz yolu tutun. Daim düz yolun yolçusu olun. İlahi! Bizə düz yolu göstər»[8].

[8] Nəhcül-bəlağə, 16-cı xütbə

## BEŞİNCİ FƏSİL

### *ORTA YOL*

**«[Ey müsəlmanlar!] Beləliklə də, sizi orta [ədalətli və seçilmiş] bir ümmət etdik ki, insanların əməllərinə [qiyamətdə] şahid olasınız, Peyğəmbər də [Məhəmməd əleyhissəlam da] sizə şahid olsun»**[9].

Müsəlmançılığın ən bariz əlamətlərindən biri də, ifrat və təfritçilikdən uzqa olub, orta yolu tanımaqdır. Nəql olunmuş rəvayətlərdən birində deyilir: «Bütün nəsillərin orta yolu seçmiş təbəqəsi olur. Onlar bir tərəfdən ifratçıların qarşısını alır, digər tərəfdən də dinlə müxalif olan batil əqidəli insanların uydurmalarını rədd edirlər. Başqa sözlə desək, həm dostların, həm də düşmənlərin zərərlərinin qarşısını alırlar. Zərər heç də hər zaman düşmən tərəfindən dəymir. Bəzən dost tərəfindən dəyən zərərin qorxusu, düşmənin zərərindən daha təhlükəli olur».

Zamanın tələbləri ilə ayaqlaşmaq baxımından orta yolu tapmaq üçün biz burada söhbətimizi hər yönümün yəni, həm düşmənin ifratçı, həm də dostların təfritçi istiqaməti haqda davam edirik.

Bir qədər əvvəl qeyd etdik ki, İslam tarixində zamanın tələbləri ilə ayaqlaşma mövzusunda daim iki müxalif cərəyan mövcud olmuşdur. Onlardan biri dini məsələlərdə əsassız dəyişliklər aparan ifratçılar, digəri isə İslam ruhiyyəsi ilə tam zidiyyətlilik təşkil edən heç bir fəaliyyəti olmayan donmuş bir cərəyandır. Hər iki cərəyan İslam dininə böyük zərər vurmuşlar. Əlbəttə, ifrat və təfritə varmayan üçüncü orta yolu tutmuş cərəyan da olmuşdur. Lakin onlar barədə söhbət açmazdan hər iki cərəyanı yaxşıca tanımalıyıq.

Bir qədər əvvəl dini məsələlərdə dəyişiklik aparılması barədə iki misala işarə etdik. Adətən bunun adı ictihad qoyulur, lakin atılan belə bir addım əslində ictihad deyil, cəhalətdir. Qeyd etdiyimiz kimi, «ictihadlardan» biri II xəlifə tərəfindən azanda, digəri isə qərib ölkələrindən birinin rəhbəri tərəfindən oruculuq hökminə dair irəli sürülmüşürdür. Misal olaraq bir neçə mətləbə də işarə etməyi məqsədə uyğun hesab edirik.

### *BAŞQA BİR MİSAL: DONUZ ƏTİNİN HARAM OLMASI*

Daha çox verilən suallardan biri də, donuz ətinin haram olmasına aiddir. Bu barədə sual verən şəxslər ilk növbədə hökmün olduqca həkimanə olduğunu etiraf edərək deyirlər: «O zaman insanlar donuz ətində «tərişin» adlı mövcud olan mikrobun nədən ibarət və nə qədər təhlükəli olduğunu bilmirdilər. Elm aşağı səviyyədə olduğundan insanların mikrob və mikrobla

---

[9] «Bəqərə» surəsi, ayə 143

mübarizə ilə heç bir tanışlıqları yox idi. Lakin Allah-təala vəhy yolu ilə Peyğəmbər (s)-ı bundan agah və insanlarlara donuz ətini yeməyi haram etmişdir. Donuz ətinin haram olmasının əsas səbəbi, onda bəzi mikrobların mövcud olmasıdır». Lakin bu günlər elmdə olunan bir çox kəşf və ixtiralar nəticəsində donuz ətinin nə üçün zərərli olduğu aşkara çıxarılmış, eyni zamanda onunla mübarizə üsulları da elmə məlum olmuşdur. Demək, donuz ətinin haramlığı bu gün öz əhəmiyyətini itirmişdir və biz donuz ətindən istifadə etməklə, İslam dininin şəri hökmlərinə qarşı çıxmış oluruq. Əgər bu sualı bu gün Peyğəmbər (s)-dən soruşsaydıq, o bizə deyərdi: «O zaman mikrobların məhv olunması üçün heç bir vasitə yox idi. İndiki mikroblara qarşı mübarizə aparılır, donuz ətindən istifadə edə bilərsiniz».{Diqqət et}

Cavab olaraq deyirəm: Dediklərinizlərin bəziləri düz, bəziləri səhv və əsassızdır. İslam dinində bütün hökmlərin dəlil və səbəbi olduğunu deməyiniz tamamilə doğrudur. İslam alimləri belə bir yetgin fikrə əsaslanırlar ki, bütün şəri hökmlərdə müəyyən hikmət vardır. Fiqh və üsul alimləri bu məsələni belə açıqlayırlar: «Bütün şəri hökmlər məsləhət və ya cəmiyyətdə qoyduğu mənfi təsirlər üzündən verilmişdir. Əgər hər hansı bir şeyin haramlığına dair qəti hökm verilmişsə, bunun insanın ya canına (səhhətinə), ya ruhuna, ya ictimai həyatına, ya da onun mənəviyyatına mənfi təsir göstərdiyindən irəli gəlmişdir və insan bu həqiqəti dərk etmək üçün həmin mənfi ünsürün kökünü araşdırmalıdır».

Bir sözlə, hər bir haram hökmün müəyyən dəlil və səbəbləri vardır. Hər bir müsəlman alimi məhz belə bir əqidədədir. Əlbəttə, istisna olaraq Əşəri alimləri bunun tam əksini hesab edirlər. Onlar İslam aləminə böyük zərbə vuran yalnış fikir irəli sürürlər. Tövhidə olan əqidələri naqis olduğu üçün belə bir yalnış fikirlərə əsaslanmışlar ki, Allah-təala hər hansı bir hökmü vermək istərkən onu insanların xeyirinə və ya zərərinə olduğunu nəzərə almayır, çünki Allah bundan daha uca və daha münəzzəhdir. Əgər O, insanlara nəyisə haram və halal etdirsə, bunun heç bir dəlili yoxdur. Lakin elə həmin dövrlərdə bütün bunlar imamlardan soruşulduqda, onlar buna mənfi cavab vermişlər. Onlar qətiyyətlə demişlər: «Allah istər yaradılışda, istərsə də şəri məsələlərdə heç bir hökmü və ya işi səbəbsiz olaraq görmür».

İlahi ədalət Allahın istər yaradılışda, istərsə də şəri hökmlərdə ədalətli olmasını tələb edir. Ədalətinə üsuliddinin bir hissəsini təşkil etməsinə səbəb olan da məhz budur. Adları qalsa da, hal-hazırda İslam dünyasında belə bir əqidəyə əsaslanan bir nəfər də olsun müsəlman tapmaq mümkün deyildir.

İslam dinində nəinsə haram olmasını müəyyən edən dəlil və səbəbi olduğunu deməyiniz də, tamamilə doğrudur. Bunu mən də qəbul edirəm. Məsələn, əgər it haram və ya nəcisdirsə, bu heç də dəlilsiz və səbəbsiz deyildir. Demək itdə insana zərəri olan hansısa mənfi ünsürlər mövcuddur. Əlbəttə, İslamın zühur etdiyi ilk illərdə bütün bunlar kimsəyə deyilmirdi. Fərz edək ki, donuz ətinin haramlığı onda mövcud olan mikroblara görə hər hansı bir alimə və ya müctəhidə əyan olmuş olsun. O, donuz ətinin halal

olmasına dair fitva verəcəkdir. Lakin biz bu hökmü qəbul etməyəcəyik. Çünki müctəhidin elmi məlumatları bundan daha geniş olmalıdır. Belə ki, ola bilsin haram edilən hər hansı bir şey, onlarla mənfi təsir göstərmiş və bizə onlardan yalnız biri məlum olmuş olsun. Məsələn, pensilin ixtira olunduqdan sonra tərkib hissəsi və xəstələrə nə kimi müsbət təsir göstərdiyi elmə məlum olur. Yüzlərlə insan ondan istifadə edir və göstərdiyi müsbət təsirin şahidi olur. Lakin bir neçə il sonra pensilininin elmə gizli qalan zərər və göstərdiyi mənfi təsiri də məlum olur. Demək, elmə nəsə məlum olsa da, nə isə hələ də naməlum qalır. Elə isə müctəhid donuz ətini yalnız onda mövcud olan mikroba görə haram olduğunu necə müəyyən edə bilər?! Əgər qabaqgörmüşlük etdiyini desə, belə olduqda ondan iyirmi ildən sonra yeni bir şeyin kəşf olunmayacağına əmin olduğunu soruşmalı olacağıq.

Məsələn, heyvanlardan bəziləri elə bir xüsusiyyətə malik olar bilərlər ki, onların ətindən istifadə edən şəxslər tədriclə həmin xüsusiyyətlərə yiyələnmiş olsunlar. Bildiyimiz kimi donuzun ən pis xususiyyətlərindən biri də, onun natəmiz olmasıdır. Bununla yanaşı nəql olunmuş rəvayətlərdə donuzun ruhi xüsusiyyətlərindən biri də, onun qeyrətsiz heyvan olduğu göstərilmişdir. Bildiyiniz kimi hər bir heyvan özünəməxsus ruhi xüsusiyyətlərə malikdir. Məsələn, it olduqca vəfalı heyvandır. Belə ki, it ona edilən yaxşılığa heç vaxt göz yummur və çox tez bir zamanda əks-əməl göstərir, lakin pişik heç də belə deyildir. Xoruzu götürək. Qeyrət bu heyvanın ən bariz xüsusiyyətlərindən biridir. Belə bir xüsusiyyətə malik olmayan heyvan isə, məhz donuzdur.

İmam Rza (ə)-dan donuz ətinin haramlılığına dair soruşduqda buyurur: «Ona görə ki, donuzun ətini yemək insanı qeyrətsiz edir».

Avropalıların hal-hazırki dözülməz həyat tərzinə səbəb olan da demək olar ki, məhz budur.

Demək, insan hər hansı bir hökm barədə müəyyən dəlil əldə etdikdə, onu özü üçün əsas tutmamalıdır. Başqa bir misal, kimsə şərabın (əlbəttə şərab bütün dinlərdə haram olmuşdur) yalnız ürək və böyrəklərə zərərli olduğu üçün haram olduğunu hesab edə bilər. Lakin təcrübələr göstərir ki, şərabın az miqdarda istifadə olunması nəinki zərər deyil, əksinə olaraq insanın səhhətinə müsbət təsir göstərir. Demək, şərabdan az miqdarda istifadə olunması halal, çox istifadə olunması isə haramdır. Xeyr! İnsan bu kimi məsələlərdə hökm çıxarmağa tələsməməlidir.

Bəzən deyirlər: «Şərab insanı məst etdiyi üçün haramdır. Lakin şərab bizə heç bir mənfi təsir göstərmir və içdikdə, əsla məst olmuruq. Demək, şərab bizə halal, başqalarına isə haramdır». Xeyr! Bu heç də belə deyildir. Bəlkə də şərabın haramlığına dair bizim bilmədiyimiz yüzlərlə dəlil vardır. Lakin bir şey haram edildikdə, az miqdarı zərərli olmasa belə, insan onu özündən uzaq etməlidir.

## *BAŞQA BİR MİSAL: ƏRƏB DİLİ – İSLAMDA DİNİ HÖKMLƏRİN İCRA VƏ ƏMƏL DİLİ*

Başqa bir misal: I Dünya Müharibəsindən sonra siyasi istismar səbəbləri üzündən milliyyətçilik məsələsini ortaya atdılar. Vilson 14 maddədən ibarət olan yeni plan tərtib etdi. Maddədən biri nasionalist hissini yaşatmaqdan ibarət idi. Bu plan tək müsəlman ölkələri üçün deyil, bəlkə bütün dünya üçün tərtib olunmuşdur. Vilsonun bu planı Aristotelin İskəndərə verdiyi hökmə bənzəyirdi. İskəndər dünyanı fəth etdiyi zaman işğal etdiyi ölkələri necə nəzarət etməyinə dair Aristoteldən öz nəzərini bildirməyini istədi. Aristotel tam qətiyyətlə deyir: «Fəth etdiyin yerlərdə təfriqə sal və oraya hakim ol». Yəni, fəth etdiyin ölkə və şəhərlərin əhalisinin qətlə yetirib, onlardan birini özlərinə hakim et. Onlar daim bir-birlərinə qarşı rəqib olub mübarizə aparacaq və hamılıqla sənə arxalanacaqlar. Belə bir üsulla fəth etdiyin yerləri asanlıqla öz ixtiyarında saxlaya bilərsən.

Belə bir fikir I Dünya Müharibəsindən sonra Vilson tərəfindən meydana atılır və bütün millətlər arasında nasionalist hissi güclənməyə başlayır. Vilson müxtəlif millətlərin vahid hakimiyyət tərəfindən idarə olunan İslam ölkələri haqda belə bir fikir irəli sürür: «Hər bir millətin milli hisslərini oyatmaq və onları nasionalistliyə təhrik etmək lazımdır».

İndiki Türkiyə o zaman Osmanlı imperatorluğu adlanan dünyanın hegamon dövlətlərindən biri idi. Bütün ərəb ölkələri Osmanlı dövlətinə tabe idi. İstismarçı qüvvələr bir tərəfdən ərəb əmirlərində milli hiss yaradaraq, öz millət və irqini müdafiə etməyə, digər tərəfdən də Atatürkü türk dilini yaşatmağa sövq etdilər. Osmanlı dövlətində bir çox şey, o cümlədən əlifba dəyişdirildi. Sonra dinə əl atıb, dinin hər bir şəxsin özünə aid olan işi olduğunu hesab edərək, milli məclisdə din rəsmi olaraq qəbul olunmadı. Nəticədə, Osmanlı kimi qüdrətli bir ölkə kənara çəkilməli oldu. Daha sonra şəri hökmlərə əl ataraq dedilər: «Allahın özünə məxsus olan dili olmadığı bir halda, namazın ərəb dilində qılınmasının nə lüzumu vardır. Allah bizdən namaz qılmağımızı istəmişdir. O hər şeyi bilən və hər şeyə agahdır. Elə isə namazlarımızı öz ana dilimizdə qılaq.

Bütün bunları bir növ tələsgənlik adlandırmaq olar. Əgər hər hansı bir din və məzhəbin özünə məxsus dili olmazsa, davam gətirə bilməyib, tez bir zamanda məhv olub aradan gedəcəkdir. İslamın özünə məxsus dili yoxdur. Yəni, İslam kimsəyə ərəb dilində danışmağı və ya ərəb əlifbası ilə yazmağı vacib etməmişdir. İslam milliyyətpərəstlik və şovinistlik dini deyildir və bu ilahi din kimsəyə məhdudiyyət qoymayır. Lakin müsəlmanlar arasında birlik və vəhdətin bərqərar olunması üçün dini mərasimlərin (əməllərin) ərəb dilində keçirilməsini vacib etmişdir. Ümumiyyətlə bir-birindən fərqli olan müxtəlif millətlərin hər hansı bir məsələdə bir dil ətrafında toplaşmalarını müsbət hal hesab etmək olarmı?

Bəşəriyyətin vəhdət və həmrəyliyi baxımından bunu müsbət hal kimi qəbul etmək olar. Əgər hamıya bir dildə danışmağı əmr etsəydi, bu heç də yaxşı olmazdı. Bəlkə kimsə buna əməl belə etməzdi.

Hər bir millətin özünə məxsus dili və ədəbiyyatı vardır və ədəbiyyat, bəşəriyyətin milli sərvəti hesab olunur. Bütün millətlərin ədəbiyyatına nəzər saldıqda, tək həmin millətin deyil, bütün bəşəriyyətin xeyirinə olan dəyərli ədəbi əsərlərin mövcud olduğunun şahidi oluruq. Azərbaycan ədəbiyyatında «Dədə qorqudu», fars ədəbiyyatında Sədinin «Gülüstanını», ərəb ədəbiyyatında İbni Farizin «Divanını» bəşəriyyətin qiymətli xəzinəsi hesab etmək olar. Quran, Nəhcül-bəlağə, Səhifətu Səccadiyyə də ərəb ədəbiyyatında eyni zamanda yüksək yer tutur. {BAX: Quran sadalanan kitabların müqabilində zəif dəyərləndirilib}

Demək, dünyanın bütün millətlərinin eyni dildə danışmaları qeyri-mümkündür. Lakin müxtəlif millətlərin heç olmasa, etiqad bəslədikləri dində eyni dil ətrafına toplamaq mümkün olar və bu heç də Allahın dilinin ərəb dili olduğu demək deyildir.

Ümumiyyətlə, Allahın heç bir dilə ehtiyacı yoxdur və biz hansı dildə danışaq niyyətimizdən agah və xəbərdardır. Lakin dediyimiz kimi bunun bir fəlsəfəsi vardır və bu fəlsəfəni qoruyub saxlamaq lazımdır. Bu bir növ dardüşüncəlikdir. Əbu Nəvas şerlərinin birində deyir:

Qul lilləzi yuddəi fəlsəfətən həfiztə şəyən və ğabət ənkə əşyau.

Məzmunu: Elm və fəlsəfə iddiası edən şəxsə de ki, bir şeyi öyrənsən də, çox şeyləri unutmusan.

Bunu da qeyd etmək lazımdır ki, heç bir dil başqa bir dili tamamilə əvəz edə bilmir. Belə ki, hər bir dilin özünəməxsus xüsusiyyəti, zərifliyi vardır. Məsələn, ən qabaqcıl ədəbiyyatçı və söz ustaları nə qədər çalışsalar da, Həmd surəsinin məzmununu olduğu kimi çatdırmağa qadir olmayacaqlar. Azərbaycan və fars dillərindən də nə isə tərcümə etmək istədikdə də, həmin çətinliklə qarşılaşacaqdır. Götürək, Xəyyamın əsərini. Tərcüməçilər nə qədər çalışsalar da, onu olduğu kimi başqa dilə çevirə bilmirlər. Özümün yazdığım məqalələrdən birini, yaxın dostlardan biri onu ərəb dilinə tərcümə etmişdi. Tərcüməni oxuduqda, öz yazım olduğunu güman etmədim. Təhqiqatlar göstərir ki, biri başqa birisinə hər hansı bir şey barədə xəbər verdikdə və həmin xəbər digər şəxslər tərəfindən bir-birlərinə ötürüldükdə, öz məna və məfhumunu tamamilə itirmiş olur. Belə ki, ilk dəfə olaraq həmin xəbəri başqa birinə xəbər verən şəxs yenidən həmin xəbəri eşitdikdə, bunun dediklərinə əsla bənzəmədiyinin şahidi olur. Bütün bunlar adi məsələlərdə baş verdiyi bir halda, görün dində nə kimi dəyişikliklər baş verə bilər.

Lakin İslam dininin müsbət xüsusiyyətlərindən biri də, onun əsasını təşkil edən sonuncu ilahi kitabın yəni, Quranın nazil olduğu şəkildə qalmasıdır. Tək Quran deyil, məsum imamlar tərəfindən oxunan dua və münacatlar da, dəyişilmədən olduğu kimi qalmaqdadır. Bizim üzərimizə düşən ən başlıca

vəzifələrdən biri də, onları qoruyub saxlamaqdır. Allahı özünə xas dili olmadığını hesab edib, namazı başqa dildə qılmaq isə, nadanlığın son dərəcəsidir. Dediklərimiz cəhalət və nadanlığın başqa bir nümunəsidir. Adil, haqsevər və hər bir vicdanlı insan, hər şeydən əvvəl bu kimi halların qarşısını almağa çalışmalıdır.

## ALTINCI FƏSİL

### *ƏQL VƏ ORTA YOL*

**«[Ey müsəlmanlar!] Beləliklə də, sizi orta [ədalətli və seçilmiş] bir ümmət etdik ki, insanların əməllərinə [qiyamətdə] şahid olasınız, Peyğəmbər də [Məhəmməd əleyhissəlam da] sizə şahid olsun**»[10].

### *CƏHALƏT ÜÇÜN BAŞQA BİR MİSAL: ƏBU HƏNİFƏNİN QİYASI*

Haqqında söhbət açdığımız mətləb ifrat və təfritçilikdən uzaq olub, Quranın göstərişlərinə əməl etməkdən ibarətdir. Əvvəlki fəsillərdə hər iki ünsürə dəlalət edəcək bir neçə misal çəkdik. Mətləbin daha da işıqlanması üçün bir neçə misal da çəkmək istəyirik. Cahilanə rəftar və əməllər haqda çəkəcəyim bu misal, İslamın zühur etdiyi ilk illərdə Əbu Hənəfi qiyası ilə şöhrət tapmış tərzi-təfəkkürə aiddir. Əhli təsənnün, bu günlər bizim bütün şəri hökmlərdə dini alimlərdən təqlid etdiyimiz məsələlərdə o dövrün Süfyan Suri, Həsən Bəsri və bir çox fiqh alimlərinə müraciət edirlər. Milliyyətcə qeyri-ərəb olan bu alimlərin bir çoxu yüksək elmi dərəcələrə nail olmuşlar. İslamın irq və milliyyəti deyil, insanların iman və təqvasını hər şeydən üstün tutması, müsəlmanların milliyyətcə qeyri-ərəb olan bu alimlərə daha çox sövq etmələrinə səbəb olmuşdur. Bəzən yüksək elmi dərəcəyə çatan şəxslər kölgəlikdən {«köləlik» olma ehtimalına bax} azad olmuş adi şəxslər olurlar. Lakin bütün bunlara baxmayaraq, müsəlmanlar onların təqva və elmi dərəcələrini hər şeydən üstün tutub, şəri məsələlərdə onlara müraciət edirlər.

Günlərin bir günündə, Misir əhalisi Ömər ibni Əbdül Əzizdən şəri məsələlərinə cavab verə biləcək üç ruhani alim istəyirlər. Xəlifə əhalinin istəyini yerinə yetirib onların yanına üç ruhani alim göndərir. Onlardan ikisi azadlığa buraxılmış kölə və yalnız biri milliyyətcə ərəb idi. Əhalidən biri xəlifəyə etiraz edərək deyir: «Nə üçün milliyyətcə ərəb olan alimlərdən göndərmədin? Heç olmasa onlardan ikisi ərəb olaydı«. Xəlifə deyir: «Məndə təqsir yoxdur. Onlar özləri ərəblərin kölələr qədər olmalarını istədilər».

Getdikcə onları sayı artmağa başladı. «Tarix» və «təfsir» sahələrində iki böyük əsər təlif edən Təbəri zəmanəsinin görkəmli fiqh alimlərindən biri idi. Minlərlə insan ona təqlid edir və verdiyi hökmlərə tabe olurdu. Müqəllid* müsəlmanların bir çoxu isə, təqlid etdikləri alimlərin sağ olmasına və ya vəfat etdiyinə əsla əhəmiyyət vermirdilər. Belə ki, onlardan kimə təqlid etdiklərini soruşduqda cavab verərdilər: «Süfyan Suridən, Təbəridən, Əbu Hənifədən»

---

[10] «Bəqərə» surəsi, ayə 143

və s. Bir halda ki, həmin alimlərlə onların arasında üç yüz və ya dörd yüz il fasilə olurdu.

Hicrətin yeddinci əsrində Misirə hakim olan Məlik Zahir – Bəybərs adı ilə də tanınırdı – belə bir fikrə gəlir ki, fiqh elmində yaranmış çoxsaylı şaxələr adi camaatın çətinliklərlə qarşılaşmasına səbəb olur. Bunun üçün də Əbu Hənifə, Şafei, Əhməd İbni Hənbəl və Malik ibni Ənəsdən başqa digər alimlərə təqlid etməyi qadağan edir. Bu dörd alimdən ikisi milliyyətcə ərəb, ikisi isə iranlı idi. Milliyyətcə iranlı olan Əbu Hənifə İraqda yəni, Kufədə sakin idi. Beləliklə, o dövrdən indiyədək Əhli-sünnə bu dörd şəxsə təqlid etməyə başlayır. «Əgər nə vaxtsa hər hansı bir müctəhid fitva vermək istərsə, onlardan birinin rəyi əsasında hökm verməlidir». Məlik Zahirin verdiyi belə bir fərmandan sonra əhli-sünnə məzhəbində ictihad aradan götürülür.

Yuxarıda adları çəkilən alimlərin tərzi-təfəkkürü əsasında bir-birindən fərqli dörd yeni təriqət meydana gəlir.

Məsələn, Əbu Hənifə verdiyi fiqhi fitvalarda əqli dəlillərdə ifrata vararaq, bu barədə nəql olunmuş hədis və rəvayətlərə çox az istinad edir. Hadisələrə müsbət münasibət bəsləmədiyinin əsas səbəbi isə, mötəbər hədislərin az olduğunu hesab etməsi idi. Mötəbər hədislə qarşılaşdıqda isə, hökmən ona əməl edərdi. hədisə xoş münasibət bəsləmədiyi üçün təbii olaraq sənədlərdə çətinliklərlə qarşılaşır və çarəsizlikdən şəri hökmləri bir-biri ilə müqayisə etməklə, əqli dəlillərə istinad edirdi. Qiyas adlanan belə bir yeni üsul ilk dəfə olaraq Əbu Hənifə tərəfindən meydana gəlir və sakin olduğu şəhərdə yəni, Kufədə öz davamçılarına təlim etməyə başlayır.

Mədinədə sakin olan Malik ibni Ənəs, Əbu Hənifə ilə eyni zamanda yaşamış, lakin onun qiyas üsuluna müsbət münasibət bəsləməmişirdi. Ənəs ömrünün sonunadək yalnız iki dəfə qiyas yolu ilə fitva verir. Ölüm ayağında olarkən şagirdləri onu iztirab içində olduğunu görüb, bunun səbəbini soruşurlar. Cavab verir: «Bu vaxtadək yalnız iki dəfə qiyas yolu ilə fitva vermişəm». Əbu Hənifənin əksinə olaraq, Ənəs nəql olunmuş hədislərə istinad edir, hədis tapmadıqda Peyğəmbər (s)-ın sünnətinə, bunu da tapmadıqda, səhabənin sünnətinə, bunu da əldə etməkdikdə isə səhabələrin davamçıları olan tabeinin sünnətinə istinad edərdi. «Əlmuvətta» Ənəs ibni Malikin təlif etdiyi hədis məcmuələrindən biridir. Həm Əbu Hənifə, həm də Malik ibni Ənəs, imam Sadiq (ə)-la eyni zamanda yaşamışlar. Malik Mədinədə sakin olduğu üçün imam Sadiq (ə)-ın elmi məclislərindən daha çox bəhrələnə bilirdi. Malik ibni Ənəs, imam Sadiq (ə)-a çox ehtiram edər və onun haqda bu sözləri deyərdi: «Mən Cəfər ibni Məhəmməddən daha fəzilətli və daha şərəfli ikinci bir şəxs görmədim».

Malik başqa bir yerdə deyir: «Vaxtaşrı Cəfər ibni Məhəmmədin yanına gedərdim. O mənə daim hörmət və ehtiramla yanaşar, söykənmək üçün yumşaq mitəkkələr verərdi və mən onun belə bir səmimi davranışından çox sevinərdim».

Zeydin nəql etdiyi bu hədisi yəqin ki, çoxlarınız eşidib. Malik deyir: «Bir dəfə Məkkəyə İmamın yanına getməli olduq. Məscid Şəcərəyə yaxınlaşdıqda, öz ehramlarımızı bağladıq. İmam ehramını bağlayıb «ləbbeyk» demək istədikdə rəngi qaçdı. Nəsə demək istəyirdi, lakin sanki dili tutulmuşdu. Qorxu o qədər onun canını bürümüşdü ki, az qalırdı ki, atından yerə düşsün. Ona yaxınlaşdıqda başa düşdüm ki, bu Allah qorxusudur. Dedim: «Ağa! Əvvəl-axır bir təhərə «ləbbeyk» deməlisiniz». Dedi: «Nə deyirsən?! Allahın çağırışını eşidib əməli olaraq Ona cavab vermək özü ləbbeyk deməkdir. Əgər mənə «La ləbbeyk» cavabı verilərsə onda mən nə edərəm?!».

Dörd alimdən biri də Şafei olmuşdur. Şafei bir nəsil sonra, yəni Əbu Hənifənin şagirdinin şagirdi olmuşdur. Deyilənlərə görə, Şafeinin müəllimi Əbu Yusif olmuşdur. Şafei sonralar bir müddət Malikdən də dərs almışdır. O, adətən orta mövqe tutardı, yəni nə Əbu Hənifə kimi daim qiyas edər, nə də Malik kimi qiyasla müxalifət edərdi. Təhsilini bitirdikdən sonra Misirə gedir və oranın camaatı onu rəğbətlə qarşılayıb, fitvalarına əməl etməyə başlayırlar. Beləliklə, Misir əhalisi şafei məzhəbinin davamçılarına çevrilirlər.

İki nəsi sonra Əhməd ibni Hənbəl meydana gəlir. O, imam Hadi (ə) ilə eyni zamanda yaşamışdır. Yazdığı «Musnəd» adlı kitabı sonralar çap olunmuşdur. Davamçılarının əksəriyyətini vəhhabilər təşkil edir. Əhməd ibni Hənbəl, Malik ibni Ənəsə qarşı müxalifət mövqe tutmuş və bir çox hallarda qiyas və istidlala üstünlük vermişdir. Bir alim kimi olduqca təəssübkeş, yazdığı fiqhi məcmuəsi isə bir o qədər də geniş olmamışdır. Dustaq olduğu illərdə verilən əzab və işgəncələrə baxmayaraq, öz əqidəsindən [Quranın məxluq olmasından, yaradılmış olduğundan] əl çəkməmişdir. Sonralar hakimiyyət dəyişdikdə, azadlığa buraxılıb camaatın rəğbətini qazanır. Belə ki, onu dəfn mərasimində səkkiz yüz min nəfərin iştirak etdiyi göstərilir. Əhməd ibni Hənbəl tək Əbu Hənifədə bir müddət xəlifələrin dustağına çevrilmişdir. Unutmamalıyıq ki, İslamın tərbiyə etdiyi bu cür cəsur şəxslər heç vaxt xəlifələrin istəklərinə uyğun fitva verməmişlər. Məsələn, Əhməd ibni Hənbəli Abbasilərin qanuni xilafət olduğuna fitva verməsinə vadar etdikdə, o verilən işgəncələrə baxmayaraq, buna razı olmayıb deyir: «Camaat sizdən əvvəl Bəni-həsənlə beyət etdi və bu beyət düzgün və qanuni olduğu üçün Bəni-Abbasa beyət etmək tamamilə səhv və əsassızdır». Malik ibni Ənəs də həmçinin əzab və işgəncələrə baxmayaraq, öz fitvasını geri götürməmişdir.

Əhməd ibni Hənbəl, əql və istidlala böyük üstünlük verər, Əbu Hənifənin əksinə olaraq, qiyasa heç bir haqq verməzdi. Əbu Hənifənin qiyas üsulunu, onun dini məsələlərə dair irəli sürdüyü bir növ şəxsi nəzərlər hesab etmək olar. Əhməd Əmin «Zuhəyul İslam» adlı kitabında Əbu Hənifə barədə belə bir əhvalat nəql edir: «Günlərin bir günündə Əbu Hənifə saç-saqqalını azaltmaq üçün dəlləyə gedir (təbii ki, cavan qadını olan bir şəxs saqqalında ağ tükün olmasını istəməz). Dəlləyə deyir: «Üzümdə nə qədər ağ tük varsa, hamısını dart çıxsın» (o belə güman edirdi ki, üzündəki ağ tükləri qoparmaqla, bir daha üzündə ağ tük çıxmayacaqdır). Dəllə deyir: «Əgər

qoparsam, daha çox olacaq». Əbu Hənifə deyir: «Onda qara tükləri qopar». Bu üsuldan istifadə edərək, bir çoxları özlərinə dində bəzi dəyişikliklər aparmağa icazələr vermişlər və əgər sonralar da bu cərəyan davam etmiş olsaydı, dinə böyük zərbə dəyərdi.

Qiyasla müxalif olanlar tək məsum imamlar olmamışlar. Belə bir fikirə nə Malik ibni Ənəs, nə də Şafei razı olmuşlar. Əql ilə tamamilə müxalif olan Əhməd ibni Hənbəl isə dini məsələlərdə əqli dəlillərə istinad edərək, hökm verməyi qətiyyətlə rədd edirdi. Əhli-təsənnünün bu dörd fiqh məktəbi ilə yaxından tanış olan hər bir şəxs, onları Əhli-beyt məktəbi ilə müqayisə etdikdə bu həqiqətin şahidi olacaqdır ki, onlar bu dörd məktəbin heç birini təyid etməmiş və hal-hazırda İslam dünyasının fəxri olan yeni məktəbin əsasını qoymuşlar.

## *MƏSUM İMAMLARIN QİYASLA MÜXALİFƏTÇİLİYİ*

İmamətin zəruriliyinə dəlalət edən dəlillərdən biri də, məhz budur.

İmamlar daim qiyasa qarşı öz etirazlarını bildirmiş və bunun şəriətin məhvinə səbəb olacağını hesab etmişlər. Onlar Əhməd ibni Hənbəl tək qətiyyətlə əqli dəlillərə istinad edərək nəzər irəli sürməklə də müxalif olmamış, əksinə olaraq bu fikri dəstəkləmiş, lakin qiyası əqli üsul hesab etməmişlər. Həmçinin Şafei tək orta yolu seçməmiş və Malik ibni Ənəs tək qiyası qətiyyətlə rədd etməmişlər. Lakin eyni zamanda əqlə üstünlük vermişlər. Əhli-sünnə fiqhinə müraciət edin. Hənəfi alimləri Quranı, sünnəni, icma və qiyası (şəri hökmlərin verilməsində) əsaslı dəlil hesab edirlər. İmamiyyə alimləri isə bunun üçün yalnız Quranı, sünnəni icma və əqli zəruri hesab edir.

Əql deyildikdə, şəri hökmlərin çıxarılmasında iki ilahi dəlildən biri nəzərdə tutulur. İmam bunun izahında buyurur: «Allahın iki dəlili və iki peyğəmbəri vardır; zahiri və batini peyğəmbər. Batini peyğəmbər insanın əql və şüurudur...». {BAX: imamın adı yazılmayıb}

O ki qaldı qiyasa, onu əsla dəlil hesab etmək olmaz. (Yəni əql dəlil, qiyas isə dəlil deyildir.) Bizlərə təklif olunan Əbu Hənifənin qiyas üsulu və onun tam əksinə olan Əhməd ibni Hənbəlin qeyri-fəal ictihad üsulu bundan ibarətdir.

## *AĞILIN HÖKM VƏ QANUNLARI*

Təəssüflər olsun ki, sonralar şiə məzhəbinin içində də «əxbari» adlanan başqa bir cərəyan meydana gəlir. Lakin şəri hökmlərin üzə çıxarılmasında əql ən başlıca yerlərdən birini tutur. Amma əqlin də öz qanunu vardır və biz əql adı ilə bütün şəxsi nəzərləri dəlil hesab edə bilmərik. Məsələn, əql hər-hansı bir işdə yəqinə çatmağı hökm edir. Bunu Quran da təsdiqləyir: **«[Ey insan!]**

**Bilmədiyin bir işin ardınca getmə**»[11], «**Əgər sən yer üzündə onların əksəriyyətinə itaət etsən, onlar səni Allahın yolundan azdırarlar. Onlar ancaq zənnə uyar və ancaq yalan danışarlar**»[12].

Allah, əqli insanın vücudunda belə bir xüsusiyyətlərlə qərar vermişdir və insana yəqinə çatmadan, hər hansı bir işin ardınca getməyi yasaq etmişdir.

Quran 14 əsr əvvəl bu həqiqəti açıq-aşkar tərzdə bəşəriyyətə bəyan etdikdən on əsr sonra Dekart əqlə tabelik qanununu meydana çıxarır. Bütün dünyaya səs salmış bu yeni qanunu araşdırdıqda, Quranın ayələrində xəbər verilənlərdən artıq heç bir şeyin deyilmədiyinin şahidi oluruq.

Dekart deyir: «Əgər ağıl və şüurumdan istifadə etmək istəsəm, ilk növbədə məsələnin tam şəkildə mənim üçün bəlli olub-olmadığına diqqət yetirməliyik. Bəlli olmadıqda, təbii olaraq onu tərk etməliyəm. Təkgənliyə yol verməməli və əsaslı dəlil olmadan, hər hansı bir şey barədə hökm verməməliyəm. Hökm çıxarmaq üçün ilk növbədə əldə olan dəlillərin kifayət edib-etməməsinə diqqət yetirmək lazımdır. Məsələn, Darvin insanın meymun nəslindən olduğunu hesab etmişdir (Əlbəttə, o bu barədə müəyyən dəlillərə əsaslanmışdır). Lakin camaat tələsgənliyə yol verərək, meymunun bəşəriyyətin əcdadı olduğunu kəşf etmişlər. O, dünyada hələ də bir çox düyünlərin açılmadığını hesab edirdi. Materialistlər isə bütün düyünlərin açıldığına və bir-birləri ilə sıx əlaqədə olduqlarını hesab edirdilər. Bütün bunlar tələsgənlikdən savayı bir şey deyildir. Orta yol isə tələsgənliyə yol verməyib və hər şey aşkar çıxmadan fikir irəli sürülməməkdən ibarətdir.

Bu kimi işlərdə batini [nəfsani] istəklərə meyl olunmamalıdır. Çünki insan bəzən ağıl və şüuru ilə qərara gəlmək istədikdə, təbiəti onu başqa bir tərəfə çəkir və özündən xəbərsiz edir. Dekart deyir: «Hər hansı bir qərar gəldikdə, batini [nəfsani] istəklərə diqqət yetirilməlidir». (Əllamə Hillinin su quyusunun nəcis olmasına dair irəli sürdüyü mülahizələr).

İnsanın ağıl və dərrakəsini azdıran və düzgün istiqamətləndirməyən şeylərdən biri də, keçmiş nəslin tutduğu yol və onların adət ənənələridir. Fransis Biken bu barədə deyir: «İnsanın ağıl və dərrakəsini azdıran şeylərdən biri də, əvvəlki nəslin yolunu davam etməsidir». O bunu «büt» adlandıraraq deyir: «Bütün bunları bəşəriyyət üçün bir növ büt hesab etmək olar. İnsanın ağıl və şüurunu azdırıb, ata-analarının gördükləri bəzi əsassız işləri davam etməyə vadar edir. Keçmiş nəslin bəzi mənfi adət-ənənələri insana azad düşünüb-daşınmağa icazə vermir və bu azad düşüncənin qarşısını alır. Quran bu məsələyə xüsusi diqqət yetirir. Bu barədə bəşəriyyətə ilk dəfə xəbər verən kitab, məhz Quranın özüdür.

Qurani-kərimdə peyğəmbərlər və keçmiş ümmətlərin tarixinə nəzər saldıqda, biz daim bir həqiqətlə üzləşirik. O da, peyğəmbərlərə olunan etirazlardır. Olunan etirazlardan biri də bu olmuşdur: «Sən bizi ata-

---

[11] «İsra» surəsi, ayə 36

[12] «Ənam» surəsi, ayə 116

babalarımızın getdiyi yolun əksinə dəvət edir və qoyduqları adət-ənənələrdən əl çəkməyimizi istəyirsən. Ata-babalarımız necə olmuşlarsa, biz də elə olacağıq». Peyğəmbərlər isə onların haqdan uzaq düşdüklərini görüb, bundan çəkindirməyə çalışmışlar.

«**Biz ancaq atalarımızın getdiyi yolla gedəcəyik – deyirlər. Bəs ataları bir şey anlamayıb, doğru yolda deyildilərsə necə? [Yenə də onlara tabe olacaqlar?]**»[13].

Görün, əql nəyi hökm edir. İnsanın haqdan uzaq düşməsinə səbəb olan şeylərdən biri də, onun asılı olduğu və ya təsiri altına düşdüyü şəxslərlə əlaqəlidir. Günahkarları cəhənnəmə sürüklədikdə deyirlər: «**Pərvərdigara! Biz ağalarımıza, böyüklərimizə itaət etdik, onlarsa bizi haqq yoldan azdırdılar**»[14].

Ağalarımız, böyüklərimiz nə deməkdir?! Allah sənə ağılvermiş, haqq yola hidayət edən peyğəmbərlər göndərmişdir.

Bir sözlə, imamların yolunu gedərək orta yolu seçməliyik və əgər bunu edə bilmiriksə, səbəbini öz zəifliyimizdə görməliyik.

İlahi! Bizi Quran maarifi ilə daha yaxından tanış et.

---

[13] «Bəqərə» surəsi, ayə 170

[14] «Əzhab» surəsi, ayə 67

## YEDDİNCİ FƏSİL

# *XƏVARİC*

«**[Ey müsəlmanlar!] Beləliklə də, sizi orta [ədalətli və seçilmiş] bir ümmət etdik ki, insanların əməllərinə [qiyamətdə] şahid olasınız, Peyğəmbər də [Məhəmməd əleyhissəlam da] sizə şahid olsun**»[15].

Bir qədər əvvəl qeyd etdik ki, imamların yolunu davam etməklə həm ifrat, həm də təfritdən yaxa qurtara bilərik. Bunu da qeyd etdik ki, Hənəfi məzhəbi əqli dəlillər, Hənbəli məzhəbi isə bunun tam əksi, yəni qiyas üzərində qurulmuşdur. Onların arasında olan digər iki məzhəbə, yəni Maliki və Şafei məzhəbləri də tam orta mövqe tutmamışlar. Belə ki, onlardan hər biri bəzi xüsusiyyətlərdə bu məzhəblərdən birinə meyl etmişlər.

Burada başqa bir mətləbə də işarə etmək istəyirik. O da bundan ibarətdir ki, İslam dünyasında dini əsaslarda [füruidində] müxtəlif məsələlər meydana gəldiyi kimi üsulidində də bir çox firqə və məsləklər meydana gəlmişdir. İfrat və təfritə varan Mötəzilə və Əşəri adlanan firqələri, meydana gəlmiş yeni məsləklərin ən məşhuru hesab etmək olar.

## *MÖTƏZİLƏ VƏ ƏŞƏRİLƏR*

Mötəzilə, dövrünün ən ziyalı təbəqəsi hesab olunurdu. Onlar ifrata vararaq, yeni fikirlər irəli sürürdülər. Qurani-kərimin surələrindən biri «Cin» adlandırıldığı və həmin surənin 1-ci ayəsində **«[Ya Peyğəmbər!] De: Mənə vəhy olundu ki, bir dəstə cin Quranı dinləyib dedilər...**» deyildiyi bir halda, onlara belə bir varlığın mövcud olmasını qətiyyətlə inkar etmişlər. Onlar tək cini deyil, dərk edə bilmədikləri hər bir şeyi inkar və təkzib etmişlər. Əşəri isə onların tam əksinə olaraq, hər bir şeyin hiss olunası məna və məfhumu olduğunu nəzərdə tuturdular. Məsələn, filankəs gəldi, dedi... və s. dedikdə, kiminsə ayağı ilə gəlməsini deyil, müəyyən fikir və əqidədə olduğunu nəzərdə tuturuq. Onlar o qədər ifrata varmışlar ki, hətta Quranda istifadə olunan bəzi məcazi ifadələrin həqiqi məna daşıdığını hesab etmişlər. Əhməd ibni Hənbəldən (Allah taxtda oturmuşdur) dedikdə, nəyin nəzərdə tutulduğunu soruşduqda deyir: «Bu bizə məlum deyildir və kiminsə bu haqda bir şey soruşmağa haqqı yoxdur. Quran da Allahın taxtda oturmağı haqda xəbər vermir. Lakin taxtın nədən ibarət olduğu və Allahın taxta necə oturması bizə bəlli deyildir. Quranın başqa bir ayəsində Allahın cism olmadığı və bütün varlıqları əhatə etdiyi göstərilir: **«Allah bütün varlıqlarladır.»** Belə olduğu bir halda Allahın necə taxtı ola bilər və Allah

---

[15] «Bəqərə» surəsi, ayə 143

onun üzərində necə otura bilər?!». Əhməd ibni Hənbəl fikrini bu sözlərlə bitirir. Bunun artıq bizə heç bir əlaqəsi yoxdur.

Bu kimi məsələlərlə yanaşı, ifratçı mötəzilənin müqabilində əşəri əksinə olaraq «Allah qiyamət günü gələcəkdir» {Bax: ayənin mənbəyi yoxdur} ayəsini Allahın qiyamət günü adi insan kimi məhşərə gələcəyini mənalandırmışlar. Əgər kimsə «bu insanın ağıl və şüuru ilə ziddir» demiş olsaydı, əşəri qətiyyətlə «ağılın və şüurun bu kimi məsələlərə müdaxilə etməyə heç bir haqqı yoxdur» cavabını verərdilər.

İmamların bu məsələdə təklif etdikləri yol daha məntiqi, ifrat və təfritdən tamamilə uzaqdır.

Burada İslam tarixində meydana gəlmiş və İslama ağır zərbə vurmuş donuq və qeyri-fəal ideoloji cərəyanlar barədə söhbət açmaq istəyirik. İlk dəfə belə bir cərəyan «xəvaric» adı ilə meydana gəlir.

Bir çox günahsız insanları, o cümlədən Əli (ə)-ı qətlə yetirməklə yanaşı, xəvaric digər cinayətlərə əl atmaqla da, İslama ağır zərbələr vurmuşdur.

## *XƏVARİCİN TARİXÇƏSİ*

Bir anlıq xəvaricin tarixçəsinə nəzər salaq: Sonralar xəvaric adlanan bu firqə əvvəllər Əli (ə)-ın yaxın səhabələrindən olmuş və Süffeyn döyüşündə onun ordusunda iştirak etmişlər. Süffeyn döyüşü bir neçə ay davam edir. Bəzən atəşkəs elan olunsa da, tarixçilər bu döyüşün dörd ay davam etdiyini qeyd etmişlər. Döyüşdə Əli (ə)-ın ordusunun qalib gəldiyi anda, Müaviyənin müşaviri Əmr ibni As, Əli (ə)-ın səhabələrinin avamlığından istifadə edərək, hiyləyə əl atır. Əhvalat belə baş verir:

Hər iki qoşun qarşı-qarşıya durur. Əli (ə) Müaviyəyə döyüşdən əl çəkməyi təklif edir. Lakin Müaviyə buna razı olmayıb, qoşuna döyüşə hazırlıq əmrini verir. Döyüş Əli (ə)-ın qoşununun üstünlüyü ilə keçir. Müaviyənin qoşunu darmadağın olduğu son anda Əmr ibni As, Quran vərəqlərini toplayıb onları nizələrə keçirib meydana atılaraq deyir: «Sizinlə bizim aramızdakı Allahın kitabıdır. Yaranmış belə bir vəziyyətdə Əli (ə)-ın qoşununun böyük bir hissəsi bütün döyüş qaydalarına göz yumub, «Quran aramızdadır!» şuarı ilə döyüş meydanını tərk edirlər. Ordunun qalan hissəsinə rəhbərlik edən Malik Əştər bunun hiylə olduğunu başa düşüb, heç bir tədbirə əl atmır. Döyüş başa çatdığı bir anda qoşunun böyük bir hissəsi bu hiyləyə uyaraq, düşmənlə mübarizə aparmaqdan boyun qaçırır. Onlar Əli (ə)-ın yanına gəlib deyirlər: «Malikə əmr et, qoşunu geri çəksin. Aramızda Qurandır». Əli (ə) buyurur: «Bütün bunlar hiylədir. Müaviyə məğlub olduğu üçün bu hiyləyə əl atmışdır. O, nə Quran əhlidir, nə də Qurana etiqadı vardır». Səhabələr onunla razılaşmayıb deyir: «Xeyr! Necə olursa-olsun, aramızdakı Qurandır! Deyirsən Qurana qılıncla cavab verək?! Deyirsən Quranın ehtiramını saxlamayaq?!». Əli (ə) buyurur: «Biz Qurana ehtiram etməyə xatir döyüş əmri veririk. Sözsüz ki, Quranın ehtiramını qorumalıyıq. O, Quranın ki, Allah tərəfindən nazil

olmuş və bizim qəlblərimizdədir. Kağız parçalarına yazılan Quran ayələrinə də ehtiram etməliyik, lakin hansının daha çox əhəmiyyət kəsb etdiyinə diqqət yetirməliyik». Məgər bu dar düşüncəli insanlar bunu başa düşürdülərmi? Onlar hey Malikin silahı yerə qoymasını təkid edirdilər. Yaranmış belə bir ağır şəraitdə Əli (ə) məcbur olub, Malikə geri çəkilməsinə xəbər göndərir. Malik döyüşü başa vurmağına icazə istəyir. Onlar özlərinə cürət verib, Maliki «kafir» adlandırır və döyüşdən əl çəkmədiyi təqdirdə, Əli (ə)-ı öldürəcəklərini bildirirlər. Əli (ə) bir daha Malikə belə bir xəbər göndərir: «Əgər məni sağ görmək istəyirsənsə, geri dön!». {BAX: bu cümlə mənbə ilə əsaslandırılsaydı, daha yaxşı olardı}

Döyüş dayandırıldı. Dedilər: «Gərək bizimlə sizin aranızda Allahın kitabı hökm etsin». Əli (ə) buyurur: «Qoy elə də olsun». Sonra belə bir təklif irəli sürürlər ki, hər iki tərəfdən bir nəfər seçilib hökm çıxarsın və onlar nə hökm çıxararsa, o da icra olunsun. Müaviyə bu işə Əmr ibni Ası təyin edir. Əli (ə) Abdulla ibni Abbası məsləhətə göndərib buyurur: «Meydanda sözünü deyə biləcək adam Abdulladır». Həmin dar düşüncəli şəxslər bu dəfə də etiraz edərək deyirlər: «Onun səninlə qohumluq əlaqəsi var. Gərək bitərəf bir şəxs seçilsin». Əli (ə) buyurur: «Elə isə qoyun Malik Əştər getsin». Bunun müqabilində «onun da seçilməsinə razı deyilik» deyərək, özləri yığışıb, Əli (ə)-a qarşı müsbət münasibət bəsləməyən Əbu Musa Əşəri adlı olduqca sadəlöv və bacarıqsız bir şəxsi seçirlər. Əbu Musa Əşəri, Əmr ibni Asın tələsinə düşdükdə, öz səhvlərin başa düşürlər. Lakin səhvlərini etiraf etməyib ona müxtəlif don geydirməyə başlayırlar. Onlar demədilər döyüşdən əl çəkməklə əvvəldən biz səh etmişik, demədilər səhvimiz Əbu Musanı seçməkdə olmuşdur. Dedilər: «Səhvimiz onda oldu ki, bu iki nəfərin həkəmiyyətini (qəzavətini) qəbul etdik. İnsanın hökm çıxarmağı küfrdür. Çünki Quran «Lak hukmə illə lillah – hökm ancaq Allahındır» deyir». Onlar ancaq bunu şüar edərək, daim Allahdan bağışlanmalarını istəyirdilər. Əli (ə)-ın yanına gəlib dedilər: «Gərək sən də tövbə edəsən«. Əli (ə) buyurdu: «Həkəmiyyət səhv bir işi idi və bunu siz etdiniz, lakin bu heç də küfr deyildir». Dedilər: «Xeyr, gərək sən də tövbə edəsən».

Əli (ə) buna razı olmadıqda, onu küfr etməkdə ittiham etdilər. Sonralar onlar özləri saysız-hesabsız cinayətlər törədərək, «xəvaric» adlandırıldılar. Xəvaric müstəqil firqə halına düşərək,özləri üçün fiqi qanunlar tərtib etdilər.

Tərtib olunan fiqhi qanunlar olduqca məhdud və qapalı idi. Xəvaric özlərində başqa bütün firqələri və böyük günaha düçar olan hər bir şəxsi kafir hesab edirdi. Tərtib etdikləri fiqhi qanunları cəmiyyət qəbul edib və əməli olaraq yerinə yetirə bilmədiyi üçün çox az bir zamanda parçalanmağa düçar oldu.

Xəvaric bütün xəlifələri nədəsə günahlandırır və onlara qarşı müxalif mövqe tuturdular. Osmanın hakimiyyət dövrünün ilk illərini müsbət qarşılayır, son illərin siyasətini isə tənqid edirdilər. Əli (ə)-ı da həmçinin Həkəmiyyət məsələsinədək dəstəkləyir, bu əhvalatdan sonra isə - nəuzubillah

– onu küfr etməkdə ittiham edirdilər. Müaviyə ilə açıq-aşkar düşmənçilik edir və ona Əli (ə)-dan daha çox nifrət edirdilər. Beləliklə, süquta uğradıqları son günədək zəmanələrinin bütün xəlifələrinə qarşı müxalif mövqe tutmuşlar.

## *ƏLİ (Ə)-IN BAXIŞLARINDA XƏVARİCİN MAHİYYƏTİ*

Əli (ə)-ın buyurduğu kimi: «Xəvaricin pis niyyəti yox idi, sadəcə olaraq onlar dar düşüncəli və sadəlöv şəxslər idilər.»

Nəhcül Bəlağənin 59-cu xütbəsində Müaviyə və xəvaric arasında olan fərqi belə izah edir: «Məndən sonra xəvarici öldürməyin. Onlar Müaviyənin adamları ilə çox fərqlidirlər. Xəvaric axmaq amallarda haqqı axtarırlar, lakin onlar əvvəldən batil və ona da nail olmuşlar.»

Başqa bir yerdə (xəvarici aradan götürdükdən sonra) buyurur: «Fitnəni mən aradan götürdüm və məndən başqa kimsə buna cürət etməzdi»[16].

Haqlı idi də. Allaha şükr etməliyik ki, bu əhvalatlar baş verərkən, Əli (ə)-ın kənarında olmamışıq. Çünki əgər o zaman olsaydıq çox güman ki, imanımızı qoruyub saxlaya bilməzdik. O illərdə olsaydıq, bəlkə də «Cəməl» və «Süffeyn» döyüşlərində iştirak edərdik. Amma xəvaric döyüşündə iştirak edəcəyimizi güman etmirəm. Çünki, onlar Əli (ə)-ın dediyi kimi, gecələrini sübhədək ibadətdə keçirir, gündüzlərini oruc tutrdular. Namaz qılmaqdan alınları və diz qapaqları qabar bağlayardı. Onlarla kim döyüşməyə cürət edərdi?! Bunun öhdəsindən yalnız Əli (ə) gələ bilərdi. Çünki zahirdə riyakar və yalançı olmadıqlarını iqrar etsə də, onların zahirinə baxmayırdı. Əsas da budur. Əgər münafiq olmasaydılar, bir o qədər də əhəmiyyət kəsb etməzdi. Amma yox, onlar günlərini ibadətlə keçirir, oruc tuturdular. Lakin onların İslama olan zərəri düşmənlərdən daha qorxulu idi. Əgər o vaxt Əli (ə) öz qılıncını xəvaricə qarşı siyirməsəydi, əgər Əli (ə) belə bir təqvaya malik olmasaydı, ondan sonrakı xəlifələr xəvaricin öhdəsindən gələ bilməzdilər. Lakin Əli (ə) qabağa gəldiyi üçün qoşun da döyüş meydanına atılır. Qoşun belə bir qənaətə gəlmişdi ki, əgər xəvariclə mübarizə aparmaq haqq olmasaydı, Əli (ə) döyüş meydanına gəlməzdi.

Bu əhvalat baş verməzdən əvvəl günlərin bir günündə Əli (ə) səhabələrinin biri ilə küçədən keçərkən, evlərdən birindən həzin səslə «**Məgər axirətdən qorxan, Rəbbinə ümid bəsləyən, gah səcdəyə qapanıb, gah da ayaq üstə durub gecə saatlarını ibadət içində keçirdən müti bəndə [kafirlərlə] birdirmi?!**»[17] ayəsini oxunduğunu eşidir. Səhabə heyrətə gələrək, yerində donub deyir: «Xoş həmin şəxsin halına!». Əli (ə) buyurur: «Xeyr! Ona qibtə etmə.» Bir neçə müddətdən sonra xəvaric meydana gəlir və həmin şəxs təsadüfü olaraq Əli (ə)-ın yanında olur. Döyüşdən sonra onlar həlak olmuş

---

[16] Nəhcül-bəlağə, 91-ci xütbə

[17] «Zumər» surəsi, ayə 9

şəxslərin arasından ötüb keçərkən bir şəxsin cənazəsinə yaxınlaşırlar. Əli (ə) ona işarə edib buyurur: «Bu həzin səslə Quran oxuyan həmin şəxsdir».

Əmr be məruf və nəhy əz münkərə gəldikdə, xəvaric çıxış yolu tapmaq üçün təqiyyə etməyə heç bir lüzum görmürdü. Bizlər adətən ağıl və şüurumuza arxalanaraq, hər hansı bir işi yalnız xeyiri zərərindən çox olduğu bir halda görürük. Lakin xəvaric belə bir məntiqi qəbul etmir və şəraitdən asılı olmayaraq, əmr be məruf və nəhy əz münkəri zəruri hesab edirdilər. Bəzən elə olurdu ki, onlardan biri Əbdülməlik kimi qan içən bir xəlifənin yanına gəlib, heç nəyin fayda verməyəcəyini və edam olunacağını bildiyi bir halda, açıq-aşkar xəlifəni söyür və təhqir edir və sonra edam olunurdu. Xəvaricin süqutuna səbəb olan ən başlıca amil, bir çox məsələlərdə, xüsusilə əmr be məruf və nəhy əz münkərdə qeyri-məntiqi mövqe tutmaları olmuşdur.

İslam tarixində belə bir addım ilk dəfə xəvaric tərəfindən atılır. Belə bir cərəyanın İslam dünyasına nə kimi təsir qoyduğunu bilmək istəsəniz, həmin bu məsələni nəzərdə tutun. Əgər bizdən Əli ibni Əbu Talibi kim öldürdü soruşsalar, təbii olaraq deməliyik: «Əbdürrəhman ibni Mülcəm». Bizdən Əli ibni Əbu Talibi nə öldürdüyü soruşulduqda isə deməliyik ki, onun qətlinə, ətrafındakılarının qeyri-məntiqliyi və dar düşüncəliyi səbəb olmuşdur.

Əli (ə) onların cəhalət və nadanlığını nəzərə alır, axıradək beytul-maldan paylarına düşənləri onlara ödəyir və fikirlərini bildirmək üçün tam azadlıq verirdi.

İbni Əlib Hədid deyir: «Cəhalət və dar düşüncəliyin nə olduğunu bilmək istəyirsinizsə, bu nöqtəyə diqqət yetirin. Müaviyə, Əmr ibni As və Əli ibni Əbu Talibə qarşı sui-qəsd hazırlayan üç nəfər şəxs daha çox savab qazanmaq üçün bunu Ramazan ayının 19-cu gecəsində həyata keçirməyi qərara gəlirlər. Görün insan belə bir qərara gəlmək üçün nə qədər nadan və cahil olmalıdır».

Müqəddəs Ramazan ayında görməli olduqları bir şi həyata keçirirlər.

## SƏKKİZİNCİ FƏSİL

### *İSLAM TƏFƏKKÜRÜNÜN SAFLAŞDIRILMASININ AMİLLƏRİ*

«**[Ey müsəlmanlar!] Beləliklə də, sizi orta [ədalətli və seçilmiş] bir ümmət etdik ki, insanların əməllərinə [qiyamətdə] şahid olasınız, Peyğəmbər də [Məhəmməd də] sizə şahid olsun**»[18].

Bulaqlardan axan suyun nə qədər saf və zülal olduğunu yəqin ki, görmüsünüz. Göz yaşı tək bu qədər saf olan su öz axarına düşdükdən sonra tədriclə ya hiss olunmaz, ya da hiss olunacaq dərəcədə aludə olmağa başlayır. Suyun hiss olunacağı dərəcədə aludə olmasını torpağın və ya hər hansı bir şeyin rəngini dəyişdirməklə bəlli etmək olur. Belə bir dəyişikliyə, hiss olunası dəyişiklik deyilir. Bəzən də bu dəyişiklik zahirdə nəzərə çarpmaz və adi halda hiss olunmaz olur. Məsələn, əhalinin istifadə etdiyi suya vərəm xəstəliyinə düçar olmuş bir şəxs və ya həyat üçün təhlükəli olan zəhərli kimyəvi maddə düşərsə, bunu biz yalnız xüsusi aparatların vasitəsilə müəyyən edə bilərik və vaxtında aparılan sə`ylərin nəticəsində gözlənilməz təhlükəni aradan qaldıra bilərik.

Bunu biz mənəviyyatda da müşahidə edə bilərik. Belə ki, insan dünyaya gəldiyi ilk gündən mənəviyyatı saf, bütün eyb və nöqsanlardan uzaq olur. Lakin başqalarının tərzi-təfəkkürü və ideologiyalarının təsiri altına düşür və bu xətər onlardan sonra gələcək nəsillərə də ötürülür. Bəzən mənəviyyatda yaranmış boşluq özünü büruzə verir, bəzən də suyun zəhərli maddəyə qarışdığı kimi, zahirdə saf və hiss olunmaz olur. Bu da yalnız alim və mütəxəssislər tərəfindən müəyyən olunur. Aludə olmuş suyu xüsusi cihazlar vasitəsilə təmizləmək mümkün olduğu kimi, mənəviyyata da dəymiş zərəri aradan qaldırırlar.

Dünyanın ən böyük mənəvi cərəyanı İslamdır. Baxaq görək 14 əsr bundan əvvəl öz axarına düşmüş və bu günümüzədək davam edən bu mənəvi cərəyan su tək başqa ünsürlərlə qarışaraq öz saflığını itirmişdir, ya yox? Əgər baş vermişsə, İslamdan başqa dünyada nə kimi cərəyanlar meydana gəlmiş və onu aludə etmişdir?

Bu haqda söhbət açmazdan əvvəl diqqətinizi olduqca mühüm bir mətləbə cəlb etmək istəyirəm: Heç bir araşdırma aparmayan adi insanlar, adətən tarixi baxımdan əhəmiyyət kəsb edən hadisələri mühüm hesab edirlər. Əgər onlardan İslam tarixində baş vermiş mühüm hadisələrdən birini soruşsaq, ilk növbədə monqolların hücumuna işarə etdiklərinin şahidi olacağıq. Tamamilə doğrudur. Monqolların hücumu həm maddi, həm mənəvi, həm də insan tələfatı baxımından İslama ağır zərbə vurmuşdur. Minlərlə kitab, alim, əl

---

[18] «Bəqərə» surəsi, ayə 143

yazmaları, sənət əsərləri və s. məhv edilmiş, kitabxanaları, şəhərləri yandırıb yerlə yeksan edilmişdir.

Bu şəhərlərdən biri də, Nişapur olmuşdur. Belə ki, Çingizxan həmin məntəqəni işğal etdiyi zaman oranın bütün əhalisini qətlə yetirməyi və orada hətta heç bir canlını sağ qoymamağı əmr edir. Bu böyük əhəmiyyət kəsb edən bir hadisədir. Su hiss olunacaq dərəcədə aludə olduğu kimi, bu hadisənin də əhəmiyyəti özünü biruzə verir. Lakin İslam dünyasında baş verən bəzi cərəyanlar zahirdə zərrəcik tək hiss olunmaz və qorxusu monqolların hücumundan çox olmasa da, az da olmamışdır. Bu haqda bir qədər sonra misal çəkəcəyik.

Hər şeydən əvvəl baxıb görməliyik ki, İslam tarixində belə bir cərəyanlar olmuşdur, ya yox?

Əlbəttə, müəyyən qədər mümkün olmasa da, hardasa bu şey mümkün olmuşdur. Quranı İslamın əsas sütunu və kiminsə onu təhrif edib və ya dəyişməsinə qadir olmadığını hesab etmək, bunun qeyri-mümkünlüyünə dəlalət edir. «Hicr» surəsinin 9-cu ayəsində Quranın təhrif və dəyişiklikdən qorunması belə bəyan edilir: «**Şübhəsiz ki, Quranı Biz nazil etdik və sözsüz ki, Biz də onu [hər cür təhrif və təbdildən; artırıb əksiltməkdən] qoruyub saxlayacağıq**».

Allah-təala Quranı özünəməxsus fəsahət və bəlağətlə nazil etmiş və nazil olduğu ilk gündən asanlıqla əzbərlənib sinələrdə özünə yer tapmışdır. Bununla yanaşı nazil olan ayələr Peyğəmbər (s)-ın göstərişi ilə yazılır, dost və düşmənin məkirli niyyətindən qorunmuş olurdu. İslam ideologiyası mənfi ünsürlərdən məhz belə bir şəraitdə qorunub saxlanılmışdır.

## *İSLAM DÜNYASINDA FİKRİ POZĞUNLUQLAR*

Lakin digər sahələrə baxdıqda, aludəliyinin mümkünlüyünün şahidi oluruq. Onlardan biri də, Peyğəmbər (s)-ın sünnətində yaranmış çəkişmələrdir. Peyğəmbər (s) buyurmuşdur: «Mənim haqda deyilən yalanlar çoxalmaqdadır. Məndən bir hədis eşitdikdə, onu Quranla müqayisə edin. Əgər Quranla müxalif olsa bilin ki, mənim sözlərim deyildir və onu mənim adımdan demişlər.»

Peyğəmbər (s) bu sözləri hələ öz sağlığında İslamın zühur etdiyi ilk illərdə demişdir. Buradan belə məlum olur ki, hələ o zaman bir dəstə yalançı şəxslər meydana gəlmişlər. Onların sayı hələ o zaman bir o qədər də çox deyildi, lakin Peyğəmbər (s) özünün qabaqgörənliyi ilə bu haqda əvvəlcədən xəbər vermiş və onun dediyi iş də olmuşdur. Peyğəmbər (s)-ın zamanında onun adından yalan deyən şəxslər bunu rəğbətlə qarşılasınlar deyə, şəxsi məqsədlər üzündən deyirdilər. Onlar əksər hallarda öz sözlərini «Peyğəmbərdən belə eşitdim» - deyə başlayırdılar. Lakin sonralar Peyğəmbər (s)-ın dilindən deyilən saxta hədis və rəvayətlər ictimai xarakter daşımağa başladı. Yəni hədis nəql etmək dövlət və dövlət adamlarının əlində xeyir

gətirən alətə çevrildi. Xəlifələr şəxsi mənafelərini qorumaq üçün imanı zəif olan mühəddislərə külli miqdarda pul və ənamlar verib, müxtəlif mövzularda hədis nəql etməyi sifariş edirdilər. Məsələn, Müaviyə Səmərət ibni Cundəbə səkkiz min dinar verib, Peyğəmbər (s)-dan «**İnsanların eləsi də vardır ki, Allahın razılığını qazanmaq yolunda öz canını fəda edər**»[19] ayəsini Əbdürrəhman ibni Mülcəm haqda nazil olduğunu nəql etməsini əmr edir.

Üçüncü Abbasi xəlifəsi Mehdinin xilafət dövründə Mənsurun oğlu göyərçin saxlayır və vaxt-aşrı göyərçin yarışları keçirirdi. Mühəddislərdən biri xəlifənin razılığını qazanmaq üçün onun yanına gəlib Peyğəmbər (s)-dan belə bir saxta hədis nəql edir: «At sürmək və ox atmaqdan başqa müsabiqə keçirməyin.» O, hədisə «quş» kəlməsini əlavə edir. Bu sözlər Mehdinin xoşuna gəlir və həmin şəxsə külli miqdarda pul və ənam verir.

İslam tarixində bu kimi hallara çox rast gəlmək olar. O ki, qaldı saxta hədislərə, bu sahədə ilk addım yəhudilər tərəfindən atılmışdır. Onlar öz etiqadlarını hədis şəklində müsəlmanlar arasında yaymağa başlamışlar. İxtilaf və qarşıdurma yaratmaqda da onlar xüsusi məharətə malik idilər. Zahirdə İslamı qəbul edir və müsəlmanların məclislərinə gediş-gəliş edərək, öz etiqad və əqidələrini hədis şəklində onların arasında yaymağa çalışırdılar. Əlbəttə, məsihi və manəvilər də bu kimi işlərdən görür, lakin yəhudilərlə ayaqlaşa bilmirdilər. Yəhudilər zahirlərini dəyişməkdə o qədər böyük məharətə malik idilər ki, hətta müsəlmanlar onları özlərindən təqvalı hesab edirdilər. Nəql edirlər ki, bir şəxs əvvəllər yəhudi olur. İslamı qəbul etmiş başqa bir yəhudi onun qızını istəyir, lakin o qızını həmin cavana vermək istəmir. Ondan bunun səbəbini soruşduqda deyir: «Mən özüm müsəlman olduqdan on beş il sonra hələ də yalan danışırdım və indi mən bu cavanın dediklərinə inanmıram. Çünki o, hələ cəmi yeddi ildir ki, İslamı qəbul etmişdir».

## *İSLAMİ DÜŞÜNCƏNİN SAFLAŞDIRMA ÜSÜLLARI*

Bütün bunlar ideologiyada yaranmış qara ləkələrdir. İslam zühur etməklə, ideologiyanın saflaşması üçün məntiqi yollar təklif etmişdir. Ən başlıca yollardan biri Quran, Quranın höccət və dəlil adlandırdığı əql və məsum imamlardan nəql olunmuş hədis və rəvayətlərdir.

Məmunun xilafət dövründə elmi məclislər təşkil olunmağa başlayır. O, elm və mütaliə böyük üstünlük verdiyi üçün müxtəlif din və məzhəblərin nümayəndələrini toplayıb, onlara tam fikir azadlığı verirdi. İmam Rza (ə)-ın müxtəlif din və məzhəb alimləri ilə apardığı elmi mübahisələr də, məhz bu məclisdə keçirilirdi. Bir çox hallarda şiə və sünnü məsələlərinə toxunulurdu.

Qazi Bəhlul Behcət Əfəndi özünün «Təşrih və mühakimə» adlı kitabında Məmunun əhli-sünnə alimləri ilə xilafət məsələsinə dair apardığı mübahisələr

[19] «Bəqərə» surəsi, ayə 207

nəql olunmuşdur. Bəzən Hişam ibni Həkəm də onların məclisində iştirak edirdi.

Məclislərin birində əhli-sünnə alimləri az yaşlı imam Cavad (ə)-dan sorğu-sual aparırlar. Əhli-sünnə alimlərindən biri söhbət əsnasında Əbu Bəkr və Ömərin fəziləti haqda bir neçə hədis nəql edir: «Biz Peyğəmbər (s)-dan Əbu Bəkr və Ömərin fəziləti haqda belə bir hədis nəql edirik: «Əbu Bəkr və Ömər cənnət qocalarının ağalarıdır» və ya başqa bir hədis «Günlərin bir günündə Cəbrail Peyğəmbər (s)-ın yanına gəlib deyir: «Allahın deyir: «Mən Əbu Bəkrdən razıyam, soruş gör o məndən razıdır, ya yox?». Siz necə, onların fəziləti barədə deyilənləri qəbul edirsinizmi?». İmam Cavad (ə) buyurur: «Biz Əbu Bəkrin fəzilətini inkar etmirik. Lakin Peyğəmbər (s) Həccətul-vidada (son həcc mərasimində) «mənim adımdan yalan deyənlərin sayı çoxalacaqdır» buyurmuşdur və kimsə bu barədə şəkk etməyir. O, nəql olunan hədisləri Quranla müqaisə etməyi buyurmuş və Quranla müxalif olan hər bir hədisi kənara qoymağı əmr etmişdir. Quran cənnət əhlinin hamılıqla cavan olduğuna işarə edir. O ki, qaldı nəql etdiyiniz ikinci hədisə, Allah-təala Qurani-kərimdə buyurur: «**And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından da yaxınıq! [İnsanın adi hərəkətlərindən tutmuş ürəyindən keçən ən gizli hisslər, duyğular belə Allaha məlumdur!]**»[20].

## *İSLAM – TƏHRİFƏ MƏRUZ QALMAYAN YEGANƏ DİN*

Demək Quran özü tarix boyu həqiqəti üzə çıxaran və haqla batili ayıran əsas meyar olmuşdur. Məhz bu üç şey (Quran, sünnət və hədis) xoşbəxliyimizin əsas mayasıdır. Bu səbəbdən də başqaları bizlərə irad tutaraq, din və əqidəmizə istehza ilə yanaşmağa cürət etmirlər. Bu səbəbdən də, yadlar müqəddəs dinimizi digər dinlər kimi təhrif olunduğu və öz mahiyyətini itirdiyini bizlərə irad tutmurlar.

İndinin özündə də Zərdüştün kim olduğu, harada və nə zaman yaşadığı, gətirdiyi kitabın [dininin] nədən ibarət olduğu bizlərə dəqiq məlum deyildir. Fərz edək ki, bir vaxtlar verdiyi təlimlər düzgün və əsaslı olmuşdur. Məgər onun «gözəl söz, gözəl əməl, gözəl düşüncə» verdiyi şüarı din və təlim hesab edə bilərikmi?! Bu sözlər o qədər qısa və ümumidir ki, heç bir məna və məfhum kəsb etmir. Çünki hər bir şəxs dediklərini, gördüyü işləri və öz tərzi-təfəkkürünü düzgün hesab edir və müsbət qiymətləndirir. Dünyada mövcud olan bütün qrup və təşkilatların irəli sürdükləri fikir və fərziyələr, gördükləri işlər müsbət xarakter daşıyır. Kapitalistlər, kommunistlər və s. hər biri öz dediklərini həyata keçməsini istəyirlər. Həqiqi məslək o məsləkdir ki, «gözəl söz, gözəl əməl, gözəl davranış» şüarı ilə kifayətlənməyib, onu həyata keçirərək əməli olaraq sübuta yetirmiş olsun. Məsihi və yəhudi dinlərində də

[20] «Qaf» surəsi, ayə 16

eyni qaydada. Yeganə toxunulmaz və öz əslini itirməyən din varsa, o da müqəddəs İslam dinidir və bunun səbəblərini bir qədər qeyd etdik. Lakin bu heç də o demək deyildir ki, İslam dinində heç bir mənfi cərəyan meydana gəlməmişdir. Burada yaranmış bütün mənfi cərəyanlar dinin əsasını təşkil edən meyarlarla aradan götürülmüşdür. Onlardan biri Quran, daha sonra Peyğəmbər (s) və məsum imamların mütəvatir buyuruqlarıdır.

Nəql olunan minlərlə hədis və rəvayətlərin içində istinad etdiyimiz bir çox əsaslı hədislər vardır və biz onları həqiqəti aşkara çıxartmaq üçün əsas meyar hesab edə bilərik. Bütün bunlarla yanaşı, Quran insanın ağıl və düşüncəsini də onun üçün dəlil və haqqı batildən ayıracaq meyar təyin etmişdir. İslam heç vaxt buna qarşı çıxmamışdır. Sabiq firqələrdən birinin (Bəhaliyin) rəhbəri - əlbəttə, əgər onu rəhbər adlandırmaq olarsa – Hüseynəli Bəha deyir: «Kor ol ki, mənim cəmalımı görə biləsən, kar ol ki, mənim nəğməmi eşidə biləsən». Qəribədir! Görəsən bu necə cəmaldır ki, onu görmək üçün kor, səsini eşitmək üçün kar olmaq lazımdır?!

Lakin Quran bizlərə bunun tam əksini əmr edir. O, cəmalını görmək üçün gözləri açmağı, səsini eşitmək üçün qulağını açıb dinləməyi, dərk etmək üçün fikir və düşüncəni işə salmağı əmr edir. Quran özlərini gülünc vəziyyətə salan, həqiqəti görməyən, eşitməyən və onu dərk etməyən şəxsləri tənqid atəşinə tutur.

## *QURAN VƏ ƏQL*

Quran müsəlmanlara xitab edərkən, onlara müxtəlif canlı adları ilə deyil, «Əyyuhən-nas» və ya «Əyyuhəl-muminun» ifadələri ilə müraciət edir. Tarix barədə söhbət açdıqda, onu əqli məntiq ilə təfsir edir, namazın vacibliyinə işarə etdikdə, onun fəlsəfəsini də açıqlayır, Allahın vücudunu sübut etdikdə, onu əqli və məntiqi dəlillərlə isbat edir. «Əraf» surəsinin 179-cu ayəsində buyurulur: «**Biz cinlərdən və insanlardan bir çoxunu Cəhənnəm üçün yaratdıq. Onları qəlbləri vardır, lakin onunla [Allahın birliyini sübut edən dəlilləri, özlərinin dini borc və vəzifələrini] anlamazlar. Onların gözləri vardır, lakin onunla [Allahın möcüzələrini] görməzlər. Onların qulaqları vardır, lakin onunla [öyüd-nəsihət] eşitməzlər**».

İmam Kazım (ə) buyurur: «Bilirsinizmi Allahın nəzərində canlıların ən pisi hansılardır? O kəslər ki, Allah onlara dil vermiş, lakin onlar lal, qulaq vermiş, lakin onlar kar və ağıl vermiş, lakin onlar heç nəyi dərk etməzlər».

Bütün bu meyarları İslam haqqı batildən ayırmaq üçün bizim ixtiyarımızda qoymuşdur. İndi baxaq görək, tarixdə baş verən cərəyanlar lazımınca araşdırılmışdırmı?

İslamda haqqı batildən ayırmaq üçün mövcud olan meyarlar barədə söhbət açdıq, lakin bilmirik mətləbi oxucuya çatdıra bilmişik, ya yox. İlk növbədə bunu bilməliyik ki, İslam zühur etdiyi ilk gündən, mənfi ünsürlər daim onun daxilinə nüfuz etməyə səy etmişlər. Bu proses indinin özünədək davam

etməkdədir. Hər şeydən əvvəl biz həmin mənfi ünsürləri tanıyıb, aşkara çıxarmağa çalışmalıyıq. Əks təqdirdə, İslamın bizim ixtiyarımıza qoyduğu meyarların heç bir bəhrəsini görə bilməyəcəyik. Meydana gəlmiş mənfi və qorxunc cərəyanlar monqolların yürüşündən təhlükəli olmasa da, ondan heç də əhəmiyyətsiz deyildir.

Bir qədər əvvəl xəvaric cərəyanına işarə etdik. Xəvaric yalnız sonradan zəifləyib aradan gedən bir cərəyan olmamışdır. O, məzhəb halına düşmüş dini bir cərəyan olmuşdur. Xəvaric özləri üçün fiqhi qanunlar tərtib etmiş və bu qanunlar digər fikirlərə qarşı heç də təsirsiz olmamışdır.

Haqqında söhbət açıdığımız başqa bir cərəyan Əşəri cərəyanı idi. Onlar başqalarından fərqli olaraq, ayə və hədislərin zahiri mənasına daha çox əhəmiyyət verər, eşitdikləri bütün hədisləri Peyğəmbər (s)-a aid edər, əldə əsaslə dəlillər olmasa belə, onun mötəbər olaraq qəbul edər və hədisin zahiri mənası ilə kifayətlənərdilər.

Edvard Braunun «Ədəbiyyat tarixi» adlı kitabını mütaliə edərkən müşahidə etdim ki, o bütün İslam əqidələrini Əşəri cərəyanı kimi nəql edir.

Əsərləri bütün dünyada rəğbətlə qarşılanan Dazi adlı başqa bir Hollandiyalı şərqşünas kitablarının birində Peyğəmbər (s)-dan belə bir hədis nəql edir: «Bədr döyüşündə Allahı gördüyünüz kimi qiyamət günündə də Allahı görəcəksiniz». Çox təəccüb etdim. Hədis kitablarını araşdırdıqda, bu hədislə qarşılaşmadım. Sonradan məlum oldu ki, o, bu hədisi kəlam kitablarından nəql etmişdir. Hədisin əsli isə belədir: «On dörd gecəlik ayı gördüyünüz kimi qiyamət günü Allahı görəcəksiniz». Bu hədisdəki (leylətul bədr – on dörd gecəlik ayı) Bədr döyüşü kimi mənalandırmışdır. Kəlam kitablarını araşdırdıqda bizə belə məlum oldu ki, belə bir hədis ümumiyyətlə, heç bir şiə kitabında nəql olunmamışdır. Əhli-sünnə mənbələrində isə bu hədis bir qədər fərqli olaraq nəql olunmuşdur. Kəlam aimləri isə hədisi yuxarıda qeyd olunduğu kimi nəql etmişlər. Hədis əhli-sünnə mənbələrində belə nəql olunur:

Bir şəxs Peyğəmbər (s)-ın yanına gəlib ondan soruşur: «İnsanlar eyni vaxta Allahı necə görə bilərlər?». Peyğəmbər (s) buyurur: «Ayı eyni vaxtda gördükləri kimi. Ay yaradılmış bir varlıqdır, Allah isə hər şeydən üstün və bütün insanlarladır».

Görün hədis müxtəlif şəxslər tərəfindən ayrı-ayrı yerlərdə nəql olunarkən, bir-birindən necə də fərqli nəzər çarpır. Bu kimi hallarda Quran dərhal bizim dadımıza çatır. Ənam surəsinin 103-cü ayəsində buyurmuşdur: «**Gözlər Onu [görüb] dərk etməz. O gözləri dərk edər**».

# DOQQUZUNCU FƏSİL

## *ƏXBARİLİK*

«**Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin**»[21].

Əvvəlki fəslimizdə qeyd etdik ki, su ilk dəfə öz mənşəyindən çıxdığı zaman, olduqca pak və saf olur. Lakin öz axarına düşdükdən sonra bəzən onun tərkibində hiss olunan və hiss olunmayan dəyişikliklər baş verir. Buna baxmayaraq, su yenidən təmizlənib əvvəlki halına düşə bilir. Müqəddəs İslam dini də zühur etdiyi an pak və saf olmuş, lakin illər, əsrlər ötüb keçdikcə müxtəlif mənfi ünsürlər ona daxil olmuş, hiss olunacaq dərəcədə aludə etmişdir. Lakin xoşbəxtlikdən İslamın özü haqla-batili ortaya çıxarmaq üçün biz müsəlmanların ixtiyarına bir neçə əsaslı meyar qoymuşdur. Onlardan biri Quran, digəri isə Peyğəmbər (s)-ın sünnəti, başqa birisi isə Quranın hüccət və dəlil adlandırdığı insanın ağıl və şüurudur. Bu üç meyardan düzgün istifadə etməklə, biz din və əqidəmizi bir çox səhv və xətalardan qoruyub saxlaya bilərik. İslam tarixində bir çox cərəyanlar baş vermiş və bu cərəyanlar müsəlmanların etiqad və əqidələrinə böyük təsir etmişdir. İndinin özündə də bu cərəyanlar baş verməkdə və bizləri öz təsiri altına salmaqdadır. Bizlər çox vaxt hətta bu cərəyanların İslam dinindən qaynaqlanıb-qaynaqlanmadığını belə bilmirik.

İraqlı bir yazıçı son illər bir neçə kitab təlif etdi. Yazdığı əsərlər maraqlı və cəzbedici olduğu üçün tez bir zamanda yayılıb oxucu kütləsini özünə cəlb etdi. Kitablarının birində yazırdı: «Bu günlər baş verən bir çox hadisələrdə Müaviyənin əli olduğunu görürəm». O, bu fikirdə idi ki, Müaviyə İslam dünyasında bəzi cərəyanlar meydana gətirmiş və o cərəyanların özü aradan getsə də, qoyduğu təsirlər hələ də qalmaqdadır. Mən onu araşdırmaq fikrində deyiləm. Sadəcə olaraq, burada İslam dünyasında meydana gəlmiş digər cərəyanlara işarə etmək istəyirəm.

Təqribən dörd əsr bundan əvvəl şiə məzhəbində «Əxbarilik» adında yeni bir cərəyan meydana gəlir. Bu günlər isə əxbarilik olduqca az və nəzərə çarpmazdır. Əxbarilik meydana gəldiyi ilk gündən davam etdiyi iki-üç əsr ərzində müsəlmanların böyük bir hissəsini öz təsiri altına almış və minlərlə günahsız insanın qanının tökülməsinə gətirib çıxarmış, saysız-hesabsız müharibələrin baş verməsinə səbəb olmuşdur. Əxbariliyin müqabilində nəyin durduğunu bilmək istəsəniz bilin ki, bu ictihaddır.

Bizlər belə bir əqidədəyik ki, hər bir müsəlman şəri hökmləri yerinə yetirmək üçün ya gərək özü müctehid (din alimi), ya apardığı araşdırmalardan sonra qəti nəticəyə gələn (fiqhi termin olaraq buna ehtiyat

---

[21] «Həşr» surəsi, ayə 7

əməl deyirlər) ola və ya dini alimdən (müctəhiddən) təqlid edə (yəni onun göstərişlərinə sorğu-sualsız əməl edər) və bizlər təqlidi tamamilə düzgün və məntiqi bir iş hesab edirik. Əxbarilər isə ictihadı qətiyyətlə rədd edir, onu bidət hesab edirdilər. Onlardan, «dini məsələlərdə kimə müraciət etməli?» soruşduqda, deyərdilər: «Hər bir müsəlman nəql olunmuş hədis və rəvayətlərə müraciət edib və şəri hökmləri oradan əldə etməlidir«. Müctəhidlər onlara məntiqi cavab verərək deyirdilər: «Təbabət elmində olduğu kimi, dini məsələlərdə də fitva vermək üçün dini elmlərə yiyələnmək və mütəxəssis dərəcəsinə çatmaq lazımdır». Onlar isə bütün bu deyilənləri əldə heç bir əsas olmadan rədd edir və bunu əhli-təsənnündən götürüldüyünü iddia edirdilər.

Fətəli şahın dövründə Tehranda Mirzə Məhəmməd Əxbar adlı bir şəxs yaşayırdı. Milliyyətcə hind olan bu şəxs müsəlmanlar arasında saysız-hesabsız çəkişmə və qarşıdurmalara səbəb olurdu. Bir müddət Nişapurda yaşayıb, daha sonra Tehrana gəlir. Ömrünün son illərində İraqa ziyarətə gedir və orada qətlə yetirilir.

Bəs əxbarilik nə zaman və kim tərəfindən meydana gəlmişdir?

Əxbarilik 3-4 əsrdən çox davam gətirmir və ilk dəfə olaraq bu haqda Məkkə və Mədinənin yaxınlığında yaşayan Molla Əmin Əstərabadi fikir irəli sürür. (Bu şəxsin tarixi və kimlərlə əlaqədə olduğu dəqiq məlum deyildir. Şiə olmasına baxmayaraq Şeyx Tusi, Əllamə Hilli və Mühəqqiq Hilliyə qarşı çıxır və onların nəzəriyyələrini qətiyyətlə rədd edirdi. Çünki Əllamə Hilli özünün əsaslı dəlilləri ilə nəql olunmuş hədis və rəvayətləri mötəbər hesab etmirdi. Onun fikrincə, rəvayətlər sənəd baxımından bir neçə hissəyə bölünür:

1. Səhih – o rəvayətlərə deyilir ki, onu nəql edən ravilər hamısı şiə və mötəbər şəxs olmuş olunsunlar.
2. Müvəssəq – o rəvayətlərə deyilir ki, onu nəql edən şəxslər etibarlı, lakin şiə olmasın.
3. Həsən – o rəvayətlərə deyilir ki, onu nəql edən şəxslər düz danışan, lakin onların yaxşı və sadiq olduqları sübuta yetirilməmiş olsun.
4. Zəif – o rəvayətlərə deyilir ki, onu nəql edən şəxslər və ya heç olmasa onlardan biri etibarlı olmamış olsun. Tarix az-çox onların (ravilərin) kimliyi haqda bizə xəbər verir (əlbəttə, kimliyi məlum olmayan şəxslər də az deyildir).

Buradan belə bir nəticəyə gəlirik ki, nəql olunan rəvayətlərin hamısı heç də mötəbər deyildir. Bunun üçün də biz ilk növbədə hədisin kimlər tərəfindən nəql olunduğuna diqqət yetirməliyik. Molla Əmin, Əllaməyə öz etirazını bildirərək demişdir: «Əllamə rəvayətlərimizi hissə-hissə etmiş və onlardan bir çoxunu ixtisara salmışdır. Əlimizdə nə qədər rəvayət varsa, onların hamısı düz və mötəbərdir. Hər-hansı bir rəvayəti zəif adlandırmaqla, İmam Sadiq (ə)-a qarşı hörmətsizlik etmiş oluruq. Məgər imam Sadiq (ə)-dan zəif hədis nəql oluna bilərmi?! Xüsusilə, dörd mötəbər hədis kitablarında?!».

Yəni Şeyx Koleyninin «Üsuli Kafi», Şeyx Tusinin «Təhzib» və «İstibsar» və Şeyx Səduquq «Mən la yəhzurul fəqih» adlı kitablarında. Əgər hər-hansı bir hədis və rəvayət bu dörd kitabdan birində nəql olunarsa, heç bir şübhəyə yer qalmamalıdır.

## *HƏDİS QONDARMAĞIN BƏZİ NÜMUNƏLƏRİ*

Müctəhid o şəxslərə deyilir ki, Əllamənin bu nəzəriyyəsini qəbul etmiş olsun. Üsuli-Kafi və adları çəkilən digər kitablarda da sənəd və ravi baxımından qeyri-mötəbər və heç bir əsası olmayan rəvayətlərlə qarşılaşırıq. Məsələn, bir qədər əvvəl Riba (sələm) barədə mütaliə edirdim. Rəvayətlərin birində Əli ibni Əlhədid adlı bir şəxs deyirdi: «Səlsəbil adlı bir qadın məndən pul istədi. Pulu ona faizlə verdim, şəri qanunlara əsasən bu iş düzdür, ya yox?». Səhv etmirəmsə hədis «Təhzib»də nəql olunmuşdur. Başqa bir rəvayətdə isə həmin şəxsin adının çəkildiyini gördüm. Şeyx Tusi hədisi nəql etdikdən sonra deyir: «Hədis olduqca zəifdir». Demək əgər hədis bu dörd hədis kitablardan birində nəql olunmuşsa, hökmən onu qəbul emtəliyikmi? Xeyr! Bu kimi hədislərə istinad etmək olmaz.

Başqa bir misal: Koleyini «Üsuli Kafi»də belə bir hədis nəql edir: «İmam Sadiq (ə)-ın zamanında bir neçə nəfər şəxs Peyğəmbər (s) məscidinin günbəzini təmir etmək qərarına gəlir. Tavanı götürdükdən sonra onlardan biri deyir: «İndiki tavanı götürmüşük, Peyğəmbər (s)-ın qəbrinə yuxarıdan baxa bilərik, ya yox?». Biri baxmaq olduğunu, digər isə bunu tamamilə rədd edir. Onlardan biri «nə üçün baxmaq olmaz» soruşduqda, bununla müxalif olan şəxs deyir: «Ola bilsin, Peyğəmbər (s)-ın qadınlarının biri ilə məhrəmanə söhbət etmiş olsun və biz onları görə bilərik!».

Bəlkə də bu adi və sadəlövh bir müsəlmanın sözləridir. Belə olan təqdirdə, «Üsuli Kafi»də nəql olunan bütün hədis və rəvayətləri qəbul etməliyikmi? Əxbarilər bu məsələyə təkid edərək deyirdilər: «Kafi»də nəql olunan bütün hədislər düzgün və mötəbərdir. Müctehidlər isə onların bu fikirləri ilə razılaşmayıb deyirlər: «Xeyr! Bu kimi qondarma və saxta hədislər minlərlədir və onlara istinad etmək tamamilə səhvdir».

Əbil Xəttab İslamla zidd və dini-imanı olmayan bir şəxs idi. Edam olunarkən son sözü bu olur: «Mən sizin hədislərinizə dörd min saxta hədis əlavə etmişəm». Müctəhidlər məhz bu kimi faktları nəzərə alaraq, nəql olunmuş bütün hədis və rəvayətlərə istinad etməyi əsla düzgün hesab etmirlər.

Görkəmli dini şəxsiyyətlərdən biri olan Yunis ibni Əbdür-rəhman deyir: «Çalışırdım yalnız mötəbər hədisləri yığıb, onu kitab halına salam. Hədisləri yığıb qurtardıqdan sonra onları imam Rza (ə)-a göstərdim və dedim bu rəvayətləri sizin ata-babalarınızdan (məsum imamlardan) nəql yazmışam. İmam Rza (ə) hədislərin bəzilərinin üzərinə xət çəkib buyurdu: «Bunlar yalandır».

## *MÜCTEHİDLƏRİN ƏXBARİLƏRLƏ MÜBARİZƏSİ*

Lakin əxbarilər bütün bunları qəbul etmək istəməmişlər. Uzun illər müctəhidlər ilə əxbarilər arasında çəkişmə və mübahisələr olmuşdur. Əxbariliyi donuq və qeyri-fəal cərəyan adlandırmaq olar. Onlar bununla kifayətlənməyib, qeyri-məntiqi təəssüb hissinə yiyələnməyə başlayırlar. Şiələrə irad tutub deyirlər: «Şəri hökmləri, həqiqəti üzə çıxarmaq üçün Quran, sünnə, əql və icmanı dörd əsas dəlil hesab edirsiniz. İcma əhli-sünnə tərəfindən meydana gəldiyi bir halda, onu necə dəlil hesab etmək olar. Məgər Əli (ə)-ın xilafətdən kənarlaşdırılmasına səbəb olan icma olmadımı».

Müctəhidlər onlara cavab verərək deyirlər: «Əvvəla, xilafətin icma ilə heç bir əlaqəsi olmamışdır. Bu Peyğəmbər (s)-ın açıq-aşkar buyurduğu olmuşdur və Əbu Bəkr icma yolu ilə xəlifə olmamışdır. İcma ona deyilir ki, bütün nəzər sahibləri hər-hansı bir məsələ üzərində müzakirə etmiş olsunlar. Əbu Bəkr xilafətə təyin olunduqda isə, Əli ibni Əbu Talib və Zübeyr Mədinədə idilər. Bir neçə nəfər şəxs Bəni-Səqifədə toplaşaraq adını icma qoyurlar. Əxbarilər dedilər: «Xeyr! İcmanın dərdi bir o qədər də ağır deyildir. Sizlər ağıla istinad edir və qarşılaşdığınız məsələləri onun vasitəsilə həll etmək istəyirsiniz. Bu isə tam səhv bir işdir. Əgər hər hansı bir hədisi ağlınız qəbul etməzsə, biz buna etina etməməli, ümumiyyətlə ağıla belə bir haqq verməməliyik».

Bu məsihilərin dedikləri sözlərdir. Onlar ağılın dini məsələlərə müdaxilə etməsini yolverməz hesab edirlər. Məsihilər deyirlər ki, Allah İsa oldu, İsa da Allah oldu. Aləmi vücuda gətirən Allah təkdir, tək olduğu halda da üç şeydən ibarətdir. Axı varlıq necə həm bir, həm də üçlük təşkil edə bilər? Ağıl bunu rədd edir. Lakin onlar ağıla bu kimi işlərdə heç bir səlahiyyət vermirlər.

Əxbarilər də məhz belə bir məntiqə əsaslanırdılar. Belə bir misal çəkirlər: «Bir dənizin suyunun bir fincana yerləşməsini ağıl qəbul etməyir. Lakin ağılın bu kimi məsələlərə müdaxilə etməyə heç bir səlahiyyəti yoxdur». Əxbarilər bu məntiqlə hoqqabaz və fırıldaqçı şəxslərdən istifadə edərək, minlərlə hədis uydurur və onların ixtiyarına qoyurdular.

Təəssübkeş və İslama qarşı qərəzli mövqe tutan yəhudilər belə bir münasib şəraitin yarandığını görüb, hədis məcmuəsi uydurub əxbarilərin ixtiyarına qoyur və onlar tam sadəlövlüklə bu hədislərə istinad edirdilər.

«Silsilətil-Əhmar» və digər hədis məcmuələri sözün əsl mənasında İslam dünyası üçün böyük bir faciə olmuşdur. Əgər müctehidlər bu sahədə öz səylərini göstərməsəydilər, bu günlər müsəlmanlar böyük çətinliklərlə üzləşməli olacaqdılar.

## *ƏXBARİLƏRİN QURANLA TOQQUŞMASI*

Bəs Quran? Hədislərin mötəbərliyini sübuta yetirmək üçün o necə aradan götürməli idi? Axı onu Allah kəlamı olmadığını deyə bilmirdilər. Əxbarilər belə bir məntiqə əl atırlar: «Quran hər şeydən uca olduğu üçün adi insanlar

onu başa düşməyə qadir deyildilər. Onu dərk edə biləcək şəxs varsa, o da məsum imamlardır».

Quran oxunub dərk olunmaq üçün nazil olmuşdur. Baxaq görək, imamlar özləri bu haqda nə demişlər. Onlar, necə deyərlər Quranın zahiri mənalarını dəlil hesab etməmişlər. Məsələn, «Maidə» surəsinin 90-cı ayəsində deyilir: «**Şərab da [içki də], qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız**».

Ayə`nin zahiri mənasına baxaraq deyə bilərik ki, şərab və qumar qəti olaraq haram edilmişdir. Lakin əxbarilər bununla razılaşmayıb deyirlər: «Xeyr! Rəvayətlərə müraciət etmək lazımdır. Görək şərab və qumar haram edilmişdir, ya yox?».

Ümumiyyətlə onlar belə bir fikirdədirlər ki, Quranın müraciət etdiyi şəxslər əsla bizlər [müsəlmanlar] deyildir. Beləliklə Quranı da etibardan salaraq, yalnız hədis və rəvayətlərə müraciət etməyi zəruri hesab etmişlər. Lakin həqiqəti aşkara çıxarmaq üçün Quranın nə dediyinə və nəql olunmuş hədis və rəvayətlərin hansının mötəbər və hansının isə zəif olduğuna diqqət yetirilməlidir. Hər şeyi məntiqi olaraq araşdırmalı, alimlərin [icmanın] verdikləri fitvaları nəzərdən keçirməliyik. İctihadla müxalif olan əxbarilərin dediklərini nəzərə almaq, bəzən Quranın özünü də sual altına almalı olacağıq. Məsələn, «**Siratəlləzinə ənəmtə ələyhim ğəyril məğzubi ələyhim vələzzallin**» ayəsini onlardan bəziləri öz saxta hədislərinə istinad edərək belə oxumuşlar: «Siratə mən ənəmtə ələyhim ğəyril məğzubi ələyhim və ğəyriz-zalin». Beləliklə, saxta və qeyri-mötəbər hədislərə istinad edərək, Quranın bir çox ayə və kəlmələrini dəyişib bir qədər fərqli olaraq oxumuşlar. Bununla kifayətlənməyib həmin Quranların nəşrinə başlamışlar. Lakin Ayətulla Birucərdi bundan xəbər tutur, nəşrin qarşısını alıb, çap olmuş Quranları dənizə tökməyi əmr edir. Vay o gündən ki, həmin Quranlar çap olub yəhudi və məsihilərin əlinə düşmüş olaydı. Onlar bunu bəhanə gətirərək deyərdilər: «Quranın təhrif olunmadığını iddia edən müsəlmanlar indi özləri öz əlləri ilə yeni Qurandan fərqli olan başqa bir Quran yazmışlar».

Xəvaric heç də Quranın oxunuşunun əleyhinə deyildi. Onlar Quranı yazıb-oxumağı tövsiyə edir, lakin onu təfsir və dərk etməyi yasaq edirdilər. Məhz bunun nəticəsində İslam alimləri bir müddəti Quranı təfsir etməkdən boyun qaçırmışlar. Əxbariliklə meydana gəlmiş belə bir qorxulu tərzi-təfəkkür, İslam dünyasına ağır zərbə vurmuşdur və təəssüflər olsun ki, indinin özündə də, hələ də onun ağrı-acısını çəkməyə davam edir.

Mənə belə gəlir ki, əxbarilik şərqdə qərbin materializm fəlsəfəsindən irəli gəlmişdir. Çünki, əxbarilik meydana gəlməklə, qərbdə fəlsəfəsini ixtira etdilər. Onlar ağıl və şüuru rədd edir və yalnız göz ilə görünən və hiss orqanları ilə hiss olunan şeylərin mövcud olduğunu qəbul edirdilər. Belə bir ideologiya Səfəvi dövləti ilə Avropa ölkələri arasında sıx əlaqələr bərqərar olunduğu bir halda meydana gəlir və həmin dövrdə əql və məntiqi rədd edən yeni cərəyan ortaya çıxır. Onlar materializm fəlsəfəsindən bir qədər fərqli

olaraq əxbariləri müdafiə edir, ağılın dini məsələlərə müdaxilə etməyə səlahiyyəti çatmadığını hesab edirdilər və təəssüf olsun ki, bizlər də bunda müqəssir olmuşuq.

## ONUNCU FƏSİL

### *MƏŞRUTƏ*

«**Hökm ancaq Allahındır**»[22].

8 və 9-cu fəsillərdə İslam tarixində meydana gəlmiş iki donuq və qeyri-fəal cərəyana işarə etdik. Onlardan biri xəvaric, digəri isə əxbarilər olmuşdur. Xəvaric «**Hökm ancaq Allahındır**» (İnnəl hukmə illa lillah) ayəsini şuar edərək, hakimiyyət uğrunda mübarizə aparan iki nəfər şəxsdən birini həkəmiyyət (qəzavət) yolu ilə xilafətə təyin etməyin din ilə ziddiyyət təşkil etdiyini bildirirlər. Onlar özləri bu işi gördükləri üçün özlərini günahkar hesab edir, tövbə etməyi yeganə yol görür, Əli (ə)-ı da tövbə etməyə vadar edirlər. Lakin Əli (ə) bu işdə onun əli olmadığını və bunun üçün tövbə etməyəcəyini bildirir. O deyirdi: «Bu iş sizin təsəvvür etdiyiniz kimi heç də küfr deyildir, səhvə yol verilmiş və müqəssir də mən deyil, sizin özünüzsünüz».

Haqqında söhbət açdığımız başqa bir cərəyan əxbarilik idi. Əkbarilər xəvaricdən bir o qədər də fərqli deyildi. Onlar ictihadı cəmiyyətlə rədd edir, bunu ağılın dini məsələlərə müdaxiləsi kimi qələmə verirdilər. Qurana gəldikdə isə, oun dərk və təfsir olunmasını yalnız imamların öhdəsinə qoymuşdular.

Bu iki cərəyanla yanaşı, yaşadığımız əsrdə «Məşrutiyyət» adlanan başqa bir cərəyan meydana gəlir. Bu cərəyan meydana gəlməklə, İran əhalisi iki hissəyə bölünür: məşrutiyyət tərəftarları və onunla müxalif işibdad tərəfdarları. Tək şuya siyasətçilər deyil, ruhanilərin də böyük bir hissəsi məşrutiyyət cərəyanını dəstəkləyirdi. Məşrutiyyətlə müxalif olanlar harada olularsa-olsunlar, dini məsələlərdə tələbələrlə pis davranır, onları aylıq hüquqlarından məhrum edir, bir sözlə özlərindən uzaqlaşdırmağa çalışdırırlar. Onlar bir-birlərini hətta küfr etməkdə belə ittiham edirdilər. Beləliklə, ruhanilər arasında ixtilaf və qarışdırma yaranmağa başlayır.

Burada olduqca mühüm bir mətləbə işarə etmək istəyirik. Məşrutiyyət barədə söhbət almaq istədikdə, iki mühüm məsələ ilə qarşılaşırıq və biz burada yalnız biri haqda söhbət açmaq istəyirik. O da bundan ibarətdir ki, görəsən, ictimai-siyasi baxımından İranda Məşrutiyyət cərayanının baş verməsinə hansı alimlər səbəb olmuş nə kimi (xarici siyasi) amillər onunla müxalif olmuşdur?

Dünyaya hakim olan iki böyük siyasətdən biri məşrutiyyəti dəstəkləmiş, digəri isə ona qarşı müxalif mövqe tutmuşdur. Nə üçün?

---

[22] «Ənam» surəsi, ayə 57

Məşrutiyyəti dəstəkləyən qüdrətli ölkələr bu cərəyan qalib gəldikdən sonra öz siyasətini İranda tətbiq etməyə çalışırdılar. O, buna naildə olur. Müxalif tərəf isə İrandakı nüfuzunu itirmək istəmir və öz rəqibinin qarşısını almaq istəyirdi. Məşrutiyyətlə müxalif olanlar, həqiqi məşrutiyytin həyata keçməyəcəyini görür və ölkəyə yeni xarici siyasətin nüfuz etdiyini hiss edirdilər. Bunun üçün də meydana gələn cərayanla müxalifət edirdilər. Məşruyətçilər ilə dövlət tərəfdarlarını tanıyır və ölkəyə tətbiq olunacaq siyasətin təhlükəsini başa düşürdülər (Ruslar dövləti istimbdadı və İngilislər isə məşrutiyyəti dəstələyirdi).

## *MƏŞRUTƏÇİLİYİN TƏRƏFDARLARI VƏ MÜXALİFLƏRİ*

Mərhum axund Xorasani kimi görkəmli şəxsiyyət məşrutiyyət tərəfdarlarında həqiqi alim və yüzlərlə tələbə yeişdirmiş, İslam dünyasının böyük dini şəxsiyyətlərindən olmuşdur. Onun dərslərində min ikiyüz tələbə və üç yüzə yaxın müctehid iştirak edərdi. Elm və savadı ilə yanaşı, o, olduqca zahid və təqvalı ruhani idi. Məşrutiyyətdən təkləməkdə də şübhəsiz ki, onun niyyəti saf və millətin mənafe ilə həmahəng olmuşdur və kimsə məşrutiyyət ilə müxalif olmuşsa, heçdə o demək deyildir ki, o axund Xorasanini günahkar hesab etmişdir. Yerli istibdadı dəstəkləyən və məşrutiyyətlə müxalif olanlardan biri də, fiqh sahəsində misli olmadan mərhum ağa seyyid Kazım Yəzdi kimi böyük şəxsiyyət olmuşdur. Məşrutiyyəti dəstəkləyən və yerli istəbdadla müxalif olanlar da heçdə Mərhum Yəzdiyə qarşı müxalif mövqe tutmamış və onu bu işdə günahkar hesab etməmişlər. Demək, məqsəd alimlərini dəstəkləmək və ya təqsirləndirmək deyildir. Çünki, bu bir tərəfli məsələ deyildir. Əgər məşrutiyyət və istibdad alimi bir məsələ olsaydı, bu haqda söhbət açmaq olardı. Məşrutiyyətin baş verməsinə bir necə alim səbəb olmuşdur.Biz burada xarici siyasətlərin məşrutiyyət inqilabına nə kimi təsir qoyduğu və kimlərin onunla müvafiq və ya müxalif olduqları haqda söhbət açmaq istəmirik. <u>Faktlar göstərir ki, məşrutiyyət ilə müxalif olanlar, belə bir mövqe tutmalarını həyata geçirilən «məşrutiyyətik» deyənlərlə fərqli olması ilə izah edirdilər</u>. Mərhum Şeyx Fəzlullah və başqaları bu cərayanı, necə deyərlər, qanuni məşrutiyyət hesab etmirdilər.

Hər-halda belə bir cərəyan həyata keçirilir ki, bu da bir çox qanlı hadisələrin baş verməsinə səbəb olur. Yüzlərlə müctehid qətlə yetirilir Şeyx Fəzlullah Nuri kimi böyük şəxsiyyətlər dar ağacından asılır. Bu heçdə balaca iş deyildir Mərhum Nuri zəmanəsinin dahi şəxsiyətlərindən biri idi. Sözün əsl mənasında, <u>nun</u> və hiqiqi ictihad sahibi olmuşdur. Biz bu məsələyə başqa bir mövqeyi nəzərdən baxmaq istəyirik. Yəni baş vermiş bu cərayanı xarici amillərdən ayırdıqdan sonra araşdırmaq istəyirik. Hər şeydən əvvəl bizi maraqlandıran budur ki, o işlər İran məşrutiyyətilə hazır idi ya yox?

Əhalisinin böyük bir hissəsinin məşrutiyyətinin nədən ibarət olduğunu bilmədiyi bir halda, qapı-qapı döyüb deyirdilər: «Heç bilirsiniz məşrutiyyət

nə demikdir? Əgər ölkədə məşrutiyyət hakimiyyəti bərqərar olunarsa, yemək-içməyinizi qapılarınızı döyüb sizə verəcəklər». Sadəlöv, avam camaat bundan heyrətə gəlib, belə bir günün həsrətini çəkir və onu səbirsizliklə gözləyirdilər. Nə məşrutiyyətlə mübarizə aparan nə etdiyini bilirdi, nə də istibdad dövləti müdafiə edənlər nəyin ardınca getdiklərini başa düşürdü. Millətin nəyəsə hazır olmaması həmin şeyi başa düşməməsi deməkdir. Bizlər özümüzdə milləti dərk edən bir ölkə təsəvvür yaratmaq istəyirik ki, bu cərəyanın baş verməsində heç bir xarici amil müəssər olmamışdır. Məşrutiyyət, İslam qanunları ilə həmahəng olmuşdur, ya yox? Biz bunu araşdırmayınca, belə bir donuq və qeyri-fəal cərəyanın həqiqi mahiyyətini dərk edə bilməyəcəyik.

Xarici alimləri əsas götürən bəzi şəxslər, məşrutiyyəti İslam dini ilə zidd və çarəsizlik üzündən istibdad dövləti ilə həmahəng olduğunu hesab etmişlər. Nə üçün?

Məşrutiyyət tərif olunmayınca, onun barəsində heç bir söz deyə bilmərik.

## *MƏŞRUTƏNİN TƏRİFİ*

Hər bir müəssisə şirkətin və vahid idarə etmə üsulunda yeni müdüriyyətə ehtiyacı olduğu kimi, ölkənin də onu idarə edəcək vahid hakimiyyət, qanun verici orqana və dövlətçiliyə ehtiyacı vardır. Əgər şirkət və müəssənin müdüriyyətə heç bir ehtiyacı olmadığını hesab edəriksə, biz həm məşrutiyyəti, həm də istibdadı inkar etmiş olarıq. Çünki istibdad bir nəfər şəxsin hakimiyyətinə deyilir (anarxiya). Məşrutiyyət isə, hakimiyyətin tam başqa bir növüdür. Demək həm istibdad, həm də məşrutiyyət səhv hakimiyyət üçündür. «Nə üçün?» soruşduqda, cavabında deyəcəklər: «Əgər ölkədə dini qanunlar tətbiq olunarsa, bütün ehtiyaclar aradan götürülür və hakimiyyətə heç bir ehtiyac qalmır. Onda Xəvaricin (Hökm ancaq Allahındır) verdiyi şuarla bunun arasında nə kimi fərq olacaqdır?! Əli (ə) buyurur: «Bu düz sözdür, lakin onlar düzgün nəticə cıxarmırlar».

Hökm ancaq Allahındır! Düzdür, hökm ancaq Allah tərəfindən verilməlidir, lakin onlar bunu düzgün başa düşməmişlər. Onlar deyirlər: «Əmir (hakim) Allahla olmalıdır». Məgər bu mümkündürmü? İstər pis olsun, istərsə də yaxşı, camaat daim rəhbər və vahid hakimiyyətə ehtiyac duyur. Əlbəttə yaxşı olar ki, hakim yaxşı və ədalətli olsun. Pis olması isə, olmamağından daha yaxşıdır. Yəni hakimiyyət üçün dini və ya qeyri-dini qanunların mövcud olması kifayət etmir. Bunun üçün də, əhli-təsənnün xilafət məsələsini qəbul edir. Hətta əvvəllər xəlifəyə heç bir ehtiyac durmasun xəvaric belə sonralar özləri məcbur olub, xəlifənin hakimiyyətini qəbul etmişlər. Şiə və əhli-təsənnünün bu barədə həmrəy olmaları heç də hakimiyyətə ehtiyac duymamağa dəlalət etməyir. Hər iki məzhəb hakimiyyəti zəruri hesab etsə də, bu məsələyə olan baxışları bir qədər fərqlidir. Əhli-təsənnün Peyğəmbər (s)-dan sonra xəlifənin müsəlmanların

özləri tərəfindən təyin olunmasını qanuni hesab edir, şiələr isə xilafətə yalnız Peyğəmbər (s)-ın özünün təyin etdiyi şəxsi layiq hesab edirlər.

Hökumətə ehtiyacımız varsa, bəs qanunvericilik və dövlət idarəetmə üsulu necə olmalıdır? Kimlərsə qərara gəlib, başqaları icra etməlidir? Yoxsa qərar qəbul edən şəxsin özü onun icrası olmalıdır? Bir nəfər şəxsin qərar qəbul edib onu icra etməsi, bu günlər diktatorluq adlanır. Məşrutiyyət isə, bundan tam əks məna daşıyır. Yəni bir neçə nəfər şəxs qərar qəbul edir, başqaları isə onu icra etməyə başlayır. Başqa sözlə desək, əhalinin nümayəndələri qərar qəbul edir, dövlət heybəti isə, onu icra edir. Dövlət heybətinin özünü də əhali tərəfindən seçilmiş nümayəndələr təyin edir. Nəticədə camaat özü özünə hakim təyin etmiş olur. Məşrutə müxalifətləri bununla razılaşmayıb, deyirdilər: «Siz hər şeyi bir-biri ilə qarışdırırsınız. Deyirsiniz ki, diktatura etməsi, məşrutə ilə əhalinin seçdiyi nümayəndələrin qərar qəbul edib, dövlət heyətinin onu icra etməsinə deyilir. Belə olduqda (yəni məşrutə şəraitində), yalnız qərar qəbul olunmayır. Əgər belə olaydı, əsla müxalif olmazdıq və deyilənlər tamamilə doğru və düzgün olardı. Əgər məşrutə şəraitində camaat nümayəndələri və nümayəndələr qanunverici orqanı seçmiş olsaydı, həmçinin nümayəndələr qanun qəbul edib, dövlət heyəti onu icra etsəydi, bununla razılaşmaq olardı. Lakin qəbul etdikləri qərarın şəri qanunları ilə müvafiq olub-olmadığına diqqət yetirilməlidir. Şəri qanunlarla müvafiq qəbul olunan bütün qərarlar qüvvəyə minib dövlət tərəfindən icra olunarsa, çox yaxşı olardı. Lakin dediyiniz məşrutə sistemi bundan ibarət deyildir. Məşrutə odur ki, millət öz nümayəndələrini seçib, onlarla qərar qəbul etsin. Yaxşı sözdür, lakin həqiqət deyildir. Nümayəndələr qanun tərtib edib qərara gəlməli, lakin şəri qanunlara zidd heç bir qanun tərtib edib və dövlət onu icra etməməlidir».

Bir daha diktorluq məntiqi məşrutə məntiqinə qalib gəlir. Lakin məşrutə tərəftarları buna başqa bir cavab verirlər.

## *TƏRƏFDARLARIN ÜSUL VƏ MƏNTİQİ*

Düzdür, biz deyirik nümayəndələr qərar qəbul etməlidir. Lakin bu heç də o demək deyil ki, hökm çıxarmaq istəyən müctehid şəri qanunlara nəzər salması və həmin şəri qanunu dövlətə bildirib və dövlət də onu icra etməlidir. Bunun belə olmadığını biz də bilirik. Nümayəndə qanun tərtib edir. Lakin baxaq görək istənilən qanunu çıxarmaq alarmı? Xeyr! Bizim din adlanan ümumi bir qanunumuz vardır. Din, insanların bütün dövrlərdə üzərlərinə düşən vəzifələri təyin etmişdir. Burada bütün ümumi qanunlar bəyan edilmişdir. Lakin bəzi hallarda camaat ilahi qanunlara əsasən, özləri üçün müxalif qanun və qaydalar tərtib etməli olur. Bunun üçün də konstitusiya yazılmışdır. Orada açıq-aşkar şəkildə deyilir ki, beş nəfərdən az olmayan heyət üzvləri əgər zamanın tələblərindən agah olan müctehid olarsa da, məclisin qəbul etdiyi qərarların şəri qanunlara zidd olmamasına nəzarət

etməlidir. Qəbul olunan qərar konstitusiya ilə müxalif olduqda, onun qarşısı almalıdır. İslam və dini qanunlar dedikdə, heç də o demək deyil ki, camaat bütün cüzi məsələlərdə Quran və sünnətə müraciət etmiş olsun. Məsələn, sivilizasiya nəticəsində şəhərin nəqliyat vasitələrii dəyişib, əhali avtomobildən istifadə etməli olur. Bədbəxt hadisələrinin qarşısını almaq üçün yol hərəkət qaydaları təyin olunub, qanun halına salınır. İctimaiyyətdə tətbiq olunan bu kimi qanunlar cəmiyyətin ehtiyacları üzündən meydana gəlir və bunun din və şəriət ilə heç bir bağlılığı yoxdur. Ev sahibinin ailədə tətbiq etdiyi qanunlar da o cümlədən. İlahi qanun budur ki, ev sahibi kimi ailə üzvləri ataya hörmətlə yanaşıb, onun dediklərinə tabe olsunlar. O da, atalıq borcunu layiqincə yerinə yetirib ailəsinin keşiyində durmalıdır. Atanın ailədə bəzi şeyləri qadağan edib, və ya göstəris verməyə haqqı vardır. Lakin zor tətbiq etməyə heç bir haqqı yoxdur.

Allah-təala cüzi ailə məsələlərində qanun-qaydalar müəyyən etmişdirmi? Məsələn, atanın görməli olduğu işləri qanun şəklində bəşəriyyətə bəyan etmişdirmi? Xeyr! Verilən hökm ümumi xarakter daşıyır. İslam övlada valideynə itaət və eyni zamanda valideynə ailə üzvləri ilə ədalətə rəftar etməyi əmr etmişdir.

Başqa bir misal: Qədimdə bütün hamamlarda hamamçılar müəyən qayda və qanunlar tətbiq edərdi. Hamamçı deyə bilərmi ki, "Hökm ancaq Allahındır" və qanuni yalnız Allah tətbiq etməlidir. Xeyr! Hamamçının öz hamamında müəyyən qayda və qanunlar tətbiq etməyə səlahiyyəti çatır. İslam da bizlərə bunu deyir. Yəni hər bir şəxs, ixtiyarında olduğu mərkəz və müəssisədə lazımi qayda və qanunlar tətbiq etmək səlahiyyətindədir. Həm tətbiq olunan qanun ədalətli olmalı, həmdə ona tabe olan şəxslər icrasında səhlənkarlığa yol verməməlidirlər.

Bütün bunlar cüzi məsələlərə aiddir. Ümumi məsələlərdə isə dediyimiz kimi, hər bir ölkə vahid rəhbər və idarəetmə üsuluna ehtiyac duyur. Lakin əgər həmin hakim orqan şəri qanunlara zidd olaraq hər-hənsı bir qərar qəbul edərsə (məsələn təlaq ixtiyarını kişidən alıb qadına verərsə), heç də düzgün addım atmış olmaz. Lakin üzərlərinə düşən məs`uliyyət onlara haqq verir ki, ümumi xarakter daşıyan ilahi qanunlara müvafiq, ehtiyac durulan qanunlar qəbul etsin. İlahi qanunları nəzərə almadan qəbul etdikləri qərarlara qanun adını vermələri, heç də düzgün olmazdı. Lakin ilahi qanunları nəzərə alaraq, cüzi məsələlərdə qərar qəbul etməyin heç bir nöqsanı yoxdur. Məsələn xaricə mal sadir edib-etməmək barədə qərar qəbul olunur. Bu elə bir məsələ deyildir ki, dində onun haqda ayrıca hökm verilmiş olsun. Quran bu barədə ümumi hökm verir. Məsələn, elm və təhsil barədə İslam bizlərə belə bir tövsiyə edir: «Elm, kafir və müşriklərin ixtiyarında olsa belə, onu əldə etməyə çalışın».

Bu barədə istənilən qədər hədis və rəvayət nəql olunmuşdur. Onlardan birində deyilir: «Elm, möminlərin itirdiyi və sorağında olduğu dəfinədir, Harada olursa olsun, hətta müşriklərin ixtiyarında olsa belə, elmə yiyələnməyə çalışın». Belə olduqda, insan üzərinə düşən vəzifəni müəyyən

etmiş olur. Lakin digər məsələlər meydana gəlir. Fərz edək, xaricə sadir etdiyimiz mal hədər olur. Belə olduqda, ilk növbədə bunun səbəblərini araşdırmalıyıq. {izaha ehtiyacı var, ümumiyyətlə yersiz işlədilib}

Təntavi öz təfsirində deyir: «Bir vaxtlar Misirdən olan ərəb tələbələrinə vaxt ayırıb baş çəkirdim. Soyuq qış günlərindən birində eşiyə çıxmışdım. Birdən gördüm bu soyuq havada həmin tələbələr ayaqlarını çıxarıb əl-üzlərini, sonra da ayaqlarını yumağ başladılar. Yuyub qurtardıqdan sonra ibadət adlandırdıqları əməlləri yerinə yetərməyə başladılar». Sonra deyir: «Vay! Bunlara bir bax, dinlərini qoruyub-saxlamaqla yanaşı, elminizə də yiyələnirlər!». {mə`naya diqqət et}

Əgər bəşər bu kimi cüzi məsələlərdə də qanun tətbiq etməyə qadir olmazsa, bunu onun fəaliyyətsizliyi adlandıra bilərik. Əxbarilərin dedikləri kimi, bizim müctehidə heç bir ehtiyacımız yoxdur. Hədis və rəvayətlərə müraciət etsək, kifayət edər.

Hədis və rivayətlərdə bir çox hallarda məsələ ümumi şəkildə bəyan olunur. Müctehid yalnız araşdırma apardıqdan sonra qəti qərara gəlməli və cüzi məsələlərdə hökm verməlidir.

Deməк, əgər müdiriyyət ümumi qanunlara əsasən özü üçün nizamnamə tətbiq etmək istərsə, buna adi hal kimi baxmaq lazımdır.

# ON BİRİNCİ FƏSİL

## *PEYĞƏMBƏRİN VƏZİFƏLƏRİ: RİSALƏT-QƏZAVƏT-HÖKUMƏT*

«**Peyğəmbər sizə nə verirsə, onu götürün; nəyi qadağan edirsə, ondan əl çəkin**»[23].

Peyğəmbər (s), Allah-təala tərəfindən üç müqəddəs vəzifəyə təyin olunmuşdur. O da öz növbəsində özündən sonra üzərinə düşən vəzifəni öz davamçılarına çatdırmalı idi. Necə kə, bunu da layiqincə yerinə yetirir.

Üzərinə düşən ən mühüm vəzifələrdən biri "risalət", yəni Peyğəmbərlik idi. O, Allah tərəfindən nazil olan vəhyləri qəbul edir və onu insanlara çatdırırdı. Demək, Peyğəmbərlərin ən başlıca vəzifəsi, dinin təbliği və başqalarına çatdırmaq olmuşdur. Maidə surəsinin 99-cu ayəsində bu haqda deyilir: «**Peyğəmbərin üzərinə vəzifə isə, ancaq Allahın əmrlərini insanlara təbliğ etməkdir**».

O, ilahi hökmləri müəyyən şəxs və qəbilələrə deyil, yəni namazı necə qılmağı, orucu necə tutmağı, xums və zəkatın necə və hansı şəraitdə verməyi, Həcc mərasiminə necə getməyi və oranın əməllərini və s.-i izah edir və icra etməyə sövq edirdi.

Müqəddəs risalət vəzifəsi ilə yanaşı («müqəddəs» dedikdə, bu vəzifənin Allah tərəfindən verildi nəzərdə tutulur), Peyğəmbər (s)-ın üzərinə başqa bir məsuliyyət də düşür. O da qəzavət və hakimlik vəzifəsidir.

Camaat arasında ədalətli hökm çıxarmaq üçün bu vəzifə də Peyğəmbərlik kimi Allah tərəfindən verilməlidir. Cəmiyyətdə ictimai hüquq pozuntuluğuna yol verildikdə, hakim qanuna əsasən heç kimin hüququnun taptalanmasına yol verməməlidir. Həzrət Məhəmməd (s) yalnız peyğəmbər deyil, həm də hakim idi və o, bu vəzifəyə Allah tərəfindən təyin olunmuşdu. Nisa surəsinin 65-ci ayəsində bu haqda deyilir: «**Amma xeyr! (Ya Məhəmməd) Sənin Allahına and olsun ki, onlar öz aralarında baş verən ixtilaflarda səni hakim (munsif) təyin etməyincə və verdiyin hökmlərə görə özlərində bir sıxıntı duymadan sənə itaətdə boyun əyməyincə, (həqiqi surətdə) iman gətirmiş olmazlar**».

Göründüyü kimi, ayə peyğəmbərlik məqamına deyil, qazilik (munsiflik, hakimlik) məqamına dəlalət edir. Ayənin mənası budur ki, kimliyindən asılı olmayaraq, hər bir şəxs Peyğəmbər (s)-ın çıxardığı hökmün qarşısında tabe olmalı və ondan heç bir təmannada olmamalıdır. Məsələn, din uğrunda böyük çətinliklərə üzləşmiş, el-obasını, ailəsini, var dövlətini tərk etmiş mühacir ilə İslamı təzə qəbul etmiş adi bir şəxs arasında və ya müsəlman və qeyri-müsəlman ixtilaf meydana gətirsə, mühacir çəkdiyi əzab-əziyyətə görə

[23] «Maidə» surəsi, ayə 99

və müsəlman İslamı qəbul etdiyi üçün Peyğəmbər (s)-ın onun tərəfini saxlayacağını ummamalıdır. Peyğəmbər (s)-ın çıxartdığı hökmə tabe olub, artıq heç bir şey gözləməməlidir. Həqiqi iman da buna deyildir.

Bunlarla yanaşı, Peyğəmbər (s)-ın üzərinə başqa bir müqəddəs vəzifədə düşür. O da hakimiyyət və rəhbərlik vəzifəsidir. Peyğəmbər (s) cəmiyyətə rəhbərlik edir, yaranmış şəraitlərdə lazımı göstərişlər verirdi. Təhlükə ilə üzləşdikdə, ümumi səfərbərlik elan edir, əkin biçin məsələlərində müsəlmanlara dəyərli tövsiyələr verir və bir rəhbər kimi cəmiyyətin idarə olunmasına nəzarət edirdi. Demək, həzrət Məhəmməd (s) bir peyğəmbər kimi Allah tərəfindən nazil olan ayələri müsəlmanlara çatdırır, bir qazi kimi onların ixtilaflı məsələlərini həll edir və bir rəhbər kimi onlara rəhbərlik edir və onların siyasi məsələlərini həll edirdi. Nisa surəsinin 59-cu ayəsində Peyğəmbər (s)-ın siyasi rəhbərliyi haqda deyilir: «**Ey iman gətirənlər! Allaha, Peyğəmbərə və özünüzdən olan ixtiyar sahiblərinə ehsan edin!**».

Demək, camaat hakim qanuna tabe və məhkum inzibatı qanunlar əsasında mühakimə olunmalıdır.

Göründüyü kimi, ayədə Allah onun peyğəmbərinə və ixtiyar sahiblərinə tabe olmaq əmri verilir. Şiə alimləri ayədəki ixtiyar sahiblərini xilafətə əlaqələndirir, bu məqama da Allah tərəfindən təyin olunmağı hesab edirlər.

## *BU ÜÇ VƏZİFƏNİN İMAMA ÖTÜRÜLMƏSİ*

Burada başqa bir məsələ meydana gəlir. O da, budur ki, görəsən, Peyğəmbər (s) özündən sonra bu məqamlara kimisə təyin etməlidir. Cavabında deyirik: «Bəli!». Lakin burada incə bir məsələyə diqqət yetirmək lazımdır. O da, Peyğəmbərlik məsələsidir. Məlum məsələdir ki, Həzrət Məhəmməd (s) peyğəmbərlərin sonuncusu və ən şərəflisidir. Belə olan bir halda təbii ki, özündən sonra təyin etdiyi canişinilə onun peyğəmbərliyi deyil, peyğəmbərlik vəzifələri keçəcəkdir. Şəri məsələlərin izahı, rəhbərlik, qəzavət və s.

Fərq yalnız bundan ibarətdir ki, Peyğəmbər (s) hökmləri vəhy yolu ilə Allahdan, canişininə onun özündən əxz ediyi olur. Peyğəmbər (s)-ın canişini, başqa sözlə desək, imam da bu məqama Allah tərəfindən təyin olunur. Qəzavət və rəhbərlik də eyni qaydada.

Peyğəmbər (s) özündən sonra ictimaiyyətə rəhbərlik və onların şikayətlərinə baxılması üçün kimisə bu vəzifəyə təyin etməli idi. Çünki cəmiyyət bu iki şeyə də daim ehtiyac duyur. Lakin bu barədə bəzi ixtilaflar nəzərə çarpır. Əhli-təsənnün belə hesab edir ki, xəlifənin özü həm də qazi olması və ya kimisə bu vəzifəyə təyin etməlidir. Şiələr isə belə bir əqidədədirlər ki, Peyğəmbər (s) vəfat etdikdən sonra hakimiyyət və rəhbərlik öz qüvvəsində olaraq qalır və bu məsuliyyət imamların üzərinə düşür. Çünki Peyğəmbərdən sonra cəmiyyət yenə də rəhbərlik və qanun vericiliyə ehtiyac duyur. Demək, hər üç məqam Peyğəmbər (s)-dan sonra onun canişinlərinə

keçir. Fərq yalnız burasındadır ki, o peyğəmbər deyil. Həm də dini hökmləri vəhy yolu ilə deyil, Peyğəmbər (s)-dan əks etmiş olur.

O ki qaldı Peyğəmbərliyə, bu məqama yalnız Allahın seçdiyi müəyyən şəxslər təyin olunur və həzrət Məhəmməd (s)-dan sonra bu məqama kimsə təyin olunmamışdır. Qəzavət və rəhbərlik ilə müəyyən şəxslər aid deyildir və bunu başqaları da öz üzərinə götürə bilər. Yəni peyğəmbərin səlahiyyəti, yalnız özündən sonra bəzi müsbət xüsusiyyətlərə yiyələnən şəxsləri rəhbərlik və qəzavətə təyin etməyə çatır. Məsələn, Peyğəmbər (s) deyə bilər ki, Quran maarifi, Peyğəmbərlik və dini məsələlərlə yaxından tanış olan, ədalətli və təqvalı şəxslərin qəzavət etməsi, daha məqsədə uyğundur. Belə olduqda, bu vəzifəyə yiyələnən hər hansı şəxs deyə bilər ki, məni bu məqama, vəzifəyə Allah təyin etmişdir və Peyğəmbər (s)-ın dedikləri xüsusiyyətlər özünü məndə əks etdirir. Deməк, mən qazilik etməliyəm.

Şiə məzhəbinin davamçıları belə bir əqidədədirlər ki, qazinin ən başlıca şərti, onun dini məsələlələrdə ictihad etməsi və bu sahədə mütəxəssis olmasıdır. Başqa bir şərti isə, adil və əhli-nəcabəti pak ailədən olmalıdır. Qazi rüşvət almamalı, tək qəzavət məsələlərində deyil, gündəlik yaşayışında da xoşa gəlməz işlərə yol verməməlidir. Lakin bəzən belə hesab edirlər ki, qazi yalnız qəzavət məsələlərində qanun pozğuntularına yol verməməli, rüşvət almamalı və başqalarının təsiri altına düşməməlidir. İşinə aid olmayan məsələlərdə isə tam azaddır. Şərab içmək, qeyri-əxlaqi səhnələrə baxmaq və s. Xeyr! Bu heç də belə deyildir. İslam nöqteyi-nəzərindən qəzavət o qədər müqəddəs bir məqamdır ki, belə bir ağır məsuliyyəti üzərinə götürmüş hər hansı bir şəxs tək qəzavət məsələlərində deyil, gündəlik həyatında da təqvalı, pak və saf niyyətli olmalıdır. Əgər insan qeyd olunan xüsusiyyətlərə yiyələnərsə, deyə bilərik ki, həqiqətən o bu məqama Allah tərifindən təyin olunmuşdur.

Peyğəmbər (s)-dan sonra ilahi hökmləri camaata çatdırmaq imamların üzərinə düşmüşdür. İmamət qurtardıqda necə?

İmamlardan nəql olunmuş hədislərdən birində bunun çıxış yolu belə açıqlanır: «Hədislərimizi nəql və onu dərindən dərk edən, halal-harama diqqət yetirən, adil və düz danışan şəxsləri sizə rəhbər və hakim təyin edirəm»[24].

Şəri hökmlərin insanlara çatdırılması, qəzavət və rəhbərliyin hər üçü müqəddəs vəzifədir və bu müqəddəslik Allah tərəfindən müəyyən edilmişdir. Nəyisə müqəddəsləşdirmək yalnız Allaha xoş olan bir xüsusiyyətdir. Əgər kimsə müftilik iddiası edirsə, hər şeydən əvvəl biz bu məqamın müqəddəs olduğunu nəzərə almalıyıq.

Əgər həmin şəxs fitva verirsə, ilk növbədə Peyğəmbər (s) və ondan sonra imamlar tərəfindən qeyd olunan ilahi hökmləri bəyan etməyə səlahiyyəti

---

[24] Üsuil-Kafi, cild 1, səh 67

çatdığını və onun müctehidə xoş olan xüsusiyyətlərə yiyələndiyinə dəqqət yetirməyi lazımdır.

Əgər bu ibarətlərin misdaqı olarsa, "Fəqih o kəsdir ki, özünü idarə edib, nəfsini ələ ala bisin. Fəqih o kəsdir ki, nəfsinə tabe olmayıb, dinin keşiyində dursun"[25] bu halda bilin ki, fitva verməyə layiqdir və səlahiyyəti çatır. Bilin ki o müqəddəslik nəqamına nail olmuşdur. Lakin imamət və elmi mərcəiyyət özünə məxsus yer tutur.

## *AYƏTULLAH BİRUCƏRDİNİN SÖZLƏRİ*

Yadımdadır, ayətullah Burucərdi deyərdi: «İmamət və rəhbərlik məsələsini bir birindən ayırmaqla, aramızdakı ixtilaflara aradan qalxacaqdır. Xilafət və rəhbərlik məsələsində biz (şiə məzhəbini nəzərdə tutur) belə bir əqiddədəyik ki, Peyğəmbər (s)-dan sonra xilafət Əli (ə)-a çatmalı idi. Əhli-təsənnün isə, Əbu Bəkrin xilafətini qanuni hesab edir. İxtilafa səbəb olan başqa bir məsələ imamət məsələsidir. Yəni biz yalnız Peyğəmbər (s)-ın rəhbərliyi və hakimiyyəti barədə deyil, onun ilahi hökmləri insanlara çatdırmaq vəzifəsi barədə də söhbət açmaq istəyirik. Bizi maraqlandıran sual budur ki, müsəlmanlar Peyğəmbər (s) vəfat etdikdən sonra dini məsələlərdə kimə müraciət etməli və öz çətinliklərini hansı yolla aradan qaldırmalı idilər? Kimin sözü bizim üçün dəlil olmalıdır?». Ayətullah Brucerdi sonra deyərdi: «Rəvayətlərdən bəzilərində deyilir: Peyğəmbər (s) buyurmuşdur: "Əli məndən sonra sizin xəlifəniz və rəhbəriniz olacaqdır». Başqa bir yerdə hədisə bunu da əlavə etmişlər - «Məndən sonra dini məsələlərdə Əliyə müraciət edin". Əhli-sünnətə deyirik: «Aramızdakı ixtilaf, yalnız Peyğəmbər (s)-dan sonrakı rəhbərlik ətrafındadır. Lakin bu barədə söhbət açmağa belə dəyməz, çünki indi nə Əli (ə) var, nə də Əbu Bəkr. Lakin başqa bir məsələ sual olaraq qalır. Peyğəmbər (s)-dan sonra kimin sözü bizim üçün dəlil olmalıdır? Səqəleyn hədisi bütün dini məsələlərdə Əhli-Beytə müraciət etməyi əmr etmirmi? Orada deyilir: «Mən sizün üçün iki ağır şeyi qoyuram: Allahın kitabı (Quranı) və Əhli-Beytimi...»[26].

Yəni dini məsələləri öyrəndiyimiz zaman Əhli-Beyt (ə)-ın buyurduqlarına nəzər salmalıyıqmı? Peyğəmbər (s) demişdirmi ki, mənim dediklərim dəlil olduğu kimi Əhli-Beytin də buyurduqları sizün üçün dəlildir? Bəli, demişdir. Xilafət barədə bir birimizlə bəhs edirik. Lakin hər şeydən əvvəl bu məsələyə diqqət yetirməli və həll etməyə çalışmalıyıq. Nə üçün xilafət mövzusu ətrafında özümüzü yoruruq? Əlbəttə, biz öz əqidəmizi qoruyub saxlamalıyıq ki, əgər Əli (ə) o zaman xilafətə təyin olunsaydı, İslam dünyası bu günlər belə fəlakətlərə qarşılaşmazdı. Lakin bu yalnız nəzəri bir məsələdir və biz bu barədə bir daha söhbət açmaq istəmirik.

---

[25] "İhticac", Təbərsi, cild 2, səh 263

[26] Səhihi-Muslim, cild 7, səh 122

Qəzavət məsələsində Əli (ə) Peyğəmbər (s)-dan sonra qazilik vəzifəsini icra edirdi. Lakin xəlifələr rəhbərlik edir və çətin olduğu üçün qəzavət məsələlərinə girişmirdilər. Qəzavət etmək üçün insan xüsusi elmə və istedada yiyələnməlidir. Bunun üçün də Əbu Bəkrin, xüsusilə Ömərin xilafət dövründə bir çox qəzavət məsələləri Əli İbni Əbu Talib (ə) tərəfindən həll olunurdu. Getdikcə müsəlmanlar yaşayan mənəqələr genişlənirdi. Hər məntəqə və hər şəhər qaziyə ehtiyac duymağa başladı. Yaranmış belə bir şəraitdə qəzavət xilafətdən ayrılıb, ayrıca vəzifəyə çevrildi. Dövrün xəlifəsi yalnız siyasi və dövləti idarəetmə məsələlərinə baxırdı. Xilafət mərkəzinə və ayrı-ayrı məntəqələrdə qazilər təyin olunurdu və onlar hər şeydə ədalətə riayət etməli idilər. Sonralar qazilik İslam dünyasınd daha çox əhəmiyyət kəsb etməyə başladı və Əbu Hənifənin şagirdi Əbu Yusuf İslam tarixində ilk dəfə olaraq «Qazilər qazisi» (qaziyul-quzzab) vəzifəsinə təyin olunur.

Kitabın əvvəlki fəsillərində qeyd etdik ki, Əbu Hənifə Bəni-Abbas xəlifələrinin siyasəti ilə heç cür razılaşa bilmirdi. Lakin onun ən mübariz şagirdlərindən olan Əbu Yusif isə onlarla həmkərlıq etməyə razı olurdu. Ətraf məntəqələrə qazi göndərilməsinə ehtiyac duyduqda, qazilər qazisi seçilməli və bu işi yerinə yetirməli idi. Bu vəzifəyə də ilk dəfə Əbu yusif təyin olunur. Qazilər üçün bir qədər fərqli paltarlar təyin edən şəxs də, məhz əbu Yusif oldu. O qazilər qazisi olduğu müddət ərzində bütün qazilər başqalarından fərqlənsin deyə, onlar üçün təyin olunmuş paltarlar geyirdilər. Bilmirəm, İslamdan əvvəldi qazilər başqalarından fərqli paltarlar geyirdilər, ya yox, ya bu adət Harun-ər-Rəşidin xilafət dövründən həyata keçirilməyə başladı? Elə həmin vaxtdan ruhanilərlə qeyri-ruhanilərin geyimləri bir birindən fərqlənməyə başladı.

Bir qədər əvvəl məşrutiyyət barədə söhbət açdıq. Burada həmin mövzunun bəzi çatışmamazlıqlarını aradan qaldırmaq üçün iki mətləbə işarə etmək istəyirik. Onlardan biri qanun tətbiq etmək barədədir. Sual: Allahdan başqa kimsə qanun tətbiq edə bilərmi?

Qeyd etdik ki, əgər tətbiq olunan qanun ilahi qanunların əksinə olarsa, kimsənin buna ixtiyarı çatmır. Lakin gündəlik məsələlərdə ilahi qanunlardan istifadə etməyin heç bir nöqsanı yoxdur. Qarşıya çıxan başqa bir sual budur. Məgər hakimiyyət müqəddəs bir vəzifə deyilmi? Allah tərəfindən təyin olunmamalıdırmı? Cavabında deyirik. Bəli belədir. Belə olduğu bir halda, bəs nə üçün hökumət və hakimiyyət Allahın deyildir? Xəvaric səhv olaraq deyirdi: «İnsanlar arasında gərək Allahın özü hökmranlıq etsin». Lakin bir tərəfdən onların sözündə həqiqət vardır. Yəni camaata rəhbərlik edən hakimiyyət müəyyən şəraitlərə yiyənməlidir və bütün bunlar müqəddəs İslam dinində müəyyən edilmişdir və buna əsasən, həm müctehid fitva verə, həm də Allah kimisə müəyyən etmədən camaat arasında hökmranlıq edə bilər.

Qanunun təyin və tətbiq olunmasına diqqət etməliyik ki, görəsən, İslam biz insanlara qanun tətbiq etmək ixtiyarı vermişdir, ya yox? Misal çəkdik ki,

əgər İslam ailə üzvləri üçün qanun müəyyən etməmişsə, demək ailə üzvdərindən hər biri nə istəyirsə, onu da edə bilərmi? Məsələn, uşaq özü üçün qanun tətbiq edib atanın ona tabe olmasını, qadın özü üçün qanun tətbiq edib, ərin ona tabe olmasını tələb etsin? Xeyr! Bu heçdə belə deyildir. Düzdür, bu kimi cüzi məsələlərdə heç bir qanun müəyyən olunmamışdır. Lakin müəyyən olunmuş ümumi qanun bundan ibarətdir ki, ata bir ev sahibi kimi ailədə müəyyən qanun və qaydalar tətbiq etməli və ailə üzvləri də öz növbələrində ona tabe olmalıdırlar. Hər hansı bir müəssisə və təşkilatda da eyni qaydada olarsa, müəssəyə rəhbərlik edən şəxs orada müəyyən qanun və qaydalar tətbiq etmək ixtiyarındadır.

## ON İKİNCİ FƏSİL

### *ZAMANIN TƏLƏBLƏRİ (1)*

«**Allah göydən bir yağmur endirdi, vadilər öz tutumlarına görə onunla dolub daşdı. (Sudan əmələ gələn) sel, üstünə çıxan bir kötüyü alıb apardı**»[27].

Bura qədər haqqında söhbət açdığımız mövzular? İslam tarixində meydana gəlmiş, bir-biri ilə tam ziddiyyət təşkil edən iki ideyalara, cərəyanlara aid idi. Biz onların hər biri haqda misallar çəkib birinin adını cəhalət ya ifratcılıq, digərini isə qeyri-fəal donuq təfritçilik adlandırdıq.

Bunu da qeyd etdik ki, bu iki cərəyandan mütəəssir olaraq, İslam dünyasında digər cərəyanlarda meydana gəlmiş və daim öz mənfi təsirini göstərmişlər. Lakin bütün bunlar keçmişə aiddir. Biz hər şeydən əvvəl, üzərimizə düşən vəzifələri bilməli və unutmamalıyıq ki, haqqında söhbət açdığımız məsələ, zamanın tələbatı ilə əlaqəlidir. Hər iki cərəyanı (yəni ifrat və təfritçiliyi) nəzərə alaraq, Qurana etiqad bəsləyən bir müsəlman kimi orta yolu seçib, nə ifrata varmalıyıq, nə də təfritə. Bəs hansı miqdarı əsas tutaraq nə ifrata, nə də təfritə vadmadığımızı necə müəyyən etməliyik?

### *«ZAMANIN TƏLƏBLƏRİ» İFADƏSİNİN MƏNASI*

Zamanın tələbləri dedikdə nə nəzərdə tutulur? Zaman daim dəyişilməkdə və yeni-yeni hadisələr baş verməkdədir. Zaman dəyişdikcə, zamanın tələbləri də dəyişir, istək və ehtiyaclar da əvəz olur. Zamanın tələbləri yerinə zamanın ehtiyacları desək, mətləbi daha yaxşı başa düşmüş olarıq.

Hər dövrün və hər ilin özünəməxsus tələb və ehtiyacları vardır. Götürək on dördüncü və ya iyirminci əsrin ikinci yarısını.

Bu dövrün ehtiyacları əsrin əvvəli ilə olduqca fərqlidir. Zamanın tələbləri və ya ehtiyacları dedikdə, biz adətən müxtəlif şeylər başa düşür və onu müxtəlif mənalara təfsir edirik. Bəzən biz bunu meydana gələn şeylərlə əlaqələndirir və belə hesab edirik ki, zaman həmin şeyə ehtiyac duymuş və həmin şey meydana gəlmişdir. Zaman həmin şeyə ehtiyac duyduğu üçün də biz onunla ayaqlaşmalı və qəbul etməliyik. {«şey» sözünü müvafiq sözlə əvəz et}

Bəzən də, biz bunu insanların zövqü ilə əlaqələndirir və haqlı olaraq belə hesab edirik ki, müxtəlif dövrlərdə yaşayan insanların zövqü müxtəlif olduğu üçün hər bir zamanın tələbləri fərqli və müxtəlif olur. Məsələn, insanlar zaman dəyişdikcə, geyim tərzlərini dəyişir, yeni-yeni dəblər ixtira edirlər. Belə bir anlama əsasən, zaman tələbləri ilə ayaqlaşmaq o deməkdir ki, insan

---

27 «Rə`d» surəsi, ayə 17

ümumi kütlənin geyim tərzi ilə ayaqlaşıb, onlara tabe olmalıdır. Necə deyərlər, palaza, bürün elnən sürün.

Əgər zamanın tələb və ehtiyaclarını bu iki mənada təfsir edəriksə, böyük səhvə yol vermiş olarıq. Əgər müxtəlif dövrlərdə meydana gələn müxtəlif şeyləri zamanın ehtiyac və tələbi hesab edəriksə, belə bir sual meydana gəlir: Bütün dövrlərdə meydana gələn şeylər (ixtira olunan alət və cihazlar və s.) hər zaman cəmiyyətin xeyrinə olmuş və ya bəşər meydana gələn şeylərdən həmişə bəhrələnə bilmişdirmi? Bəşər belə yaradılmışdırmı ki, meydana gələn hər bir şey onun irəlləyişinə səbəb olsun? Bu yeniliklər heç vaxt bəşərin ziyana uğramasına səbəb olmayıbmı?

Bəli bu təbii bir haldır. Bəzən onun xeyrindən bəhrələnmiş, bəzən də ziyanından xəsarət çəkmişdir. Bunun dəlili, onların mürtəci adlanan islahatçılarımızın olmasıdır. Həm islahatçı, həm də mürtəci zamanın əleyhinə qiyam edir. Fərq yalnız burasındadır ki, mürtəci irəliləyiş və inkişafa qarşı, islahatçı isə ictimai pozğuntuluğa qarşı çıxır.

Bütün dünya seyyid Cəmələddin Əsədabadini islahatçı hesab edir. O, zəmanəsinin razılaşa bilmədiyi mövcud şəraitə qarşı çıxırdı. Bəs nə üçün biz onu islahatçı adlandırırıq. Çünki meydana gələn şeylər və əksəriyyətə tabeolma prinsipini müsbət qiymətləndirmişik. Biz belə hesab edirik ki, o dövrdə bəzi ictimai pozğuntuçular mövcud olmuş və seyyid Cəmaləddin onlara qarşı çıxmışdır. Əvvəlki söhbətlərimizdə haqqında söhbət açdığımız əxbarilərin tarixini mütaliə etdikdə, onların nə qədər mürtəci, yəni inkişafın qarşısını aldıqlarının şahidi olacağıq.

## *ZAMANIN DOĞURDUĞU HADİSƏLƏR İKİ NÖVDÜR*

Demək, bütün dövrlərdə həm islahatçılar ola bilər, həm də mürtəcilər. O ki, qaldı zamana, biz burada da həm irəliləyiş müşahidə edə bilərik, həm də tənəzzül.

Demək «zamanın tələbləri ilə ayaqlaşmaq» heç də düzgün deyildir. Bunun səbəblərini də əvvəlki fəsillərimizdə açıqladıq.

Qeyd etdik ki, Allah-təala bu baxımdan insanla heyvanı fərqli olaraq xəlq etmişdir. O, insanı tam azad və muxtar bir varlıq olaraq yaratmışdır. Heyvanat aləminin görməli olduğu bütün işlər qərizə olaraq onların fitrətində əvvəlcədən müəyyən edilmişdir. O, azad olmadığı üçün öz ixtiyarlı ilə nə bir yenilik əldə bilir, nə də nəyəsə nail ola bilir. Bunun üçün də nə inkişafa doğru gedir, nə də geriləyib, tənəzzülə uğrayır. Dünyaya gəldikləri ilk gündən hansı xüsusiyyətlərə malik olurlarsa, ömürlərini həmin xüsusiyyətlərlə başa vururlar. Tarix göstərir ki, bəşər bal arısı ilə tanış olduğu ilk gündən bu günədək onların yaşayış tərzində, məhsul əldə etməsində heç bir dəyişiklik baş verməmişdir. İbtidai icma quruluşunda olduğu zaman bal arıları necə yaşamışlarsa, bəşər min illər arxada qoyaraq saysız-hesabsız nailiyyətlər əldə etməsinə baxmayaraq, onlar eyni yaşayış tərzini sürməyə davam edirlər.

Onlar bir addım da olsun nə irəli getmiş, nə də geri getmişlər. Dünyada baş verən cərəyanlar nə onları düz yola yönəldir, nə də düz yoladan uzaqlaşdıra bilir. Lakin bəşər, istedadı və özünəməxsus yaradıcı xüsusiyyəti ilə yaradılmışdır.

**«Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam»**[28].

Göründüyü kimi, ayədə insan Allahın xəlifəsi adlandırılır. Nə üçün bal arısı, digər heyvanlar yox, məhz insan Allahın xəlifəsi (canişini) müəyyən edilmişdir? Bunun ən başlıca səbəbi, qeyd etdiyimiz kimi, Allahın insana istedadla xəlq etməsidir.

Baxın görün, həyatını sıfırdan başlayan bu varlıq nə kimi ixtiralar edib, böyük nailiyyətlər əldə etmişdir. O, Allahın izni ilə qurur, yaradır və yeni-yeni ixtiralar edir. Bəşər Allahın yer üzündəki xəlifəsi olduğu üçün müqəddəratı özü həll etməli və necə yaşayacağını özü təyin etməlidir.

Hər il yeni-yeni nəqliyat vasitələri və texnologiyanın ixtira olduğunun canlı şahidi olursunuz. Bütün bunlar bəşərin istedad və ya bacarıcığından irəli gəlir. Onun irəli getməsi və inkişaf etməsinə səbəb olan da məhz budur. Çünki o azad və muxtar (ixtiyar sahibi) olaraq yaradılmışdır. İrəli getdiyi kimi, o geriliyə də bilər və bu heç də belə deyildir ki, geriliyə aparan yol, insanın üzünə bağlanmış və o yalnız irəli getməlidir. Əli (ə) Nəhcul-bəlağənin 16-cı xütbəsində buyurur: «Sağa və sola yönəlmək, insanı azdırır və haqdan uzaq salır. Həqiqi yol, qabağa aparan düz yoldur».

## *ÜMUMBƏŞƏRİN AZĞINLIĞININ MÜMKÜNLÜYÜ*

Deməli, bəşər inkişaf etdiyi və irəli getdiyi kimi, inkişafdan qala da bilir. Bu isə o deməkdir ki, insan haqdan uzaq da düşə bilər. Bu səbəbdən də, bütün yenilikləri müsbət qiymətləndirib, «zamanın tələbi» adını verərək, onunla ayaqlaşmamalıyıq. Son dərəcədə ayıqsaylıq olmalı və yenilik adlandırdığımız şeyləri digər meyarlarla müqayisə edib yalnız müsbət nəticə verdikdə qəbul etməliyik. Bunun üçün də zamanın tələidir deyə əksəriyyətin istək və nəzərinə üstünlük verməməliyik. Qəzet və jurnalların başlığında "Əsrin nailiyyətləri" adlı məqalələrlə tez tez rast gəlmək olar Naliyyət dedikdə nəyi nəzərdə tutmalıyıq?! Əvvəllər adı belə kimliyə məlum olmayan hirayində yaşadığımız əsrdə kimya elminin inkişaf etməsi nəticəsində meydana gəlmişdir. Əsrin nailiyyət adlandırdıqları şeylərin mahiyyətinə diqqət yetirin və hər şeyi nailiyyət kimi qəbul etməyin.

Bir çox hallarda "camaat bunu bəyənmiş və qəbul etmişdir" deyirlər. Bunu necə başa düşək?!

Əksəriyyətin bir şeyin qəbul etməsini dəlili hesab etmək olarmı? Bu haqda söhbət açdıqda, bəzən oğruların cəzalandırılması yada düşür. "İslam oğruların əlinin kəsilməsini əmr edir" dedikdə, buna qarşı öz etirazlarını

---

[28] "Bəqərə" surəsi, ayə:30.

bildirərək, deyirlər: «Bu nə sözdür?! Dünya bu gün bu kimi işləri qəbul etmir. Oğurluq, ictimai pozğuntulardan biri hesab olunur». Onlardan bunun qarşısı alınmalıdır, ya yox? Soruşduqda, hamılıqla müsbət cavab verirlər. İslam oğurluğa qarşı belə bir cəza tədbiri müəyyən etmişdir. Əgər həyata keçirilərsə, demək olar ki, oğurluğa son qoyulmuş olar. Yaşlıların yəqinki, yadında olar. Əvvəllər piyada Məkkəyə Həcc ziyarətinə gedənlərin təhlükəsizlikləri qorunmayır və beş yüz nəfərlik karvanlar oğurlanır və onların malları qarət olunurdu. İndi baxın görün, həmin təhlükəli səhrada necə əmin amanlıq bərqərar olunmuşdur. Buna baxmayaraq, deyirsiniz dünya belə bir cəza tədbirini bəyənməyir. Bəs dünya necə, bundan yaxşı cəza tədbiri müəyyən edə bilmişdirmi? Əgər müəyyən etmiş və daha müsbət nəticə vermişsə, onu biz də qəbul edək. Belə bir fikir irəli sürürlər: «Əvvəl oğrunu tərbiyə etmək və tutduğu yoldan qaytarmaq lazımdır». Bununla biz də razıyıq. Bəs tərbiyə olunan, amma bundan heç bir nəticə çıxarmayan şəxslərlə nə etməli? Təlim-tərbiyə bütünlüklə dünyada baş verən cənayətlərin qarşısını ala bilmişdirmi? Əgər buna nail olsaydı, gərək dünyada kimsə cəzalandırılmalı idi. Bəs nə üçün bu iş baş verməmişdir? Deməli, təlim-tərbiyə təklikdə bunun qarşısını almağa qadir deyildir.

Bir neçə il əvvəl rəsmi məlumat {və ya statistika} orqanlarından biri belə bir məlumat verdi ki, bir il ərzində yalnız Qərbi Almaniya (Almaniya birləşməzdən əvvəl) banklarına üəştaddan çox silahlı basqın edilmişdir. Görün, Amrikada qanqsterlərin sayı nə qədər çoxalmışdır ki, onlar üçün ayrıca məktəb ayrılmışdır. Yəni oğurluq fənnlərini öyrənmək üçün müstəqil məktəblər açılıb, orada təlimlər verilir. {fəkt dəlillə əsaslandırılsa, yaxşı olar. Əks təqdirdə, çox zəif səslənir} Dediyimiz dünya oğurluğun qarşısını nə dərəcədə ala bilmişdir?

Ağır xəstəliyə düçar olmuş bir şəxs, bir neçə həkimin müayinəsindən keçir, neçə-neçə nüsxələr yazılıb əvəz olunur. Lakin xəstə özündə heç bir irəliləyiş hiss etməyir. Xəstənin yaxınlarından biri mahir bir həkim tanıdığını və onun başqalarından olduqca bacarıcıqlı olduğunu bildirir. Həkim xəstəni müayinə edib dərhal qətiyyətlə deyir: «Onu əvvəllər müayinə edən həkimlər səhv və başa düşmüşlər. Elə bu saat xəstəni xəstəxanaya aparın». Həkimin qətiyyətini görüb xəstə xəstəxanaya gətirilir və həmin gün onun üzərində cərrəhiyə əməliyyatı aparır. Üstündən bir saat keçmədən məlum olur ki, cərrahiyə əməliyyatı heç yir nəticə verməmiş və xəstə dünyasını dəyişmişdir. Xəstənin yaxınları həkimin qətiyyətini görüb bunun nə ilə nəticələnəciyini ağıllarına belə gətirmirlər. Lakin görün, bu ehtiyatsızlıq nə ilə nəticələnir.

Əgər dünya oğrunun əlinin kəsilməyini qəbul etməyirsə, bunun əvəzinə nə kimi işlər görmüşdür?!

Müsəlmanın başqalarının təsiri altına düşməməsi, onun müsbət xüsusiyyətlərindəndir. Əli (ə) Nəhcül-bəlağənin 199-cu xütbəsində buyurur: «Düz yolu tanıdığınz zaman, azlıqda olmadığınızdan qorxmayın. Öz şəxsiyyətinizi qoruyub saxlamağınızı bacarın».

Daim əksəriyyətin istək və nəzərinə üstünlük verilmiş və onların səhvə yol verəcələrini qeyri-mümkün hesab etmişlər. Haqq ədalətə arxalanan azlıqlara zərbə vuran da, məhz belə bir yalnış tərzi-təfəkkürə malik olmuşdur.

## *«ZAMANIN TƏLƏBLƏRİ» İFADƏSİNİN DÜZGÜN MƏNASI*

Zəmanənin tələblərini biz bir qədər fərqli olaraq da təfsir edə bilərik. Belə ki, zamanın tələbləri dedikdə, biz zamanın daimi dəyişilməkdə olan ehtiyac və tələblərini nəzərdə tutur.

Bildiyimiz kimi, bəşəriyyətin gündəlik fəaliyyəti, onun ehtiyaclarından irəli gəlir. Allah-təala insanı ehtiyac duyan varlıq kimi yaratmışdır. O, geyimə, qida məhsullarına, nəqliyat vasitələrinə, elm öyrənməyə, zinət əşyalarına, əkinçiliyə, evə və s-ə zəruri həyat vasitələrinə ehtiyacı duyur. Bütün bunlar heç də əhəmiyyətsiz deyildir. Ehtiyac hissi onu fəaliyyət göstərməyə və ehtiyaclarını aradan qaldırmağa vadar edir. Aradan qaldırmadıqda isə, zaman öz işini görür və onu böyük çətinliklərə qarşılaşdırır. Bu kimi hallarda bəzən buna dövrü məcburiyyət deyirlər. Maddi ehtiyaclarla yanaşı, insanın bəzi sabit ehtiyacılarda olur. İnsan ruhuna, əxlaq və davranışlarına xüsusi diqqət yetirməli və nizama salmalıdır. O, yaşadığı cəmiyətdə ünsiyyətdə olduğu işlərlə necə rəftar etməsini, Allah-təala ilə daimi rabitəsini nəzmə salmalıdır. Heyvanat və bitkilər aləmi ilə də eyni qaydada olaraq, bu məsələyə diqqət yetirməlidir. Bütün bunlar insanın sabit və dəyişilməz ehtiyaclarıdır.

Lakin insan ehtiyaclarını aradan qaldırmaq üçün bəzi alətlərə ehtiyac duyur və bu alətlər, insanın özü tərəfindən ixtira olunduğu üçün daim dəyişilməkdədir. Alətlərin nədən ibarət olduğunun (əlbəttə, əkər qanuni olarsa) dinlə heç bir bağlılığı yoxdur. Din hədəfi və hədəfə çatmağı müəyyən edir, lakin ehtiyaclarının aradan qaldırılması üçün istifadə olunan alətləri əql təyin edir. Əql öz işini təkmilləşdirir və hər gün daha müasir alətlər seçir.

Bəşər (Əllamə Təbatəbainin dediyi kimi) «ikmal qanunu»na əsasən, hədəfə çatmaq üçün ən sadə və xərci az olan yolu seçir. İnsanın ehtiyacları alətlərin vasitəsilə dəyişildikdə, yəni bu günlər istifadə olunan alətlər təkmilləşdikdən sonra ehtiyacları zamanın tələblərinə uyğun dəyişilməlidir. Bunu həqiqətən zamanın tələbi adlandırmaq olar.

İslam həqiqətən ehtiyac duyulan şeylərin qarşısını almayır. İslam traktor ixtira olunduqdan sonra kotanla yer şumlayan şəxsin bu işini təbii olaraq, qiymətləndirilməlidir. Lakin moda dizdən yuxarı qalxdıqda, qarşısı alınmalıdır. Çılpaq qadınların kinoya çəkilmələrini biz heç nə ilə izah edə bilmərik. Hər hansı bir alət ixtira olunduqda, onu biz faydalı və qeyri-faydalı məqsədlər üçün istifadə edə bilərik. Götürək, mikrafon və digər səs gücləndirici aparatları. Onların vasitəsilə Quran, faydalı elmi verilişləri səsləndirmək mümkün olduğu kimi, qeyri-əxlaqi tərənə və çıxışlar da

səsləndirmək olar. Radio, televizor, maqnitafon və sair vasitələrlə də eyni qaydada.

Məqsədə çatmaq üçün lazımı vasitələrdən istifadə etməyən şəxs, haqlı olaraq başqalarının tənəsinə məruz qalmalıdır. Məsələn, yaşadığımız dövrdə, hal-hazırda düşmənlə mübarizə aparmaq istəyən hər hansı top-tüfəng əvəzinə qılınc-qalxana əl atsa və məqsədinə çatmasa, özündən başqa kimsəni müqəssir hesab etməməlidir.

## *SABİT VƏ DƏYİŞƏN EHTİYACLAR*

Budur zamanın tələbləri. Biz onu insanların, daha dəqiq desək əksəriyyətin istəyi ilə səhv salmamalıyıq. İnsanın birinci dərəcəli ehtiyacları sabit və dəyişilməzdir. Onun ikinci dərəcəli, yəni birinci dərəcəli ehiyaclarına çatdıran ehtiyacları isə qeyri-sabit və dəyişgəndir. Zamanın ehtiyacları günü-gündən dəyişir, bu dəyişiyliklərlə lazımi qaydada ayaqlaşmayan şəxs quru və qeyri- məntiqi və təsübkələyənən qurbanına çevrilib, heç nə əldə edə bilməyəcəkdir.

Maqnitafon və digər səs ötürücü cihazları ixtira edən şəxslər belə bir böyük nailiyyət əldə etdikləri zaman, ağıllarına belə ki gətirməzdilər ki, onların ixtira etdikləri cihalarla qeyri-əxlaqi çıxış və təranələr səsləndiriləcəkdir. Lakin bu nə ixtiranın, nə də həmin cihazların günahıdır. Günah, onlardan düzgün istifadə etməyən şəxslərindir. Kino, özü-özündə pis sənət deyildir.

Lakin heraində də təhlükəli olan qeyri-əxlaqi filimlər çəkilib televizor və kino-teatrlarda nümayiş etdirildikdə, cəmiyyətdə uzun müddət silinməz iz qoyur. Əgər bacarırsınızsa, qarşısını alın, yox əgər bacarmırsınızsa, heç olmasa rəqabət edin. Bütün bunlar olunmur və iş o yerə gəlib çıxır ki, Kəbə və sair müqəddəs yerlərə dair çəkilmiş filmlər qeyri-əxlaqi filimlər nümayiş etdirilən kino-teatrlarda səhnəyə qoyulur.

Bütün bunlar o şəxslərin təsiridir ki, əvvəlcədən bunu fikirləşməmiş və səhlənkarlığa yol vermişlər. Kino insanların dini həyatına daxil olmalı və qeyri-əxlaqi filimlərin yerini tutmalıdır. Əxlaqi filimlər dedikdə, tək dini kinolar nəzərdə tutulmur. İnsanın yaradılışına, qan dövranına, bitkilər aləminin inkişafına dair çəkilmiş elmi kinoları nümayiş etdirməklə, cavanların böyük bir hissəsini düz yola gətirmək olar.

«Zamanın tələbləri», «müasir həyat» deyənlər bilməlidirlər ki, zamanın tələbi odur ki, nümayiş etdirilən filimlər cəmiyyəti günahdan çəkindirib, elmi və tərbiyəvi xarakter daşısın.

Alimlərdən biri deyir: «Məclislərdən birində çıxış etməli oldum. Məndən əvvəl başqa birisi minbərə çıxıb, mikrafona işarə edərək dedi: «Götürün bu şeytan şeypurunu». Çıxış etdikdə, səsini kimsə eşitmədi. Sonra mən çıxış etməli oldum, xahiş etdim ki, «şeytan şeypuru»nu gətirsinlər. Görün, düşüncəsizlik nə yerə gəlib çatmışdır. Dini nüfuzdan salan da məhz bu kimi

“alimlərin” qeyri-məntiqi çıxış və hərəkətləridir. Axı mikrafon nə vaxtdan şeytan şeypuru oldu?!

# ON ÜÇÜNCÜ FƏSİL

## *ZAMANIN TƏLƏBLƏRİ (2)*

«**Allah yanında yer üzündə gəzən canlıların ən pisi (haqqı) dərk etməyən karlar və lallardır**»[29].

Bir qədər əvvəl qeyd etdik ki, zamanın tələb və ehtiyaclarını biz iki cür mənalndıra bilərik. Deyə bilərik ki, hər hansı bir dövrdə meydana gəlmiş yenilik əvvəllər mövcud olmadığı üçün həmin dövrə aiddir. Bunun üçün də, həmin yenilikləri qəbul edib onunla ayaqlaşmaq lazımdır. Bunu da qeyd etdik ki, zamanın tələbləri dedikdə, belə bir anlam əldə etmək olduqca səhv və əsassızdır. Çünki baş verən yeniliklər ya irəlləyiş və tərəqqidən, ya da ictimai pozuntulardan meydana gəlir. Bütün dövrlərdə bəşər hər iki cərəyanla qarşılaşa bilər. Demək, əgər hər hansı bir şey təzədirsə, heçdə o demək deyildir ki, biz onu hökmən qəbul etməliyik. Eyni qayda olaraq, hər hansı bir şeyin köhnə olması, onun yaxşı olmasına dəlalət etmir. Demək, hər hansı bir şeyin yaxşı olması, onun təzə və ya köhnə olmasından asılı deyildir. Belə ki, bir çox hallarda hər hansı bir şey yeni olmasına baxmayaraq, heç də özünü doğrultmayır. Zamanın tələb və ehtiyaclarına verilən başqa bir anlam, əhalinin əksər hissəsinin istək və zövqü ilə əlaqələndirilir.

Yəni insan daim yaşadığı cəmiyyətin (əhalisinin əksər hissəsinin) istək və nəzərlərinə tabe olub, onlarla həmahənglik etməlidirmi? Xeyr, Bu da düzgün deyildir. Beləki, bir çox hallarda əhalinin əksər hissəsi müxtəlif cərayanların təsiri altına düşərək, qeyri-məntiqi və insan təbiəti ilə tam ziddiyyətlik təşkil edən hər hansı bir şeyi müsbət qiymətləndirirlər. Bir qədər əvvəl biz bu barədə ətraflı söhbət etdik.

Lakin zamanın tələbləri üzərində düşünməli olduğumuz başqa bir anlam da (təfsirdə) verilmişdir. O da zamanın ehtiyacları məsələsidir. İnsan bütün dövrlərdə özünün həqiqi hədəflərinə çatmaq üçün ikinci dərəcəli hesab olunan bəzi şeylərə ehtiyac duyur. Yəni insanın bu ehtiyaclarından başqa birinci dərəcəli digər sabit ehtiyacları da vardır. Onun birinci dərəcəli sabit ehtiyacları ikinci dərəcəli qeyri-sabit və dəyişgən ehtiyaclarının meydana gəlməsinə səbəb olur.

İnsan bu ehtiyacların aradan qaldırılması üçün daim müxtəlif alət və vasitələr axtarır. Vasitə və alətlər isə daim dəyişilməkdə və inkişafda olur. Bəşəriyyətin qarşılaşdığı bu dəyişiyliklər zamanın tələblərini, zamanın ehtiyaclarına çevirmişdir. Məsələn, insan qış fəslində istiliyə ehtiyac duyur. İlin dörd fəsli nə qədər davam edəcəksə, onun istiliyə olan ehtiyacı da eyni qaydada olaraq davam edəcəkdir. Lakin fərqli olan insanın öz ehtiyaclarını hansı vasitə ilə aradan qaldırmasıdır. Məsələn, əvvəllər daşkömür ən başlıca

[29] "Ənfal" surəsi 22.

istilik mənbəyi hesab olunurdu. Daşkömürə duyulan ehtiyac artdıqca, qiyməti də artırdı. İş o yerə gəlib çatdı ki, daşkömürə dair şer və təsniflər yazılmağa başladı. Məgər daşkömür bəşəriyyətin birinci dərəcəli ehtiyaclarından olmuşdurmu? Xeyr. Daşkömür insanların qızınması üçün istifadə olunan adi bir təbii sərvətdir. Beləki, sonralar onu neft əvəz etməyə başladı. Demək, istər daşkömür istərsə də neft, insanın ikinci dərəcəli ehtiyaclarındandır. Onun birinci dərəcəli ehtiyacı, istiliyi təmin etməkdir.

Zamanın tələbləri dəyişmir dedikdə, bir çox hallarda baxıb görürük ki, əslində dəyişilən zaman ehtiyaclarıdır. Belə ki, meydana gələn yeni alət və vasitələr daha ucuz, daha qüdrətli və istifadə olunması daha asandır. Hər bir alim və düşüncəli şəxsin qəbul etməli olduğu zamanın tələb və ehtiyacları da bundan ibarətdir. Bütün bunlar dediklərimizin xülasəsi idi. Lakin haqqında söhbət açmaq istədiyimiz şey, insanın sabit və qeyri-sabit (dəyişgən) ehtiyaclarıdır. Bəzilərinin fikrincə, insanın bütün ehtiyacları qeyri-sabit və dəyişgəndir. Ümumiyyətlə, insanın sabit ehtiyacı olmur və zaman dəyişdikcə, onun tələbləri, ehtiyacları da dəyişir. Bir vaxtlar daş ömürünə ehtiyac duymuşsa, zaman dəyişdikcə neftə və sair yanacaq məhsullarına ehtiyac duymağa başlamışdır. Əlbəttə, onların dedikləri həm maddiyata şamil olur, həm də mənəviyata. Dinə gəldikdə isə, onlar dinin mövcud olub-olmaması barədə söhbət açmağa hazır deyillər. Bu haqda deyirlər: «Bir vaxtlar bəşər dinə ehtiyac duyduğu halda, zamanı keçdikcə, dinə olan ehtiyacı yavaş-yavaş aradan qalxmışdır». Dinə ehtiyac duymadıqda isə təbii olaraq, daş kömür kimi, din də öz yerini başqa şeylə əvəz etməlidir. Materialistlər adətən belə bir məntiqə əsaslanmışlar. Onların fikrincə, dünyada heç bir şey sabit deyildir. Hər şey dəyişilməkdədir, bəşərin ehtiyac duduğu şeylərə bir zamanlar ehtiyac duyduğu üçün meydana gəlmiş və dövr dəyişməklə, ehtiyac duyduğu şeylər də ya öz mahiyyətini itirmiş, ya da məhv olub aradan getmişdir. Təəssüflər olsun ki, onlar minlərlə cavanı özlərinin belə bir məntiqi ilə haqdan uzaq salmışlar.

## *BU MƏSƏLƏYƏ FƏLSƏFİ BAXIŞ*

Lakin biz bu məsələni açıqlamalıyıq. Bu ümumi qanunun mahiyyəti iki yolla açıqlanır. Onlardan biri fəlsəfi, digəri isə ictimai xarakteri daşıyır. Fəlsəfi xarakter dedikdə, dünyada heç nəyin sabit qalmadığı və hər şeyin dəyişiləcəyi, ictimai xaraker dedikdə isə, ictimaiyyətdəki hər bir şeyin ehtiyac üzündən meydana gəldiyi nəzərdə tutulur.

İctimai ehtiyaclar isə daim yenilməkdədir. Deməli, hər bir şey cəmiyyətdə müvəqqəti olaraq qalır. Daim dəyişiklik və qeyri-sabitlik tərzi-təfəkkürü necə, düzgündürmü?

Hər şeyin daimi dəyişiklikdə olmasını qəbul etmək, heç də düzgün olmazdı. Lakin maddi aləmin qeyri-sabitliyi və diyişilməsi tamamilə düzgündür.

Yəni dünyada elə bir maddi varlıq tapmaq olmaz ki, yarandığı ilk gündən axıradək həmin xüsusiyyət və quruluşda qalmış olsun. Sizi əhatə edən dağlar yarandığı ilk gündən həmin quruluşda olmuşlar, lakin axıradək həminki kimi qalacaqlarmı? Dənizlər necə vardırlarsa, eləcə də qalacaqlarmı? Xeyr! İslam alimləri Nəml surəsinin 88-ci ayəsini aləmdəki varlıqların dəyişikliyinə dəlalət etdiyini bildirmişlər. Ayədə deyilir: **«Dağlara baxıb onları donmuş (hərəkətsiz durmuş) zənn edərsən, halbuki onlar bulud keçdiyi kimi keçib gedirlər. Bu, hər şeyi bacarıqla yerli-yerində edən Allahın gördüyü işdir**».

Dağ burada misal olaraq çəkilmişdir. Yəni aləmdə mövcud olan bütün varlıqlar qeyri-sabit və daim dəyişilməkdədir. Alimlərdən biri qədim zamanlardan bəri demişdir: «Yəni çayda çimən bir şəxs əgər səhəri günü yenə də həmin çayda çimərsə, nə su dünənki su olur, nə də şəxsin özü dünənki şəxs? Demək bir şəxsin eyni çayda iki dəfə çimməsi qeyri-mümkündür, aləmdəki maddə və varlıqların dəyişilməsində heç bir şəkk-şübhə yoxdur. Götürək, Xəzər dənizini. Coğrafi təhqiqatlar göstərir ki, yarandığı ilk gündən bu günümüzdədək, sahil ərazisində nəzərə çarpacaq dərəcədə dəyişiyliklər baş vermişdir. Qitələr arasında yaranmış fasilələri də buna bir misal çəkmək olar. Belə ki, qədim dünyanın ərazisinə nəzər saldıqda, qitələr arasında hal-hazırki fasilələrin mövcud olmadığının şahidi oluruq. Lakin illər, əsrlər keçdikcə yerin quru əraziləri bir-birindən ayrılmış və böyük qitələr halına düşmüşdür. Yer üzünün havasında baş verən dəyişiyliklərə nəzərə salın. Əlli il bundan əvvəlki soyuqları indi görmək olurmu? Dünyada hər şey köhnəlir. Gözə görünməyən atom zərrəciklərinin də yaranma, intenivlik fəallıq və (cavanlıq) fəaliyyətsizlik qocalıq mərhələsini keçirələr. Milyonlarla atom ölür və onların yerinə yeni milyonlarla atom meydana gəlir. Dünyada heç bir varlıq sabit və daimi deyildir. Ola bilsin, bəziləri bəzilərindən daha çox davam gətirsin, lakin əvvəl-axır onun da sonu gəlib çatacaqdır. Ənbiya surəsinin 34 və 35-ci ayələrində deyilir: «Səndən əvvəl də (dünyada) heç kəsə əbədi həyat (ölməməzlik). Belə olduğu təqdirdə, sən ölsən, onlar dirilmiş qalacaqlar?! Hər kəs ölümü dadacaqdır».

Əgər ayədəki "hər kəs" kəlməsini zat məasında götürsək, ayənin mənası belə olacaqdır: «lakin hər şey daimi dəyişiklikdədir» deməyimiz düzgün olardımı? Xeyr! Belə ki, bəzi varlıqlarda baş verən dəyişiyliklər bir qədər fərqli olur. Bu varlıqlardan biri də, insan ruhudur. İnsan qocalır və xarici görünüşündə qocalıq əlamətləri özünü büruzə verir, lakin ruhu dəyişməz olaraq qalır.

## *İNSAN RUHUNUN SABİTLİYİ*

Elm bunu sübut etmişdir ki, insan bədəni «sellul» adlanan kiçik hüceyrələrdən təşkil olunmuşdur və bu seylullar iki hissəyə bölünürlər: Əsəb və qeyri-əsəb selulları. Qeyri-əsəbi sellular həm yeniləşir, həm də köhnəlir. Bu

məsələni bütün dövrün alimləri təsdiq etmişlər. Əsəb seylulları barədə isə bu fikirdədirlər ki, seylullar ölmür, lakin onların xarici görünüşü dəyişilir.

Deməк, əgər bir insanın nəzərdə tutarsınızsa, sanki hər hansı bir insanı və ya məscidi nəzərdə tutmuş olursunuz. Əgər məscidin divarlarını, qapı pəncərələrini, günbəzini söküb yenidən tikərlərsə, bəlkə də kimsə bunun gördüyü həmin məscid olduğunu güman etsin. Lakin əslində, bu artıq həmin məscid deyildir. Əgər öz bədənimizə nəzər salsaq, bir neçə il ərzində onda nə qədər dəyişikliklərin baş verdiyinin şahidi olacağıq. Bədənimizdə dəyişikliklər necə baş verirsə, yenidən təmir olunan məscidin quruluşunda da həmin dəyişikliklər müşahidə olunur. Xarici görünüşümüz dəyişilsə də, daim sabit qalan bir həqiqət vardır, o da bizim şəxsiyətimizdir.

Əvəz etdiyimiz paltarlar kimi zahiri görünüşümüz dəyişildikdə, şəxsiyyətimiz daim sabit olaraq qalır və dəyişməyir. İbni Sinanın Bəhmənyar adlı olduqca zirək və bacarıqlı şagirdi var idi. Bəhmənyar əvvəllər zərtüşt dinində olmuş və sonralar İslamı qəbul etmişdir. Zamana dair irəli sürdüyü nəzəriyələrin birində demişdir: «Hər şeyi müəyyən edən zamandır. Zaman hər şeyin mahiyyətinin (zatının) bir hissəsini təşkil edir və zaman dəyişdiyi üçün demək hər şey dəyişiklikdədir».

İbni Sina şagirdinin bu fikiri ilə razılaşmayıb deyir: «Hər şey demək» heç də düzgün deyil. Lakin Bəhmənyar fikrindən əl çəkmək istəmir. Bir az keçdikdən sonra Bəhmənyar İbni Sinaya sual verir, lakin İbni Sina ona cavab vermir. Bəhmənyar nə üçün cavab vermədiyini soruşduqda, İbni Sina deyir: «Sualı kimə verirsənsə, ondan da cavabını gözlə. Bəhmənyar təəccüblənir. İbni Sina deyir: «Sən belə bir əqidədəsən ki, zaman dəişilməklə hər şey dəyişilmiş olur. Demək, əgər bir qədər əvvəl kiməsə sual vermiş olsan, zaman dəyişilməklə sual verdiyin şəkildə artıq həmin şəxs olmayacaqdır. Belə olduğu bir halda sən kimdən cavab gözləyirsən? Demək qəbul etməmisən ki, insanın şəxsiyyəti sabit və dəyişilməzdir. Sənində şəxsində şəxsiyyətin bir şagird kimi sabit və dəyişilməzdir».

Ruh haqda söhbət açmaq, hər şeyin daim dəyişiklikdə olduğunu hesab edən fəlsəfi ideologiyaya əks cavab verməkdir.

## *TƏBİƏT QANUNLARI SABİTDİR*

«Hər şeyin dəyişməsi» və «qanunlar dəyişiyliklərdədir» dedikdə, bir-birinindən ayrı-ayrı mətləblər nəzərdə tutulur. Qanun, yəni əşyaların onun əsasında dəyişilməsi. Deyirik, dünyada heç bir quruluş olduğu kimi qalmır. Lakin həmin quruluş üçün mövcud olan qanun daim dəyişirmi? Xeyr! Qanunun özü dəyişilmədən sabit qalır. Məsələn, Darvin bu fikirdə idi ki, o canlılar üçün bir sıra qanunlar ixtira etmişdir. Lakin belə bir sual meydana gəlir. Darvin deyir bütün canlılar daim təkamül və dəyişilməkdədir, onun qanunları daim təkamül və dəyişilməkdədirmi? Yəni uşaq böyüdüyü kimi və ya Darvinin özünün dediyi kimi, dəyişilib, başqa bir növə düşür. Darvinin

elmi qanunları daim dəyişilir? Xeyr! Bu qanunlar ilk gündən sabit olaraq dünyaya hakim olmuş, axıradək də sabit olaraq qalacaqdır. Digər qanunlar kimi ümumi cazibə qanunu da daim sabit və dəyişilməzdir. Əgər biz «Peyğəmbər (s) həmin bədənlə əbədi olaraq qalacaqdır desək» bəlkə də, kimsə fəlsəfə qanuna əsasən haqlı olaraq deyəcəkdir ki, heç bir varlıq əbədi olaraq qalmır. Deməк, Peyğəmbər (s)-ın da əbədi olaraq qalması qeyri-mümkündür. Əgər biz şəxsin özünü nəzərdə tutsaq, tutulan irad tam əsaslı olardı. Lakin nəzərdə tutulan şəxsin özü, yəni xarici varlıq kimi mövcud olması deyil qanundur. Yəni Peyğəmbər (s)-ı həqqaniyyəti, Quranın onun haqda bizlərə verdiyi göstərişlərdir.

Başqa bir misal. Əgər kimsə, Quran ayələri yazılan kağızlar köhnəlmir deyirsə, bu o deməkdir ki, köhnəlməyən, kağız üzərində yazılan ayələrin məna və məfhumudur. Qanun köhnəlmədiyi kimi kağız üzərində yazılan ilahi qanunlar da (Quran ayələri) öz mahiyyətini itirmədən köhnəlmirlər.

Cisim köhnəlir və tədriclə, aradan gedir. Qanun isə həqiqətlə həmahəng olduqda, daim qüvvədə qalır və öz mahiyyətini itirmir. Həmahəng olmadıqda isə, bu deməkdir ki əvvəlcədən əsassız və düzgün olmamışdır. Demək, bəşəriyyətin daim bir sıra sabit qanunlarının mövcud olması, təbii bir haldır.

Bir anlıq Qurana nəzər salaq:

Rəhman surəsinin 26-cı ayəsində deyilir: «Yer üzündə olan hər kəs fanidir». Təkvir surəsinin 1 və 2-ci ayələrində isə deyilir: «Günəş (əmmamə kimi saralıb) sönəcəyi zaman; Ulduzlar (göydən qopub yağış dənələri kimi yerə) səpələnəcəyi zaman».

Demək, bir gün günəşi və onun ətrafında dövr edən ulduzlarda köhnəlib aradan gedəcəkdir.

Göründüyü kimi, Quran aləmdə mövcud olan varlıqların (cisimlərin) əbədi olmadığını təsdiq edir. Lakin haqqında söhbət açdığımız, istədiyimiz şey cisim deyil qanundur. Dediklərimizdən məqsəd budur ki, bəşəriyyətin bir sıra daim sabit və dəyişilməz səmavi qanunları vardır.

Bəzən deyirlər; feodalizm köhnəldiyi üçün pisdir. Sanki əraziləri qarət edib yüzlərlə insanı şəxsi mənafeinə xatir işləməyə vardır edən belə bir istismarçı və zülmkar olmuş və indi köhnəldiyi üçün pisdir. Belə çıxır ki, eybi yalnız köhnəlmisindədir. "Feodolizm köhnəlmişdir" deyənlərə təəccüb edirəm. Məgər feodalizm təzə olduğu zaman yaxşı idimi ki, köhnəldikdə öz əhəmiyyətini itirsin? Feodalizm mövcud olduğu dövrdə nə qədər təhlükəli idisə, bu günlər də əgər mövcud olarsa, bir o qədər zərərli və təhlükəlidir. Yaranmış məhz belə bir tərzi təfəkkür, köhnə adət-ən`ənələrə mənfi münasibət bəsləməyə səbəb olmuşdur. Bəzən misal çəkərək deyirlər: «Məgər insan eyni paltarı nə qədər geyinməlidir?!».

Qəribədir hər şeyi geyimlə müqaisə etmək olarmı?!

Belə bir məntiqə əsaslanan şəxslər bilməlidirlər ki, onların istinad etdikləri belə bir mənafe tərzi-təfəkkür qanunlara deyil, maddi varlıqlara və cisimlərə sidq edir.

## *İCTİMAİ BAXIŞ*

Bir qədər əvvəl haqqında söhbət açdığımız məsələyə, yə~ni zamanın tələblərinə qayıdaq. Qeyd etdik ki, bəşəriyyətin ehtiyaclarının bəziləri sabit və dəyişməz, bəziləri isə qeyri-sabit və dəyişgəndir.

Hər şeyin dəyişgən olduğunu hesab edən şəxslər, bu günlər hətta kommunistlərin belə qəbul etmədikləri «təxəyyül prinsipi»ni meydana gətirmişlər.

O da bundan ibarətdir ki, ictimaiyyətdə mövcud olan hər bir şey, o cümlədən sənət, din, əxlaq, siyasət, hüquq, məlumatlar, qəzavət, ailə və məişət və s. eyni kökdən nəşət tapır. Əgər kökündə dəyişiklik baş verərsə, həyatın bütün sahələrində dəyişikliklər baş vermiş olar. Hər şeyin kökünü iqtisadiyyatla bağlı olduğunu hesab edirlər. İqtisadi sahələrdə alət və vasitələr dəyişildiyi üçün bu dəyişikliklər həyatın digər sahələrinə də öz təsirini göstərir. Çünki bütün bunlar istehsal alətlərindən əldə olunan məhsullardır.

Lakin belə bir tərzi-təfəkkür olduqca səhv və əsassızdır. Çünki dediklərindən belə bir nəticəyə gəlmək olur ki, insanın bütün fəaliyyətləri qarnı üçündür. Daim bu sual məni özünə cəlb etmişdir. İnsaniyyətdən, ümum bəşər hüquqdan dəm vuran avropalılar, bəşəri necə tərif edirlər? Əgər bunu deyiriksə, dediklərimiz tamamilə düzdür, çünki «**Mən yer üzündə bir xəlifə (canişin) yaradacağam**»[30] və «**Biz, Adəm övladını şərəfli və hörmətli elədik**»[31] ayələrinə etiqadımız var. Əgər siz insanın bütün fəaliyyətlərini qarnına xatir etdiyini hesab edirsinizsə, bəs insaniyyət dedikdə nə nəzərdə tutursunuz? Əgər incəsənətin, əxlaqın mənəviyyatın, dinin nəfsi ehtiyaclardan irəli gəldiyini hesab edirsinizsə, bəs insaniyyəti nədə və harada axtarmalıyıq? Belə olduğu bir halda, insanlarla heyvanlar arasında nə kimi fərq olacaqdır? Xeyr! Əgər insanın nəfsi varsa da, ağlı və şüuruda vardır.

O, gördüyü işlərin bir çoxunu nəfsinə xatir deyil, ağıl və şüuru buna hökm etdiyi üçün görür. Dinə etiqadı olduğu üçün bəzi işlərini də iqtisadi mənafelərinə xatir yerinə yetirir. Əlbəttə, biz ictimaiyyətin bir amil kimi fəaliyyətə səbəb olduğunu inkar etmək istəmirik. Biz, ibadətin insan qəlbində şölənən nur olduğunu deyirik.

İqtisadi mənafedən güzəşt, gözəl xüsusiyyətlərdəndir. Alimlərin bir çoxu elmə xatir iqtisadi mənafelərinə göz yummuşlar. Şah illər boyu İbni Sinanı zindanında saxladıqdan sonra başa düşür ki, onun barədə haqsız olaraq

---

[30] "Bəqərə" surəsi, ayə 30

[31] "İsra" surəsi, ayə 70

xəbərçilik etmişlər. Bunun üçün də onu azad etmək qərarına gəlir. Lakin İbni Sina şagirdlərini başına yığıb, onlara dərs verər və deyərdi: «Bizim bu soyuq zirzəmidə gördüyümüz bu iş var-dövlətdən və hakimiyyətdən daha yaxşıdır».

Demək, bəşər daha uca amalına xatir öz iqtisadi mənafeindən keçməyə belə hazırdır. "Bəşərin bütün ehtiyacları onun iqtisadiyyatı ilə bağlıdır və iqtisadiyyat dəyişgən olduğu üçün onun bütün ehtiyacları da dəyişgəndir" deyənlər, böyük səhvə yol vermiş olurlar.

## ON DÖRDÜNCÜ FƏSİL

### *İSLAM TARİXİNDƏ ZAMAN DƏYİŞMƏLƏRİ*

«**Bu, şübhəsiz ki, mənim doğru yolumdur. Onu tutub gedin. Sizi Allahın yolundan saldıracaq yollara uğrayın**»[32].

Bir qədər əvvəl müxalif cərəyanların nəzəriyyələrinə məntiqli cavab vermək üçün onların tərzi-təfəkkürü ilə tanış olduq. Qeyd etdik ki, cahil adlandırdığımız cərəyan, dünyada mövcud olan bütün şeyləri qeyri-sabit və dəyişgən hesab edir. Belə olduğu bir halda, hər bir şey mövcud və müvəqqəti olmalıdır. Əgər bu doğrudanda belədirsə, sonuncu ilahi din olan İslam, bəşəriyyət üçün necə əbədi olaraq qala bilər? Bunu da qeyd etdik ki, dünyada dəyişgən və köhnələn yalnız maddi varlıqlardır. Dünyada mövcud olan bütün maddi varlıqlar bu xüsusiyyətə malikdirlər. Lakin haqqınd söhbət açmaq istədiyimiz şey, maddi aləm deyildir. Əgər kimsə kağız üzərinə yazılan Quran ayələrinin əbədiliyi haqda belə bir iddia edərsə, tamamilə düz demiş olur. Lakin biz nə hər hansı bir şəxs, nə də kağız və qələm haqda söhbət açmaq istəyirik. Haqqında söhbət açmaq istədiyimiz şey, bir sıra gerçəkliklər və qanunlardır. Əgər aləmdəki varlıqlar köhnəlirsə, bunun qanunla nə kimi əlaqəsi ola bilər? Məsələn, götürək düzgünlüyü, sədaqəti və sair müsbət xüsusiyyətləri. Bütün bunlar insan həyatı üçün ümumi və dəyişilməz qanunlardır. Lakin insan ehtiyacları haqda söhbət açdıq və qeyd etdik ki, insanın ehtiyacları daim dəyişilməkdədir. Ehtiyaclar dəyişildiyi üçün də ehtiyaclar əsasında təyin olunan qanunlar da təbii olaraq dəyişilməlidir. Əvvəlki söhbətimizdə işarə etdik ki, dəyişilən insanın birinci dərəcili deyil, ikinci dərəcəli ehtiyaclarıdır.

### *ŞİƏLƏRİN MALİK OLDUĞU BİR NEMƏT*

Müqəddəs İslam dininin bariz xüsusiyyətlərdən biri də budur ki, insanın sabit və dəyişməz ehtiyaclarını möhürləmiş və daim dəyişiklikdə olan ehtiyaclarını sabit ehtiyaclarına tabe etmişdir və mən bunu İslam dininin möcüzəvi xüsusiyyətlərindən biri hesab edirəm. Çəkəcəyimiz misallarla bu mətləbi bir qədər sonra işıqlandıracağıq. Lakin hər şeydən əvvəl qısa bir müqəddiməyə işarə etmək istəyirəm.

Məlum olduğu kimi, Həzrət Məhəmməd (s) peyğəmbərlik məqamına təyin olunduqdan sonra iyirmi üç ilin on üç ilini Məkkədə, on ilini isə Mədinədə yaşamışdır.

Bu müddət ərzində onun bütün sünnət və buyurduqları biz müsəlmanlar üçün ən başlıca sənəd və nümunəyə çevrilmiş, indinin özündə də qüvvədə

---

[32] «Ənam» surəsi, ayə 153

qalmaqdadır. İyirmi üç il ərzində biz bir çox dəyişiklərin şahidi oluruq. Məkkədə olduğu illərdə şərait Mədinədən olduqca fərqli, Məkkədə Əbu talib və Xədicə vəfat etməzdən əvvəl və sonra olduqca fərqli. Peyğəmbərliyə təyin olunduqdan {Diqqət et, fikir yarımçıqdır}

«**Ya Məhəmməd! Sənə əmr olunanı - Quranı açıq-aşkar təbliğ et və müşriklərdən üz döndər**»[33].

Peyğəmbər (s)-ın əmisi Həmzə ibni Əbdul Müttəlib və digər nüfuzlu şəxslər İslam qəbul etməklə, müsəlmanlar özlərində arxayınlıq hiss etməyə başladılar. Həmzənin İslamı qəbul etməsi də, mövcud şəraitdə bəzi dəyişikliklər meydana gətirdi. Biz bu dəyişiklikləri Hicrətdən sonrada müşahidə edirik - Mədinədəki hicrətdən əvvəl və sonrakı, Məkkənin fəthindən əvvəl və sonrakı dövrlərə bölünür.

Göründüyü kimi, bu iyirmi üç il ərzində zəmanədə dörd-beş mühüm dəyişikliklər baş verir və bu dəyişikliklərin hər birində, müsəlmanların həyatında nəzərə çarpacaq fərq hiss olunur. İyirmi üç il əlavə olaraq, hicrətin 10-cu ilindən İmam Əsgərinin vəfatınadək, yəni 250 illik tarixə nəzər saldıqda, 4-5 dəyişiklik deyil, onlarla digər dəyişikliklərin şahidi oluruq.

Peyğəmbər (s) və Məsum imamların həyatına nəzər saldıqda, biz bəzən bir-birindən fərqli siyasətlərin irəli sürüldüyünün şahidi oluruq. Məsələn, İmam Həsən (ə) Müaviyyə ilə sülh bağladıqda, qardaşı bir neçə il sonra Müaviyyənin oğlu Yezidə beyət etməyə razı olmayıb, onunla müharibə edir. Əli (ə)-ın məsələsinə nəzər saldıqda, nə qədər sadə həyat tərzi keçirdiyini və geyiminin yalnız iki dəst paltardan ibarət olduğunu, İmam Zeynəl Abidin (ə) məsələsinə nəzər saldıqda isə, təzə palarlar geyindiyinin şahidi oluruq. İmamların 250 illik həyat dövrüdə bu kimi fərqlər nəzərə çarpmışsa da, Peyğəmbər (s) həyatında heç bir dəyişikliklər müşahidə olunmamışdır.

## *ZAMANIN TƏLƏBİNİN DƏYİŞMƏSİNƏ AİD BİRİNCİ MİSAL*

Üsuli-kafidə nəql olunan rəvayətlərdən birində deyilir: "Süfyan suri günlərin birində İmam Sadiq (ə)-ın yanına gəlib, onun əynimdə olduqca zərif parçadan tikilmiş ağ paltar görüb təəccüblə deyir:

- Nə üçün belə bir baha paltar geyinmisiniz?!
- Məgər nə eybi vardır?
- Məgər siz dünya əhlindənmi olmalısınızmı?!
- Dünyanın bütün nemətləri fasiqlərin, günahkarların deyil, əməli saleh şəxslərin olmalıdır! Sən bu sözləri ya şəxsiqərəzlik üzündən deyirsən və ya səhvə yol verə bilərsən. Əgər səhvə yol vermisənsə, səni başa salmalıyam.

Süfyan heç bir söz deməyib ayağa qalxıb gedir. Sonra Süfyanla həmfikir olan bir necə şəxs İmam Sadiq (ə)-ın yanına gəlib deyirlər:

---

[33] "Hicr" surəsi, ayə 94

- Süfyan sənin cavabını vezə bilməmişdir, lakin biz səninlə mübahisə etməyə hazırıq və sənin ona verdiyin cavabı əsla qəbul etmirik.
- Çox yaxşı, indiki belədir, nədən başlamaq istəyirsiniz?
- Qurandan.
- Qurandan yaxşı heç bir şey yaxşı ola bilməz, bir şərtlə ki, onu başa düşmüş olasınız.

Sonra imam Sadiq (ə) buyurdu:

- Zehninizdən keçənləri bilirəm, demək istəyirsiniz ki, nə Peyğəmbər (s), nə də Əli (ə) bu paltarlardan geymiş və olduqca sadə həyat tərzi keçirmişlər. Bilin ki, bunun İslamla heç bir əyaqəsi yox idi, onların gördüyü bu işlər dinlə deyil, zamanla əlaqəli idi. Əgər Peyğəmbər (s) indi sağ olsaydı, o da mənim kimi geyinərdi və əgər məndə o vaxt olsaydım, Peyğəmbər (s) kimi geyinərdim. İslam hər şeydən əvvəl bərabərliyə əhəmiyyət verir. Yəni müsəlmanlar bir-birinin çətinliklərini dərk edib, həmrəylik etməlidirlər. Onlar öz mallarının bir qismini ehtiyaclı olanlara verməlidirlər və bu bütün dövrlərdə sabit olaraq qalmalıdır. Müsəlman pula var-dövlətə yox Allaha etimad etməlidir. Bu da sözün əsl mənasında təqva və pərhizkarlıqdır.

İmam Sadiq (ə) sözlərinə davam edərk buyurur: «O ki, qaldı insanın hansı paltarı geyməsinə, bu yaşadığı zamandan asılıdır. Peyğəmbər (s)-ın zamanında əhalinin əksər hissəsi ehtiyac içində yaşayırdı. Beləki, Təbuk döyüşündə İslam ordusu «Cəyşul-usrə» (yoxsul ordu) adlanırdı. Çünki müsəlmanlar olduqca ağır iqtisadi vəziyyətdə düşmənə qarşı mübarizə aparır və gün ərzində hər bir döyüşcüyə cəmi bir xurma düşürdü. Bədr döyüşündə müsəlmanların sayı üç yüz on üç nəfər idi. Üç yüz on üç nəfərlik ordunun cəmi 3-4 atı və 40 qılıncı var idi. Bir halda ki düşmənlərin sayı isə minə yaxın idi və onlar hər gün yemək üçün doqquz dəvə kəsirdi. Suffə sakinləri o qədər yoxsul idilər ki, namaz qılmaq üçün belə bədənlərini tam örtə bilmirdilər. Onların cəmi bir ədəd paltarı var idi və həmin paltarla növbə ilə namaz qılırdılar.

Peyğəmbər (s) müsəlmanların elə bir ağır şəraitdə yaşadıqları bir halda, qızı həzrəti Fatimənin evinə gəlib pərdə gördükdə dərhal geri qayıdır. Həzrət Fatimə (ə) atasının nədən narahat olduğunu başa düşüb, dərhal pərdəni çıxarır və qolundakı gümüş bilərziyi atasına verir ki, ehtiyacı olanlara versin. O zaman yaranmış şərait bunu tələb edirdi. Bu günlər isə artıq İmam dünyanın böyük imperatorlarından birinə çevrilmiş və müsəlmanların iqtisadi vəziyyətləri tamamilə əvəz olmuşdur. Bütün bunlara baxmayaraq, mən yenə də həmin paltardan geyinməliyəmmi? Məmim geydiyim bu paltar, bu günlər bir çoxlarının geyindiyi adi paltarlardandır. İslam insanlara nəyi geyinib-geyinməməyi deyil, müəyyən qanunlar əsasında yaşamağı əmr edir və bu qanunlar dəyişilmədən bütün dövrlərdə sabit olaraq qalır».

Demək, insanın üzərinə düşən vəzifələri dəyişdirən zamandır. Əgər belə olmasaydı və bu kimi cüzi məsələlər ön plana çəkilsəydi. Əli ibni Əbu Talib

(ə)-ın bir cür imamların isə başqa cür həyat tərzi keçirmələri qeyri-mümkün olardı.

Allaha ibadət, Allahdan qorxu, bərabərlik, yoxsullara əl tutmaq hər şeydən önəlli və ön plandadır. Əli (ə)-ın gördüyü bütün işləri İmam Səccad (ə) da yerinə yetirirdi. Əli (ə) gecələrini ibadətlə keçirir, gecədən sübhə tək min rəkət namaz qılır, Allaha razı niyaz edirdisə, İmam Səccad (ə) da eyni qayda olaraq gününün böyük hissəsini ibadətə həsr edirdi. Əli (ə) kecələr yetimlərin evlərinə yemək daşıyır, İmam Səccad (ə) da kimsəsizlərə böyük qayğı köstərirdi.

Bu işi İmam Rza (ə) və digər imamlar da körürdü. Lakin insanın necə paltar geyməsi artıq zamandan asılıdır.

İmam Sadiq (ə)-ın xidmətçilərindən biri deyir: «Günlərin biri gecə yarısı kiminsə evdən xaric olduğunu gördüm. Bir qədər diqqət yetirdikdə gördüm ki, bu imam Sadiq (ə)-ın özüdür. İcazə vermədiyi üçün onun ardınca düşdüyümü bildirmədim. İmam Sadiq (ə) bir qədər getdikdən sonra kürəyinə aldığı kisə əlindən sürüşüb düşdü. Tez yaxınlaşıb yerə dağılanları kisənin içinə yığmaq istədim. İmam Sadiq (ə) məni görüb təəccüblə soruşdu: «Sən burada nə edirsən?» Dedim: «Sizi tək qoymaq istəmədim». Yerə dağılanları yığıb qurnardıqdan sonra kömək etməyə icazə verməsini istədim. İmam buyurdu: «Qiyamət günü mənim yükümü çəkə biləcəksənmi?». Bunu deyib, yola düşdük. Bəni-Saidə adlanan məhəlləyə çatdıqda, orada onlarla yoxsulun sakin olduğunu gördüm. İmam Sadiq (ə) gətirdiyi yemək şeylərini kisəsindən çıxarıb onların arasında böldü. Ondan soruşdum: «Onlar sizin tərəftarlaınızdırlarmı?». Buyurdu: «Xeyr». Dedim: «Lakin buna baxmayaraq, siz onlara yardım edirsiniz?!». Buyurdu: «Bəli».

Belə bir xeyirxahlıq yalnız imam Sadiq (ə) tərəfindən deyil, digər imamlar tərəfindən də həyata keçirilmişdir.

İmamın verdiyi bu ümumi hökm tək İmam Sadiq (ə)-ın dövrünə deyil, bütün dövrlərə də şamil olunur.

## *İKİNCİ MİSAL*

Bir qədər əvvələ nəzər salaq. Nə üçün İmam Həsən (ə) Müaviyyə ilə sülh sazişini imza etməyə razı olur, İmam Hüseyn (ə) isə Müaviyənin oğlu Yezidlə belə bir sazişə razı olmayır? Və ya onlardan əvvəl əli Əli ibni Əbu Talibin Peyğəmbər (s)-ın vəfatından sonra yaranmış şəraitlərdə göstərdiyi əks-əməllər necə?

Onlar hər şeydən əvvəl yaranmış şəraiti, din və müsəlmanların təhlükə ilə üzləşmələrini nəzərə alaraq, ən düzgün addım atmışlar. Lazım gəldikdə, İmam Həsən (ə) Müaviyyə ilə sülh sazişi bağlayır, lazım gəldikdə isə, İmam Hüseyn (ə) özünün az saylı ordusu ilə Yezidin hakimiyyətinə qarşı üsyan edir. Bir vaxtlar Əli (ə) müsəlmanların birliyini nəzərə alıb, xilafətdən

kənarlaşdırmağa razı olur, bir vaxtlar isə o, rəhbərliyi öz üzərinə götürməyə razı olur.

Demək, imamların göstərdikləri müxtəlif əks-əməllər mövcud şəraitdən asılı olmuşdur. Lakin dövran dəyişir və dövran dəyişdikcə şəxsiyyətlərdə dəyişilirdi. Müaviyyə və onun oğlu Yezidi başqaları ilə müqaisə etməliyik.

Müaviyyənin atası Əbu Süfyan Peyğəmbər (s)-la düşmənçilik edir və onun qarşısında almaq çətinliklər yaradırdı. Müaviyyə o kəsdir ki, Əli İbni Əbu Talib (ə) və oğlu Həsən İbni Əli (ə) ilə ata-babalarının mübarizəsini davam etmiş və düşmənçilik etməkdən əl çəkməmişdir. İmam Həsən (ə) zamanında yaranmış şərait isə, olduqca fərqli idi. Tərəftarların ona qarşı süstlük və etinasızlığı, onu İslam dünyasının birliyinin qorunması üçün Müaviyyə ilə sülh sazişini imza etməyə vadar edir. Müaviyyə ilə mübarizəyə başladıqda, ətrafına toplaşan mənfi ünsürlər onu dərhal Müaviyyəyə təslim etməyə belə hazır edirlər. İmam Hüseyn (ə)-ın zamanında isə mövcud şərait tamam başqa bir axara istiqamətlənir. Belə bir ağır şəraitdə o, az saylı sadiq tərəfdarları ilə Kərbəla çölünə gəlir və öz qanları ilə həqiqəti üzə çıxarır. Kərbəla faciəsindən sonra bir çoxları nə qədər böyük səhvə yol verdiklərini başa düşürlər. Onlar "Təvvabin" (tövbə edənlər) hərəkatını yaradaraq, İmam Hüseyn (ə)-ın intiqamını almaq üçün qiyam edən Muxtarın ətrafına toplaşırlar. Muğəyrət ibni Şəbə və Ziyad ibni Ubey saysız hesabsız cinayətlər törətdikləri zaman camaat Əli (ə)-ın hakimiyyətini həsrətlə yad edir və onun arxasında durmadıqlarının peşimançılığını çəkirdilər. Camaatın Əməvi hakimiyyətinin mahiyyətindən agah olması, İmam Hüseyn (ə)-ın qiyam etməsinə lazımı şərait yaratdı.

Biz Müaviyyə ilə oğlu Yezidi də müqaisə edə bilmərik. Müaviyyə haqsızlıqlara yol versə də, aşkarda şərab içmirdi. Lakin Yezid heç nədən çəkinmədən, aşkarada şərab içir, it və meymunlarla oynayır, hətta məst olduğu hallarda Peyğəmbər (s)-a xoşa gəlməz sözlər deməkdən belə çəkinmirdi.

Əgər Kərbəla hadisəsi baş verməsəydi və İmam Hüseyn (ə) Yezidə qarşı qiyam etməsəydi, zülm və haqsızlıq üzərində qurulan hakimiyyəti davam edəcək və nə Müaviyənin, nə də Yezidin içüzü açılacaqdı. İmam Həsən (ə) hansı siyasəti irəli sürmüşsə, İmam Hüseyn (ə) da həmin siyasəti davam etdirmişdir.

Mübarizənin zahiri görünüşü bir birindən fərqli olsa da, ruh və mahiyyəti bir birindən fərqlənmirdi.

# ON BEŞİNCİ FƏSİL

## *İSLAM DİNİNDƏ FİQH VƏ İCTİHAD*

*ON BEŞİNCİ FƏSİL*
*İSLAM DİNİNDƏ FİQH VƏ İCTİHAD*

«**Barı hər tayfadan bir dəstə (dini elmləri öyrənmək, sonra da dindaşlarına öyrətmək üçün) qalsın ki, camaat (döyüşdən) qayıtdığı zaman onları (Allahın əzabı ilə) qorxutsun. Bəlkə, onunla (əldə etdikləri biliklər sayəsində yaramaz işlərdən, nalayiq hərəkətlərdən) çəkinsinlər!**»[34].

İqbal Lahuri görkəmli İslam müfəssirlərində olmuşdur. O, Pakistanda müsəlman ailəsində dünyaya gəlmiş, ilk təhsilini orada başa vurmuş və daim İslam eşqi ilə yaşamışdır. İqbal Lahuri avropalılara qarşı özünəməxsus baxışa malik idi. Ali təhsilini fəlsəfə sahəsində yazmış və ingilis dilində avropa şərqşünaslarının mənbə kimi istifadə etdikləri bir neçə kitab təlif etmişdir. O, İslama böyük rəğbət bəsləyir və bişəriyyətin, bu ilahi din vasitəsilə nicat tapacağını hesab edirdi.

İqbal yenilik tərəftarları olmaqla yanaşı, bu günümüzün məsələlərilə yaxından tanış idi. <u>Onun yazdığı işlərdə daim diqqət mərkəzində olmuşdur.</u>

İqbal deyərdi: «Atam mənə bir söz dedi və onun bu sözü mənim üçün bir <u>dəri</u> oldu. Günlərin bir günü səhər Quran oxuyurdum. Atam məndən soruşdu: «Nə edirsən?». Dedim: «Quran oxuyuram». Dedi: «Quranı elə oxu ki, sanki sənə nazil olmuşdur». Atamın bu sözü daş üzərində yonulan naxış kimi qəlbimdə özünə yer etdi və o gündən tilavət edirdim. Bütün ayələrin ətrafın düşünüb daşınır və onları dərk etməyə çalışırdım.

## *İQBAL LAHURİ VƏ İBNİ SİNANIN İCTİHAD BARƏDƏ DEDİKLƏRİ*

İqbal Lahurinin dediyi məşhur bir söz haqda söhbət açmaq istəyirəm.

O, deyir: «İctihad, İslamın mühərrikidir».

Yolda hərəkət edən avtomobilə nəzərə salın. Onu hərəkətə gətirəcək hər hansı bir qüvvə olmayınca, hərəkət etməsi qeyri-mümkündür. İbn Sina özünün «Şəfa» adlı kitabında ailə və ictimai əsaslar haqda aşkar fikir irəli sürərək deyir: «İnsanın yaşamaq üçün duyduğu ehtiyaclar tükənməz və sonsuzdur. İslamın əsasları isə bütün dövrlərə şamil olaraq, sabit və dəyişilməzdir. Bu əsaslar nəinki dəyişilməyir, əksinə olaraq, bəşər həyatında qanun kimi bütün zamanlarda qüvvədə olaraq qalır». Bunun üçün də ictihadı zəruri hesab etmişdir. Yəni dini hökmlərdən meydana gələn yeni məsələləri

[34] "Tövbə" surəsi, ayə 122

tətbiq etmək üçün bütün dövrlərdə dini mütəxəssislər olmalı və mövcud şəraiti yaxşıca dərk etdikdən sonra qəti hökm verməlidirlər.

Deyə bilərik ki, bu günlər sözün əsl mənasında ictihad öz mahiyyətini itirmişdir. Bir çoxları belə təsəvvür edir ki, müctehidin vəzifəsi, bütün dövrlərdə hökmü eyni olan məsələlərdə hökm verməkdir. Məsələn, təyəmmüm etdikdə, əlləri torpağa bir dəfə vurmaq lazımdır ya iki dəfə? Bəziləri bir dəfə vurmağın kifayət etdiyini, bəziləri isə iki dəfə vurmanı düzgün hesab edirdilər. Bir haldaki əlləri torpağa bir dəfə və ya iki dəfə vurmağın bir o qədərdə əhəmiyyəti yoxdur. Əhəmiyyət kəsb edən zamanın yeni məsələləridir. Bütün bunları nəzərə alaraq, İbn Sina ictihadı zəruri hesab etmişdir. Əhli-təsənnün alimləri isə ictihadın əhatə dairəsini məhdudlaşdıraraq, dini məsələlərdə yalnız Əbu Hənifənin, Malik ibn Ənəsin, Şafei və Əhməd ibn Hənbəlin çıxartdığı hökmlərlə kifayətlənməyi hesab etmişlər.

## *QURANIN İŞLƏTDİYİ İFADƏ*

Qurani-kərimdə bu haqda deyilir: «**(Ehtiyacı olmadıqda) möminlərin hamısı birdən çıxmamalıdır. Bari hər tayfadan bir dəstə (dini elmləri öyrənmək, sonra da dindaşlarına öyrətmək üçün) qalsın**»[35].

Ayənin təfsirində müxtəlif fikirlər irəli sürülmüşdür «Möminlərin hamısı birdən çıxmamalıdır» dedikdə, nə nəzərdə tutulur? Nə üçün çıxmalıdırlar? İctihad üçün.

Quran bu müqəddəs hədəfi gözəl bəyan edir: «Hər tayfadan bir dəstə (dini elmləri öyrənmək, sonra da dindaşlarına öyrətmək üçün».

«Liyətəfəqqəhu fiddin» ayəsindəki təfəqquh kəlməsi öyrənmək kimi tərcümə olunsa da, dini elmdən daha dərin və geniş məna daşıyır. Elm geniş məna daşıyır və əldə olunan məlumata elm deyilir. Lakin «təfəqquh» insanın hər hansı bir şey barədə dərin və hər tərəfli məlumat əldə etməsinə deyilir.

Rağı İsfahani özünün "Mofrədat" adlı kitabında bu kəlməni belə izah edir: «Təfəqquh insanın zahirdən batinə yol tapmasına deyilir. Gözlə görünüb hiss olunan və hiss olunmayıb, dərk etmək təfəqquh deməkdir. Dində isə, təfəqquh insanın səthi məlumatlarla kifayətlənməyib, onun dərinliklərinə yol tapmasına deyilir».

Nəql olmuş hədislərdən birində deyilir «Gün gələr Quranın yalnız zahiri təlim olunar və İslamın adı qalar»[36].

Əli (ə), Bəni-Üməyyə haqda söz düşdükdə, onların gələcəyi haqda deyir: Bəni-Üməyyə İslamın həqiqi mahiyyətini aradan aparıb, camaatın zahiri görünüşünü nümayiş etdirər».

---

[35] "Tövbə" surəsi, ayə 122

[36] Biharul-ənvar, cild 52, səh 190

Demək, biz İslamın iki cür, yəni həm onun həqiqi mahiyyətini, həm də zahiri görüşünü nəzərdə tutmalıyıq və nəyin bahasına olursa olsun, həqiqi mahiyyətini dərk etməyə çalışmalıyıq.

Dostlardan biri deyir: «Bir vaxtlar başım bərk qarışıq idi. Mənim üçün olduqca böyük əhəmiyyət kəsb edən və heç bir zəhməti olmayan iş üçün yaxın dostlarımdan birindən mənə kömək etməsini xahiş etdim. O, isə camaat namazına gedəcəyini və bunun üçün də mənə köməklik edə bilməyəcəyini bildirdi».

Düzdür, camaat namazında iştirak etməyin böyük savabı vardır və nəql olmuş bir çox hədis və rəvayətlərdə bu məsələyə xüsusi diqqət yetirilmişdir. Camaat namazının özü necə? Bunun fəlsəfəsi nədən ibarətdir? İslamın tövsiyə etdiyi bu məsədə ən başlıca mehribançılığın, səmimiyyətin artması, bir-birlərinin çətinlikləri ilə maraqlanıb onların aradan qaldırılması, kütlə halında namaz qılmaqla ruhiyyələrin güclənməsidir. Demək, namazın özü bu xeyirxah işin zahiri görünüşü, sadalanan məsələlər isə onun ruhu və mahiyyətidir.

Bütün bunlar İslamın zahir və batindən ibarət olduğuna dəlalət edir.

## *BU BARƏDƏ BİR MİSAL*

Demək, təfəqquh lazım və zəruri məsələdir. İctihadı bütün dövrlərdə zəruri hesab edən və onu dini hərəkətə gətirəcək qüvvə adlandıran şəxslər də ilk növbədə məhz bunu nəzərə almışlar. Məsələn Ənfal surəsinin 60-cı ayəsində müsəlmanlara belə bir əmr olunur: «**(Ey möminlər!) Allahın düşmənini və öz düşməninizi, onlardan başqa sizin bilmədiyiniz, lakin Allahın bildiyi düşmənləri (münafiqləri) qorxutmaq üçün kafirləri qarşı bacardığınız qədər qüvvə və (cihad üçün bəslənən) döyüş atları tədarük edin**».

Göründüyü kimi, ayədə nəyin nəzərdə tutulduğuna, yəni hədəf və məqsədə də işarə olunur.

İslam qüdrəti basılmaz bir dindir, bunu hamı etiraf edir. Vil Darant deyir: «Heç bir din İslam dini kimi öz tərəftarlarına qüdrət və çətinliyə dəvət etməmişdir. İslam, müsəlmanlara güclü və qüdrətli almağa tövsiyə, zəif və kimdənsə asılı olmağı isə, qətiyyətlə yasaq edir. İslam müsəlmanları bu düşmənlərinin ürəklərinə qorxu salmaq üçün qüdrətli olmağa çağırır. İndinin özündə də, böyük qüdrətli ölkələri öz tabeçiliyinə keçirmiş və onların qəlblərinə qorxu toxumunu səpmişdir. Quran, müsəlmanları qeyri-müsəlmanlar onlara hücum etməyə cürət etməsinlər və qəlblərində onlara qarşı qorxu yaranmasın deyə, mümkün qədər güc və qüdrət əldə etməyi əmr edir. Biri başqasına hücum etmək üçün həmçinin başqalarının təcavüzünün qarşısını almaq üçün təcavüzə məruz qalan şəxs qüdrətli olmalıdır. Quran qüdrətli olmağı yalnız təcavüzün qarşısını almaq və müdafiə üçün tövsiyə edir».

«**Hər hansı bir camaata qarşı olan işiniz, sizi ədalətsizliyə sövq etməsin**»[37].

Düşmənlər həddi aşdıqda belə, onlara qarşı mübarizə aparərkən, həddi aşmamağı əmr edir və eyni zamanda İslam başqasına təcavüz etməyə icazə vermir.

Peyğəmbər (s)-ın sünnətinə nəzər saldıqda, fiqhdə "Səbq və rimayə" adlanan bir sıra adət və ənənələr meydana gətirdiyinin şahidi oluruq. Hər iki əməl, yəni «səbe» (at yürüşü) və «rimayə» (at almaq) İslam mövqeyi-nəzərindən müstəhəb və bəyənilmiş bir işdir. İslam bu iki şeydən başqa bütün çəkişmələri haram etmişdir. Əgər Peyğəmbər (s) at sürməyi və at almağı müsəlmanlara tövsiyə etmişsə, bu o deməkdirmi ki, onlar zamanın dəyişilməsinə baxmayaraq at almağa və at sürməyə davam etməli və bunu Peyğəmbər (s) sünnəti adlandıraraq, daim yaşatmalıdırlar? Xeyr. Belə bir nəticəyə gəlmək olduqca səhv və xoşsuzdur. Əgər Peyğəmbər (s)-ın yaşadığı dövrə nəzər salsaq, onun «bacardığınız qədər qüvvə tədarük görün» ayəsinin əməli olaraq həyata keçirdiyinin şahidi olacağıq. Peyğəmbər (s) o dövrün döyüş və müdafiə olma üsullarını nəzərə alaraq, müsəlmanlara belə bir dəyərli tövsiyə etmişdir.

Demək, İslamın məqsədi müsəlmanlara ox atmağı və at sürməyi tövsiyə etmək deyil, yaşadıqları şəraitə uyğun olaraq, döyüş vasitələrinə yiyələnib, düşmən müqabilində qüvvə toplamaqdır. Dində təfəqquh dəm dərindən düşünüb-daşınmaq da məhz buna deyilir.

## *DİGƏR BİR MİSAL*

Başqa bir misal Nəhcül-bəlağədə deyilir: «Günlərin bir günü Əli (ə)-ın səhabələrindən biri ona etiraz edərək deyir: «Nə üçün saç saqqalına rəng vurmayırsan? Məgər Peyğəmbər (s) buyurmamışdımı, ağ tüklərinizi rəngləyin?». Əli (ə) onun dediklərini təsdiq etdi. Həmin şəxs bir daha nə üçün bunu etmədiyini soruşduqda, Əli (ə) buyurdu: «Peyğəmbər (s) belə bir hökmü ehtiyac duyulduğu zaman vermişdir. Belə ki, müsəlmanlar düşmənlə döyüş meydanında qarşı-qarşıya durduqda, ordunun böyük hissəsi çox yaşlı ağ saç şəxslər təşkil edirdi. Düşmən onların qoca olduğunu görüb ruhiyyələnməsin deyə, belə tədbirə əl atmış və müsəlmanlara saç saqqalların rəngləməyi əmr etmişdi. Verilən hökm o dövrə aid idi. Hal-hazırda isə buna heç bir ehtiyac yoxdur».

İslamın müsəlmanlara verdiyi ümumi hökm isə, daim sabit və diyişilməzdir. O da istər döyüş meydanında, istərsə də adi həyatda, qeyri-müsəlmanların müsəlmanlara ruhiyələnməsinə şərait yaratmamaq və onlara təhqir gözü ilə baxmağa yol verməməkdən ibarətdir. Bunun üçün də nəyin bahasına olursa olsun, hər bir mövcud çatışmamazlıqların aradan

---

[37] "Maidə" surəsi, ayə 8

qalxmasında əlindən gələni əsirgəməmiş və müsəlman ictimaiyyətinin günü gündən güclənməsinə köməklik etmişdi.

İslam dininin ən başlıca xüsusiyyətlərindən biri də, zaman dəyişilməkdə olan ehtiyaclarını daim sabit və dəyişməz olan ehtiyaclarla əlaqələndirməkdən ibarətdir. Bu əlaqələri də yalnız müctehid üzə çıxarıb qəti hökm verə bilər. Bu da, İslamın daimi inkişafından xəbər verir.

Tarixə nəzər saldıqda, müxtəlif dövrlərdə müsəlmanlara bəzi geyimlərin haram olduğunun şahidi oluruq. Həmin dövrün mövcud şəraiti ilə yaxından tanış olduqda isə həmin geyimlərin haramlığının səbəbi bizə məlum olur. Məsələn bir vaxtlar müsəlmanlara başlarına şlyapa qoymaq haram edilmişdir. Həmin dövrə nəzər saldıqda, bizə məlum olur ki, o dövrdə yalnız məsihilər başlarına şlyapa qoymuş və onlar başqalarından bununla fərqlənirmişlər. Belə bir şəraitdə ad və şərəfinin qorunması üçün müsəlmanlara məsihilərə xas olan geyimlərdən istifadə etmək təbii ki, haram olmalı idi. Lakin illər ötüb keçmiş şlyapa və sair geyimlər tək məsihilər tərəfindən deyil, dil və milliyətindən asılı olmayaraq, digər millətlər tərəfindən də geniş şəkildə istifadə olunmağa başlamışdır. Yaranmış belə bir şəraitdə hər hansı bir paltarın haramlığına dair fitva vermək təbii ki, qeyri-məntiqi olardı.

Mənə belə gəlir ki, ictihad İslam dininin möcüzəvi xüsusiyyətlərindəndir. İctihad heç də o demək deyildir ki, hər hansı bir şəxs oturub elə hey eyni sözləri təkrar etmiş olsun. İslam elə bir yüksək xüsusiyyətə malikdir ki biz onu hərəkətə gətirmədən, özü-özünü hərəkətə gətirib bütün çətinlikləri aradan qaldırır. Özünün bir sıra qeyri-sabit və dəyişgən qanunlarını sabit qanunlarına tabe edib, öz ixtiyarını əldən vermir. Bu müqəddəs İlahi dinin insana bəxş etdiyi böyük nemətlərdən biri də, bəsirətdir.

## ON ALTINCI FƏSİL

### *«MÜLAZİMƏ» QANUNU*

«**Bari hər tayfadan bir dəstə (dini elmləri öyrənmək, sonra da dindaşlarına öyrətmək üçün) qalsın**»[38].

Əvvəlki fəslimizdə İslamın tövsiyə etdiyi və daha dəqiq desək, əmr etdiyi məsələlərdən biri - dini məsələlərin dərindən araşdırılması haqda söhbət açdıq. Bizə məlum oldu ki, təfəqquh şəri hökmlərin dərindən araşdırıb, üzə çıxarılmasına deyilir. Bu araşdırmalardan biz belə bir qənaətə gəlirik ki, şəri hökmlər iki hissədən, yəni zahir və batindən ibarətdir.

Zahir və batin dedikdə, biz əvvəlki fəsildə qeyd etdiyimiz mətləbi nəzərdə tuturuq. Burada da biz bir neçə misal çəkərək, söhbətimizi davam etmək istəyirik.

İctihad, İslam dininin əsas hissəsini təşkil edir. Bu yolla biz dini məsələlərin dərinliklərinə yol tapıb, onların fəlsəfə və mahiyyətini dərk etmiş oluruq.

İslamın zühur etdiyi ilk illərdən müsəlmanları maraqlandıran suallardan biri də şəri hökmlərin hansı səbəblər üzündən verildiyi və hikmət və fəlsəfənin nədən ibarət olduğu olmuşdur. İslam nöqteyi-nəzərindən Allaha iman gətirmiş hər bir şəxs, öz imanını «bəndəlik»i ilə sübuta yetirməlidir.

Bəndəlik heç də o demək deyildir ki, biz müsəlmanlar yalnız fəlsəfəsi bizə məlum olan hökmlərə əməl etməli, qalanların isə kənara qoymalıyıq. Əgər din hər hansı bir hökmü qəti olaraq verərsə, istər onun fəlsəfəsi bizə məlum olsun, istərsə də yox, tabe olaraq həyata keçirməliyik. Çünki ilahi qanunların hər birinin hikmət və fəlsəfəsi vardır. Bunun üçün də din alimləri bir-birinin tam əksinə olan iki qanun tərtib edərək, adını «yəbəbiyyət qanunu» qoymuşlar. Onlar deyirlər: «Ağılın verdiyi hökm ilə şəri hökmlər arasında daimi həmahənglik və bağlılıq mövcuddur. Yəni dinin hökm olmuş hər hansı bir şeyi, hökmən ağılda təsdiq edir və onu tələb edir. Beləki, əgər ağıl hər hansı bir şeyi üzə çıxararsa (zənn və güman doğuran yox, hər hansı bir qəti şeyi), belə bir qənaətə gəlməliyik ki, İslam da bu məsələni zəruri hesab etmişdir».

Müctehidlər bəzən şəri baxımdan heç bir nəqli dəlillər olmayan fitvalar verirlər. Deməl, onlar bu kimi hallarda yalnız ağıla istinad edirlər. Məsələn, fiqhdə biz "Hakimin rəhbərliyi" adlı mövzu ilə qarşılaşırıq (Hakimin rəhbərliyi dedikdə, dini rəhbərin bir çox hallarda mövcud şəraiti nəzərə alaraq, qərar qəbul etməsi nəzərdə tutulur). Məsələn, bir şəxs vəsiyyət etmədən dünyasını dəyişər və özündən sonra var-dövlətinə nəzarət edəcək bir şəxs olmazsa, uşaqlarının aqibəti necə olmalıdır?

---

[38] "Tövbə" surəsi, ayə səh 122 {bax}

Deyirlər bu kimi hallarda onlara düşən payı hakim (qazi) təyin etməlidir. Belə bir addım yalnız o zaman atılır ki, qarşıya çıxan məsələ barədə nə müəyyən ayə nazil olmuş, nə də hədis və rəvayət nəql edilmiş olsun. Çünki İslam insanların bütün ehtiyaclarını təmin və bütün suallarına cavab verən ümumbəşər bir dindir. Din nəyi hökm edirsə, ağıl onu təsdiq edir. Lakin bu heçdə o demək deyil ki, dinin verdiyi hər bir hökmü ağılda dərk etmiş olsun. Məsələn, şəriət donuz ətini haram etmişdir. İnsan yəqinliklə onun nə üçün haram olduğunu bilmirmi? Xeyr! Sadəcə olaraq verilən hər bir hökmün özünəməxsus hikmət və fəlsəfəsi vardır. Və insan həmin şeydən agah olduqda, onu qəbul edir. Buna da səbəbiyyət qanunu deyilir.

Bütün bunları nəzərə alaraq, müsəlman alimləri belə bir qənaətə gəlmişdir ki, İslamın verdiyi bütün hökmlər istər vacib olsun, istərsə də haram və istər müstəhəb olsun, istərsə də məkruh müəyyən səbəblər üzündən veribmiş, hər hansı bir şey vacib edildikdə ,zəruriyyət və əhəmiyyəti, haram edildikdə isə, qoyduğu mənfi təsirlər nəzərə tutulmuşdur. Demək, hər bir hökmün müəyyən hikmət və fəlsəfəsi vardır. Ağıl ilə din arasında olan bağlılıq və həmahənglik İslam dinindən başqa heç bir dində müşahidə olunmur. Müxtəlif dinlərin alimlərindən soruşun görün, ağıl ilə din arasında nə kimi rabitə vardır. Onlar cəmiyyətlə sizə bu iki şeyin arasında heç bir əlaqənin olmadığını bildirəcəklər. Məsihilər üçlüyə (Allah, oğul, və müqəddəs ruha) etiqad bəsləyirlər. Onlara belə bir etiqadın ağıl və məntiq ilə uyğun gəlmədiyi dedikdə, buna tam adi bir hal kimi baxıb deyirlər: «Gəlmir gəlməsin!». Onlar bəndəlik dedikdə, ağıl və məntiqi kənara qoyub, Allah qarşısında kor-korana təslim almağı nəzərdə tuturlar. İslam kor-korana iman gətirməyi qətiyyətlə rədd edir.

## *«MÜHÜM VƏ ƏN ƏHƏMİYYƏTLİ» QANUNU*

İslamın qəbul etdiyi iman, əqli və məntiqi imandır. Məhz belə bir xüsusiyyət İslama əbədilik bəxş etmişdir. İki mühüm məsələ ilə qarşılaşdıqda necə? Hansını seçməli?

İslam bu kimi məsələlərdə öz davamçılarını cavabsız qoymamışdır. Bu kimi hallarda insan qarşılaşdığı iki şeyin hansının daha çox əhəmiyyət kəsb etdiyinə diqqət yetirməlidir. Məsələn, Sahibi daxil olmağa icazə verməyən həyətin hövzunda uşağın batdığını gördükdə nə etməli?

Biz icazə verilmədiyini nəzərə alaraq, ya uşağa yardım etməyə bilərik və ya buna əhəmiyyət vermədən uşağı xilas edə bilərik. Yaranmış belə bir şəraitdə bu ikisindən hansının daha çox əhəmiyyət kəsb etdiyinə diqqət yetirməliyik. Sözsüz ki, kimisə ölümdən xilas etmək, razılığını almadan kiminsə şəxsi mülkünə daxil olmamaqdan daha çox əhəmiyyət kəsb edir. Başqa bir misal: Sizə məhrəm olmayan bir qadını gözləyirsiniz, önündə maşın vurur. Nə etməli? Ona məhrəm olan şəxsləri gözləyib, tələf olmasına şərait yaratmalıyıqmı? Naməhrəm qadının bədəninə toxunmaq haram olsa da,

yaranmış belə bir vəziyyətdə yardım etmək və lazım gəldikdə başqa bir naməhrəm cərrahın onun bədəninə toxunmasına da razı olmaq lazımdır. Qadının özü və ya ona məhrəm olan şəxslər buna etiraz edə bilərmi? Xeyr! Çünki İslam sağlamlığını, məhrəm olmayan bir şəxsin, qadının bədəninə toxunmasından daha zəruri hesab edir.

Bunu da deyim ki, bəzən bəzi qadınlar hələ doğum vaxtları çatmamış doğum zamanı qabilənin kişi olmasını tələb edir. Qəribədir, bütün sahələrdə kişilərlə bərabərlik iddiası edən qadınlar nə üçün bu məsələdə rəqabətə qatışmaq istəmirlər?! Mamalıq kişiyə yox, qadına xas olan işdir. İlk gündən də bu iş qadınların üzərinə düşmüşdür. Qadınlar deyə bilər ki, tarix boyu onlar bir çox işlərdən uzaq düşdükləri üçün inkişaf edə bilməmişlər. Əgər onlara imkan yaradılmasaydı, nə qədər inkişaf etdiklərinin şahidi olardıq. Lakin mamalıq digər sahələrdən olduqca fərqlənir. Qeyd etdiyimiz kimi, mamalıq ilk gündən qadınlara aid olmuş və kişilər bu sahədə fəaliyyət göstərməmişlər. Lakin bu heç də o demək deyildir ki, zərurət duyulduqda da, kişi mütəxəssislərinə müraciət olunmamalıdır.

## *«TƏŞRİH» MƏSƏLƏSİ*

Tələbələri maraqlandıran və bəzilərinin əlində İslamı sual altına aparmaq üçün bəhanəyə çevrilən məsələlərdən biri də tibbin təşrih sahəsidir.

Qədim zamanlardan belə, tibb elminin bir sahəsini təşkil etmiş və hal-hazırda da etməkdədir. Təlimlər bəzən insan cəsədlərinin, bəzən də heyvanların üzərində aparılır. Lakin heyvan orqanizmi insan orqanizmi ilə tam oxşar deyildir. Demək, tibb sahəsində fəaliyyət göstərmək istəyən hər bir şəxs bu sahə ilə yaxından tanış olmalıdır. Lakin İslam, dünyasını dəyişmiş şəxsin cənazəsinə hörmətsizlik etməyi, cəmiyyətdə yasaq etmiş və cənazənin qüsl olunub kəfənləndikdən sonra dərhal basdırılmasına dair gistərişlər verilmişdir.

Bu olduqca mühüm bir məsələdir. Hər şeydən əvvəl bilməliyik ki, bütün deyilənlər (yəni cənazəyə hörmətlə yanaşıb, ona qüsl verib kəfənlədikdən sonra torpağa basdırmaq) müsəlman cənazəsinə aiddir. Əlbəttə qüsl verib kəfənləmədə qeyri-müsəlmanların da cənazəsinə hörmətlə yanaşmalı və başdı-başına buraxılmamalıdır. Deyirsiniz ki, bir çox xəstəlikləri tanımaq və onlarla mübarizə aparmaq və ümumiyyətlə, tibb elmini inkişaf etdirmək üçün insan bədənləri yarılıb üzərlərində təlim və təhqiqat işləri aparılmalıdır.

Cavabında deməliyik ki, tibb kimi İslam nöqteyi-nəzərdən meyitin qüsl edilməsi, kəfənlənməsi və dəfn olunmasına ehtiyac duyulduqda, bu, hər bir müsəlmana vacib olur. Lakin kimlərsə bu kimi işləri gördükdə, əgər ehtiyac aradan qalxarsa, artıq bu işləri görmək başqalarına vacib olmayır (fiqhdə bu məsələyə vacibi-kifayi deyilir).

Demək, cəmiyyətin ehtiyac duyduğu hər hansı bir sahəyə yiyələnmək ehtiyac duyulanadək hər bir müsəlmana vacib olur. Kimlərinsə bu sahələrə

yiyələnməsi ilə ehtiyac aradan qaldırıldıqda isə, artıq kimsəyə vacib olmayır. Cəmiyyət həkimə və ya hər hansı bir dərmana ehtiyac duyduqda, tibbin sahəsinə yiyələnmək zərurət halını tapır. Bir sözlə, biz iki vacib məsələ ilə qarşılaşmış oluruq və onlardan birinin daha çox əhəmiyyət kəsb etdiyi üçün onu ön plana çəkirik. Tələbə əgər müsəlman olarsa bilməlidir ki, bu sahəyə (tibbə) yiyələnməklə başqalarına vacib olan şeyi onların üzərindən götürmüş olur. Bəzən qeyri-müsəlman şəxslər özlərini və ya vəfat etmiş yaxınlarının bədənlərini tibb elminin ixtiyarına qoyurlar. Elə olduqda onların bədənləridən istifadə etməklə, bütün çətinlikləri aradan qaldırmaq olar. Əcnəbilər buna razı olmadıqda isə, biz bu suala cavab tapmalıyıq. Tibb elminin inkişafı daha çox əhəmiyyət kəsb edir, ya müsəlman bir şəxsin cənazəsinə edilən hörmət? Cavabı artıq məlumdur. Təbii ki, tibb elminin inkişafı, olduqca incə bir məsələdir və bunun öhdəsindən yalnız müctehid və ya dini mütəxəssis gələ bilər. Müasir alimlərdən biri bu sualı vermiş və özü də bu suala cavab vermişdir. Fərz edək ki, qeyri-müsəlmanın bədənini tapmaq mümkün deyildir. Və bu çətinliyi yalnız müsəlman olmuş şəxslərin bədənlərindən istifadə etməklə aradan qaldıra bilərik. Belə olduqda da, onların arasında fərq qoyulmalıdır. Ayətullah Brucərdinin bədəni adi müsəlmanın bədəni ilə eyni ola bilərmi? Xeyr! Onun bədəninə olunan hörmətsizlik bütün müsəlmanların bədəninə olunan hörmətsizliklə bərəbərdir. Çünki bu dahi şəxsiyyət İslamın və müsəlmalığın döyünən ürəyi və sim yolu olmuşdur. Sağlığında ona nə qədər hörmət və ehtiramla yanaşılmışsa, vəfat etdikdən sonra da ehtiramını gözləmək, hər bir müsəlmanın borcudur. Minlərlə adi müsəlmanın bədənindən istəfadə etmək mümkün olduğu bir halda təbii ki, Ayətullah Brucərdinin bədənindən yox, onların bədənindən istifadə etmək lazımdır. Bu sahədə istifadə olunan bədənlərin hamısı müsəlman bədəni olduqda belə, yenə də hansılarının sahibi sağ olub-olmamasına diqqət yetirmək lazımdır.

Bütün bunlar İslamın həmişə fəal və məntiqi din olmasından xəbər verir. İslam iki mühüm məsələ ilə qarşılaşdıqda, hansının daha çox cəmiyyət kəsb etdiyinə diqqət yetirilməsini əmr edir. İslam meydana gəldiyi ilk gündən İslam dini belə bir xüsusiyyətə yiyələnmiş və öz rəngarəngliyi ilə dikər dinlərdən fərqlənmişdir. <u>İstəyirik biz dində belə bir dəyişiylik aparmağa nə qadir olardıq, nə də səlahiyyətimiz çatardı</u>.

## *DİNİ GÖSTƏRİŞLƏRİN MÜXTƏLİF FORMALARI*

Bir qədər diqqət yetirdikdə, dini hökmlərin müxtəlif şəraitlərdə asanlıqla əvəz olunduğunun şahidi oluruq. Məsələn şəriət bizə namaz qılmağı, oruc tutmağı və namaz qılmaq üçün dəstəmaz almağı əmr edir. Bütün bunlara əməl etmək vacib və zəruridir. Lakin bütün bunlarla yanaşı, İslam şəraiti nəzər alaraq, müəyyən istisnalar qeyd edir: əgər ayaq üstə qıla bilmirsənsə, oturduğun yerdə qıl Bu da mümkün deyilsə, uzanılmış vəziyyətdə qıl. Əgər

həkim danışmağı belə yasaq edərsə, işarə ilə namaz qılmaq və daha heç bir bəhanə axtarmamaq lazımdır.

Bir neçə il bundan əvvəl alimlərdən biri gözünü cərrahiyə etməli oldu. Həkimlər onun üzünü yumağı qadağan etsələr də, buna heç bir əhəmiyyət verməyib deyərdi: «Həkimlər bədəni yarıb tikməkdən başqa heç bir şey bilməyirlər...». Xəstəxanadan çıxdıqdan sonra hamama gedir və çox keçmədən gözü çirk edib tamamilə kor olur. Bu şəxs İslalmın göstərişlərinə əməl etmişdir, ya onun əksinə? Əlbəttə əksinə! Suyun bədənə yetirəcəyini zərəri nəzərə alıb əgər İslam dəstəmaz əvəzinə təyəmmüm almağı əmr edirsə, təhlükə davam edənədək şəxsin dəstəmaz almağa haqqı yoxdur, lakin bu şəraitdə dəstəmazla qıldığı namaz səhv və batildir. Əgər həkim kimə oruc tutmağı qadağan edərsə, artıq həmin şəxsin oruc tutmağa heç bir haqqı yoxdur. Tutsa belə, oruc batildir. Sonradan isə qəzasını tutmalıdır. Yaranmış şərait bir-birindən fərqli və müxtəlif olur. Səfərdə olaraq dörd rükətli namazların iki rükət qılınmasını və oruc tutmamağı əmr edir. Bəqərə surəsinin 185-ci ayəsində bu haqda deyilir: «**Xəstə və ya səfərdə olanlar isə, tutmadığı günlərin sayı qədər başqa günlər də tutsunlar**». Nə üçün? Bunun səbəbi həmin ayədə belə açıqlanır «Allah sizin üçün ağırlıq (çətinlik) deyil, yüngüllük (asanlıq) istər». Lakin bir çoxları bunu qəbul etmək istəmirlər.

Məlum olduğu kimi "Bədr" döyüşü hicrətin ikinci ilində - Ramazan ayına təsadüf etmişdir. Qoşun səfərdə olduğu üçün Peyğəmbər (s) müsəlmanlara oruc tutmamağı əmr edir. Müsəlmanlar isə bununla razılaşa bilmirdilər. Mərhum Şeyx Əbdülkərim qoca və xəstə olmasına baxmayaraq, Ramazan ayının bəzi günlərini oruc tuturdu. <u>Ona «verdiyimiz fitva bunun tam əksinədir». Mənfi təsir göstərdikdə, oruc tutmağı siz özünüz buyurmusunuz.</u>

<u>Ümumiyyətlə, oruc tutmaq qoca kişi və qoca qadına vacib deyildir. Beləki, ziyanı olmadıqda belə, qoca kişi və qoca qadın oruc tutmalıdır" dedikdə buyurardı. Bəli bu mənim fitvamdır, lakin avamlıq damarım tutmuş və məni orucumu yeməyə qoymayır</u>. {fikir qarışıqdır}

Lakin İslam bunun tam əksini deyir.

Bütün bunlar İslamın özünü müxtəlif şəraitlərlə tətbiq eləməsini dərk etməyimiz üçündür. Lakin bəzən şəraitin dəyişilməsini bəhanə gətirərək, kimlərsə azanın sözlərini dəyişir, namazı hər millətin öz dinində qılmasına dair fikir irəli sürür. Bütün bunlar cəhalət və nadanlıqdan başqa bir şey deyildir.

Demək, bu kimi çətinlikləri aradan qaldırmaq üçün İslamın özünə (yəni Qurana, hədis və rəvayətlərə, icma və əqlə) müraciət etmək lazımdır.

# ON YEDDİNCİ FƏSİL

## *ƏLİ (Ə) - HƏMİŞƏYAŞAR BİR ŞƏXSİYYƏT*

«**And olsun günəşə və onun işığına (günəşin qalxdığı vaxta), And olsun günəşin ardınca çıxan aya**»[39].

## *TARİXİN UNUDULMAZ ŞƏXSİYYƏTLƏRİ*

Son bir neçə fəsildə sabit və qeyri-sabit qanunlar haqda söhbət açdıq. Qeyd etdik ki, fitri və əsas qanunlar daim sabit və dəyişməzdir. Lakin bir sıra qanunlar müxtəlif zaman və məkandan yaranmış vəziyyət və şəraitdən asılı olduğu üçün qeyri-sabit və dəyişkən olur. Ağacı, sabit və qeyri-sabit qanunlar üçün misal çəkə bilərik.

Ağacın kökü, kövdəsi, budaq və yarpaqları olur. Onun əsas hissəsini təşkil edən kök və kövdəsi illər boyu davam gətirir, lakin onun yarpaqları hər il dəyişilir, bu ildən gələn ilədək davam gətirməyir və hər il təzə göyərən yarpaqlar illər boyu davam gətirən həmin kök və gövdənin nəticəsidir. Haqqında söhbət açmaq istədiyimiz mövzu, əvvəlki fəsillərlə müəyyən qədər də olsa əlaqəlidir. Dünyanın, bəşəriyyətin həyat qanunu iki hissədən (sabit və qeyri-sabit) olduğu kimi insanları da iki hissəyə bölünürlər. Yəni bəzi şəxsiyyətlər bütün dövrlərdə günəş kimi parlaq və bəşəriyyətə örpək olmuşlar. İllər, əsrlər keçməsinə baxmayaraq, onlar köhnəlib xatirələrdən silinməmişlər. Lakin bəzi şəxsiyyətlər yalnız yaşadıqları dövrdə şan-şöhrət tapmış, dünyalarını dəyişdikdən sonra isə camaatın nəzərindən düşmüş və getdikcə xatirələrdən silinmişlər.

Kimləri isə buna misal çəkmək istəməzdim; siz özünüz çox gözəl bilirsiniz.

İstər siyasət, istər elm, istərsə də digər sahələrdə bir vaxtlar şan-şöhrət qazanmış dahi şəxsiyyətlər, zaman getdikcə xatirələrədən silinib, təlif etdikləri tədriclə öz mahiyyətini itirməyə başlamışdır.

Belə bir şəxsiyyətlərdən bir də, dahi yunan filosofu Aristotel (Ərəstun) olmuşdur. Tarixdə onun kimi ikinci bir şəxsiyyət tapmaq bəlkə də çətindir. Aristel dövrünün zologiya, tibb, riyaziyyat, astranomiya, fəlsəfə kimi elmlərinə dərindən yiyələnmiş və bu sahələrdə onlarla kitab təlif etmiş və yüzlərlə qabaqcıl şagird yetirmişdir.

Günəş tək doğulduğu dövrdə bir çox kimlərə dərindən yiyələndiyi müəllimi adlandırdı. Aritotelin şan-şöhrəti o qədər ucalır ki, vəfat etdikdən hələ bir neçə əsr sonra heç bir filosof və ya alim onun yiyələndiyi sahələrdə fikir irəli sürməyə cürət etmir. İbni Sina kimi görkəmli şəxsiyyət özünün "Hikmətul-məşriqiyyə" adlı kitabının müqəddiməsində deyir: "Bəzən öz

[39] "Şəms" surəsi, ayə 1-2

şəxsi nəzəriyyələrimiz olurdu. Camaat qəbul etsin dey,ə öz nəzəriyyələrimizi Ərəstunun nəzəriyələri ilə birlikdə bəyan edərdik, əgər belə etməsəydik, kimsə bizim nəzəriyyələrimizi qəbul etməzdi. XI və XII əsrlərdə İspaniyada yaşayıb elmi əsərlər yaratmış İbni Raid, İbni Sina ilə bir çox hallarda Aristotelin nəzəriyyələri ilə razılaşmadığı üçün düşmənçilik edərdi. Avropalılar belə bir fikirdədilər ki, təbiəti bəşəriyyətə Aristotel, Aristoteli isə İbni Raid tanıtdırmışdır. Çünki, Aristoteli avropalıları tanıtdıran, məhz İbni Raidin özü olmuşdur. Lakim baxaq görək, Aristotelin nəzərləri həmin xüsusiyyəti özündə qoruyub saxlaya bilmişdirmi? Xeyr! Aristotelə hörmət və ehtiramla yanaşan şərqin özündə yeni-yeni şəxsiyyətlər meydana gəlib onun nəzəriyyələrini sual altına qoymağa başladı. Qərbdə isə onların sayı daha çox idi.

Aristotelin nəziriyyələri o qədər öz əhəmiyyətini itirməyə başladı ki, bir çoxları onu hətta bəşəriyyətin tərzi-təfəkkürünü aşağı səviyyə endirməkdə ittiham etməyə başladı. Bəziləri onu bəşəriyyəti tərzi-təfəkkür baxımından iki əsr geri salmaqda belə günahlandırırdı. Hal-hazırda onun əksər nəzəriyyələri öz etibarını itirmişdir. Elə bir dini və ya qeyri-dini alim tapa bilməzsiniz ki, nəzəriyyələrinin heç olmazsa, səksən faizi dəyişilməmiş olsun. İnbi Sinanın özünün irəli sürdüyü nəzəriyyələrinin demək olar ki, tam yarısı dəyişilmiş və öz əhəmiyyətini itirimişdir. Dekartın irəli sürdüyü nəzəriyyələr ttamamilə köhnəlmiş və etibardan düşmüşdür.

Şeyx Tusinin «Uzdə» adlı kitabını, Şeyx Ənsarinin «Rəsail» adlı əsəri ilə müqaisə etdikdə görürük ki, "Uddəni" {**Bax:** iki cür yazılıb} yalnız qədim əsər kimi kitabxana və ya əlyazma mərkəzlərində saxlaya bilər, lakin biz bu kitablardan dərslik kimi istifadə edə bilmərik. Şeyx Səduqun, mühəqqiq Hillinin və başqalarının təlif etdikləri əsərlərdə. Eyni qayda olaraq elə bir alim tapa bilməzsiniz ki, nəzəriyyələri zamaq keçməsinə baxmayaraq, dəyişilmədən, olduğu kimi qalsın. Lakin insanlar arasında elə bir şəxsiyyətlər olmuşdur ki, illər əsrlər keçməsinə baxmayaraq, günəş tək həmişə parlaq və qəlblərə hakim olmuş olsun.

Söhbətimizin əvvəlində «And olsun günəşə və onun işığına (günəşin qalxdığı vaxta); Anda olsun günəşin ardınca çıxan aya» ayəsinə işarə etdik. Ay və günəş dedikdə, ayə`nin zahir minasından hər gün gördüyümüz ay və günəşin nəzərdə tutulduğunu deyə bilərik. Lakin nəql olmuş rəvayətlərdə olduqca incə bir mətləbə toxunulmuşdur. Bu məzmunda olmuş rəvayətlərdən birində günəş dedikdə Peyğəmbər (s), ay dedikdə isə Əli (ə)-ın nəzərdə tutulduğuna işarə olunmuşdur. Beləki, günəş batdıqdan sonra öz nuru ilə aləmi işıqlandıran məhz aydır. Peyğəmbər (s) Qurani-kərim haqda buyurur: "**Ayla günəş daim hərəkətdə, cərayanda olduğu kimi, Quran da daimi hərəkət və cərəyandır. Yə`ni ayla günəş bir yerdə durub işıq saçmadığı kimi, Quran da hər hansı bir millətə aid deyildir və onun nuru daim saçmaqdadır. Camaat Qurandan üz çevirməklə heç də güman etməsinlər ki,**

**onlar bu hərəkətləri ilə onu aradan aparmış olurlar. Dünyanın digər yerlərində Quranı onlarda yaxşı dərk edib, keşiyində duracaqlar**».

Quranın möcüzəvi xüsusiyyətlərindən biri də, onun müxtəlif mənalarda təfsir olunmasıdır. Quran 14 ərsrdən çoxdur ki, nazil olmuşdur və nazil olduğu ilk gündən müfəssirlər onu təfsir və təhsil etməyə çalışmışlar. Müfəssirlərin əksəriyyətini səhabə təşkil edirdi. Abdullah ibni Abbas, Abdullah ibni Məsudu buna misal çəkmək olar. Onlardan sonra bu məsuliyyət, Sudey və ibni Şəbrəmə kimi tabeinlərin üzərinə düşür. Hər iki dövrdə camaat Qurandan təfsir olunanları başa düşürdü. Lakin zaman dəyişdikcə, camaatın tərzi-təfsirləri gördükdən sonra əvvəlki təfsirlərlə qənaətlənmirdilər.

Əsrlər ötüb keçdikcə, Qurana yeni və əvvəlkidən daha kamil təfsirlər yazılırdı. I əsrdən başlayaraq Quran təfsir olunmağa başlayır, Bu iş II əsrdə də davam etdirilir. III və IV əsrdən etibarən, müsəlmanların elmi səviyyəsi artdığı üçün Quran daha geniş surətdə elmi nöqteyi-nəzərdən təfsir olunmağa başlanır. Beləliklə, zaman keçdikcə Quran olduğu kimi qalır, ona yeni-yeni və daha kamil təfsir verilirdi.

Bu günlər hər hansı bir alim və ya mütəfəkkir Quranı mütaliə etdikdə, onun nə qədər cəzbedici olduğunun şahidi olur.

## *EDVARD BRAUNUN DEDİKLƏRİ*

Edvard Braun özünün «Ədəbiyyat tarixi» adlı kitabının I cildində iranlıların tərzi-təfəkkürünün tarixi haqda söhbət açır. Onun dediklərinin bəziləri tamamilə əsasla, bəziləri isə qeyri-məntiqi və əsasasızdır (dedikləri bəzi sözlərin əsassız olması tamamilə təbiidir, çünki başqa bir millət və mədəniyyətdən olan bir şəxs, digər millətlə nə qədər yaxından tanış olsa da, bəzi incəliklərdən xəbərsiz qalır). O, deyir: «Bu kitabda çalışacağam ki, başqalarının buraxdıqları səhvlərə bir daha yol verməyim. Buraxılan səhvlərdən biri də budur ki, həmvətənlərimdən biri - «İran tarixi» adlı kitabın müəllifi Sercan Melekamı nəzərdə tuturam. O, ilk iki əsri iranlılar üçün sükut dövrü adlandırır. İki əsrdən sonra tahirlər, Sasanilər, daha sonra Səffayilər hökmranlıq edirlər. Bu dövrdə iranlılar özləri üçün hakimiyyət təşkili etmir və hakimiyyət bütünlüklə ərəblərin ixtiyarında olur. Lakin bu o demək deyildir ki, iranlılar zəif və heç bir qüdrətə malik olmamışlar. Beləliklə, Bəraməkə, Fəzl Zülriyasətəyn və başqaları xəlifə kim rəhbərlik üçün kifayət qədər qüdrətə malik idilər. Sadəcə olaraq bunu demək istəyir ki, ilk iki əsr İranda sükut əsri olmuşdur. İranlılar İslamı məcburiyyət qarşısında qəbul etmiş və hakim olan xəlifə özlərindən olmadığı üçün çarəsiz qalaraq, sükut etməyə məcbur olmuşlar (bu sözlər İngilis Serqan Melekamındır. Bütün bunlar «İki sükut əsri» adlı kitabda yazılmışdır. Kitabda İslama istənilən qədər tənə vurulmuşdur). Bunu bir ingilis alimi demiş və başqa bir ingilis alimi səhv olaraq, onu təkrar etmişdir. Lakin bütün bunları cavabsız

qoymamışlar. Evard Braun bu sözləri desə də çalışacağam ki, belə bir səhvə yol verməyim. Belə ki, tarixə nəzər saldıqda bunun şahidi oluruq ki, o dövrdə iranlılar kimi İslam uğrunda fəaliyyət göstərən ikinci bir millət olmamışdır. Bu iki əsr sükut əsri deyil, fəaliyyət və bir cəmii əsrdir.

Həqiqətdə də bu belədir. Sasanilərin hakimiyyət və onlardan əvvəlki dövrlərə nəzər salsanız bunun şahidi olacaqsınız ki, Rum imperyası ilə mübarizə aparan siyasi və ordu baxımından böyük imkanları olan bu millətin, iki yüz ilə yaxın sözünü deyə biləcək bir alimi olmamışdır. Bu iki əsr millətin sükut əsri deyil, azadlıq əsrdir və sükut etməkdə məqsəd, heç də Bəni-Üməyyə sülaləsini müdafiə etmək olmamışdır. Beləki, iranlilar onların hakimiyyət dövründə əldə etdikləri azadlığı, başqa heç bir dövrdə əldə edə bilməmişlər.

Edvard Braunun sonra deyir: "Necə oldu ki, İslam meydana gəlməklə Zərdüşt dini öz əhəmiyyətini itirib, hətta pəhləvi əlifbası belə öz yerini ərəb əlifbasına verdi». Bəzi şərqşünaslar müxtəlif nəzəriyyələr irəli sürsələr də tarix bunu göstərir ki, iranlılar zərdüşt dinini öz razılıqları ilə kənara qoyub, İslam dinini böyük rəğbətlə qarşılamışlar. Bu tarixi bir həqiqətdir. Nə müsəlman, nə də zərdüşt olmayan biz xaricilər Quranla zərdüştlərin Zənd və Pazənd adlı kitabını kəna kənara qoyduqda, onun Quranla müqayisə olunmadığın şahidi oluruq. Quran bütün dövrlərə aid həmişə yaşayar bir kitabdır. Dinindən, milliyətindən, fərqli olmayaraq, hər bir insan ona ehtiyac duyur. Zərdüşt əsərlərində isə, mütaliə olunası elə bir şey yoxdur.

Min illik tarixə malik olan bu millət şüursuz deyildi ki, onlar bir tərəfdən Quranı görür, digər tərəfdən də Zərdüşt kitablarını. Onlar sair kitabların Quranla müqaisə olunmadığını görüb təbii ki, onu seçməli idi. Bu da bu millətin ideoloji inkişafından xəbər verir. Millət təəssübkeşliyi, onları həqiqətə göz yummağa vadar etmədi. İranlıların ərəblərə qarşı mənfi münasibət bəsləmələri də danılmaz bir hiqiqətdir və bu, bəşərin təbii xüsusiyyətlərindəndir. Beləki, iki qonşu kəndin, şəhərin və ölkənin əhalisi öz el-obasının təəssübünü çəkir və qeyd etdiyiniz kimi, bu tamamilə adi bir haldır. Bəzi şəxslər istisna olmaqla, bu xüsusiyyəti bəşəriyyətdən ayırmaq qeyri-mümkündür. Təəssüb hissi bəzi məllətləri o qədər kor etmişdir ki, həqiqətlə qarşı-qarşıya gəldikdə, onu inkar və qəbul etməkdən imtina edir. Lakin təəssüb hissi bir çoxlarını da kor və kar etməmişdir. Bu da həmin millətin, o cümlədən İran camaatının fəxridir. Onlar Quran başqa bir millətdən gəldiyi üçün ondan imtina etmədilər, onun həqiqət və ilahi nur olduğunu görüb rəğbətə qarşılayaraq, iman gətirdilər. Əgər öz daxilindən hər hansı bir xoşa gəlməz bir cərəyan meydana gəlsəydi, onunla müarizə aparar genişlənməsinə imkan verməzdi. Necəki, Manilik və sərkərdə Afşinlə mübarizə aparıb, adını xatirələrdən sildilər.

Bura qədər dediklərim Edvard Braunun söylədikləri haqda idi.

Əli ibni Əbu Talib, illər, əsrlər keçməsinə baxmayaraq, unudulub xatərələrdən silinməyən şəxslərdəndir. Onun şəxsiyyəti, cəmiyyətdə tutduğu

mövqeyyət, rəftar və davranışları, buyuruq və hikmətlə dolu öyüd-nəsihətləri zaman keçdikcə durur və köhnəlmək nə olduğunu bilmir.

Deməkk, şəxsiyyətlər iki hissəyə bölünür: Əbədi və müəyyən dövrə aid olan şəxsiyyətlər.

## *CƏBRAN XƏLİL CƏBRANIN ƏLİ (Ə) HAQQINDA DEDİKLƏRİ*

Cəbran Xəlil Cəbran milliyyətcə ərəb, Livan məsihlərindən olmuşdur. On iki yaşında Amrikaya getmiş, yiyələndiyi iki dildə (ingilis və ərəb) olduqca oxunulmalı əsərlər təlif etmişdir. Məsihi olmasına baxmayaraq, Əli (ə)-ın aşilərindən olmuşdur. Onun kitablarını mütaliə edərkən, dahi şəxsiyyətlər barədə söhbət açdıqda, daim İsa peyğəmbər (ə) və Əli (ə)-ı misal çəkdiyinin şahidi olurdum. Onun Əli (ə) haqda dediyi sözlərdən biri də bu idi: "Mən dünyanın bu sirrindən baş aça bilmirəm. Görəsən, nə üçün bəzi şəxsiyyətlər öz zəmanətlərindən bu qədər qabaqda olurlar? Mənim fikirimcə, Əli ibni Əbu Talib o dövrün adamı deyildi. Daha dəqiq desək, zaman Əli (ə)-ın zamanı deyildi. Yəni o zaman Əli (ə)-a layiq deyildi. Əli (ə) zamanından çox-çox əvvəl dünyaya gəlmişdi. Mənim fikrimcə, Əli İbni Əbu Talib aləmin ruhu ilə yaşayan ilk şəxsiyyət olmuşdur. O, özü bəzi şəxslər haqda deyərdi: "Elə şəxslər vardır ki, elm batinlərindən onlara hücum etmişdir. Onların elmi, yəni yiyələndikləri elm daim dəyişilməkdə olan elmdən olduqca fərqlənir. Onlar yəqinə çatmış və ruhən haqqa qovuşmuşlar".

Əli (ə) başqa bir yerdə buyurur: "Əgər qeybin pərdələrini gözlərim önündən götürsələr belə, mənə hasil olmuş yəqinə heç bir şey əlavə olmayacaqdır. Heç bir məsuliyyət hiss etməyən camaat üçün hər hansı bir mənəvi şeyi qəbul etmək olduqca çətindir. Lakin yəqinə çatmış şəxslər üçün bu olduqca asandır. Onlar cismən camaat arasında olsalar da, ruhən ərşi əlada olarlar»[40].

Belə bir şəxsiyyət xəvaric ilə baş-başa verib dövlət idarə edə bilərmi? Əsla! Bunu təsəvvür etmək belə mümkün deyildir! Siffeyn döyüşlərindən böyük dərd olarmı? Yaxın qohumlarından birinə göndərdiyi məktubda yazır: «Ruzigar mənim üçün çətin olduğu belə bir vaxtda, məni tək qoymaq istəyirsənmi?!».

Həqiqətən ölüm Əli (ə) üçün rahatlıq və asayış idi. O, oğlu İmam Həsən (ə) ma buyurur: «». {BAX: nitq qeyd olunmayıb}

---

[40] "Nəhcül bəlağə" .....hikmət

## ON SƏKKİZİNCİ FƏSİL

## *ƏXLAQ VƏ ƏDƏB QAYDALARININ NİSBİLİYİ*

«**Barı hər tayfadan bir dəstə (dini elmləri öyrənmək, sonra da dindaşlarına öyrətmək üçün) qalsın**»[41].

Bu hədisi Əli (ə)-a mənsub etmişlər: «Övladlarınızı özünüz kimi tərbiyə etməyin, çünki onlar başqa dövrün adamlarıdırlar».

Yəni siz indinin, onlar isə gələcəyin adamlarıdırlar. Yiyələndiyiniz əxlaq və xüsusiyyətlər yaxşıdır, lakin sizin öz dövrünüzə aiddir. Onların yiyələnməli olduqları əxlaq və xüsusiyyətlər isə, gələcəyin tələblərinə cavab verməlidir.

Burada iki sual meydana gəlir. Hədis doğrudan da Əli (ə)-ın sözləridirmi? Görəsən, sənəd baxımından mötəbərdirmi? Fərz edək ki, kim tərəfindən deyildiyi bizə məlumdur, məna və məfhumu əsaslı ola bilərmi?

Cavab: İstər Nəhcül-bəlağəyə, istər dörd mötəbər hədis məcmuəsinə, istərsə də sonralar təlif olunmuş hədis kitablarına nəzər saldıqda, belə bir hədisi hətta zəif hədislər arasında nəql olunmadığını görürük. Bu hədis son vaxtlarda meydana gəlmişdir. Yəni son 50-60 il bundan əvvəl. Çünki yüz il bundan əvvəl təlif olunmuş hədis kitablarında belə bir məzmunda hədislə qarşılaşmaq qeyri-mümkündür. Bir neçə il bundan əvvəl qədim tarix kətablardan birini, yəni "Naşxuttərix" adlı kitabı mütaliə edərkən, təsadüfi olaraq Əflatunun şər-halı ilə qarşılaşdım. Orada Əflatunun dediyi bu sözlər də qeyd olunmuşdur: «Uşaqlarınızı özünüz kimi tərbiyə etməyin, çünki onlar başqa dövrün adamlarıdırlar». Onda başa düşdüm ki, bu sözləri Əli (ə)-a aid edən ya səhv üzündən və ya qərəzli olaraq demişdir. Hər hansı bir cümlə və ya ibarətin dini rəhbərlər tərəfindən buyurulmadığını bildikləri bir halda, özlərini müsbət qiymətləndirdirdikləri hər hansı bir mətləbi camaat rəğbətlə qarşılasın deyə, onu dini rəhbərlərdən birinə mənsub etmişlər.

Bizə məlum olduğu qədər bu hədis Əli (ə)-ın sözləri olmamışdır. Lakin Əli (ə)-ın bütün buyurduqları bizə gəlib çatmadığı üçün qətiyyətlə onun belə bir şey buyurmadığını deyə bilmərik. Bunu deyə bilərik ki, əldə olan heç bir mötəbər mənbədə bu məzmunda bir dənə də olsun hədis nəql olunmamışdır. Bu səbəbdən də hədisin Əli (ə)-a mənsub olub-olmaması haqda söhbət açmaq istəmirik. Bəs belə bir ibarət özü-özlüyündə əsaslı ola bilərmi?

## *ƏXLAQ QAYDALARININ NİSBİLİK NƏZƏRİYYƏSİ*

Bu məsələ, qədim zamanlardan bəri və indinin özündə də «nisbi əxlaq» adı altında bir çox alim və filosofları özünə cəlb etmişdir. Nisbi əxlaq hər hansı bir sifət və xüsusiyyətin qəti olaraq müsbət və ya mənfi qiymətləndirilə

---

[41] "Tövbə" surəsi, ayə 122

bilmədiyini deyilir. Yəni hər bir sifət və xüsusiyyət zaman və məkanda müsbət, müəyyən zamanda və məkanda isə mənfi qiymətləndirilir. Belə bir nəzəriyyə özünə bir çox tərəftar tapa bilmişdir.

Bununla yanaşı «nisbi əxlaq» adlanan başqa bir mövzuda meydana gəlmişdir. Nəzəriyyə tərəftarları deyirlər: «Ədalət hamının müsbət qiymətləndirdiyi bir məfhumdur». Lakin ədalət mütləqdir, ya nisbi?

Mütləq dedikdə, hər hansı bir işin bütün zaman və məkanda ədalətli olması nəzərdə tutulur. Bəlkə də «övladlarınızı özünüz kimi tərbiyə etməyin» deyən şəxs, nisbi əxlaqı özü üçün yaxşı olsa da, uşağının xoşuna gəlməyə də bilər.

Nisbi əxlaq və ədalət barədə bir qədər sonra söhbət açacağıq. Burada yalnız bunu qeyd etmək istəyirəm ki, nisbi əxlaq yalan və əsassız bir şeydir. Yəni üzərinə əxlaq adı qoyulan hər bir şey, heç də nisbi deyildir. Lakin cümlənin başqa bir mənası da ola bilər. Bu səbəbdən "tərbiyə verməyin" kəlməsini izah etməliyik.

## *ƏXLAQ VƏ ƏDƏB QAYDALARININ FƏRQİ*

Biz bir sıra davranış tərzinə əxlaq, bəzilərinə isə, ədəb-ərkan deyirik. Bu iki şey bir-birindən bir qədər fərqlidir və biz hər şeydən əvvəl onlar arasında olan fərqi bilməliyik.

Əxlaq insanın özünə aiddir. Yəni əxlaq onun öz təbiətini dəyişib, islah etməsinə deyilir. İnsan müxtəlif təbiətə malikdir.

Qədim alimlər belə bir fikirdə idilər ki, insan üç əsas qüvvəyə malikdir (bəziləri dörd əsas qüvvəyə yiyələndiyini hesab etmişlər):

1. Ağıl;
2. Şəhvət (yalnız cinsi şəhvət nəzərdə tutulmur);
3. Qəzəb.

Onlar belə hesab edirdilər ki, şəhvət qüvvəsi insanı mənafei naminə çalışmağa vadar edir. Qəzəb qüvvəsi (qəzəb dedikdə, yalnız əsəb nəzərdə tutulmur) insanı ona xeyirli və ya zərərli olan şeyləri bir-birindən ayırmağa vadar edir.

İnsanın cismində özünümüdafiə qüvvəsi olduğu kimi, ruhu da belə bir qüvvəyə malikdir. Yemək yeyərkən tikəsini çeynəyir, udğunduqdn sonra yemək mədəsinə daxil olur. Yemək mədədə həzm olur, oradan bağırsaqlara keçir və onun divarlarına cəzb olur. Yeməyin bir cismi isə bədənə lazım olmadığı üçün başqa bir qüvvə ilə bayıra ifraz olur. Ruh da belə bir xüsusiyyətə malikdir.

İnsanın bədənində «ağıl» adlı başqa bir qüvvə də mövcuddur. Bu üç qüvvənin hər biri öz işini görür. Məsələn, şəhvət qüvvəsi ilə yemək yeyir və bədənə ləzzət verən bəzi işlər görür və onunla artıq heç bir iş görmür. Çünki qüvvə ilə yalnız cinsi əlaqəyə olan ehtiyacını aradan götürür. Qəzəb qüvvəsi ilə də, eyni qaydada.

Lakin insan bu qüvvələrin hər birini nizama salmalıdır. Əgər onlardan birini sərbəst buraxıb nəzarət etmirsə, çox keçmədən verdiyi acı nəticələrlə üzləşməli olacaq. Məsələn, hər hansı bir (qeyri-əxlaqı) mənzərəni görmək və ya (halal olmayan) yemək şeylərindən birini yemək, insana ləzzət bəxş edə bilər. Lakin hər şey bununla bitmir. Bütün bunların insanın bədəninə (ruhuna) qoyduğu təsirə diqqət yetirmək lazımdır. Bunun üçün də insan bütün təbii xislətlərini və üçlük təşkil edən qüvvənin cilovunu əlində saxlamalı və onları nizama salmalıdır.

Bir sözlə, insan hər bir daxili qüvvəsini ağıl və şüurunun nəzarəti altında saxlanmalıdır. Nəql olmuş rəvayətlərdə də bu qüvvələrin hər birinin müəyyən payı olduğuna işarə olmuşdur.

Demək, insan nə onları öhdəsinə düşən paydan məhrum etməli, nə də onları tamamilə sərbəst buraxmalıdır.

İnsan təklikdə bütün bunların öhdəsindən gəlmədiyi üçün dinin üzərinə düşən əhəmiyyətli məsələlərdən biri də budur. Din bu vəzifənin üzərinə düşməsi ilə insanın batini qüvvətlərinin hər birinin payına düşən hər bir şeyi müəyyən edir. Biz bunu əxlaq adlandırıq. Əlbəttə, əxlaq yalnız bundan ibarət deyildir. Yəni əxlaqın pis olması yalnız batini qüvvələrin birinin payına az, digərinin payına isə çox düşməsindən irəli gəlmir. Beləki, onlardan birinin payına düşəni azaltmaq, digərini isə çoxaltmaq başqa problemlər meydama gətirir. Əgər cəmiyyət üzvləri daxili qüvvələrdən biri hər şeylə təmin, digəri isə hər şeydən məhrum olarsa, həm hər şeylə təmin olunan, həm də hər şeydən məhrum olan qüvvələr böyük çətinliklərlə qarşılaşar.

Nəticədə, hər iki tərəf öz mənfi təsirini qoyacaqdır. İlk zaman həddən artıq hər şeylə təmin olan şəxslər tərəfindən vurulmuş olur.

Onlar adətən xoşa gəlməz əxlaq və ədəb-ərkana yiyələnərlər. Bu xüsusiyyət onların özlərində biruzə verməsə də, övladlarında hökmən özünü biruzə vermiş olur. Belə şəxslər üç-dörd nəsildən artıq davam gətirmirlər. Hər şeydən məhrum olan təbəqənin mənfi təsir qoymasına səbəb olan isə, çəkdiyi zəhmətdən başqalarının bəhrələnməsini görməkdən irəli gəlir. Bu kimi hallarda onlara qarşı qəlblərində kin küdrət yaranır. Sonralar baş verən qətl, qarət və sair ağır cinayətlərə səbəb olan da məhz budur.

Bəzən görürük ki, xidmətçinin evin bütün ailə üzvlərini amansızcasına qətlə yetirir. Səbəbi isə məlumdur. O, zadəgan həyatı keçirən ailə üzvlərinin naz-nemət içində üzdüyünü və eyni zamanda, özünün bütün bunlardan məhrum olduqlarını görüb, narahat olur və bütün bunlar üst-üstə yığılıb, həmin şəxsin belə bir ağır cinayətə əl atmasına səbəb olur. Onlar əsla ağıllarına belə gətirməzdilər ki, onun gözləri önündə var-dövlətlərindən belə istifadə etmələri, bu cür ağır nəticə verə bilər.

Bütün bunlar insanın nəfsani qüvvəsində də baş verir. Yəni əgər insan öz batini qüvvələrindən bəzilərini ac, bəzilərini isə tox saxlayarsa, ac saxladığı qüvvələr tox qüvvələrinə qarşı qiyam edər və bu da insanın məhvinə səbəb olar.

İslamda bütün qüvvələrin paylarına düşən tələblərinndən məhrum etməməyi məhz bu səbəbdən tövsiyə edir. Əgər insan «Ruhun var cismin var deyirsə» bilməlidir ki onların hər birinin payına düşən haqqı vardır və onları öz haqlarından bundan məhrum etməlidir.

Əgər insanın həm ibadətə, həm də cinsi əlaqəyə ehtiyacı olarsa, bilməlidir ki, ibadətlə məşğul olmaqla yanaşı, şəhvətini boğub, özünü qanuni cinsi fəaliyyətdən məhrum etməməlidir. Necə ki, bunu keşişlər də bilsinlər. Onlar keşişin evlənməsini qəti olaraq haram hesab edirlər. Necə də? {sual natamamdır}

Sualın cavabı artıq məlumdur. Deyilənlərə görə, Rus çarparından biri, kişilərdən birinin haramzadə övladlarından olmuşdur.

Bir neçə il bundan əvvəl qəzetlərdən birində belə bir xəbər dərc olunmuşdu. Avropa keşişlərindən biri bir neçə il evinin zirzəmisində bir neçə qadın saxlamış və oranı haramxanaya çevirmiş, lakin uzun müddət onun bu işindən kimsə xəbərdar olmamışdır.

Belə bir cərəyan insan bədənində baş verir.

İnsan öz təbii xüsusiyyətlərini əxlaqı ilə nizama salır. Zaman dəyişdikdə necə, onun batini xüsusiyyətləri, yəni təbiəti, gözün, nəfəsin, və insanın şöhrətpərəstliyi də dəyişirmi? İnsanın bədənində baş verməli olan belə bir bölgü dəyişilə bilərmi? Deyə bilərikmi ki, övladlarınızın payına düşən, sizin payıza düşəndən fərqlidir? Xeyr! Daim olduğu kimi qalır çünki dəyişilən insan deyildir. Əgər yüz il bundan əvvəlki insan təbiət və batini xislətlər baxımından bu günki insanla fərqli olardı. Lakin insan bu nöqteyi-nəzərdən sabit və dəyişilməzdir.

## *MÜXTƏLİF PEŞƏ VƏ SƏNƏTLƏRƏ AİD OLAN QAYDALAR*

Bacarıq adlanan başqa bir məsələyə də işarə etməliyik. Bacarıq dedikdə, insanın gündəlik ehtiyaclarını aradan qaldırmaq üçün savad və müxtəlif sənətə yiyələnməsi nəzərdə tutulur. Məsələn, yazı yazmağv ehtiyac duyur. Bunun üçün o, ilk növbədə hərflərin yazılış qaydasını və onları biri-biri ilə əlaqələndirməyi öyrənməlidir. Bütün bunlar insanın savadlı olmasına dəlalət edir. Peyğəmbər (s) buyurur: «**Atanın üzərinə düşən vəzifələrdən biri də, oğluna yaxşı ad qoyub, ona yazmağı öyrədib yetginlik yaşına çatdıqda, evləndirməkdir**». Deməк yazı savadın, üzgüçülük, at minmək bacarığı, dərzilik isə sənətin bir növüdür.

Bütün bunlar zaman dəyişdikcə öz əhəmiyyətini itirir və ya yerini başqa bir şey ilə əvəz edir. Bu səbəbdən hər bir şəxs övladlarını zamanın ehtiyac duyduğu sənət, elm və s.-ə yiyələndirmilidir. Əgər bir zamanlar bütün işlər əl yazmaları ilə görmüşdüsə, zaman dəyişməklə çap maşınları, kompüter və s. müasir vasitələr meydana gəlmişdir. Uşaqların təlim və tərbiyə olunmasında bütün bunlara diqqət yetirmək və onları zamanın tələbləri ilə tanış etmək lazımdır. Əvvəllər nəqliyyat vasitəsi olaraq at, dəvə və s.-dən istifadə

olunduğu üçün atalar övladlarına at sürməyi öyrədirdilərsə, bu günlər onlara maşın və digər müasir nəqliyyat vasitələrini idarə etməyi öyrətməlidirlər.

Bu kimi işlərdə artıq kimsə təəssübkeşlik edərək, öz ata-baba adət-ənənələrinə sadiq qalmağa səy etməməlidir.

Məsələn, biri ömrünün sonunadək ədviyyat satmışsa, övladını da bu sahəyə yönəltməyə çalışmamalıdır. Bilməlidir ki, hal-hazırki müasir dövrdə həm özü, həm də başqaları, həm də dünyası, həm də axirəti üçün faydalı olan müxtəlif sahələr vardır. Belə bir addım atmaq, artıq insanın cəhalət və nadanlığından xəbər verir. Əxlaq necə, zamanın tələb və ehtiyacları ilə əvəz olurmu? Xeyr! Bəs zamanın tələbləri necə, insanın elm və bacarığını əvəz edirmi? Bəli. Millətlərin müxtəlif adət-ənənələri yuxarıda qeyd etdiyimizin bir hissəsini təşkil edir.

Hər bir millətin özünə məxsus evlənmə, qonaqlıq mərasimləri vardır. Biz onlara qətiyyətlə nə yaxşı deyə bilərik, nə də pis. Əli (ə)-a mənsub edilən qəsidələrdən birində deyilir: «Övladlarım! Əgər qərib bir şəhərə düşərsinizsə, həmin şəhərin əhalisinin ənənələrinə hörmətlə yanaş və ona əməl et. Əgər getdiyin yerdə gördün yemək yeyirlərsə, səndə onlarla yanaşı süfrə arxasında otur».

Məsələn, ərəblər kiməsə bir şey vermək istədikdə, bəzən onu həmin şəxsə tərəf atırlar. Onların belə bir rəftarlarından inciməməliyik. Bizlər qonaqlıq vermək istədikdə, evimizi tutacaq qədər qonaq çağırırıq, lakin onlar belə deyillər. Evləri kiçik olsa da, istədikləri qədər qonaq çağırırlar. Qonaqlar gəldikcə yeməklərini verir, onlarda yedikdən sonra dərhal gedirlər. Bizlər isə qonaqlar hamısı yığışmayınca süfrə açmırıq. Demək, onların yanında olduqda, belə bir adət-ənənələrindən inciyib hər şeyin özümüzdə olduğu kimi olmasını istəməməliyik.

## ON DOQQUZUNCU FƏSİL

### *İBADƏT VƏ PƏRƏSTİŞ – İNSANIN DƏYİŞMƏZ EHTİYACI*

«**Barı hər tayfadan bir dəstə (dini elmləri öyrənmək, sonra da dindaşlarına öyrətmək üçün) qalsın**»[42].

Hər bir önsan tənqidi tərzi-təfəkkürə yiyələnməlidir. Lakin tənqidi tərzi-təfəkkür dedikdə, heç də kiminsə və ya nəyinsə eybini üzə çıxarmaq nəzərdə tutulmur.

Tənqid, sözün əsl mənasında məhək daşının rolunu oynayır. Yəni düzü əyridən ayırd etmək üçün biz tənqid etməyi bacarmalıyıq. Məsələn, hər hansı bir kitabı tənqid etdikdə, biz heç də yalnız onun mənfi xüsusiyyətlərini üzə çıxarmaq fikrində olmamalıyıq. Bizim ən başlıca məqsədimiz, oxucunu kitabın mənfi və müsbət xüsusiyyətləri ilə tanış etmək olmalıdır. {məntiqi uyğunsuzluq} İnsan başqalarından eşitdiyi hər bir şeyi tənqid etməyi bacarmalı, araşdırmalıdır. Bəzən hər hansı bir cümlə və ya ibarət xüsusilə gözəl bəyan edildikdə, camaat arasında şöhrət tapır. Lakin bu heç də bizim onu hökmən qəbul edəcəyimizə dəlalət etmir. Dini məsələlərdə bu məsələyə daha çox diqqət yetirməli və insan tənqidi olmağı bacarmalıdır. Peyğəmbər (s)-dan nəql etdiyimiz hədisin özü bu mətləbə dəlalət edir. Hədisdə deyilir: «**Məndən eşitmədiyiniz hədisi Quranla müqayisə edin. Əgər Quranla müvafiq olarsa, onu qəbul edin, müxalif olduqda isə, kənara qoyun**».

İmamlardan biri İsa Peyğəmbər (ə)-dan nəql edir: «Elm öyrəndikdə üzərinizə düşən ən başlıca vəzifə ona məntiqi tənqidlə yanaşıb, təhlil etməyinizdir. İstər düzdür desinlər, istərsə də səhv, kor-koranə ona təslim olmayın. Kəhf surəsinin 14-cü ayələrində deyilir: «(Ya Məhəmməd!) Biz onların xəbərini sənə doğru söyləyirik. Onlar, Rəbbinə iman gətirmiş bir neçə gənc idi. Biz də onların hidayətini (imanını, səbatını, və bəsirətini) artırmışıq. Onlar (Rum qeysəri bütpərəst Diqyanusun hüzurunda) durub, «Rəbbimiz göylərin və yerin Rəbbidir. Biz ondan başqa heç bir tanrıya ibadət etməyəcəyik. Əks təqdirdə (Allahdan başqalarına tapınacağıq, söyləmək) küfr danışmaqda həddi almış, ifrata varmış alarıq" -dedikdə zaman onların ürəklərinə qüvvət, mətanət vermişdir».

Ayədə haqqında söhbət açılan mömin gənclər haqda müxtəlif fərziyələr irəli sürülmüşdür. Bəziləri onların qızıl-gümüş alver ilə məşğul olduqlarını hesab etsələr də, bu həqiqət deyildir.

Onlar olduqca savadlı və qəlbləri iman nuru ilə dolu hikmət sahibləri olmuşlar. Başqalarından eşitdikləri hər bir sözü kor-koranə qəbul etməyib, araşdırır və düzgün nəticə çıxarırdılar.

---

[42] "Tövbə" surəsi, ayə 122

Bir qədər əvvəl Əli (ə)-a mənsub edilən hədisə işarə etdik. Siz bu ibarətlərin nə qədər gözəl və ürəyə yatımlı olduğunun şahidi oldunuz. Bir çoxlarının onu ümumiyyətlə qəbul etmələrinə səbəb olan da məhz bu olmuşdur.

## *YENİYETMƏLİK İLLƏRİNDƏN BİR XATİRƏ*

Yadıma bir əhvalat düşdü: «14-15 yaşlarında idim, ərəb qrammatikasından bir qədər oxumuşdum. Xorasan hadisələrindən sonra Məşhədin dini elmi mədrəsəsi, demək onlar ki, tamamilə dağılmaqda idi. Baş verən hadisələri görən hər bir şeyx belə güman edirdi ki, bundan belə ruhaniyyətdən artıq heç bir əsər əlamət qalmayacaqdır. Elə bir şərait yaranmışdı ki, yazıçılığa böyük ehtiyac duyulurdu. Məndən bir məqalə yazmağımı istədilər, mən də yazıb məqaləni onlara verdim. Orada yüksək məsul vəzifədə çalışan bir şəxs məqaləmi oxuyub, mənə diqqətlə baxdı. Gördü ki, başdan ayağadək ruhaniyyət aləminin vurğunuyam. Sonra nəsihət edərək dedi: «Qum, Nəcəf və sair yerlərə gedib yüksək məqama çatmaq dövrü artıq arxada qalmışdır. Əli (ə) buyurmuşdur: "Övladlarınızı zamana uyğun olaraq tərbiyə edin". Məgər indi kasa arxasında oturanlar sizdən artıqdır və ya göydən düşmüşdürmü?

Dediklərini unudub qarşıma qoyduğum hədəfin ardınca düşdüm. Quma gəlib 15 il dini mədrəsədə təhsil aldım. Sonra Tehrana qayıdıb özümün "Fəlsəfə əsasları" adlı ilk əsərimi nəşr etdirdim. Həmin şəxs sonralar parlamentin sədriliyinədək ucaldı.

O, olduqca zirək və bacarıqlı bir şəxs idi. Cavanlıqda vəziyyəti yaxşı olmasaydı da, getdikcə yaxşılığa doğru gedirdi. Həmin əhvalatdan on səkkiz il keçmişdi və mənə etdiyi nəsihəti unutmuşdu. "Fəlsəfə əsasları"nı oxuyub çox bəyənmişdi. Getdiyi hər yerdə həmin kitabı tərif edirdi. Hətta günlərin biri mənim özümü görüb, tərif etməyə başladı. Öz-özümə dedim: «Sən həmin şəxs deyilsən ki, on səkkiz il bundan əvvəl mənə bu yolu tutmamağı tövsiyə edirdin? Əgər o vaxt sənin sözünə qulaq assaydım, indi mən də adi dəftərxana işçilərindən biri idim».

Bütün bunları deməkdə əsas məqsəd, bəzi cümlələrin insanların qarşılaşdıqları hadisələrdə uğurlu və ya uğursuz olmasıdır. Belə ki, bəzi cümlələr bir o qədər böyük əhəmiyyət kəsb etməsə də, insanlar arasında geniş şəkildə yayılır və dillər əzbərinə çevrilir. Lakin böyük əhəmiyyət kəsb edən dərin mənalı cümlələr insanlar arasında özünün həqiqi yerini tapmır.

«Övladlarınızı özünüz kimi tərbiyə etməyin» cümləsini də uğur qazanmış, bir o qədər də böyük əhəmiyət kəsb etməyən cümlələrə aid etmək olar. Bir qədər əvvəl qeyd etdik ki, onu bu günlər istifadə olunan mənada işlətmək, tamamilə səhv və əsassız olardı. Lakin başqa bir düzgün məna daşıya bilər.

## *ADƏT-ƏNƏNƏLƏRİN İKİ NÖVÜ*

Daha sonra əxlaqla bacarıq arxasında mövcud fərqə işarə edib, bacarığın iki hissədən ibarət olduğuna işarə etdik. Bu günlər bəzən həmin bacarığa sənət deyilir. Əxlaq, ruhi xüsusiyyətlər və əxlaq adlanan ruh qüvvəsinə verilən nizam ilə yanaşı, insan zəmanəsinin ehtiyac duyduğu, hər hansı bir elm və sənət ki, onunla həm özünə, həm də bəşəriyyətə xeyir verə bilsin. Elm və sənətdə də insan zamana tabe olmalıdır.

Əgər «övladlarınızı öz adət-ənənələrinizlə tərbiyə etməyin» və ya «övladlarınızı öz sənətinizə yiyələndirməyin» deyilirsə, zamanın qeyri-sabit və daimi dəyişiklikdə olduğu nəzərdə tutulur. Qeyd etdiyimiz kimi insan təəssübkeşlik edərək, daha gözəl elmi sahələr və sənət olduğu bir halda övladını öz sənətinə yiyələnməyə vadar etməlidir.

O ki, qaldı adət-ənənələrə onlar da iki hissədən ibarətdir. Onlardan bir qismini dini adət-ənənələr təşkil edir. İslamın sünnət adı altında bəyan etdiyi hər bir məsələyə yanaşmalı və qanun tək keşiyində durmalıyıq. Məsələn, Əgər İslam yemək yeməkdən əvvəl və sonra əlləri yumağı, tikəni kifayət qədər çeynədikdən sonra udmağı, yeməyə başlamazdan əvvəl “Bismillah” və qutardıqdan sonra “Əlhəmdulillah” deməyi, yemək yeyərkən tələsməməyi tövsiyə edirsə bilməliyik ki, burada ilahi bir hikmət vardır. Öz davamçılarının maddi və mənəvi məsələlərini nəzərə alan müqəddəs İslam dini, onların səhhətini də nəzər alaraq, müəyyən qanun və qaydalar tərtib etmişdir və bu qanunlar müəyyən zaman və məkana deyil, bütün dövr və məkana şamildir.

Nəql olmuş hədislərdən birində deyilir: «Əli (ə)-ın əkin sahəsi var idi. Əbi Nəyzər” adlı bir şəxs deyir: «Günlərin biri Əli (ə) oraya gəlib əlinə külüng alaraq, quyu qazmağa başladı. Bir neçə saat sürətlə işlədikdən sonra qantər içində quyudan çıxıb buyurdu: «Yeməyə bir şey varmı?». Dedim: «Bəli, bir az kədu var, istəyirsinizsə gətirim». Buyurdu: «Çox yaxşı, gətir».

Sonra əl-üzünü yumaq üçün çaya tərəf getdi. Yuyunduqdan sonra su içmək istədikdə dedi: «Əllərim ən gözəl su qabıdır». Bunu deyib əllərini suya saldı». {mənbə yoxdur}

Suyu əllə içmək, dəstamaz alarkən ağızı, burunu su ilə yaxalamaq, dişləri fırçalamaq müstəhəb işlərdəndir və bunun artıq zaman və məkanla heç bir bağlılığı yoxdur.

Haqqında söhbət açdığımız məsələlər isə, zaman və məkanla sıx əlaqəlidirlər.

Diqqət yetirmək lazımdır ki, güman edirlər ki, İslam ictimai din olduğu üçün bütün cüzi məsələlərdə qanun və qaydalar müəyyən etməlidir. Əksinə olaraq, İslam ictimai din olduğu üçün bir çox məsələlərdə qanun müəyyən etməmişdir. İslamın müəyyən etdiyi qanun bundan ibarətdir ki, insan azad bir varlıq kimi qarşılaşdığı gündəlik məsələlərini zamanın tələblərini nəzərə alaraq aradan qaldırmış olsun.

Bu məzmunda nəql olmuş hədislərdən birində deyilir: «Allah, insanların azad olmasını və onları öz ixtiyarına qoyduğu işləri sevir». {mənbə yoxdur} Yəni insan özündən yeni bir şey əlavə etmədən, öz ixtiyarına qoyduğu məsələləri müstəqil olaraq həll edib, qarşılaşdığı çətinliklərin öhdəsindən gələ bilsin.

Əli (ə) buyurur: «Allah bəzi şeyləri sizlərə vacib etmişdir, onları tərk etməyin. Bəzi şeyləri də sizlərə yasaq etmişdir, onlara da yaxın durmayın. Bəzi məsələlərdə də sizlərə heç bir hökm verməmişdir. Əlbəttə o, bunu unutmamış və sizləri öz ixtiyarınıza azad buraxmamışdır. Allahın insanların öz ixtiyarına azad buraxdığı məsələlərə dəxalət edərək, müəyyən qanunlar çıxarmayın».{mənbə yoxdur}

Demək, qeyd etdiyimiz mətləb insanların adət-ənənələri ilə əlaqəlidir. Beləki, insanlar həmin adət ənənələri həyata keçirməklə, heç nə dəyişilmir. Allah-təala insanları bu kimi məsələlərdə öz ixtiyarına qoymuşdur. Lakin bəşər ondan ayrılmayan özünəməxsus bir xüsusiyyətə malikdir. Bu da onun təm-təraqlı olan meylidir. Bunun isə bir sirri vardır.

## *PƏRƏSTİŞİN MƏNASI*

Söhbəti yekunlaşdırıb yeni bir mətləb haqqında söz açmaq istərdim. O da bəşəriyyətin daim ehtiyac duyduğu və zaman və məkanın dəyişilməsinə baxmayaraq, daim sabit qalan pərəstiş və ibadətdir. İbadəti biz necə tərif edə bilirik? İbadət, insanın, onu yaradan və daim ehtiyac duyduğu varlığa qarşı olan batini hissinə deyilir. Sözün əsl mənasında ibadət insanın batinindən onu yaradan varlığa doğru etdiyi şeyə deyilir. İbadət insan ruhunun ehtiyac duyduğu bir həqiqətdir. Bu ehtiyaca göz yummaq, insan həyatını öz təadülündən xaric edir. Məsələn, yükləmək istədiyimiz heyvanın bir tərəfinə az, digər tərəfinə isə çox yük yığarıqsa, heyvan öz təadülünü itirib, yol getməyə belə çətinlik çəkəcəkdir.

İnsanın vücudunda boş qalan yerlər çoxdur. Onun qəlbində bir çox şeylərə yer vardır. Ehtiyacları aradan qalxmadıqda, özü-özlüyündə iztirab hissi keçirir. Bir qədər əvvəl qeyd etdik ki, insan bütün ömrünü ibadətlə keçirib digər ehtiyaclarını aradan qaldırmadıqda, narahatçılıq hissi keçirir. Bunun əksi də eyni nəticəni verir. Yəni ömrünü maddiyatla başa vurub mənəviyyata göz yuman hər bir şəxs, böyük ruhi və mənəvi sarsıntılarla üzləşməli olur.

Cəvahirlər Nehru cavan yaşlarında dinə, məzhəbə etiqadı olmayan bir şəxs idi. Lakin ömrünün son illərində onda böyük dəyişiklər baş verməyə başladı. O, özü etiraf edirdi ki, daxilimdə elə bir boşluq hiss edirəm ki, onu mənəviyyatdan başqa heç bir şeylə doldurmaq olmaz. Aləmdə vücuda gəlmiş belə bir iztiraba səbəb olan amil, məhz mənəviyyatın zəifləyib aradan getməsidir. Nehru deyir: «Sovetlər Birliyinin əhalisi nə qədərki aclıq çəkirdi, artıq heç nəyi düşünmürdü. Elm təhsil fikrinə düşüb, məişətlərini orta səviyyəyə çatdırdıqdan sonra artıq başqa bir çətinliklə, yəni mənəvi sarsıntı

və iztirabla üzləşməli oldular. İşdən sonra və ya işsizliklə qarşılaşdırdıqda, bu hiss onları daha da narahat edirdi». Nehru sözlərinə əlavə edərək deyir: «Güman etmirəm ki, onlar mən özümdə hiss etdiyim bu boşluğu qeyri-mənəvə şeylərlə doldura bilsinlər».

Deməк, insan ibadət və pərəstişə böyük ehtiyac duyur. Dünyada pisxoloji sarsıntıları artmasına səbəb olan da insanların ibadətdən uzaq düşməsidir. Biz bunu çox vaxt nəzər almırıq. Lakin dəqiq bilin ki, bu belədir. Yemək, təmiz hava və su hər insanın sağlamlığı üçün lazım olduğu kimi, namaz da ruh və mənəviyyatın saflaşması üçün lazım və zəruridir. Əgər insan gündə heç olmasa, bir saat öz Pərvərdigarı ilə ünsiyyətdə olarsa, ruh və mənəviyyatını nə qədər gücləndirmiş olar.

Namaz insanın ruhuna mənfi təsir göstərən ünsürləri onun vücudundan xaric edir. Söhbətlərimin birində qeyd etdim ki, İslama ictimai din yox, əxlaq, təlim tərbiyə, mənəvi saflıq dini deyin. İslam hər şeyi əhatə edir. Onun təlimləri ictimai təlimlərdən daha üstündür. Hədid surəsinin 25-ci ayəsində deyilir: «**And olsun ki, biz Peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) göndərdik. Biz onlarla birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzsi (şəriət) nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər**».

Başqa bir yerdə deyilir: «**(Əksəriyyəti yazıb oxumaq bilməyən) ümumi ərəblərə özlərindən Peyğəmbər göndərən Odur. Bu Peyğəmbər (əvvəllər haqq yoldan açıq aşkar azsalar da) Allahın ayələrini oxuyar, onları, (günahlardan, şirk və küfr çirkabından) təmizləyər, onlara kitabı və hikməti (Quranı və şəriəti) öyrədər**»[43].

İslam ictimai təlimlərə bu qədər əhəmiyyət verməklə, ibadət və pərəstişin dəyəri azalmışdırmı? Əsla! İslam nəinki ibadətin dəyərini azaltmamış, əksinə olaraq, onun hər şeydən çox əhəmiyyət kəsb etdiyini bəyan etmişdir.

## *İBADƏT İSLAM TƏLİMLƏRİNİN SƏRLÖVHƏSİ*

İslam nöqteyi-nəzərindən hər şeyin əsasını ibadət təşkil edir. Əgər ibadi məsələlər düzgün həyata keçirilərsə, həm əxlaq, həm də ictimaiyyətə yönəlmiş olar. Əks təqdirdə, onların hər ikisi böyük çətinliklərlə üzləşməli olur. Əgər kimsə ibadət etmədən, əxlaq və ictimai məsələlərdə müsəlmançılıq iddiası edərsə, bilin ki, iddiası boş və əsassızdır.

Namaz qılmayan hər hansı bir şəxsi həqiqi müsəlman hesab edə bilmərik. Əli (ə) buyurur: «Allaha iman gətirdikdən sonra namazdan üstün ibadət yoxdur». Peyğəmbər (s) buyurur: «Namaz, evlərdən çıxan və insan gündə beş dəfə onda yuyulan isti çeşməyə bənzəyir».

---

[43] "Cümə" surəsi, ayə 2

Əli (ə) Nəhcül-bəlağədə buyurur: "Namaz qılın və onun keşiyində durun"[44].

Taha surəsinin 132-ci ayəsində Allah-təala buyurur: «**Əhlinə (Əhli-Beytinə və ümmətinə) namaz qılmağı əmr et, özündə ona (namaza) səbrlə davam et**».

Digər iki ayədə deyilir: «**(Ya Peyğəmbər!) Həqiqətən, Rəbbin bilir ki, sən (yatağından) qalxıb bəzən gecənin təqribən üçdə ikisini, bəzən yarısını, bəzəndə üçdə birini amaz qılırsan**»[45], «**Ya (Məhəmməd!) Gecənin bir vaxtı durub, ancaq sənə xoş olan əlavə (təhəccod) namazı qıl. Ola bilsin ki, Rəbbin səni (qiyamət günü hamı tərəfindən) bəyə`nilib təriflənən bir məqama (axirətdəki ən böyük şəfaət məqamına) göndərsin**».

İbadətsiz kiminsə kamil insan olması qeyri-mümkündür. Həzrət Məhəmməd (s) gününün böyük bir hissəsini ibadətlə keçirir və Allah-təaladan bağışlanmasını diləyirdi. İmam Sadiq (ə) buyurur: "Elə bir məz pis olmazdı ki, Peyğəmbər (s) orada heç olmasa «Əstəğfirullahi Rəbbi və ətubu iləyh» deyərək, Allah-təaladan bağışlanmasını diləməsin».

Əli (ə) həm rəhbərlik edir, həm də gecələrini sübhə dək ibadətlə keçirirdi. Vəfat etdikdən bir neçə il sonra onun yaxın tərəftarlarından olan Udey İbni Hatəm adlı ir şəxs Müaviyənin yanına gəlir. Müaviyə bilirdi ki Udey Əli (ə)-ın yaxın səhabələrindən biri olmuşdur. Bunun üçün də elə bir iş görmək istəyirdi ki, Əli (ə)-ı onun gözündən salsın. Edey saraya daxil olduqda, dərhal Müaviyə ondan soruşur: Udey! Bəs oğlanların hanı? (Udeyin üç oğlu Əli (ə)-ın ordusunda iştirak etmiş və müxtəlif döyüşlərdə şəhadətə nail olmuşdular və Müaviyə bunu çox gözəl bilirdi) Udey dedi:

- Əmirləri Əli (ə)-ın bayrağı altında küfr etdiyin zaman, səninlə döyüşmüş və şəhid olmuşlar.
- Əli öz oğlanlarını saxlayıb, sənin oğlanlarını ölümə verməklə, sənin barəndə insafsılıq etmişdir.
- Müaviyə! Əgər düzünü bilmək istəyirsənsə, insafsızlıq edən o yox, mən olmuşam. İndi Əli (ə) torpaqlar altında yox, gərək mən olaydım. Kaş mən öləydim, amma Əli (ə) sağ olaydı.

Müaviyə oxunun başa çıxdığını görüb, bir qədər yumşaldı və dedi:

- Udey, sən Əli ilə çox olmusan, danış görüm, o necə adam idi, nə işlər görərdi?
- Məndən bu şeyi istəmə.

Müaviyə israr edərək, Əli (ə) barədə danışmasını istədi. Udey dedi:

- İndiki belədir, deyəcəyəm. Amma bil ki, bunu sən istədiyin üçün yox, həqiqət aşkara çıxmaq üçün deyirəm. Əlinin xüsusiyyətlərindən biri hikmət sahibi olması idi. O, zəiflərin qarşısında zəif, zülümkarların müqabilində isə qüdrətli idi. Daim bizim aramızda olmasına baxmayaraq, nə təkəbbürlük

[44] Nəhcül-bəlağə, 191-ci xütbə

[45] "Müzəmmil" surəsi, ayə 20; «İsra» surəsi, ayə {ayə`nin nömrəsi yoxdur}

edər, nə də özünü kimdənsə üstün tutardı. İstər-istəməz onun qarşısında icazəsiz danışa bilməzdik. Öz gözümlə gördüyüm haqda danışmaq istərdim. Günlərin biri Əli (ə) ibadət edərkən Allahdan bağışlanmasını diləyib sonra saqqalından tutub dedi: Uf! Uf! Uf ey dünya səndən! Ey dünya başqasının ardınca get!

Müaviyə, Udeyin sözlərinin təsiri altına düşüb, daş ürəyi yumşaldı və paltarının ətəyi ilə göz yaşını sildi və dedi:« Dünya özündə bir daha Əli kimisinə yer verməyə qadir deyildir. Əli (ə), düşməni onu tərif edən bir şəxsiyyət idi».

## İYİRMİNCİ CİLD

### *NİSBİ ƏDALƏT NƏZƏRİYYƏSİNİN TƏHLİL VƏ ARAŞDIRILMASI*

«**And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) göndərdik. Biz onlarla birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi (şəriət) nazil etdik ki, insanlar (bir-birləri ilə) ədalətlə rəftar etsinlər**»[46].

Haqqında söhbət açacağımız mövzu ədalət məsələsidir.

Ədalət mütləqdir (yəni daim sabit və dəyişməz), ya nisbi?

Əvvəlki fəsillərimizdə bəşəriyyətin ehtiyaclarının iki hissədən, yəni sabit dəyişgən olduğundan ətraflı söhbət açdıq. Qeyd etdik ki, biz iki cərəyanla, yəni ehtiyacların sabit və dəyişməz olduğunu hesab edən donuq və qeyri-fəal tərzi-təfəkkür və hər şeyin daimi dəyişilməkdə olduğunu hesab edən cəhalətlə üzləşməli oluruq.

Cəhalət adlandırdığımız cərəyan, aləmdəki hər bir şeyi sabit və dəyişməz hesab edir. Biz bütün bunlar haqda əvvəlki fəsillərimizdə ətraflı söhbət açdığımız üçün bir daha təkrar etmək istəmirik.

Cəhalət təbəqəsi iki yarı fəlsəfi fərziyyəyə istinad edir (Alimlərin arasında belə bir fikirdə olanlar da var və biz onların hər biri haqda söhbət açacağıq ki, həqiqətdən agah olub, onlara cavab verə bilsinlər). Bu fərziyyələri qəbul edənlər heç nəyi sabit hesab etməyən cahillərin dediklərini təsdiq etmiş olur. Bu nəzəriyyələrdən biri «nisbi əxlaq», digəri isə «nisbi ədalət» nəzəriyyəsidir. Əxlaq hər bir insanın özünə və onun şəxsi xüsusiyyətləri, ədalət isə, ictimai nizamla əlaqəlidir.

Nisbi əxlaq fərziyyəsinə əsasən, dünyada heç bir şey sabit deyildir. Demək, heç bir əxlaqi məktəb bəşər üçün hər zaman sabit ola bilməz. Nisbi ədalət fərziyyəsinə əsasən isə, ədalət mütləq deyil, nisbi bir məfhumdur. Bunun üçün də heç bir məktəbin bərqərar etdiyi ədalət hər zaman bəşəriyyət üçün bərqərar ola bilməz.

Dediklərimizi bir qədər geniş açıqlayaq.

**Nisbi ədalət:** «Nisbi» dedikdə, nəyi nəzərdə tutmalıyıq?

Hər hansı bir şeyin xüsusiyyəti başqa bir şey ilə müqayisə etməklə məlum olursa, biz onu nisbi adlandırmalıyıq. Məsələn, əgər sizdən biri «böyük» və ya «kiçik»in nə qədər olduğunu soruşursa, müəyyən ölçünün böyük və ya kiçik olduğunu deyə bilərsə? Bəzən deyərlər: «Böyük bir qoyun gördüm». Bir qədər də şişirdərək, qoyunun buzov boyda olduğunu deyənlər də olur. Lakin biz adi qoyunun nə boyda olduğunu bilirik və onu buzov boyda qələmə vermək, sözün əsl mənasında həqiqi ölçüsündən daha böyütmək deməkdir.

[46] «Hədid» surəsi, ayə 25

İnək boyda dəvə gördükdə isə, onun nə qədər kiçik olduğuna təəccüb edərik. Demək, qoyun buzov boyda olduqda onu böyük, dəvə inək boyda olduqda isə onu kiçik hesab edirik. İnək buzovdan böyük olduğu bir halda, necə ola bilər ki, hər hansı bir şey buzov boyda olduqda böyük, inək boyda olduqda isə kiçik hesab olunsun?

Yaxınlıq və uzaqlıq da nisbidir. Məsələn, bəzən bizim evimiz aeroportdan uzaqdır, bəzən «evimiz nə qədər uzaqdır», bəzən də «filan şəhər filan şəhərə yaxındır» deyilir. Əgər şəhərlər arasındakı fasiləni meyar götürsək? Şamaxını Bakıya ən yaxın şəhər hesab etməliyik. Evlər arasındakı fasiləni meyar götürdükdə isə? əgər yaşadığımız ev aeroportdan uzaqda yerləşirsə deməliyik ki, aeroport bizim yaşadığımız evdən çox uzaqda yerləşir. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, yaxınlıq və uzaqlıq nisbidir. {başqa bir misal ilə əvəz olunsaydı, daha yaxşı olardı} Yəni müəyyən fasiləni nəzərdə tutaraq qətiyyətlə deyə bilərik ki, uzaq bu qədər, yaxın da bu qədərdir. Əgər haranınsa yaxın və ya uzaq olduğunu bildirmək istəyiriksə, oranı başqa bir yerlə müqayisə edib, müəyyən ölçü ilə hesablamayınca qəti nəticəyə gələ bilmərik. Lakin bəzi şeylər mütləq və qətidir. Hərçənd bəziləri belə bir məntiqə qarşı çıxır və dünyada heç nəyin qəti olmadığını hesab edir. Təbii ki, bu da tamamilə səhv bir fikirdir. Belə ki, ölçü və ədədləri biz mütləq hesab edə bilərik. Məsələn, iyirmi ulduz və iyirmi ağac dedikdə, bu iki şey kəmiyyət baxımından bir-birindən fərqli olmalıdırmı? Xeyr, kəmiyyət baxımından onlar arasında heç bir fərq yoxdur. Ölçü zamanda eyni qayda olaraq, məsələn, parça metr ilə ölçülür. 180 sm ölçüdə olan parça həmin ölçüdə olan adi bir insanla ölçü baxımdan fərqli ola bilərmi?

Demək, bəzi şeylər mütləq, bəziləri isə nisbidir. Bəzən müxtəlif şeylərin mütləq və ya nisbi olduğunu müəyyən etmək bir o qədər də asan olmur.

Götürək, elm və həqiqəti. Elm və həqiqət nisbidir, ya mütləq? Lakin biz bu barədə söhbət açmaq istəmirik. Bir qədər əvvəl haqqında söhbət açdığımız ədalət mövzusuna qayıdıb, ədalətin mütləq və ya nisbi olub-olmadığı haqda söhbətimizi davam etdirək.

Əgər ədaləti nisbi hesab ediriksə, cahillərin dedikləri öz yerini tapmış olur. Nəticədə, ədalət hər bir cəmiyyətdə və hər bir dövrdə bir cür qələmə veriləcəkdir. Demək, ədalət mütləq xarakter daşımır. Bunun üçün də hər hansı bir məktəb nəyisə ədalət adlandıraraq, onun bütün dövrlərdə icra olunmasına nail ola bilməz. Əgər nail olarsa, bunu yalnız öz zaman və məkanında tətbiq edə bilər. Böyük və kiçiklik bütün əşyalar üçün eyni olmadığı kimi, ədalət də bütün zaman və məkanda eyni ola bilməz. Əgər həqiqətən də ədalət nisbi olsaydı, deyilənləri tamamilə əsaslı hesab etməliyik. Ədalət nisbi və ya mütləq olduqda isə, onların söylədikləri tamamilə əsassız, bizim bu barədə irəli sürdüyümüz fərziyyələr isə, doğru və məntiqli olacaqdır.

Hər şeydən əvvəl ədaləti tərif etməliyik və yalnız bundan sonra onun nisbi və ya mütləq olduğunu müəyyən edə bilərik. Tərifə gəldikdə isə, biz ədaləti üç cür tərif edə bilərik:

Ədalət, ədl kökündən olduğu üçün biz onu bərabərlik və müsavat kimi mənalandıra bilərik. Çünki ədl, bərabərlik mənasını daşıyır. Qurani-kərimin bəzi ayələrində ədalət məhz bərabərlik mənasında işlənilmişdir. Belə ki, Ənam surəsinin 1-ci ayəsində deyilir: «**Sonra kafir olanlar, yenə öz Rəbbinə tay tutarlar**».

Bizim ədaləti bərabərlik kimi mənalandırmağımız nə dərəcədə düzgündür? Hər şeydən əvvəl nəyin nəzərdə tutulduğuna diqqət yetirməliyik. Bəzən ədalət bərabərlik kimi mənalandırılaraq belə bir qənaətə gəlinir ki, bəşər eyni səviyyədə yaşayaraq, onlara verilən nemətlərdən bərabər olaraq istifadə etməlidir. Yəni bütün insanlar bərabər olaraq (biri digərindən fərqli olmadan) eyni cür paltar geyməli, yemək yeməli, var-dövlətə sahib olmalı, eyni şəraitdə yaşamalı, nəqliyyat vasitələrindən istifadə etməli, bir sözlə, onların xoşbəxt həyatını təmin edəcək bütün şeylərdən bərabər olaraq istifadə etməlidirlər. Ədaləti belə mənalandırmağımız heç də düzgün deyildir. Sözün əsl mənasında bu ədalət deyil, zülmdür.

Əvvəla ona görə ki, belə bir ədalətin cəmiyyətdə bərqərar olunması qeyri-mümkündür. Çünki, xoşbəxtliyimizi təmin edən şeylərin bəziləri bizim ixtiyarımızda, bəziləri isə ixtiyarımızda deyildir və biz onları əldə edə bilmərik. Çünki xoşbəxtliyi təmin edən şeylər yalnız var-dövlət, yemək-içmək və minik vasitələrindən ibarət deyildir. Bütün bunlar xoşbəxtliyin yalnız bir hissəsini təşkil edir. Aristotel doqquz şeyi xoşbəxtliyə səbəb olan ən başlıca amil hesab edir. Onlardan üçü insanın öz bədənində, üçü ruhunda, üçü isə ruh və bədənindən xaricdədir. İnsanın bədənində olanlar sağlamlıq, qüdrət və gözəllikdir (xüsusilə qadınlar üçün). Ruhda olanlar isə ədalət, hikmət və bilikdir.

Belə ki, cahil ilə aqil (bilikli) insan xoşbəxtlik baxımından eyni səviyyədə olmurlar. Üçüncü amil isə şücaətdən ibarətdir. Aristotel şücaət dedikdə, güc və qüdrət deyil, qəlbin güclü və mətinli olmasını nəzərdə tutur. İnsandan xaricdə olan üç amil isə var-dövlət, vəzifə və ad-sandan ibarətdir. Bütün bunlar təbii olaraq dəyər baxımından bir-biri ilə bərabər deyildir. Bunun üçün də cəmiyyətdə ədalət bərqərar etmək istədikdə bəzi hallarda bu iş qeyri-mümkün olur. Məsələn, var-dövləti bütün insanlar arasında bərabər olaraq bölə bilərik, lakin hər şey bununla bitmir. Vəzifələri necə, bərabər olaraq onların arasında bölə bilərikmi? İstər kommunist olsun, istərsə də sosialist hər bir ölkəyə müəyyən şəxslər rəhbərlik etməli və yüksək vəzifələri iqtidarda olan dövlət adamları tutmalıdırlar. Çünki hamının yüksək vəzifə tutması və dövlətə rəhbərlik etməsi sadəcə olaraq qeyri-mümkündür. Sevgi, hörmət və ehtiramın cəmiyyətdə bərabər bölünməsi də qeyri-mümkündür.

«Heç olmasa, insanın ixtiyarında olan işlərdə ədalət bərqərar olunmalıdır» deməklə tutulan iradları rədd edə bilmərik. Yəni iqtisadi məsələlərdə

bərabərlik bərqərar edərək, ictimai ədalətə nail ola bilərik. Lakin bunun özü də bir növ ədalətsizlikdir. Məgər istedad, bacarıq baxımından hamı bir cür yaradılmışdırmı? Hamı təfəkkür və ideologiya baxımında eyni səviyyədədirmi? Xarici görünüş baxımından iki nəfər şəxs bir-birinə tam oxşamadığı bir halda istedad, bacarıq və ideologiya baxımından bir-birləri ilə necə tam oxşar ola bilərlər. Zahiri görünüş baxımdan bir-birinə daha çox oxşayan iki əkiz bacı və qardaş belə, ruhi baxımdan bir-birlərindən olduqca fərqli olurlar. Zövq, həvəs, qüdrət, əxlaq, səmimiyyət və s. baxımından da insanlar bir-birləri ilə tam oxşardırmı? Xeyr. Birinin meyli ticarətə, digərinin siyasətə, başqa birisinin isə elm və təhsilə olur. İnsanlar bir-birlərindən fərqli yaradıldıqları kimi, onların gördükləri iş, istedad və bacarıqları da bir-birlərindən fərqli olmalıdır. Belə ki, onlardan biri digərindən daha çox fəaliyyət göstərir və bunun üçün də gördüyü işlər də daha çox səmərə verir. İnsanlar istedad, güc və qüdrət baxımından bir-birlərindən fərqli yaradılmalarına baxmayaraq, bərabər olaraq mükafatlandırılmalıdırlarmı? Yəni təhsil alan zirək və tənbəl şagirdlər arasında fərq qoymadan «ölkəmiz bərabərlik ölkəsidir» deyərək, hər ikisinə orta qiymət, yəni 5 alana əla qiymət yox və 2 alana qeyri-kafi yox, 3 və ya 4 qiymət verərək, bərabər olaraq qiymətləndirməliyikmi?! Xeyr. Bu ədalət yox, sözün əsl mənasında zülm və haqsızlıqdır. Birisinin zəhmət çəkmədən digərinin zəhmətindən bəhrələnməsini ədalət adlandırmaq olarmı?! Bütün bunlar ədalətin ziddinə olmaqla yanaşı, ictimai şüur və məsləhətlə də tamamilə ziddiyyətlik təşkil edir. Çünki belə olduqda nə tənbəl zirəngləşir, eyni zamanda zirəng və fəal insanlara da tənbəllik üz verir. Bu isə, tamamilə adi bir haldır. Ömrünü, gününü ixtira və yeniliklərə sərf edən bir şəxs, zəhmətinin dəyərləndirilmədiyini və cəmiyyətdə heç bir fəaliyyəti olmayan adi bir şəxs ilə ona eyni qiymət verildiyini gördükdə təbii ki, öz fəaliyyətinə son qoymaq istəyəcəkdir. Çünki hər hansı bir şeyi ixtira edən şəxs, yalnız o zaman bu işə daha da sövq olur ki, əldə etdiyi nailiyyət tarixdə başqasının deyil, onun öz adı ilə yazılmış olsun. Bunun üçün də bəşər bundan artıq ədalətin ardınca getməyə cürət etməmişdir. Bunun üçün də əgər ədaləti müsavat, müsavatı da insanların nemət və bərabər olaraq mükafatlandırılması kimi mənalandırsaq, hər şeydən əvvəl bu işin qeyri-mümkünlüyünü və eyni zamanda ədalət yox, zülm və haqsızlığa, ən acınacaqlısı isə ictimai pozğunluğa yol verdiyimizi bilməliyik. Çünki insanların təbiəti müxtəlif və bir-birlərindən fərqlidir.

Soruşa bilərsiniz ki, insanlar nə üçün quruluş, xasiyyət, istedad, bacarıq, görünüş, tərzi təfəkkür, zövq baxımından bərabər olaraq yaradılmamışlar? Nə üçün Allah-təala (nəuzubillah) bu kimi işlərdə ədalətə riayət etməmişdir? Nə üçün insanlar fabrik və zavodlarda istehsal olunan mallar kimi eyni quruluşda yaradılmamışlar?

Kamal ixtilaflardan meydana gəlir və müxtəlif səth və səviyyədə olan ixtilaflar hərəkətə səbəb olur. Ümumiyyətlə, əgər biz hamımız eyni quruluş, zahiri görünüş, eyni istedad, zövq və bacarığa malik olsaydıq, mənim malik

olduğuma siz də və sizin malik olduğunuz işlərə mən də malik olsaydım, burada nə işlə məşğul olardıq? Nə üçün siz ticarət, mən isə elm ardınca getdim. Hərəmiz bir yolu seçdik, lakin bu ixtilaf kamal və ya nöqsandan irəli gəlmir. Yəni kiməsə naqis, kiməsə də kamil deyə bilmərik. Hər bir şəxs öz sahəsində kamil olsa da, ümumilikdə hamı naqisdir. Kamil olan kütlə və cəmiyyətdir. İnsanın burnu da olmalıdı, qaşı da, qaş əyri, burun isə düz olmalıdır. Əgər burnu əyri, qaş düz olarsa, insanın zahiri görünüşü olduqca pis və eybəcər olacaqdır.{münasib, məntiqli misallarla əvəz et}

Biri savadlı, digəri isə savadsız olmayınca, elm və təhsil heç bir əhəmiyyət kəsb etməyəcəkdir. İnsanları bir-birlərinə cəzb edən və ya yaxınlaşdıran da məhz budur. Əgər hamı eyni səviyyədə və bir-birinə oxşar olsaydı, insanlar arasında heç bir cəzzabiyyət olmazdı. Əgər yaradılış baxımından kişi ilə qadın arasında heç bir fərq olmasaydı, nə kişilər evlənmək fikrinə düşərdi, nə də qadınlar ailə qurmaq. Nə kişi kişini, nə də qadın qadını cəzb edərdi. Onları bir-birlərinə cəzb edən və yaxınlaşdıran da məhz bir-birlərinə duyduqları ehtiyaclardır.

Qurani-kərim bu ixtilafları Allahın qüdrət və nişanələrindən biri olduğuna işarə edir: «**Göylərin və yerin yaradılışı, dillərinizin və rənglərinizin müxtəlifliyi də Onun qüdrət əlamətlərindəndir**»[47].

İnsanlar bir-birlərindən fərqli olduqları kimi, yaşadıqları cəmiyyətlər də bir-birindən olduqca fərqli olur. Bəqərə surəsinin 213-cü ayəsində bu haqda deyilir: «**İnsanlar tək bir ümmət idi. Allah onlara müjdə verən və xəbərdarlıq edən (əzabla qorxudan) peyğəmbərlər göndərdi**».

Peyğəmbər (s)-dan bu məzmunda nəql olunmuş hədislərdən birində deyilir: «**Ümmətim arasında olan ixtilaflar Allahın rəhmətidir**».

Demək, ədaləti müsavat və bərabərlik kimi mənalandırmaq və bərabərliyi bütün ictimai məsələlərdə fərz etmək, tamamilə səhv və əsassızdır. Lakin biz ədaləti başqa cür də mənalandıra bilərik. Diqqət yetirsək görəcəyik ki, bir qədər fərqli olsa da, bunu özü də ədalətdir. Qədim alimlər ədaləti belə tərif edirdi: Hər bir şəxs və ya hər bir şey özünə xas olan bacarıq və ya ləyaqətlə yaradılmışdır.

Haqq və hüquq da məhz buradan, yəni əşyaların quruluşunun zatından meydana gəlir. Hər bir şeyi öz zatı ilə tanımalıyıq və yalnız bundan sonra baxıb görməliyik ki, onun istedad və bacarığı nəyə çatır. Məsələn, insanın bədən üzvlərinin hər birinin öz haqqı və görə biləcəyi işlər vardır. Gözün üzərinə düşən şeyləri əlin öhdəsinə qoymaqla nəinki ələköməklik etmiş, bəlkə əksinə olaraq ,ona zülm etmiş oluruq.

Fəal və alaçı şagirdin qiymətini kəsmək və tənbəl şagirdin qiymətini artırmaqla hər birinə qarşı haqsızlıq etmiş oluruq.

Əgər bərabərlikdən dəm vuran şəxslərdən «nə üçün filan şəxs ölkə rəhbəri seçildi» soruşsaq deyəcəklər ki, o, buna layiq və hamıdan bacarıqlı idi.

---

[47] «Rum» surəsi, ayə 22

Əvvəllər adi fəhlə işləmiş sonralar tədriclə yüksələrək belə bir yüksək vəzifəyə gəlib çatmışdır. Bu da dediyimiz ədalətdir. Buradan belə məlum olur ki, hər şeydən önəmli istedad və bacarıqdır. Biri bacarıqlı, digəri isə bacarıqsız olduqda, bacarıqlının payına düşəni məhz onun özünə vermək lazımdır. Əks təqdirdə, ədaldətsizliyə yol vermiş olarıq.

Şair deyir:
Yeddi iqlimi yaran xaliq,
Hər şeyi etmişdir özünə layiq.

İctimai haqsızlıq isə bunun tam əks deməkdir. Sədi şerlərinin birində deyir:
Şam fitnə baş verdiyi zaman,
Hamı hər yerdən qaçırdı yaman.
Kəndlərdə doğulmuş alim və dana,
Şahın vəzirinə çevrilirdi.
Vəzirlərin nadan övladları,
Kəndlərdə yolçuluğa başladılar.

Budur ədalətin mənası. Qanunun icrasında ədalətə riayət etmək, hamıya bir gözlə baxıb, hərənin haqqını özünə verməkdən ibarətdir. Başqa sözlə desək, qanun, yaradılış baxımından eyni şəraitdə olanlarla bərabər, müxtəlif şəraitdə olanlarla isə, qeyri-bərabər və şəraitə müvafiq olaraq rəftar etməlidir. Bu da, ədalətin daşıdığı ikinci mənadır. Üçüncü mənası ilə isə, növbəti fəsillərimizdə tanış olacağıq.

# İYİRMİ BİRİNCİ FƏSİL

## *ƏDALƏTİN MƏFHUMU*

## *NİSBİ ƏDALƏT NƏZƏRİYYƏSİNİN RƏDDİ*

«**And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) göndərdik. Biz onlarla birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi (şəriət) nazil etdik ki, insanlar (bir-birləri ilə) ədalətlə rəftar etsinlər**»[48].

Din, ədaləti peyğəmbərlərin ən başlıca hədəfi hesab etdiyi üçün nisbi ədalət sonuncu peyğəmbərlik və dinin əbədiliyi ilə sıx əlaqəlidir. Bütün dövrlərdə ədalətə bir cür riayət olunduqda, hansı qanun əbədi olaraq qüvvədə qala bilər? Deyilənlərin, yəni ədalətin nisbi olub-olmamasını müəyyən etmək üçün hər şeydən əvvəl nisbi dedikdə, nəyin nəzərdə tutulduğunu və daha sonra ədalətin məna və məfhumunu açıqlamalıyıq. Verilən təriflərdən bizə belə məlum oldu ki, bəziləri ədaləti cəmiyyəti qabağa aparan ictimai bərabərlik kimi mənalandırmışlar. Belə bir nəzəriyyə irəli sürən şəxslər haqq və hüquqa dair belə bir fikirdədirlər ki, cəmiyyət üzvləri ayrı-ayrılıqda heç bir hüquqa malik deyillər. Hüquqa malik olan yalnız cəmiyyətdir. Alimlərdən bəziləri belə bir fikirdədirlər ki, hər bir cəmiyyət üzvünün ayrı-ayrılıqda üzərinə müəyyən vəzifə düşür, lakin hüquqa malik olan isə cəmiyyətdir. Baxaq görək deyilənlər nə dərəcədə düzgündür.

Əli (ə) xilafətinin ilk günlərində bu məsələyə dair olduqca mənalı xütbə oxumuşdur. Haqq və hüquq tək heç nəyə geniş meydan verilmir. Əmələ yer verildikdə isə, haqq və hüquqa verilən yer hər şeydən məhdud olur və haqdan dəm vuran şəxslər əmələ gəldikdə, dediklərinin altından çıxmalı olurlar. Elə bir şəxs yoxdur ki, başqalarının boynunda haqqı olsa da, başqalarının onun boynunda haqqı olmasın. Demək bu cərəyan daim mütəqabil şəkildə həyata keçir.

Lakin bu nəzəriyyəni rədd edən şəxslər belə bir fikirdədirlər ki, yalnız ictimaiyyətin insanlar üzərində haqqı vardır və ictimaiyyətin müqabilində insanların hər birinin üzərinə müəyyən vəzifə düşür. Yəni ictimaiyyətin insanlar üzərində haqqı olsa da, onların ictimayyət üzərində heç bir haqqı-hüququ yoxdur. Lakin Əli (ə) buyurur ki, bu heç də belə deyildir. Belə ki, hər hansı bir şəxsin başqalarının üzərində haqqı olduqda, onların da həmin şəxsin üzərində haqqı olacaqdır. Daha sonra buyurur: «Əgər dünyada başqalarının üzərində haqqı olan, lakin onun üzərində kimsənin haqqı olmayan şəxs olarsa, o da Allah-təalanın müqəddəs zatıdır».

---

[48] «Hədid» surəsi, ayə 25

Yəni hamının üzərində haqqı olan və onun üzərində kimsənin haqqı olmayan yeganə varlıq Allahın özüdür. Burada artıq heç bir qarşılıqlı münasibətdən söz aça bilmərik. Onun başqalarının üzərində haqqı olması başqalarının digər şəxslərin üzərində haqqı olması ilə olduqca fərqlidir. İnsanların bir-birlərinin üzərində haqqı olması onların bir-birlərindən bəhrələnməsindən xəbər verir. Lakin ilahi haqq bütün bunlardan olduqca fərqlidir. Allahın insanlar üzərində haqqı vardır dedikdə, onların Allahın qarşısında məsuliyyət daşıdıqları nəzərdə tutulur. Dünyada elə bir şəxs tapa bilmərik ki, Allah ona qarşı haqsızlıq və ya ədalətsizlik etmiş olsun və həmin şəxsin Allahın üzərində haqqı olmuş olsun.

Dualardan birində deyilir: «İlahi! Bizimlə Öz fəzilət, böyüklük, güzəşt və mehribanlığınla rəftar et. Bizə verdiyin şeylər, Sənin tərəfindən kərəm və bəxşiş olsun. Səndən yalnız bunu diləyirik».

Öz haqqını yalnız ayrılarkən nökər öz ağasından və ya köməkçi dükan sahibindən tələb edə bilər. Çünki hər bir insanın başqasının üzərində haqqı olduğu kimi, başqalarının da onun üzərində haqqı vardır. Lakin son dərəcədə təqvalı və haqqında «Əlinin Xəndək döyüşündə vurduğu bir zərbə ibadətdən daha fəzilətlidir» deyən şəxsin belə, Allahın üzərində heç bir haqqı-hüququ yoxdur. İki nəfər şəxsi bir-biri ilə müqayisə etdikdə, onlardan birində digərində olmayan xüsusiyyəti görə bilərik, lakin əgər bütün bəşəriyyəti Allahın müqabilində nəzərdə tutarıqsa, onların heç birinin özündən nəyəsə malik olmayacağının şahidi olacağıq, çünki kimin nəyi varsa, hamısı Allahdandır.

Kiçik bir misal: Ata iki oğlunun hər birinə ayaqqabı, paltar alır, onlara xərclik pul verir. Onlar malik olduqları şeylərin hansı biri üçün alındığını müəyyən edə bilərlər. Onlar bir-birlərinə deyə bilərlər ki, bu mənim, bu isə sənin köynəyindir. Bir sözlə, müəyyən qədər də olsa, onlar aralarında fərq və fasilə qoya bilərlər. Atalarına gəldikdə necə, özləri ilə onun arasında fərq qoyaraq deyə bilərlərmi ki, bu mənim, bu isə sənin köynəyindir? Onları tanıyanlar üçün bu iş gülməli gələ bilər. Çünki övladın hər nəyi varsa, atasının şəxsi mülk və var-dövlətindəndir.

Bizlə Allahın arasında olan münasibət isə, ata ilə övlad arasında olan münasibətdən daha güclüdür. Yəni istər cismani, istərsə də ruhi güc və qüvvəmiz bizim olmaqla yanaşı, həm də Allahındır. İstər maddi olsun, istərsə də mənəvi bütün nemətlər Allah tərəfindəndir. Bəs insan bütün bu nemətlərin şükrünü yerinə yetirə bilərmi? Xeyr. Bu sadəcə olaraq qeyri-mümkündür. Sizə yaxşılıq edən, ehsan edən hər hansı bir şəxsə «çox sağ olun», «minnətdaram», «təşəkkür edirəm» deməklə, öz minnətdarlığını bildirə bilirsiniz. İnsan Allahın bəxş etdiyi nemətlərin müqabilində isə şükr etməyə sadəcə olaraq olduqca zəif və acizdir. Çünki, o, «İlahi şükr» deməsi üçün yenə də şükr etməyə ehtiyac duyur. İnsan Allah tərəfindən bəxş olunan maddi nemətlərin şükrünü yerinə yetirə bilmədiyi bir halda, nəfəs almaq,

fikirləşmək və ya sayı-hesabı olmayan bir çox mənəvi nemətlərin şükrünü yerinə yetirə bilərmi?

İmam Zeynəl-abidin (ə) Əbu Həmzə duasında deyir: «İlahi mənə verdiyin bu lal dilləmi Sənə şükr edim?!».

Bunu elə bir şəxs deyir ki, gecələrini sübhədək ibadətlə keçirər və Allahla razi-niyaz edərdi. Bütün bunları nəzərə alaraq, Əli (ə) insanların bir-birlərinin üzərinə olan haqlarını, Allahın insanların üzərinə olan haqdan olduqca fərqli olduğuna işarə etmişdir. O, xütbələrinin birində bu mətləbə işarə edərək buyurur: «Sizin mənim üzərimdə haqqınız olduğu kimi, digər hakimlər tək, mənim də bir hakim kimi sizin üzərində haqqım vardır. Elə isə kimsə belə güman etməsin ki, xəlifə hakim olduğu üçün başqalarının üzərində haqqa malik, onlar isə hakimin üzərində heç bir haqqa malik deyillər».

Hüquq fəlsəfəsi yazıçılarının məqalələrini mütaliə edərkən, insan bir çox hallarda bir-biri ilə tamamilə ziddiyyətlik təşkil edən nəzəriyyələr ilə üzləşir. Onlardan bəzilərli belə bir fikirdədirlər ki, yalnız hakimin camaat üzərində haqqı vardır, camaatın isə hakimin üzərində heç bir haqqı yoxdur. Belə bir tərzi-təfəkkür yeni Avropa filosofları tərəfindən müsbət qarşılanmışdır. Qədim zamanlarda İran və digər qonşu ölkələrdə də belə bir tərz-təfəkkür uzun illər cəmiyyətə hakim olmuşdur. Əli (ə) bunu qətiyyətlə rədd edir. Onun fikrincə, istər hakim olsun, istərsə də adi camaat bu ümumi qanuna tabe və qarşılıqlı olaraq bir-birlərinin üzərində hüquqa malikdirlər. Hakimin camaat üzərində olan haqqı onların ehtiyaclarını aradan qaldırmaq və mənafelərinə uyğun tədbirlərə əl atmaqdan ibarətdir. Əli (ə) olduqca incə bir mətləbə toxunaraq buyurur: «Hakimin rəhbərliyi cəmiyyətsiz, cəmiyyət də hakimin rəhbərliyi olmadan davam gətirmir».

Demək, birinin məsuliyyət daşımasına və digərinin məsuliyyət daşıyan şəxslərin üzərində haqqı olmaması sağlam cəmiyyət üçün yol verilməzdir. Harada haqq varsa, orada da məsuliyyət vardır.

Söz vermişdik ki, şəxsi və ictimai hüquqlar barədə söhbət açaq. Baxaq görək, İslam nöqteyi-nəzərindən hüquqa malik olan ayrı-ayrılıqda cəmiyyət üzvləridir, ya ictimaiyyət və ya onların hər ikisi?

İslam nöqteyi-nəzərindən hüquqa malik olan onların hər ikisidir.

Fiqhdə ixtilaflı məsələlərdən biri də, dövlətin malikiyyəti {və ya mülkiyyəti} haqdadır. Yəni dövlət malik olduğu şeylərin qanuni sahibidirmi? Ayrı-ayrı şəxslər kimi dövlət, ticarət, poçt, teleqraf və sair digər sahələrdə fəaliyyət göstərdiyi zaman onun həqiqi sahibinə çevrilirmi? Siz poçt idarəsinə müəyyən qədər pul köçürüb, başqa şəhər və ya ölkəyə göndərmək istədiyiniz məktubu oraya həvalə edirsiniz. Lakin bu işi dövlət poçtu deyil, şəxsi şirkət və ya müəssisə amma bir qədər baha öz üzərinə götürsəydi, yenə də tamamilə qanuni olardı. Bu işi dövlət gördükdə, necə qanuni olardımı? Alimlər bu barədə müxtəlif fikirdədirlər. Onların əksəriyyəti dövlətin maliyyət üçün tam səlahiyyətli olduğunu hesab edirlər. Dövlətin halal yol ilə qazanc əldə etməsi kimi tamamilə qanuni və onun özünə aiddir. Başqalarının

ondan qeyri-qanuni yol ilə istifadə etməsi haram və yol verilməzdir. Haram yol ilə qazanc əldə etməsi isə, haram və qeyri-qanunidir.

Müamiləyə dairi verilən başqa bir fitvada deyilir: Müamilə zamanı verilən pul haram olsa belə müamilənin özü tamamilə düzdür. Məsələn, əlində haram pul olan bir şəxs ev almaq istəyir. O, əlində olan pulu əvvəlcədən ev satan şəxsə göstərmir və haram yolla qazandığı həmin pulu yalnız son mərhələdə ev sahibinə təqdim edir; belə bir müamilə şəri nöqteyi-nəzərindən haram və yol verilməzdir. Müamiləni ümumi olaraq həyata keçirdikdə isə, yəni pulu ev sahibinə göstərməyib deyir: «Evi səndən filan məbləğə alıram və pulu sabah verəcəyəm» Ancaq əvvəlcədən verəcəyi pul haqda heç bir məlumat vermir. Müəyyən olunan qiymətə əsasən müamilə bağlanılır. Belə olduqda, alıcı nə yolla olursa olsun, ev sahibinə halal pul verməlidir. Lakin belə etmir, ev sahibinə haram ilə qazandığı puldan verir. Evə malik olsa da, şəri nöqteyi-nəzərdən borcunu ödəməmişdir.

Mərhum Şeyx Abdul Kərim Hairidən başqa alimlərdən bir çoxu belə bir fitva vermişlər.

Müamilədə alıcı haram puldan istifadə etdikdə isə, müamilə tamamilə düzgün hesab olunur. {«olunmur» olmalıdır}Belə olduqda, dövlət istədiyindən vaqon, lokamativ, rels və dəmir yoluna lazım olan digər ləvazimat alır. O aldığı şeylərin pulunu ödəməlidir. Müamilədə haram puldan dəstəmaz belə aldığı ləvazimat, onun şəxsi mülkü və müamilə tamamilə düzgün hesab olunur.

Demək, dövlət aldığı şeylərin qanuni sahibinə çevrilir. Belə olduqda, həmin şeylərdən qeyri-qanuni və ya sui-istifadə qanuna zidd hesab olunur. Məsələn, əgər özünüzlə icazə verildiyindən artıq yük götürüb, gizlədərək haqqını ödəməzsinizsə, kiməsə borclu olduğunuz kimi, dövlətin də qarşısında borclu olmuş olursunuz. Götürək dəmir yolunda müəyyən olunmuş yaş və gediş haqlarını. Əgər on iki yaşından yuxarı olan uşaqları kiçik qələmə verəriksə, həm yalan danışmış, həm də qanuna zidd hərəkət etmiş olarıq.

Dövlətin malikiyyət sahibi olub-olmaması, fiqhi məsələdir və bu bizim söhbət açdığımız ictimai və fəlsəfi mövzu ilə çox yaxındır. Heç nə etibari {və ya daimi} olmadığı üçün ictimaiyyəti etibari hesab edənlərin irəli sürdükləri nəzəriyyə tamamilə əsassızdır. Lakin ictimaiyyətin mövcud olmasını və qanuni olaraq malikiyyətə səlahiyyəti çatdığını deyənlərin sözləri tamamilə doğru və düzgündür. Biz burada dövlətin malikiyyəti haqda söhbət açmaq istəmirik. Sual doğuran məsələlərdən biri də, ictimaiyyətin nə üçün mövcud olmasıdır.

Bəzən ictimaiyyətin kütlədən ibarət olduğu hesab olunur, lakin bu heç də düz deyildir. İctimaiyyət bundan daha geniş məna daşıyır.

Tərkib və qarışıq ayrı-ayrılıqda iki müxtəlif məna daşıyır. Bir qədər noxud öz xüsusiyyətini itirir, nə də lobya. Sadəcə olaraq, qarışıq və oduqları kimi də qalırlar. Oksigen və azotdan təşkil olunan havada eyni qaydada olaraq qalır

və bu iki qazın birləşməsi nəticəsində heç bir dəyişiklik baş vermir. Tərkib isə belə deyildir. Tərkib, iki və ya bir neçə ünsürün birləşməsi nəticəsində meydana gələn yeni üçüncü ünsürə deyilir. Suyu, biz tərkib adlandıra bilərik, çünki su oksigen və hidrogen adlanan iki qazın birləşməsi nəticəsində meydana gəlir. Onlar bir-birləri ilə birləşdikdə, hər iki qazın tərkib hissəsindən fərqli olan yeni bir maye meydana gəlir.

Yaşadığımız dünyada yüzlərlə tərkib hissələri vardır. Kimya elmində də məhz bu haqda söhbət açılır.

Kütlə şəklində yaşayan insanlar necə, onlar lobya tək qarışıqdırlar ya su tək mürəkkəb? Onların ictimai həyat tərzi suya daha çox bənzəyir. Nə üçün?

Səhrada yüz minlərlə daş əsrlər boyu bir-birlərinin kənarında qalsalar belə, olduqları kimi qalır və bir-birinə heç bir mənfi və ya müsbət təsir göstərmirlər. Bağlarda əkilən yüzlərlə ağacı götürək. Yalnız su, torpaq və günəş şüasından bəhrələnən ağacların hər biri sanki öz həyatını yaşayır və ətrafındakı ağaclara heç bir təsir göstərmirlər. Lakin insanlar öz şəxsiyyət və xüsusiyyətləri ilə bir-birlərindən fərqlənirlər. Yəni bizim hər birimiz ictimaiyyətdən mütəəssir olduğumuz kimi, ona da öz təsirimizi qoymuş oluruq. Hər birimiz müəyyən xüsusiyyət, tərzi-təfəkkür və ideologiyaya yiyələnsək də, - habelə xaricdən heç bir təzyiq və məcburiyyət olmasa belə - ixtiyarımızda olan hər bir şey yaşadığımız cəmiyyətin bəhrəsindəndir. İslama olan iman və etiqad, bir çox müsbət xüsusiyyətlər bizə havadan verilmiş, ya cəmiyyətin bəhrəsidir? Əlbəttə ki, bütün bunlar cəmiyyətin bəhrəsidir.

Demək, həm cəmiyyət insanlardan, həm də insanlar cəmiyyətdən mütəəssir olur. Cəmiyyətdə insan tək yaşayır və müxtəlif cərəyanlarla üzləşir. Bu məsələnin həqiqətini aşkara çıxaran və mahiyyətinə yol tapan şəxslərdən biri də mərhum Əllamə Təbatəbai olmuşdur. O, qətiyyətlə belə bir qənaətə gəlir ki, Quran cəmiyyətin insan kimi şəxsiyyəti olduğunu hesab edir: «**Hər bir ümmətin (əzəldən müəyyən edilmiş) əcəl vaxtı (ölüm, tənəzzül və ya əzaba düçar olacağı) vardır. Onların əcəli gəlib çatdıqda, bircə saat belə nə yubanar, nə də tələsərlər**»[49].

Cəmiyyət də, insan kimi sağlam və xəstə, xoşbəxt və bədbəxt olur, nəyəsə müvəzzəf və məsuliyyət daşıyır. Bəzən soruşurlar ki, nə üçün günahkar bir qövm cəzalandırıldıqda, az saylı əməli-saleh şəxslər də onlarla birlikdə əzaba düçar olurlar? Bilməliyik ki, cəmiyyət də insan bədəni kimi hər hansı bir çətinlik və ya xəstəliklə qarşılaşdıqda, çətinlik çəkən bədən üzvlərindən biri deyil, bütünlükdə bədən olur. Məsələn, insan xərçəng xəstəliyinə tutulduqda, onun tək başı, böyrəyi və ya hər hansı bir bədən üzvü yox, bütün cismi ağrıya məruz qalır. Eyni kökdən olub səadət və xoşbəxtlikdən bəhrələndiyi kimi, onun ağrı-acısına, çətinlik və bədbəxtliklərinə də birgə dözməli olur. Yalnız axirət dünyasında hər şey bir-birindən ayrılacaqdır. Bu dünyada isə bütün

[49] «Ə`raf» surəsi, ayə 34

insanlar xeyir və şərlərində bir-birləri ilə şərik və həmrə~ydirlər. Ayrılıq yalnız o dünyaya aiddir: «**Ey günahkarlar! Bu gün (möminlərdən) ayrılın!**»[50].

Elm də bunu sübuta yetirir ki, əgər fitnə-fəsada səbəb olan cəmiyyətin bir hissəsi Allahın qəzəbinə gələrsə, cəmiyyətin digər sağlam hissəsi də əzaba düçar olaraq günahkarlar ilə birlikdə əzab çəkməli olarlar. Necə deyərlər, qurunun oduna yaş da yanır. Lakin fərq yalnız burasındadır ki, günahkarlar axirət dünyasında cəzalandırılaraq əzab çəkməyə davam edəcək, əməli-saleh şəxslər isə artıq Allahın rəhmətindən bəhrələnərək, əbədi cənnətlə mükafatlandırılacaqlar.

Cəmiyyət vəhdət və tərkib halında mövcud olduğu və özünəməxsus yolu olduğu üçün təkmilləşir, insan tək dünyaya gəlir, yaşayır və vəfat edir. O, bunu etməyə də bilməz. Cəmiyyətin özünün haqq-hüququ vardır. Bütün bunları nəzərə alaraq deyə bilərik ki, cəmiyyəti etibarlı hesab edənlərin irəli sürdükləri nəzəriyyə, tamamilə batil və əsassızdır. Əhzab surəsinin 6-cı ayəsində buyurulur: «**Peyğəmbər möminlərə onların özlərindən daha yaxındır**».

Yəni Peyğəmbər (s)-ın möminlərin üzərində olan haqqı onların bir-birlərinin üzərində olan haqlarından daha çoxdur.

Əgər möminlər yalnız öz var-dövlət, şəxsiyyət və tutduqları mövqenin sahibidirlərsə, Peyğəmbər (s) onların hamısının həm can, həm var-dövlət və həm də tutduqları mövqelərinin həqiqi sahibidir. Nə üçün? Ona görə ki, əslində möminlərin heç nəyi hətta canları belə onların öz ixtiyarında deyildir. Lakin Peyğəmbər (s) möminlərin həm var-dövlət, həm də canlarının həqiqi sahibi kimi, ehtiyac duyulduqda onları qurban edə bilər. Bəs Peyğəmbər (s)-ın möminlərin özlərindən onlara yaxın olmasını necə başa düşək? Allahın Peyğəmbər (s)-a verdiyi haqq kimin xeyrinə olmuşdur? Yəni Allah-təala belə bir haqqı Peyğəmbər (s)-a vermiş, o da, bütün möminləri özünə qurban etmişdir? Xeyr! Allah-təala onu müsəlmanların qanuni rəhbəri təyin etmiş, o da, ictimai-siyasi, dini cərəyanları və nəhayət, müsəlmanların mənafeini nəzərə alaraq, lazım gəldikdə nəyisə və ya kimlərisə qurban verməli olmuşdur. Ümumiyyətlə, kimsə belə bir fikir irəli sürməmiş, Peyğəmbər (s)-ın özü də belə bir işə heç vaxt ehtiyac duymamışdır.

Bəs belə bir haqq yalnız Peyğəmbər (s)-ın özünəmi aid olmuşdurmu? Xeyr, Peyğəmbər (s)-dan sonra rəhbərliyi öz üzərinə götürən imam belə bir hüquqa yiyələnmişdir. İmamlardan sonra necə, kiminsə belə bir hüquqa yiyələnməyə səlahiyyəti çatırmı? Bəli. Qanuni olaraq Peyğəmbər (s) və məsum imamların canişinliyinə təyin olunan hər bir şəxs, belə bir hüquqa yiyələnməyə tam səlahiyyəti olmuşdur. Bütün bunlar İslamın ictimaiyyətə verdiyi qiymətdən xəbər verir, çünki İslam ictimaiyyəti insan kimi yaşayıb, təkamülə doğru hərəkət etdiyini hesab edir.

---

[50] «Yasin» surəsi, ayə 59

Bəzən belə bir sual meydana gəlir ki, onun həlli filosoflar üçün belə çətin olur. Məsələn, bəzən bir sualla qarşılaşırıq: Hər bir nəsil gələcək nəslin qarşısında məsuliyyət daşıyırmı? Əgər desəniz bəli, bu o deməkdir ki, gələcək nəslin bizim üzərimizdə haqqı vardır. Yox əgər desəniz xeyir, biz onların qarşısında heç bir məsuliyyət daşımırıq. Onda bu günlər bir çoxlarının «məsuliyyət nədir?», «biz nə üçün onların qarşısında məsuliyyət daşımalıyıq?» dediklərini təsdiq etmiş olarsınız. Əbu Əla Muərri bunu qətiyyətlə rədd edən şəxslərdən biri olmuşdur. O, deyir: «Axı nə üçün biz gələcək nəslin meydana gəlməsinə imkan veririk. Təqsir özümüzdədir ki, onların meydana gəlməsinə səbəb oluruq. Ümumiyyətlə, yaşadığımız dünya şər və batildir. Sonrakı nəslin meydana gəlməsinə səbəb olan hər bir şəxs, onlara qarşı cinayət etmiş olur». Ömər Xəyyam da vaxtı ilə bu fikirdə olmuşdur. Əbu Əla ömrünün sonunadək ailə qurmamış və vəfat etdikdən sonra qəbrinin üzərində bu sözləri yazmağı vəsiyyət etmişdir: «Bu ki, atası onu dünyaya gətirməklə cinayətə yol vermiş, o isə övladı olmayan və ona qarşı cinayət etməyən şəxsin qəbridir».

Bu sözləri evlənməyi və övladı olmağı cinayət hesab edən bir şəxs deyir. Gələcək nəslin qarşısında məsuliyyət daşıdığımızı deyənlər isə, gərək bizə bu haqqın və məsuliyyətin nədən ibarət olduğunu başa salsın.

Hər şey dünyanın müəyyən hədəf və məqsədə doğru hərəkət etməsindəy meydana gəlir. Yəni dünyada mövcud olan bütün varlıqlar, yaradıldıqları ilk gündən müəyyən hədəfə doğru hərəkət etməkdə olurlar. Əgər dünya təsadüfü olaraq yaradılsaydı, bütün bu deyilənlər heç bir məna və məfhum kəsb etməzdi. Belə bir məntiqə, yəni varlıqların təsadüf üzündən meydana gəlməsinə istinad edən şəxslərdən aləmin son hədəfə doğru hərəkət etdiyini soruşduqda isə, bunu qətiyyətlə rədd edir və deyirlər: «Ümumiyyətlə, dünyada son hədəf adlanan bir şey yoxdur». Lakin həmin şəxslər özlərinin gələcək nəslin qarşısında məsuliyyət daşıdıqlarını hesab edirlər. Bir halda ki, gələcək nəslin qarşısında daşıdığınız məsuliyyət və bütün bu deyilənlər, aləmin ilahi hikmət və son hədəfə doğru hərəkət etməsinin əsasında qoyulmuşdur. Dünya da son hədəfə doğru getdiyi üçün həqiqəti yaradılış özü vücuda gətirmişdir. Belə olduqda da, biz yaradılış qarşısında məsuliyyət daşımalı oluruq. Yaradılış bizə deyir: «Səndə tənasül alətini və müxalif cinsə olan şəhvət hissini ona görə yaratmışam ki, gələcək nəsli meydana gətirəsən və bilməlisən ki, onun sənin üzərində haqqı vardır».

Hələ gələcək nəsli yox, indiki nəsli götürək. Ata ilə övladı götürək. Övladın atanın üzərində haqqı varmı? Dünyada elə bir şəxs tapa bilmərsinizmi ki, övladın ata və anasının üzərində heç bir haqqı yoxdur demiş olsun? Kimdən soruşsanız, sizə belə bir cavab verəcəkdir ki, indi ki, onu dünyaya gətirmisiniz, onu böyüdüb boya-başa çatdırmalısınız. Demək, uşağın valideynin üzərində müəyyən haqqı vardır. Belə bir sual meydana gəlir: Uşağın haqqı haradan meydana gəlmişdir? Cavabında deməliyik ki, yaradılış aləmi bütün bəşəriyyəti bir-biri ilə əlaqəli yaratmış və onların bir-birlərinin

üzərində olan haqqı, Allah tərəfindən onların yaradılışında qərar verilmişdir. İnsanları belə bir xüsusiyyətdə yaratmaqla, Allah-təala sanki demək istəyir ki, sənin vücudunda atalıq, həyat yoldaşının vücudunda isə analıq hissi yaratmaqla, arasında övlad və valideyn münasibətləri yaratmışam və onun sizin üzərinizdə haqqı vardır. Demək, cəmiyyətin insanların üzərində haqqı vardır.

Cəmiyyət ayrı-ayrı şəxslərdən təşkil olduğu bir halda fərdin, mövcud olmamasına dair irəli sürülən fərziyyə haqda mənə belə gəlir söhbət açmaq belə əbəsdir. Fərd mövcud olmadığı bir halda, cəmiyyət meydana gələ bilərmi?

Beləliklə, haqqında söhbət açdığımız mətləbi sona çatdırıb, ədalətin daşıdığı mənalarla davam edirik. Ədalət, bərabərlik mənasını daşısa belə, yenə də «haqqı çatan hər şeyə öz haqqı verilməlidir» ifadəsindən xaric deyildir. Nə üçün? Çünki insanların hüququ tapdalanmaqla, heç vaxt ictimaiyyətdə bərabərlik bərqərar olunmur. Bərabərlik yalnız o zaman bərqərar oluna bilər ki, hər bir cəmiyyət üzvünün hüquqları qorunmuş olsun. İnsanların müəyyən hüquqa malik olmadıqlarına dair irəli sürülmüş fərziyyəyə əsasən də, cəmiyyətdə bərabərliyin bərqərar olunması qeryi-mümkündür. Bəli, bu bir həqiqətdir ki, bəzən cəmiyyətdə bərabərliyə nail olmaq üçün insanlar öz hüquqlarından keçməli olurlar. Necə deyərlər, öz haqlarını cəmiyyətə fəda edirlər. Lakin yaradılış müəyyən hədəfi olmayınca, şəxsin hüququ başqa bir yerdə təmin olunmayınca, bu cərəyan öz axarını tapmır. Məsələn, kimsə cəmiyyətə xatir cihad edib, özünü fəda etməsini əmr edir. Şəxs hansı məntiqə əsasən belə bir işə razı olur? Onun öz üzərində haqqı yoxdurmu? Öldükdən sonra cəmiyyətdən heç bir mənfəət əldə edə bilməyən və öz üzərində haqqı olduğu bir halda nə üçün özünü fəda etməlidir?

Cavabında deyirik: dünya və axirət, həyat və ölüm bir-biri ilə bağlı və əlaqəlidir. Cihad etmək, vətənin keşiyində durmaq heç də şəxsin öz haqqını tapdalaması demək deyildir. Bütün bunlar axirət dünyasında savaba çevriləcəkdir. Dünya ilə axirət arasında əlaqə olmaz və insan öz fədakarlığının nəticəsini görməzsə, sözün əsl mənasında, böyük haqsızlıqla üzləşmiş olar.

Artıq bizə məlum olur ki, ədalətin əsaslarını həqiqi hüquqlar təşkil edir. Ədalət onların təsəvvür etdikləri bərabərlik mənasını daşımır. İnsan hüquqlarına riayət olunmadan, ədalətin bərqərar olunması qeyri-mümkündür. Fərdin haqqı olduğu kimi, cəmiyyətin də müəyyən haqqı-hüququ vardır. Ədalətin bərqərar və insanların hüquqlarının riayət olunması, onların hüquqlarının riayət olunmasında ədalətin bərqərar olunması deməkdir. Bunun üçün də, ədalət bütün zamanlarda eyni məna və məfhum daşıyır və onu nisbi hesab etmək, tamamilə səhvdir.

# İYİRMİ İKİNCİ FƏSİL

## *NİSBİ ƏXLAQ NƏZƏRİYYƏSİNİN ARAŞDIRILMASI*

«**Həqiqətən, Allah (Quranda insanlara) ədalətli olmağı, yaxşılıq etməyi, qohumlara (haqqını) verməyi buyurar, zina etməyi, pis işlər görməyi və zülm etməyi isə qadağan edər**»[51].

Əvvəlki iki fəsildə ədalət barədə söhbət açdıq və belə bir qənaətə gəldik ki, ədalət haqq və həqiqət üzərində qurulmuşdur. İnsanın da bütün həqiqətləri sabit və dəyişilməz olduğu üçün ədalət də nisbi yox, mütləq bir məfhumdur. Bu fəsildə, əvvəlki fəsillərdə işarə etdiyimiz «nisbi əxlaq» barədə söhbət açacaq və nisbilik mövzusunu əxlaq və ədalət məsələləri ilə bitirəcəyik.

Qeyd etdik ki, bəzilərinin fikrincə, əxlaq nisbi məsələlərdəndir. Yəni hər hansı bir şeyi, bütün zaman və məkan üçün yaxşı və ya pis hesab edə bilərik. Belə ki, istər maddi olsun, istərsə də mənəvi, hər bir şey müəyyən dövr və məkanda müsbət, müəyyən dövr və məkanda isə mənfi qiymətləndirilir. Demək, əxlaq nisbi bir məfhumdur və müəyyən əxlaq normaları bütün zaman və məkan üçün rəğbətlə qarşılanıb, müsbət qiymətləndirilə bilməz. Belə bir tərzi-təfəkkürün doğru olub-olmaması haqda daha geniş söhbət açmalıyıq.

Bu barədə irəli sürülən fərziyyələr tamamilə səhv və əsassızdır. Ümumiyyətlə, biz cəmiyyətin bəzi şeyləri müsbət, bəzi şeyləri isə mənfi qiymətləndirməsini necə başa düşə bilərik? Bu barədə fikir irəli sürən şəxslər müsəlmanlar olmuşlar. Bu da «hüsn» və «qubhi əqli» məsələsidir. Hüsn, yaxşılıq və gözəllik, qubh isə pislik və çirkinlik mənalarını daşıyır. Əqli hüsni və qubhin qeyri-əqli hüsni və qübhin müqabilində necə dura bilər?

Bəzən gözəllik və çirkinliyi kiminsə və ya nəyinsə xarici görünüşündə nəzərdə tuturuq. Məsələn, ceyranı gözəl, qarğa və ya bayquşu isə çirkin hesab edirik. Gözəllik və çirkinlikdən əldə olunan məlumatlar, bu günlər dünyəvi elmlərdən birinin meydana gəlməsinə səbəb olmuşdur. Gözəlliyi tanımaq, gözəllik elminin əsasını qoymaq deməkdir.

Demək, əqli gözəllik və çirkinlik, gözlə görünməyən gözəllik və çirkinliyə deyilir. Bu kimi şeyləri adətən insanın ağıl və şüuru dərk edir. Məsələn, səhrada heç yanı tanımayan bir şəxs xəstələnir. Onun kim olduğunu bilməyən başqa bir şəxs, onun səhrada itdiyini və xəstələndiyini hiss edir. Təmənnasız olaraq dərhal onu xəstəxanaya çatdırıb, müalicə olunması üçün lazımi işlər görür və onun ehtiyac duyduğu dava-dərmanları tədarük görür. Müalicə olduğu müddət ərzində vaxtaşırı onu görməyə gəlir və nəhayət, xəstəxanadan çıxdıqdan sonra pulu olmadığını hiss edib lazımi qədər pul verib elinə-obasına yola salır. Onlar ayrı-ayrı ölkələrdə olub, bəlkə də ömürlərinin

---

[51] «Nəhl» surəsi, ayə 90

sonunadək bir-birini bir daha görməyəcəklər. Sizdən bu işin yaxşı olub-olmadığını soruşsam, hamınız bir nəfər kimi bunun olduqca gözəl iş olduğunu deyib, müsbət cavab verəcəksiniz. Lakin bu, işin gözəlliyini biz gözlərimizlə görə bilərikmi? Xeyr. Göz səsi dərk edə bilmədiyi kimi, belə bir xeyirxah işi də görə bilməyə qadir deyildir. Lakin o bunu ağıl və şüuru ilə dərk etdiyi üçün belə bir işi müsbət qiymətləndirir.

Bunun tam əksini götürək. Bəzən də elə olur ki, birisi ona yaxşılıq edən şəxsi küçədə gördükdə, imkanı çatdıqda belə, qarşılıqlı olaraq yaxşılıq etmək istəməyib, dərhal ya özünü gizlədir, ya da özünü görməməzliyə vurur. Biz bu işi pis qiymətləndirir və həmin şəxsə mənfi münasibət bəsləyirik. Bəs biz belə bir mənfi xüsusiyyəti gözümüzlə görə bilərikmi? Xeyr. Allah insana əql və vicdan vermiş, o da bunun vasitəsilə bu işin pis olduğunu dərk edir. Bütün bunlara da əql, gözəllik və çirkinlik (hüsn və qübhi əqli) deyilir.

Adətən, əxlaqi işlər ağılın bəyənib, müsbət qiymətləndirdiyi, qeyri-əxlaqi işlər isə ağılın bəyənməyib mənfi hesab etdiyi işlərə deyilir. Əxlaq kitablarında bir çox hallarda tərifə layiq və gözəl əxlaqın müqabilində «bəyənilməyən» və «qeyri-əxlaqi rəftar və davranışlar» kimi ibarətlərlə qarşılaşırıq. Ağıl gözəl əxlaqı bəyənərək, yüksək qiymətləndirir. Qeyri-əxlaqi rəftar və davranışları isə, qətiyyətlə rədd edir. Əxlaqın əsasını da müsbət və mənfi davranışlar, həmçinin gözəllik və çirkinlik təşkil edir.

Bəzən də belə hesab edirlər ki, müsbət və mənfi xüsusiyyət və davranışlar, habelə gözəllik və çirkinliyi ağıl müxtəlif zaman və məkanlarda eyni qaydada qiymətləndirmir. Yəni insan bir vaxtlar qiymətləndirdiyi hər hansı bir şeyi zaman və məkan dəyişməklə qiymətləndirməyə başlayır. Demək, əxlaqın əsasını təşkil edən əqli gözəllik və çirkinlik, qeyri-sabit və dəyişgəndir. Məsələn, Hindistanda (heyvanlara pərəstiş olunan ərazilərdə) ev heyvanlarını, xüsusilə inəyi kəsmək yasaq və böyük günah hesab olunur. Lakin digər ölkələrdə məsələn, Pakistan, Əfqanıstan, Türkiyə, İraq, İran, Azərbaycan və s.-də ev heyvanları, o cümlədən inək şəri qanunlarla kəsilir və qida məhsulu kimi istifadə olunur. Bir sözlə, bir millət inəyin və digər ev heyvanlarının kəsilməsinə yol verməyir, başqa bir millət isə, bu işə adi hal kimi yanaşır.

Başqa bir misal: Bildiyimiz kimi hər bir millətin özünəməxsus zövq və səliqəsi vardır. Əvvəldən örpəyə adət etmiş qadın, özünün və başqa qadınların örpəksiz gəzməsinə pis baxır. Örpək taxmayan, ümumiyyətlə açıq-saçıq paltarlar geyinən başqa bir millət isə nəinki örpəyi, hətta bədəninin tam örtülməsinə belə pis baxır. Çox arvadlıq müsəlman ölkələrində adi hal hesab olunsa da, digər qeyri-müsəlman ölkələrdə buna çox pis qiymət verilir.

Demək, əqli gözəllik və çirkinlik nisbi və qeyri-sabit məsələlərdəndir. Hər iki məsələ, yəni əxlaqın əsasını əqli gözəllik və çirkinliyin təşkil etməsi və gözəllik və çirkinliyin nisbi olması tamamilə səhv və əsassızdır.

Görək, gözəllik və çirkinlik əxlaqın əsasını necə qoya bilər. Buna cavab tapdıqdan sonra bunun nisbi olub-olmamasına dair söhbət açmalıyıq.

Əxlaqın əqli gözəllik və çirkinlik əsasında qoyulması, heç də İslami tərzi-təfəkkür deyildir. Müsəlman alimlərinin dediklərində bu sözə çox rast gəldikdə belə, bunun İslam dini ilə heç bir əlaqəsi yoxdur. Belə bir tərzi-təfəkkür İslam aləminə yunanlardan keçmişdir və bunun əsasını yunan filosofu Sokrat qoymuşdur. Sokrat belə bir fikirdə olmuşdur ki, əxlaqın əsasını əqli gözəllik və çirkinlik qoyur. Sokratın özünəməxsus əxlaq məktəbi olmuşdur və deyilənlərə görə, onun əxlaq məktəbi əqli məktəb olmuşdur. Bunun da səbəbi, Sokratın gözəl əxlaqı ağılın yüksək qiymətləndirdiyi, pis əxlaqı isə ağılın qiymətləndirmədiyi və mənfi münasibət bəslədiyi işlərdən ibarət olduğunu hesab etməsi olmuşdur. Demək, Sokrat özünün əxlaq məktəbini ağıl və şüur əsasında qoymuşdur. Onun kitablarını tərcümə edən şəxslər də təbii olaraq fikirlərini də qəbul etmiş və bu haqda mübahisələr aparan İslam alimləri də sözsüz ki, gözəllik və çirkinliyin sabit olmadığını dərk etmişlər. Bəs cavab vermək üçün nəyə görə biz gözəllik və çirkinliyi əxlaqın əsasını təşkil etdiyini hesab etməliyik?! Xeyr, bu heç də belə deyildir.

Tibbin vəzifəsi bədən üzvlərinin normal nəzminə nəzarət etmək olduğu kimi, əxlaqın da üzərinə düşən ən başlıca vəzifə, insanın daxili xüsusiyyətlərinə nəzarət edərək, onları bütün mənfi ünsürlərdən uzaqlaşdırıb, saflaşdırmaqdan ibarətdir. Tibb və əxlaqın əqli gözəllik və çirkinlik əsasında qoyulmadığını necə başa düşək?

Əvvəlki fəsillərdə qeyd etdik ki, insan ruhi baxımdan müxtəlif güc və xüsusiyyətlərə malikdir. Bu xüsusiyyətlərin hər biri də insanın üzərinə müəyyən vəzifələr qoyur. Yəni insan onların hər birindən nə qədər və necə istifadə edəcəyini bilməli və onlardan nə çox istifadə etməlidir, nə də az. Əgər insan öz ruhi xüsusiyyətlərinə fikir verməzsə, yəni onlardan bəzilərinə diqqət yetirib, bəzilərinə də diqqət yetirməzsə, ruhi iztirab və sarsıntılarla qarşılaşmış olur. Buna da ruhi xəstəlik deyilir. Məsələn, insan daim yemək-içmək barədə düşünərsə, özünütərbiyə və digər vacib şeyləri unudub, nəfsini böyük təhlükə ilə qarşı-qarşıya qoymuş olar. Lazım olduğunda, az yeyib qidalanmasına diqqət yetirmədikdə, başqa bir çətinliklərlə üzləşməli olur. Demək, əxlaqın əsasını sağlam psixologiya (ruh) təşkil edir.

Sağlam ruhun sağlam bədən kimi gözəllik və çirkinliklə heç bir bağlılığı yoxdur. Bədən idmana və enerjiyə ehtiyac duyduğu kimi, insanın ruhu da özünəməxsus idman və enerjiyə ehtiyac duyur. Yəni insan hətta gördüyü hər hansı bir işlə belə öz tərzi-təfəkkürünü tərbiyə etməyə qadirdir. Emil Durkem özünün roman üslubunda yazdığı kitabında bu məsələyə xüsusi diqqət yetirmişdir. Əsərdə haqqında söhbət açılan uşaq, özünəməxsus üsulla böyüdülüb tərbiyə olunur. Məsələn, ona elə bir işlər təklif olunur ki, bu onun ruhiyyəsini möhkəmləndirib, daha da iradəli olmasına köməklik edir. İnsan bəzən fikirləşdiyi şeyə diqqət yetirir, bəzən də yox. Ola bilsin, hər gün məscidə gəlib-gedək, lakin bizdən məscidin daxili və xarici görünüşü haqda məsələn, məscidin hündürlüyü, eni, divarlardakı yazılar barədə soruşulduqda, cavab verə bilməyək. Lakin bunu hər hansı bir rəssam və ya

arxiterdordan soruşsaq, bizə bütün bunlar haqda ətraflı məlumat verəcəkdir. Çünki onun gözləri bu kimi şeylərə alışmış və onlara diqqətlə yanaşmağa adət etmişdir. Səsləri isə yalnız böyük musiqiçilər məharətlə bir-birindən ayırd edə bilir. Həkim xəstənin nəbzini tutmaqla, onun xəstəliyini müəyyən edə bilir. Güclü hissiyatlı korların (xüsusilə anadangəlmə korlarlın) hərəkətlərində də müşahidə edə bilərik. {nəyi}

Bir sözlə, bədənin bütün üzvlərinin eyni qaydada inkişaf etməsi lazımdır. Ruhu yüksək insani xüsusiyyətləri - iradə, ağıl, tərzi-təfəkkür eyni qaydada gücləndirib, inkişaf etdirmək lazımdır. Bütün bunlara da əxlaq deyilir. Əxlaqın əsasını, insanın möhkəm iradəsi, şəhvət və nəfsani istəklərinə qalib gələ bilməsi təşkil edir. İnsan o qədər güclü iradəyə malik olmalıdır ki, hər hansı bir iş görməli olduğunu bildikdə, onu yerinə yetirmək üçün qəti qərara gəlməli və onu bu işdən heç nə çəkindirməməlidir. Məsələn, insan namazın vacib olduğunu dərk edib, Allahdan bağışlanmasını və ona kömək etməsini istəyir. O, dan yeri sökülməzdən əvvəl şirin yuxudan durub namaz qılır. Təbiəti ona «yat, istirahət et» desə də, namaz qılmağı hər şeydən üstün tutur. Süfrə arxasına oturduqda, nəfsimiz bizi mümkün qədər çox yeməyə sövq edir. Lakin ağıl və şüurumuz bizə lazımı qədər yeməyi və nəfsimizə güc gəlməyi tövsiyə edir. Əgər güclü iradəyə malik olarıqsa cismani, əxlaqi və iqtisadi zərəri olan siqaretin orqanizmə nə qədər mənfi təsir göstərəcəyini dərk edib onu tərk etməyə nail olarıq. İradə zəif olduqda isə, insanın vərdiş etdiyi bir çox xoşagəlməz adətləri onu özünə tabe edir. Əxlaqı, iradənin nəfsi istəklərə, hava və həvəsə qalib gəlməsi kimi də tərif etmək olar. İradə kimi xoşagəlməz adətlərə deyil, yaxşı adətlərə də hakim olmalıdır. Çünki insanın hər hansı bir yaxşı işə adət etməsi, heç də yaxşı şey deyildir. Məsələn, bilirik ki, namaz qılmalıyıq, lakin namaz qılmaq bizim üçün adət halına düşməməlidir. Bəs necə bilməliyik ki, namaz qılmaq bizim üçün adət halına düşmüşdür, ya yox?

İlahi hökmləri namaz kimi yerinə yetirdiyimizə diqqət yetirməliyikmi? Əgər belə olarsa bilməliyik ki, gördüyümüz işlər yalnız Allaha xatir olmuşdur. Sələmə (faizə) pul verib nafilə namazlarını qılır və əmanətə xəyanət edib eyni zamanda daim Aşura ziyarətlərində iştirak ediriksə bilməliyik ki, ibadətlərimiz Allaha xatir deyil, sadəcə olaraq adət üzündəndir. İmam Əli (ə)-dan nəql olunmuş rəvayətlərdən birində deyilir: «Namaz qılanın rüku və səcdələrini uzatmasına baxmayın». {mənbə yoxdur}

Çünki bəzən onlar bunu adət üzündən edirlər, tərk etdikdə isə, özlərində narahatlıq hissi keçirirlər. Onların kimliyini bilmək istəsəniz, əmanətə sədaqətli olub-olmamalarını yoxlayın. Çünki sədaqət, düzlük namaz kimi adət olunası şey deyildir.

Demək, insanın əxlaq və iradəsi o qədər güclü olmalıdır ki, adət və nəfsani istəklərinə qalib gələ bilsin. Fiqh alimləri bu fikirdədirlər ki, (bunu əxlaq alimləri də təstiq etmişlər) insan bəzi müstəhəbb işləri adət halına almasın

deyə, bir müddət onu tərk edib yenidən yerinə yetirməyə başlasa, daha yaxşı olar.

Bir sözlə əxlaqı, bütün güc və xüsusiyyətləri insanın üzərində haqqı olduğu və insan ağıl və iradəsini bütün istəklərinə nəzarət edə biləcək qədər gücləndirə bilməsi kimi mənalandırsaq, artıq müxtəlif zaman və məkanlarda əxlaqın müxtəlif və bir-birindən fərqli olduğunu hesab edə bilmərik. Əxlaqı nisbi hesab edənlər Sokrat kimi fikirləşmişlər, lakin bu heç də belə deyildir. Əxlaqın əsasını əxlaqi gözəllik və ya çirkinlik təşkil etmir. Gözəllik və çirkinliyin də qeyri-sabit və dəyişgən olması həm düzdür, həm də yox. Əllamə Təbatəbai bu barədə geniş təhqiqat işi aparmışdır. Onun fikrincə, əqli gözəllik və çirkinliyin əsası sabit, onun şaxələri isə, dəyişgən və qeyri-sabitdir.

## İYİRMİ ÜÇÜNCÜ FƏSİL

### *NƏSX VƏ SONUNCU PEYĞƏMBƏRLİK*

«**Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin O, Allahın rəsulu (elçisi) və peyğəmbərlərin sonuncusudur**»[52].

Zamanın tələbləri barədə söhbət açdıqda diqqəti cəlb edən məsələlərdən biri də, nəsx və sonuncu peyğəmbərlik məsələsidir. Sual doğuran məsələlərdən biri də, İlahi hökmlərin hansı səbəblər üzündən nəsx olması olmuşdur. Nəsx, hər hansı hökmün yeni (və daha mükəmməl) hökmün verilməsi ilə qüvvədən düşməsinə deyilir. Ümumbəşər qanunlarda da bu kimi hallara tez-tez rast gəlmək olur. Yəni bəşərin hər hansı bir qanunu tərtib edib müəyyən müddət keçdikdən sonra səhvini başa düşüb orada lazımı dəyişikliklər aparması, tam adi bir haldır. İlahi qanunlarda necə?

Allahın peyğəmbərlərindən birinə şəriət nazil edib müəyyən müddət keçdikdən sonra səhvə yol verdiyi üzündən başqa bir peyğəmbərə yeni şəriət (qanun) nazil etməsi, Onun şənindən uzaq və qeyri-mümkündür. Bu səbəbdən də, nəsxin həyata keçirilməsi qanunvericinin nöqsan və çatışmamazlığından xəbər verir. Demək, nəsxə heç də hər zaman bu səbəb olmur. Lakin eyni zamanda ilahi hökmlərin dəfələrlə nəsx olunduğunun şahidi oluruq. Belə ki, Adəm (ə) zamanından Nuh (ə)-adək vahid ilahi qanun (şəriət) qüvvədə olmuş, Nuh (ə)-dan etibarən yeni qanun qüvvəyə minmişdir. Sonralar İbrahim (ə) öz yeni şəriəti ilə Nuh (ə)-ın şəriətini, Musa (ə) İbrahim (ə)-ın şəriətini, İsa (ə) peyğəmbər Musa (ə)-ın şəriətini (əlbəttə İsa peyğəmbərin özünəməxsus şəriəti olmamışdır, lakin ümumilikdə özündən əvvəlkini nəsx etmişdir) qüvvədən salmışdır.

Müqəddəs İslam dini isə yeni və ən mükəmməl qanunları ilə özündən əvvəlki bütün şəriətləri qüvvədən salaraq nəsx etmişdir. Demək, ilahi qanunlardan fərqli olaraq bəşəriyyətin tərtib etdiyi qanunlarda apardıqları dəyişikliklər, onların nöqsan və çatışmamazlıqlarından irəli gəlir. Bəs qanunlar nə üçün nəsx olunur? Buna səbəb olan ən başlıca amil, zamanın tələbləridir. Əvvəlki peyğəmbərlərin gətirdikləri şəriət, əvvəlcədən məhdud və müəyyən dövr üçün nəzərdə tutulmuşdur. Yəni Allah-təala bu şəriəti həmişəlik olaraq göndərməmişdir ki, peşiman da olsun. Onu müəyyən dövr üçün göndərmiş və zamanın tələblərini ödəsin deyə, sonrakı peyğəmbərlərlə yeni və daha mükəmməl şəriətlər göndərmişdir. Bəs nə üçün qanunlar əvvəlcədən həmişəlik olaraq göndərilməmişdir?

Sualın cavabında deməliyik ki, hər bir dövrün özünəməxsus ehtiyac və tələbləri olmuşdur. İstər Nuh (ə), istərsə də İbrahim (ə)-ın gətirdikləri şəriət,

---

[52] «Əhzab» surəsi, ayə 40

yaşadıqları dövrün ehtiyaclarını ödəmiş və yalnız həmin dövr üçün münasib olmuşdur və zaman dəyişdikcə, yeni-yeni qanunlara ehtiyac duyulmuşdur.

Burada nəzərə çarpan bir sual və bir irad meydana gəlir. O da bundan ibarətdir ki, əgər zamanın dəyişilməsi şəriətlərin nəsx olunub başqa birisi ilə əvəz olmasına səbəb olursa, onda bütün şəriətlər müvəqqəti olmalı və hər bir yeni peyğəmbər özündən əvvəlki peyğəmbərin şəriətini nəsx etməli idi və heç bir şəriət əbədi olmayacaqdır. Başqa sözlə desək, ilahi qanunların nəsx olunmasının səbəbi, əvvəlki qanunun naqis olmasından irəli gəlmir, sadəcə olaraq zaman dəyişilir. Demək, peyğəmbərliyə təyin olunan hər bir peyğəmbərin gətirdiyi şəriət, hökmən müəyyən dövrə şamil olmalı və həmin dövr arxada qaldıqda, yeni peyğəmbər öz yeni şəriəti ilə gəlməlidir. Sonuncu peyğəmbərlik məsələsini sual altına aparmaq üçün əksər hallarda belə bir sualı Bəhailər meydana atır. Baxaq görək necə olur ki, şəriət müəyyən mərhələyə çatmaqla, başqa bir yeni şəriət ilə əvəz olunur.

İslamın sonuncu ilahi din olduğu və həzrət Məhəmməd (s)-ın Allah tərəfindən bəşəriyyət üçün sonuncu peyğəmbər olaraq göndərildiyi, İslam dininin əsas hissəsini təşkil edir. Sonuncu peyğəmbərliyi inkar edən hər bir şəxs, sanki İslam dinini də inkar etmişdir. Peyğəmbər (s)-a iman gətirmək, dinin ilk şərti, vacib məsələlərindən biri olmuşdur və yalnız həzrət Məhəmməd (s)-ın peyğəmbər olduğuna görə yox, həm də ona görə ki, o peyğəmbərlərin sonuncusu olmuşdur. İslamın zühur etdiyi ilk gündən hər bir müsəlman Peyğəmbər (s)-a məhz buna görə iman gətirmişdir. Həzrət Məhəmməd (s)-ın özü bu barədə buyurmuşdur: «Məndən sonra peyğəmbər gəlməyəcəkdir».

Təbuk döyüşünə gedərkən, Peyğəmbər (s) müsəlmanların hamısından cəsur və şücaətli olan Əli (ə)-ı özü ilə bu döyüşə aparmır. Əli (ə), Peyğəmbər (s)-dan onu döyüşə nə üçün aparmayacağını soruşduqda, buyurdu: «Harun Musaya yaxın olduğu kimi, sən də bir o qədər mənə yaxınsan, fərq yalnız burasındadır ki, məndən sonra peyğəmbər olmayacaqdır».

Təbuk döyüşü manevr xarakteri daşıdığı üçün Peyğəmbər (s) Əli (ə)-ı özü ilə bu döyüşə aparmır və Peyğəmbər (s)-ın belə bir tarixi cümləni deməsinə də, məhz bu səbəb olmuşdur. Hal-hazırda məzhəbindən asılı olmayan hər bir müsəlman bu hədisə istinad edir. Mərhum Mirhamid Hüseyn «Əbəqat» adlı çoxcildli kitabının cildlərinin birində müxtəlif məzmunlu hədislərə işarə edərkən, bu hədisi də orada əhli-sünnə mənbələrindən nəql edir.

Necə olursa-olsun, sonuncu peyğəmbərlik məsələsi İslamın zəruri hesab etdiyi məsələlərdən biridir. Bunu da qeyd edək ki, yəhudilər şəriətin nəsx olunmasını qətiyyətlə rədd və bunu qeyri-mümkün hesab edirlər. Lakin onların dedikləri tamamilə əsassızdır. Çünki əgər şəriətin nəsx olunması qeyri-mümkün olsaydı, həmişəlik olaraq qalardı. Bu məsələni müxtəlif cəhətlərdən araşdırmalıyıq.

Əvvəla, yeni peyğəmbərə olan ehtiyac tək qanunvericinin (yəni Allahın) şəxsi nəzəri olmur. Peyğəmbər hər şeydən əvvəl bəşəriyyət üçün ilahi maarifi

gətirir. Yəni, ilahi sifətləri, Allahı və məadı tanımağı və insanın axirət dünyası ilə əlaqəli olan qeyb aləminin digər məsələlərini onlara bəyan etmiş olur. İlahi qanunlar (şəriət) gətirən hər bir peyğəmbər, onlar üçün bir sıra əqidəvi məsələlər də gətirmişdir. Əgər sonuncu peyğəmbərlik məsələsini də maarif və əqidəvi məsələlərdən biri hesab etsək bilməliyik ki, Allah tərəfindən göndərilmiş hər bir peyğəmbərin özünəməxsus məqamı olmuş və ilahi maarifi malik olduqları məqama uyğun tərzdə təbliğ və bəyan etmişlər. Başqa sözlə desək, hər bir peyğəmbər ilahi maarifi onun sirlərinə yol tapa biləcək qədər və ariflərin dedikləri kimi həqiqəti kəşf etdikləri səviyyədə bəyan etmişlər. Nə qədər həqiqəti dərk etmiş və qeyb aləminin sirlərindən agah olmuşlarsa, bir o qədər də bəşəriyyəti ilahi maariflə yaxından tanış etmişlər. Əgər ondan sonrakı peyğəmbərlər bir addım qabağa gedə bilmişlərsə, hökmən onu bəşəriyyətə şərh və izah etmişdir. İlahi maarifin açıqlanması həm naqis ola bilər, həm də daha da kamil. Lakin bunun elə bir mərhələsi (son nöqtəsi) vardır ki, insan o mərhələyə çatmaqla, ona lazım olan hər bir şeyi dərk etmiş olur. Yəni nə qədər lazımsa o qədər də həqiqətə çatmış olur və artıq yeni-yeni sirlərin açılması üçün yeni peyğəmbərin göndərilməsinə heç bir lüzum qalmır. Necə deyərlər, o (peyğəmbər), artıq birbaşa Allahın lövhi məhfuzuna tam qovuşmuş olur. Bəs ondan sonra gələn şəxs onun səviyyəsinədək ucala bilərmi? Əgər onun səviyyəsinə çatmazsa təbii ki, həmin şəxsin (sonuncu peyğəmbərin) dedikləri daha kamil olmalıdır. Yox əgər onun səviyyəsinə çatar və hətta ondan yüksəklərə ucalarsa, sonuncu peyğəmbərin dediklərindən artıq heç bir şey deməyə qadir olmayacaqdır. Həmin səviyyəyə çatdıqda, artıq heç bir şey deyə bilməyəcəyini görüb, onun dediklərini təkrar edəcəkdir. Məsələn, bəşərin ayda nə baş verdiklərini bilmək istəyi. Əvvəl aya kosmik raket göndərir və oradan bir neçə şəkil çəkib, bəzi məlumatlar əldə edir. Sonra fəzaya daha mücəhhəz kosmik raket göndərilir və təbii olaraq, daha ətraflı məlumatlar əldə olunur. Sonra başqa birisi... Nəhayət, bəşər elə bir səviyyəyə gəlib çatır ki, əldə etmək istədiyi hər bir şeyə nail olur və əldə edə biləcək yeni bir məlumat qalmır. Əgər kəşf olunmayan hər hansı bir şey qalarsa da, demək, bu onun istedad və bacarığından xaricdir. Əgər o fəzaya yeni-yeni kosmik raketlər buraxsa da, əldə etdiyi əvvəlki məlumatları təkrar olaraq bir daha əldə etmiş olur və artıq heç bir yeniliyə nail ola bilmir. İlahi maarif nöqteyi-nəzərindən son kamala çatmaq deməkdir. {nə?} Kamala qovuşduqda isə, artıq heç bir şey məna kəsb etmir. Təsəvvür edin ki, həzrət Məhəmməd (s)-dan sonra başqa bir peyğəmbər gəlib yalnız onun dediklərini təkrar edir. Onun dediklərini hər şeyin sonu və kamala qovuşmaq hesab etmək olarmı?!

Burada belə bir sual meydana gəlir: Peyğəmbər olan bir şəxs peyğəmbər olmayanlardan fəzilətlidirmi? Xeyr! Birisi həm peyğəmbər ola bilər, həm də şəriət sahibi, başqa birisi də nə peyğəmbər, nə şəriət sahibi, sadəcə olaraq peyğəmbərə sadiq və ona tabe adi bir şəxs ola bilər. Lakin bəzən peyğəmbərə tabe olan şəxs, peyğəmbərin özündən daha fəzilətli olur. Məsələn, Nuh (ə),

İbrahim (ə) və Musa (ə) həm peyğəmbər olmuşlar, həm də şəriət sahibləri. Lakin Əli (ə), zövcəsi həzrət Fatimə (ə) və digər məsum imamlar peyğəmbər və şəriət sahibi olmasalar da, onlardan fəzilətli olmuşlar. Yəni malik olduqları ilahi maarif Nuh (ə), İbrahim (ə)-ın malik olduqları maarifdən daha kamil olmuşdur. Lakin sonuncu peyğəmbərdən sonra gəldikləri üçün peyğəmbər olmamışlar.

İbrahim (ə)-ın dediyi hər bir şey yeni idi, yəni onun üzə çıxardığı şeyləri o günədək hələ kimsə üzə çıxarmamışdı. Demək, İbrahim (ə), peyğəmbər olmuşdur. Əli ibni Əbu Talib (ə) isə sonuncu peyğəmbərdən sonra gəlmişdir. Fərz edək ki, İbrahim (ə)-ın çatdığı yerlərə o çatmışdır. Lakin Əli (ə) sonuncu peyğəmbərdən sonra gəlmiş və onun tərbiyəsi və mənəvi kölgəsi altında olmuşdur. Onun çatdığı hər bir məqama əvvəlcədən peyğəmbər çatmış, həqiqəti dərk etmiş və onu bəşəriyyətə bəyan etmişdir. Bunun üçün də Əli (ə)-ın məqamı istər Nuh (ə), istərsə də İbrahim (ə)-dan bir neçə dəfə yüksək olmuşdur. Yüksək məqam və dərəcələri ötüb keçsə də, sonuncu peyğəmbərin tərbiyə və kölgəsi altında olduğu üçün peyğəmbər olmayacaqdır. Qeyri-mümkün olsa da fərz edək ki, Əli (ə) Peyğəmbər (s)-dan əvvəl, İsadan (ə) da ya əvvəl, ya da sonra yaşamışdır. Belə olsaydı, Əli (ə) peyğəmbər olardı. Sonuncu peyğəmbərdən sonra gəldiyi üçün isə onun peyğəmbər olması qeyri-mümkündür. Peyğəmbər (s)-ın «Harun Musaya yaxın olduğu kimi, sən də mənə bir o qədər yaxınsan, fərq yalnız burasındadır ki, məndən sonra peyğəmbər olmayacaq» buyurması da, bir daha bunu sübuta yetirir. Yəni bəşəriyyətə nə bəyan olunmalı idisə, bəyan olundu və artıq deyiləsi heç bir şey qalmadı. Bütün bunlar ilahi maarif nöqteyi-nəzərindəndir. Qanun nöqteyi-nəzərindən isə, zamanın tələbləri məsələsi maariflə deyil, qanunlarla əlaqələnir. Qeyd etdik ki, zaman dəyişməklə, şəriətlər də dəyişilib əvəz olmuşdur. Burada bu mətləbi açıqlamağı zəruri hesab edirəm. Əgər zamanın tələbləri dedikdə, bu günlər sivilizasiyanın inkişaf və ya dəyişilməsi və zaman keçdikcə, yeni dinə ehtiyac duyulduğu nəzərdə tutularsa, ictimai həyata aid olan sivilizasiya birbaşa olaraq elm və sənətlə əlaqəli olmalıdır. Nuh (ə)-ın zamanında qüvvədə olan qanunlar, İbrahim (ə)-ın zamanında qüvvədə olan qanunlardan fərqli idi. Bəşər İbrahim (ə)-ın zamanını bir qədər əvvəl ilə müqayisə etdikdə, daha kamil sivilizasiyaya gəlib çatmışdı. Musa (ə)-ın zamanında sivilizasiya daha da inkişaf etmiş, İsa (ə)-ın zamanında daha yüksək mərhələyə qədəm qoymuş, sonuncu peyğəmbər həzrət Məhəmməd (s)-ın zamanında da yenə də inkişaf edərək, daha da təkmilləşmişdir. Hicrətin IV və V əsrlərinin sivilizasiyasını həzrət Məhəmməd (s)-ın, yaşadığımız XXI əsrin sivilizasiyasını da IV və V əsrlərin sivilizasiyası ilə müqayisə etdikdə, olduqca böyük dəyişikliklərin və inkişafın şahidi oluruq. Lakin şəriətin əvəz olunmasına səbəb olan tələblər, sivilizasiyanın dəyişilməsinə dəlalət etmir. Demək, sivilizasiyanın inkişafı nəzərdə tutulan mənanı daşımır.

Fitrətin verdiyi hökm və din rəhbərlərinin (məsum imamların) buyurduqlarına əsasən, ağıl adlanan batini və Allahın bəşərə göndərdiyi zahiri peyğəmbərləri olmuşlar. {Diqqət et}

İnsan, ona yol göstərəcək və doğru yola hidayət edəcək bir şəxsə daim ehtiyac duyan bir varlıqdır. İnsanı haqqa hidayət edən ağıl və düşüncə, onun özü üçün bir peyğəmbərdir. Yəni bu elə bir vasitədir ki, ilahi lütf bunu insan üçün zəruri olaraq tələb etmişdir. Lakin insanın tapmalı olduğu yolu qət etməsi üçün hər hansı bir vasitə lazımdır. Nəfsani istəklər və daxili xüsusiyyətlər adətən ayrı-ayrılıqda insan vücuduna hakim olur və insan bir çox yolları məhz həmin daxili xüsusiyyətlər və təbiəti ilə qət etməli olur. İnsan vücudunda mövcud olan belə bir qüvvənin həqiqi mahiyyəti hələ də açılmamışdır. Məsələn, insanın boğazında ikisi xaricdən, ikisi daxildən olan dörd yol vardır. Onlar hülqumda dörd yerə ayrılırlar. Biri burun, biri ağız, biri böyrək, biri də mədədən gəlir. Lakin insanın belə bir bölgüdən heç bir xəbəri yoxdur. Adi hallarda bu dörd yoldan yalnız ikisi açıq olur. Bu iki yolda insanın rahat nəfəs almasını təmin edən burun və böyrək yollarıdır. Heç diqqət yetirmisinizmi ki, ağzınıza qoyduğunuz tikəni çeynədikdən sonra ixtiyarsız olaraq udursunuz? Tikəni udan zaman bu dörd yoldan üçü öz-özünə bağlanır və tikənin mədəyə daxil olması üçün yalnız biri açıq qalır. Əgər burun yolu açıq qalarsa, yemək oraya daxil olub tənəffüsün çətinləşməsinə səbəb olar bilər. Böyrəyə gedən yolun açıq qalması isə, insan üçün daha təhlükəlidir. Açıq qalan yalnız mədənin yolu olmalıdır. Bu daxili orqan öz işini bilir və lazım gəldikdə, işə düşərək, öz vəzifəsini yerinə yetirir. Bunun özü bir növ daxili hidayətdir. Yemək bir yolla mədəyə çatmalıdır. Lakin nə etmək lazım olduğunu ağıza qoyulan tikə deyil, həzm orqanı bilir.

Ağıl, insan vücudunda başqa bir hidayətçi funksiyanı yerinə yetirir. Belə ki, insan bir çox məsələləri ağıl və şüurunun vasitəsilə həll edə bilir. O, özünə xeyiri olan şeyləri məhz ağıl və şüur ilə dərk edir. Məsələn, iki şeylə qarşılaşdıqda, o birini seçməli olur, bu işdə də ona köməklik edən təbii ki, ağıl və şüurdur. Zehni çatızmamazlıq (dəlilik) xəstəliyinə tutulmuş şəxslərin hissiyyat və sair xüsusiyyətləri adi insanla bərabər səviyyədə olsa da, ağıl və şüuru qeyri-fəal olur. Yəni bu şəxslər, ağılın onları hidayət etməsindən lazımı qaydada bəhrələnmirlər. Hidayət hissiyyat və təbii xislətlərinin əhatə dairəsi bir-birilərindən fərqli olur.

Lakin başqa bir dördüncü hidayətçi də vardır; o da vəhyidir, lakin heç də hamıda mövcud olmur. Naqis vəhy qüvvəsi, cüzi ilhamlar hamının vücudunda olsa da, kamil vəhy qüvvəsinə heç də hamı malik olmur. Allah-təala Özünün layiq bəndələrini (bəşəriyyətin ehtiyac duyduğu haqq yola hidayət etmək üçün) peyğəmbərliyə təyin etmiş və onlara vəhy etmişdir.

İnsanın ehtiyac duyduğu həqiqətlərə nə ağlı, nə hissiyatı, nə də təbiəti hidayət edir. Məhz belə bir şəraitdə, vəhy insanın köməyinə gəlir və onu haqqa hidayət edir. Demək, insanın peyğəmbərlərə ehtiyac duymasının sirri, onun bir sıra çətinliklərinin din və vəhy yolu ilə aradan qaldırılmasından irəli

gəlir. Vəhy məsələsi zaman (sivilizasiya dərəcəsindən) baxımından deyil, vəhy olunan şəxslərin məqam və dərəcələri baxımından fərqli olmuşdur. Heç də belə olmamışdır ki, qanun və sivilizasiya əvəz olmaqla, peyğəmbər də başqa bir peyğəmbər ilə əvəz olsun. Yəni əgər sivilizasiya inkişaf etmişsə, demək yeni qanunlar tərtib olmunmalıdırmı? Xeyr. Vəhyin əvəz olunması (yəni yeni peyğəmbərin göndərilməsi) bəşəriyyətin tərzi-təfəkkürünün dəyişilməsindən asılıdır.

Cəmiyyətin inkişaf və keçdiyi mərhələlər fərdin inkişaf və keçdiyi mərhələlərə bənzəyir. İnsan uşaqlıq, yeniyetmə, cavanlıq və qocalıq mərhələlərini ötüb keçdiyi kimi, cəmiyyət də bütün bu mərhələləri arxada qoyub, özünün ən yüksək səviyyəsinə gəlib çatır. O, ilkin mərhələdə uşaq kimi zəif, istedad və qavrama qabiliyyəti də aşağı səviyyədə olur. İnkişaf etdikcə, istedad və qavrama qabiliyyəti də artır və güclənir. Uşaq olduğu dövrlərdə biz onlara bəzi göstərişlər verir, lakin buna qüdrəti çatmadığını bildiyimiz üçün onun üzərinə düşən vəzifələrdən bəzilərini ya özümüz görür, ya da güzəştə gedərək, yerinə yetirməməyə icazə veririk. Yetkinlik çağına gəlib çatdıqda isə, bütün lazımı şeyləri ona öyrədir və o da ömrünün sonunadək əldə etdiyi təcrübələrdən istifadə edərək, üzərinə düşən hər bir vəzifəsini yerinə yetirir.

Bəşərin ehtiyac duyduğu ümumi qanunlar ona vəhy yolu ilə bildirilir və bütün bunlardan məhdud olur. Elə ilk vaxtdan bəşəriyyətə bütün qanunların təlim olunmamasının əsas səbəbi də, onların ilkin uşaqlıq mərhələsində olması olmuşdur. Ümumi qanunlar bütün əsrlərdə bir cür olmuşdur, lakin bəşərin bütün qanunlarının ona təlim olunmasına istedad və bacarıq olmamışdır. Əgər verilsəydi belə, ondan lazımi qaydada istifadə edə bilməzdi. Qanunlar verildikdən sonra da gərək onlara yol göstərəcək və həmin qanunları həyata keçirmək üçün rəhbər göndəriləydi. Bəşər özünün yetginlik çağına çatdıqda, əqli təkamül səviyyəsinə gəlib çatır. Elə bir səviyyəyə ki, qanunları qəbul edib həyata keçirməyə həm qüdrəti çatır, həm də bacarığı olur. Yalnız belə bir səviyyəyə çatdıqdan sonra ona bəşəriyyəti haqqa hidayət etmək üçün lazım olan vəhyin bundan ibarətdir olduğu deyilir. Ağıl və şüurun elə bir səviyyəyə gəlib çatmışdır ki, vəhy yolu ilə ehtiyac duyduğun şeylər sənə deyilir, sən də onları qoruyub, gündəlik həyatında həyata keçirməlisən. Xatəmiyyətin (hər hansı bir işin sona çatması) heç də sivilizasiya dövrlərindən birinin belə bir adla adlandırılmasından ibarət deyildir! Sivilizasiya dövrləri də xatəmiyyət üçün malik deyildir. Xatəmiyyət dövrü dedikdə elə bir dövr nəzərdə tutulur ki, bəşərə qanun və qaydalar təlim olunduqda, onu qoruyub-saxlayıb və daha sonra ağıl və şüurunun vasitəsilə həmin qanunlardan daim istifadə edə bilib. Az yaşlı uşaq oxuduğu kitabın qədrini bilmədiyi kimi, səmavi kitablar nazil olmuş əvvəlki qövmlər də həmin kitabların qədrini bilməmiş, onları ya cırıb dağıtmış, ya da itirib xatirələrdən silmişlər. İbrahim (ə)-a nazil olmuş səhifələr, İsa (ə)-a nazil olmuş İncil, Musa (ə)-a nazil olmuş Tövrat haradadır? Əgər Zərdüşt

həqiqətən Allah peyğəmbəri olmuşsa, hanı onun Avestası? Bütün bunlar bəşəriyyətin yetginlik mərhələsinə çatmamasından xəbər verir. Yəni əgər həmin dövrlərdə Quran da nazil olmuş olsaydı, hal-hazırda ondan da heç bir əsər-əlamət qalmazdı. Baxıb görürük ki, bəşər elə bir mərhələyə gəlib çatmışdır ki, artıq ona nazil olan kitabı qoruyub-saxlayır və uşaq kimi cırıb məhv etmir. Quranın qorunub-saxlanılması bəşərin yetginlik səviyyəsinə çatmasına dəlalət edir. Ağıl naqis olduğu halda, vəhyin (peyğəmbərin) üzərinə düşən ən başlıca vəzifə, ona köməklik edib, çətinlikləri aradan qaldırmaqdır. Xatəmiyyət o dövrə deyilir ki, bəşər vəhy yolu ilə ona təlqin olan şeyləri qəbul etməyi və ictihadla qarşılaşdığı məsələləri ümumi qanunlarla tətbiqi bilsin. Deməк, «necə olur ki, Nuh (ə)-dan sonra İbrahim (a) yeni şəriətlə, ondan sonra Musa (ə), ondan sonra İsa (ə) və ondan sonra sonuncu peyğəmbər həzrət Məhəmməd (s) yeni şəriətlə gəldi?» – deyilsin deyə, xatəmiyyətin sivilizasiya mərhələsi ilə heç də əlaqəli deyildir. Sonuncu peyğəmbərdən sonra zaman dayanmışdırmı ki, yeni şəriət gəlmədi. Xeyr, zaman dayanmır. Sonuncu peyğəmbərin zamanından bu günədək baş verən dəyişikliklər isə, Nuh peyğəmbərin sonuncu peyğəmbərin zamanınadək baş verən dəyişikliklərdən bir neçə dəfə çox olmuşdur. Bunun sivilizasiya mərhələsi ilə bir bağlılığı yoxdur. Bəs peyğəmbərlər nə üçün göndərilmişdir? Ümumiyyətlə, bəşəriyyətin peyğəmbərə olan ehtiyacı nədən ibarətdir?

Peyğəmbər, insana «ictihad və istidlal etmə! Hər nə lazımsa, mən sənin yerinə görəcəyəm» demək və onun bütün vücudunu öz ixtiyarına alaraq, fəaliyyətdən saxlamaq üçün göndərilməmişdir. Bu, aləmin nizamı və ümumi qanunları ilə tam ziddir. Peyğəmbərlərin şuarı bu olmuşdur: «Ey bəşər! Üzərinə nə düşmüsə, nəyə qadirsənsə, onu özün gör. Haqqında düşünüb-daşına bildiyiniz şeyləri özünüz həll edin. Öhdəsindən gələ bilmədiyiniz şeyləri isə bizim üzərimizə qoyun». Sanki yeriməyi təzə öyrənən körpə qarşınızda gedir, siz də onu qoruyur və yıxılmağa qoymursunuz. Nə qədər bacarırsa, ona yol getməyə imkan verirsiniz, yıxılmaq istədikdə isə, onu qucaqlayıb yeriməyə köməklik edirsiniz. Vəhy də belədir, lakin bəşərin vəhyə ehtiyac duyduğu şeylər, dünyanın əvvəlindən sonunadək məhdud olmuşdur. Adəm (ə)-ın zamanından həzrət Məhəmməd (s)-ın peyğəmbərlik dövrünədək bəşəriyyətin vəhyə olan ehtiyacı məhdud olmuşdur. Lakin məhdud olsa da, onu qəbul etməyə qadir olmamışdır. Bu səbəbdən zaman keçdikcə, Allah tərəfindən daim peyğəmbərlər göndərilmişdir. Sonradan gələnlər də dinin qorunmasına müvəzzəf olmuşlar. Əgər diqqət yetirmişsinizsə bilməlisiniz ki, həkimlər xəstələr ilə iki cür rəftar edirlər. Onlar sadə və adi xəstələrə nüsxə yazır və onlar özləri öz qayğılarına qalırlar. Ziyalı xəstələri müalicə etmək isə, onlar üçün çox asandır. Onlarla iki kəlmə danışmaqla, öz fikirlərini onlara çatdırır və bununla da, hər iki tərəf kifayətlənir.

Buradan belə məlum olur ki, xatəmiyyət məsələsi artıq həll olunmuşdur və zaman dəyişməklə dinlər nəsx olunmalı, xatəmiyyət də olmamalı və əgər

nəsx olunmamalıdırsa, yeni şəriətin özündən əvvəlki şəriəti nəsx etməməsi, tamamilə səhv və əsassızdır.

# İYİRMİ DÖRDÜNCÜ FƏSİL

## *XATƏMİYYƏT (PEYĞƏMBƏRLƏRİN SONUNCUSU)*

«**Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. Lakin O, Allahın rəsulu (elçisi) və peyğəmbərlərin sonuncusudur**»[53].

Artıq bizə məlum oldu ki, bir şəriətin başqa bir şəriət ilə əvəz olunması, yalnız və yalnız zamanla əlaqəlidir. Bütün alimlər belə bir fikirdədirlər ki, hər hansı bir şəriətin müəyyən dövrdə qüvvədə olub və bir müddətdən sonra yeni şəriət gəlməsi ilə əvəz olmasına, yalnız zamanın tələb və ehtiyacları səbəb olmuşdur. Buradan belə bir sual meydana gəlir: elə isə heç bir şəriət sonuncu olmamalı və zaman dəyişdikcə, şəriətlər bir-birini əvəz etməlidir?

Əvvəlki fəslimizdə bu suala cavab verərkən qeyd etdik ki, belə bir məntiqə əsaslanan şəxslər, iki şeyi bir-biri ilə qarışdırmışlar. Onlar belə güman edirlər ki, zamanın tələbləri dəyişilir dedikdə, yalnız bəşəriyyətin sivilizasiya səviyyəsinin əvəz olunduğu nəzərdə tutulur. Bunun üçün də, müasir dövrün ehtiyaclarını aradan qaldırmaq üçün Allah tərəfindən yeni peyğəmbər göndərilməlidir. Lakin bu heç də belə deyildir. Sivilizasiyanın dəyişilməsi ilə zamanın tələbləri heç də qanunların əvəz olunmasına səbəb olmur. Yəni şəriətin özündən əvvəlki şəriəti nəsx etməsinin əsas səbəbi də, əvvəlki şəriətin qüvvədə olduğu müddət ərzində bəşərə bəyan olunan şeyləri dərk edə bilməməsi olmuşdur. Tədriclə bəşər inkişaf edir və yeni şəriət daha kamil formada göndərilir. Nəhayət o elə bir səviyyəyə gəlib çatır ki, artıq vəhyə ehtiyac duymur. Demək, bəşərin vəhyə olan ehtiyacı məhduddur. Bu mənada ki, istər ilahi maarif, istərsə də ictimai və əxlaqi qanunlar baxımından, bir sıra maarif, mətləb və məsələlər bəşərin elm, təcrübə və şüurundan xaricdir. Yəni bəşər yiyələndiyi elm ilə onları dərk edə bilmir. Elm və şüuru naqis olduğuna görə vəhy onun köməyinə gəlir. Belə olduqda, da artıq bir çox sonsuz məsələlərin vəhy yolu ilə bəşəriyyət çatdırılmasına heç bir lüzum yoxdur. Bəşər vəhyə o zaman daha çox ehtiyac duyur ki, onu qəbul edib qoruyub-saxlamağa qadir olmuş olsun.

Bəşəriyyətin yeni şəriətə ehtiyac duymasına səbəb olan amillərdən biri də, əvvəlki şəriətin camaat tərəfindən təhrif olunub, başqa bir hala salınmasıdır.

Peyğəmbərlərin üzərinə düşən vəzifələrdən biri də, keçmiş peyğəmbərlərin gətirdikləri şəriətləri qoruyub-saxlamaq və onları bəşəriyyətə çatdırmaqdan ibarətdir. Yəni hər bir peyğəmbərin insanlara verdiyi təlim və gətirdiyi şəriət, insanların tarix boyu təhrif etdikləri əvvəlki peyğəmbərlərin verdikləri təlim və gətirdikləri şəriətin bir hissəsini təşkil edir. Bu həqiqəti həm Qurani-kərim, həm də bəşəriyyətin əldə etdiyi təcrübə təsdiq edir. Məsələn, Quran nazil olmaqla, Tövratla İncili nəsx etmiş, lakin təlimlərinin bəzilərini qoruyub

[53] «Əhzab» surəsi, ayə 40

saxlamışdır. Yəni bu ilahi kitablar insanlar tərəfindən nəsx olunduqdan sonra Quran nazil olaraq bu həqiqəti aşkara çıxarmışdır ki, insanlar onları təhrif etmiş və hər iki kitabın orjinalı hal-hazırda aradan getmişdir. Bütün bunları nəzərə alaraq, Qurandan əvvəl nazil olmuş səmavi kitabların təhrif olunduğuna yəqinlik hasil edirik. Götürək, Quranda İbrahim (ə)-ın millətini və onun təkallahlığın təbliğ üsulunu. Qüreyş özünü İbrahim (ə)-ın nəslindən hesab edirdi, lakin bütünlüklə aradan getməkdə olan İbrahim peyğəmbərin şəriət və təlimləri idi. Onlar orada istədikləri dəyişiklikləri aparmış və onu demək olar ki, tamamilə təhrif etmişdilər. Ənfal surəsinin 35-ci ayəsində bu haqda buyurulur: «**Onların Beytül-həramdakı namazı (duaları), fit verib əl çalmaqdan başqa bir şey deyildir**».

Demək, İbrahim (ə) öz dövründə namazı vacib etmişdir. Onun vacib etdiyi namaz, həqiqətən ibadətin bir hissəsini təşkil edirdi.

İbadət – yəni Allaha şükr və səna etmək, Onun qarşısında son dərəcədə müti olmaq və Onu bütün eyb və nöqsanlardan uzaq bilmək. Xarici görünüş baxımından İbrahim (ə)-ın qıldığı namaz bizim qıldığımız gündəlik vacib və müstəhəbb namazlardan fərqli olsa da, o da qıldığı namazlarda Allaha şükr və səna etmiş, Onun qarşısında xalisanə bəndəlik etmiş və müqəddəs Zatını bütün eyb və nöqsanlardan uzaq hesab bilmişdir. İnsanlar həmin namazı o qədər təhrif etmişlər ki, Quran nazil olduğu dövrdə yalnız əl və fit çalmaqdan ibarət olmuşdur. Deməli, peyğəmbərin gördüyü işlərdən biri də, özündən əvvəlki peyğəmbərlərin gətirdikləri şəriəti təlim etmək və qoruyub-saxlamaqdan ibarət olmuşdur. Bunun üçün də Quran İbrahim (ə) haqda buyurur: «**İbrahim nə yəhudi, nə də xaçpərəst idi. O, ancaq hənif (batildən haqqa tapınan, haqqa yönəlmiş olan) müsəlman (Allaha təslim olan) idi. Allaha şərik qoşanlardan deyildi**»[54].

Yəhudilər deyirdilər ki, İbrahim də, təriqəti də bizim yəhudilik təriqəti olmuşdur. Nəsranilər də bunu təkrar edərək belə bir əqidədə olmuşlar ki, onların dini İbrahim (ə)-ın gətirdiyi dinin kamil formasıdır və onun şəriəti yeni nəsrani şəriəti ilə nəsx olaraq aradan getmişdir.

Başqa bir ayədə buyurulur: «**(Ya Peyğəmbər!) Allahın «dini qoruyub saxlayın, ona düzgün riayət edin, dində ayrılığa düşməyin!» – deyə, Nuha tövsiyə etdiyini, sənə vəhy buyurduğunu, İbrahimə, Musaya v İsaya tövsiyə etdiyini dində sizin üçün də qanuni etdi. Sənin dəvət etdiyin (tövhid dini) müşriklərə ağır gəldi. Allah istədiyi kimsəni Özünə (peyğəmbər) seçər və tövbə edib Ona tərəf qayıdan kəsi də doğru yola yönəldər**»[55].

Yəni müxtəlif təriqət və etiqadlar sonralar təhrif nəticəsində, təəssübkeş şəxslər tərəfindən meydana gəlmişdir. Əgər onların uydurduqları, dinə əlavə

[54] «Ali-imran» surəsi, ayə 67
[55] «Şura» surəsi, ayə 13

və ya ondan ixtisara saldıqları şeyləri kənara qoyarıqsa, bütün ilahi dinlərin eyni məqsəd və hədəf daşıdığının şahidi olarıq.

Buradan belə bir nəticəyə gəlirik ki, bütün peyğəmbərlər özləri və özlərindən əvvəlki dinləri yaşatmış və qoruyub-saxlamaqla məşğul olmuşlar. Deməк, Adəm (ə)-dan həzrət Məhəmməd (s)-a kimi bütün dinlərin mahiyyəti eyni, şaxələri isə bir qədər fərqli olmuşdur. Göndərilmiş hər bir yeni peyğəmbər, qüvvədə olan şəriəti əlavə və təhriflərdən qoruyub-saxlamış və insanlara haqqı batildən ayırmağa köməklik etmişdir. Buradan belə bir sual meydana gəlir: sonuncu peyğəmbərdən əvvəllər də bəzisi xurafata qapılmış və dinləri təhrif etmişlər, yoxsa sonrakı dövrlərdə yaşayan inkişaf belə bir xüsusiyyətə malik olmuşlar? Sözsüz ki, bəşərin təbiəti dəyişilməmişdir. Həzrət Məhəmməd (s)-dan əvvəl necə olmuşlarsa, ondan sonra da eləcə də qalmışlar.

Şair deyir: {şairin adı qeyd olunmayıb}

Dinini arayıb araşdırdılar,
«Bəs» deyincə, azaldıb çoxaldılar.
Görəsən, sən özün belə tanımazsan onu.

Belə olmasaydı, sayı-hesabı bilinməyən firqə və məzhəblər meydana gələ bilərdimi?

Bildiyimiz kimi bidət İslam dininə də yol tapmışdır və sonuncu imam həzrət Hüccət ibni Həsənin qeybə çəkildiyinə etiqadı olan bir müsəlman kimi «yəti bi dinin cədidin – gəldiyi zaman yeni dinlə qarşılaşacaq» cümləsindən belə bir anlam əldə edirik ki, zühur etdiyi zaman insanlar onun cəddinin (Peyğəmbərin (s)) dinində, yəni müsəlman olduqlarını deyəcək və dinə saysız-hesabsız əlavələr olunduğu üçün (İmam Zaman (ə) islahatlar apararkən) onlara belə gələcəkdir ki, bu İslam dini deyil, başqa bir dindir. Həqiqi İslam zühur etməklə, onun özü bərpa edəcəkdir.

Bir çox hədis və rəvayətlərdə nəql olunmuşdur ki, İmam Mehdi (ə) zühur edərkən, bir çox ev və məscidləri sökəcək və camaat elə güman edəcəkdir ki, o özü ilə yeni din gətirmişdir.

Vəhy yolu ilə bəşərin həqiqətə çatmaq üçün istedad baxımından deyil, islahatçıya olan ehtiyac baxımından sabiq dinin islahatçısı olan peyğəmbərin sonuncu şəriət sahibi olmasını necə başa düşə bilərik? Burada da iki mətləbə işarə etməliyik. Onlardan biri heç bir şübhə doğurmayan, hər zaman sonuncu dində belə islahat və islahatçıya olan ehtiyacından ibarətdir. Yaxşı işlərə dəvət və pis işlərdən (əmr be məruf və nəhy əz münkər) çəkindirməyin özü islahatın bir növüdür. İmamlardan nəql olmuş hədisdə deyilir: «Bütün dövr və əsrlərdə dini təhrif edən ifratçıların yalanlarını üzə çıxaran islahatçılar olur».

İslahat və islahatçılara olan ehtiyaca dair heç bir şəkk-şübhə yoxdur. Lakin fərq burasındadır ki, əvvəlki şəriətlər qüvvədə olduğu dövrlərdə insanların

təhrif və bidətlə mübarizə aparmaqa nə qüdrəti olmuşdur, nə də bacarığı. Bunun üçün Allah tərəfindən peyğəmbərlər göndərilməli və bu işi həyata keçirməli idi. Xatəmiyyət dövrünə xas olan xüsusiyyətlərdən biri də, islahat üçün islahatçı qüvvələrin mövcud olmasıdır. Bu səbəbdən də Əhli-Beyt davamçıları İmam Zaman (ə)-ı peyğəmbər kimi yox, imam kimi qəbul edir.

Peyğəmbər (s) bildikləri bütün şeyləri Əli (ə)-a təlim vermiş, o da yiyələndiyi elm və dini bilikləri öz övladlarına təlim vermiş və beləliklə, imamlar bu tükənməz xəzinəni biri digərinə miras qoymuşdur. Peyğəmbər (s)-ın bəyan etdiyi bütün şeyləri məsum imamlar bizlərə çatdırdıqları üçün vəhyə artıq heç bir ehtiyac qalmayır. Çünki onlar peyğəmbərin bəyan etdiyindən artıq heç bir şey söyləməmişlər.

Burada belə bir mətləbə işarə etmək istəyirəm: ətrafında xurafat meydana gəlmiş məsələlərdən biri də, dinin oyanış məsələsidir. Bir vaxtlar «dini təfəkkürün oyanışı» adı altında dini təşkilatların birində çıxış edirdim. Çıxışlarımın birində qeyd etdim ki, hər şeydə olduğu kimi dində də müxtəlif cərəyanlar meydana gəlir və kitabın əvvəlində qeyd etdim ki, su öz mənşəyindən çıxarkən saf, axara düşdükdən sonra isə müxtəlif səbəblər üzündən bəzən öz saflığını itirməyə başlayır. Bunun üçün də suyun aludə olmasının qarşısı alınmalı və onu əvvəlki hala qaytarmaq üçün lazımı tədbirlərə əl atmaq lazımdır. Lakin təəssüflər olsun ki, bu sahədə də müxtəlif fikirlər meydana gəlmişdir. Xoşbəxtlikdən bəşəriyyət üçün göndərilmiş sonuncu ilahi din, yəni müqəddəs İslam dini haqla-batili bir-birindən ayırd etmək üçün ixtiyarımıza məntiqi meyarlar qoymuşdur.

Dini oyanış məsələsi (əvvəl sünnü sonralar şiə məzhəbində) müsəlmanlar arasında hicrətin II və ya III əsrindən meydana gəlmişdir. Buna da səbəb? dində yaranmış bidətlər olmuşdur. Zaman keçdikcə yaşadığımız evin, istifadə etdiyimiz avtomobillərin rəngi dəyişildiyi və onlar köhnəldiyi kimi illər, əsrlər keçməklə dində də bəzi bidətlər meydana gəlmişdir. Bunun üçün də bir neçə ildən bir dini yeniləşdirmək və onu xurafat və bidətlərdən təmizləmək üçün islahatçılar meydana gəlmişlər.

Hacı Nurinin «Əhvalul-ummə» və başqa bir yazıçının «Rəuzatul-cənnat» adlı kitablarını mütaliə edərkən, bu məsələ ilə qarşılaşdım. Misal olaraq, orada deyilir: «Mirzə Şirazi XIV, mərhum Vəhid Bəhbəhai XIII, Mühəqqiq Kərəki XI, Təbəri V, mərhum Koleyni IV, İmam Rza (ə) III və imam Baqir (ə) II əsrin əvvəllərinin islahtçıları olmuşlar».

«Dini oyanış» barədə çıxış etmək istərkən bu fikrə gəldim ki, məhz bu mövzu haqda söhbət açam. Lakin hədis kitablarının birində bu mətləbə dəlalət edəcək bir hədislə də qarşılaşmadım. Əhli-sünnə mənbələrinə də müraciət etdikdə, bu məzmunda tapdığım yeganə hədisə Əbi Davudun «Sünən» adlı hədis məcmuəsində rast gəldim. Əbu Hüreyrənin (lə) Peyğəmbər (s)-dan nəql etdiyi hədisdə deyilir: «**Allah, hər yüz ildən bir bu ümmətə dinini təzələmək üçün bir islahatçı göndərir**». Əbi Davuddan başqa

bu hədisi kimsə nəql etmədiyi bir halda, şiə alimləri bunu nəyə əsasən qəbul etmişlər?

Əhli-sünnə mənbəsində nəql olunan bu hədisin, necə deyərlər bəxti gətirməmişdir. Onlar belə bir fikrə dalmış və öz kitablarında bu mövzu haqqında bir çox yerlərdə söhbət açmışlar. «Allah, hər yüz ildən bir bu ümmətə dinini təzələmək üçün bir islahatçı göndərir» - dedikdə, islahatçının dinin bütün sahələrində islahat aparması nəzərdə tutulur, ya sahəyə ayrı-ayrı islahatçıların göndərilməsi? Məsələn, din sahəsində din, tibb sahəsində də tibb alimi islahat işləri aparmışdırmı?

Hərçənd, burada da şəxsi mənafe hər şeyə üstün gəlmişdir. Belə ki, hər hansı bir alimi yaşadığı dövrün islahatçısı hesab etmək istədikdə, xəlifəni razı salmaq üçün onun üzərinə başqa bir vəzifənin düşdüyünü bildirmiş və xəlifəni dini islahatçı kimi qələmə vermişlər.

Məsələn, II əsrdə islahatçı xəlifə Ömər ibni Əbdül Əziz, III əsrin əvvəllərində isə Harun ər-Rəşid olmuşdur. VII əsrdə əhli-sünnə məzhəbi dörd yerə bölündükdən sonra belə bir sual meydana gəldi: Hər bir məzhəbin ayrı-ayrılıqda öz islahatçısı olmalıdır, ya dördü üçün bir islahatçı kifayətdir? Belə bir qənaətə gəlindi ki, gərək hər məzhəbin ayrı-ayrılıqda öz islahatçısı olsun. Beləliklə, hər yüz ildən bir Əbu Hənifə, Şafei, Hənbəli və Maliki məzhəblərinin də öz islahatçıları meydana gəldi. Sonra digər məzhəblər barədə də bu fikir irəli sürüldü. Peyğəmbər (s)-ın buyuruğu əsas götürülərək belə bir nəticəyə gəlindi ki, müstəqil bir məzhəb kimi gərək şiə məzhəbinin də özünün ayrıca islahatçısı olsun. Görək, tarix boyu şiə məzhəbinin islahatçıları kimlər olmuşlar? Aparılan araşdırmadan sonra belə bir qənaətə gəlindi ki, II əsrin əvvəllərində şiə məzhəbinin islahatçısı Məhəmməd ibni Əli Əlbaqir (ə), III əsrin Əli ibni Mussa Rza (ə) və IV əsrin əvvəllərinin islahatçısı isə, Şeyx Koleyni olmuşdur. Bu məsələni bütün məzhəblər üçün elə hey genişləndirmiş və bunu xəlifə və hakimlərə belə aid etmişlər. Belə bir tərzi-təfəkkür təbii olaraq, öz təsirini şiə məzhəbinə də göstərmişdir.

Bir çox kitablara müraciət etdikdən sonra belə bir qənaətə gəldim ki, şiə məzhəbinə belə bir tərzi-təfəkkürü Şeyx Bəhayi daxil etmişdir. O da bu hədisi həqiqət olaraq nəql etməmişdir. Sadəcə olaraq, «Rical» adlı risaləsində Şeyx Koleyini barədə söhbət açdıqda, bu mətləbə işarə edərək yazır: «Görün Şeyx Koleyni nə qədər böyük şəxsiyyət olmuşdur ki, əhli-sünnə alimləri onu şiə məzhəbinin islahatçısı hesab etmişlər».

Şeyx Bəhayi geniş məlumata malik olmuş böyük bir alim idi. O, əhli-sünnə alimlərinin fikir və nəzəriyyələri barədə də kifayət qədər məlumat əldə etmişdir. Bu sözü deməklə o, hədisin mötəbərliyini yox, Şeyx Koleyninin fəzilət və dahiliyini bildirmək istəmişdir. Onun haqda söz düşdükdə, dəfələrlə deyərdi: «Şeyx Koleyni o qədər böyük şəxsiyyət olmuşdur ki, əhli-sünnə alimləri də onun sözlərinə etimad etmiş və şiə məzhəbinin islahatçılarından biri hesab etmişlər».

Rical barədə kitab təlif etmiş, digər alimlər də Şeyx Bəhainin sözlərini öz kitablarında nəql etmiş və tədriclə, şiə məzhəbinin davamçıları da bunu həqiqət olaraq qəbul etməyə başlamışlar. Şeyx Bəhaidən yüz-iki yüz il sonra, yəni XI və XII əsrlərdə bəzi xəyalpərəst şəxslər bu hədisin kök və mənşəyinə diqqət yetirmədən, onu mötəbər hədis kimi öz kitablarında nəql etmiş və beləliklə, başqa bir düyün meydana gətirmişlər (Mənim fikrimcə şiə maarifi bu iki əsrdə, yəni XII və XIII əsrlərdə tənəzzülə uğradığı kimi başqa əsrlərdə tənəzzülə uğramamışdır. Yəni əgər tənəzzül tariximizə nəzər salmaq istəsək, gərək bu iki əsrdə baş vermiş cərəyanlara nəzər salaq).

Əhli-sünnə alimləri Şeyx Koleynidən başlayaraq XIV əsrədək, bu minvalla davam etmişlər. Onların fikrincə, XIV əsrdə şiə məzhəbinin islahatçısı Mirzə Şirazi olmuşdulr. Lakin onların belə bir qənaətə haradan və necə gəlmələri məlum deyildir. Daha çox təəccüb doğuran isə, Hacı Mir Molla Haşim Xorasaninin «Montəxəbut-təvari» adlı kitabında bu məsələyə toxunaraq, ardıcıl olaraq şiə məzhəbinin islahatçılarının bir-bir adlarınını çəkməsidir. Hətta onun özü məsələyə diqqət yetirdikdə, yazdıqlarının həqiqətlə uyğun gəlmədiyinin şahidi olur. Çünki elə bir şəxsiyyətlər tarixə iz buraxmışlar ki, biz onları tam cəsarətlə islahatçı adlandıra bilərik, lakin Şeyx Tusi yüz illiyin əvvəlində yaşamadığı üçün diqqətdən kənarda qalmışdır (bəlkə də Şeyx Tusi kimi İslam dininə xidmət etmiş ikinci bir şəxs olmamışdır, lakin təqsiri bu olmuşdur ki, iki yüz illiyin arasında yaşamış və bunun üçün də islahatçı kimi tanınmamışdır).

Olduqca aşağı səviyyədə olan başqa bir alim isə islahatçı kimi qələmə verilərək, daha çox şöhrət tapmışdır.

Hacı Molla Haşim əhli-sünnə alimləri kimi belə güman etmişdir ki, alimlər arasından çıxan islahatçılar və hakimlər arasından çıxan islahatçılar fərqli olmuşlar. Yəni elmi sahədə bir islahatçı, hakimiyyət, siyasət və rəhbərlik sahələrində ayrı-ayrı islahatçılar meydana gəlmişdir. Bəs hakim və xəlifələr arasından çıxan islahatçılar kimlər olmuşlar?

Şiələr özləri üçün rəhbər tapa bilmədikdə, əməvi xəlifəsi Ömər ibni Əbdüləziz və digər əhli-sünnə hakimlərinin sorağına düşmüşlər. Əzadud-dövlə Deyləmi kimi şiə hakimi tapdıqda isə, dahiləşdirərək islahatçı kimi qələmə verməyə başlamışlar. Nəhayət, insan başlarından minarə düzəltdirmiş Nadir şah kimi qan içən cəlladı böyüdərək, şiə məzhəbinin islahatçısı olduğunu bildirmişlər. Çox qəribədir, onun haqda bu sözlər deyilirdi: «Nadir şah qüdrətli hökmdar idi, İranı yağı düşməndən azad edib, Hindistanı fəth etdi. Lakin sonralar işi kütləvi qırğın və minlərlə günahsız insanın qanını tökməkdən ibarət oldu». Tarixçilərdən bəziləri ömrünün sonunda hətta onun dəli olduğunu belə qeyd etmişlər. Belə bir şəxsin şiə məzhəbinin islahatçısı olması, insanı lap heyrətə gətirir. Görün işimiz hara gəlib çatıb?! Bir anlıq Nadir şahın maliyat (vergi) almasına nəzər salın. O, özündən ölçü vahidləri çıxarır və heç nəyi nəzərə almadan, maliyatın ödənilməsini tələb edirdi. Məsələn, deyərdi: «Mən filan məntəqədən bir əlf maliyat istəyirəm». Kimsə

ilə hesabat aparmayan bu hökmdarın «bir əlf» dedikdə, nə qədər maliyat nəzərdə tutduğunu bəlkə də özündən başqa kimsə bilməyirdi. Vəramidən bir əlf maliyat tələb edən Nadir şah bilməyirdi ki, həmin məbləği bu məntəqədən almaq qeyri-mümkündür. Məhz onun ömrünün son illəri İran tarixinin ən acınacaqlı səhifələrini təşkil edir.

Diqqət yetirsəniz bütün bunlarda başqa məzhəblərin kökü olduğunun şahidi olacaqsınız. Onlar bu məsələ ilə yaxından tanış olduqdan sonra heç nədən çəkinmədən öz əqidələrini daxil etməyə səy etmişlər. Hər min illikdə bir islahatçının gəlməsinə dair yaranmış tərzi-təfəkkür İslama deyil, ondan əvvəlki dövrlərə aiddir.

Belə bir tərzi-təfəkkürə İranda İslamdan çox-çox əvvəllər zərdüştlər də malik olmuşlar. Bir vaxtlar zərdüştlərin kitablarını mütaliə edərkən «Huşeydar» adı ilə qarşılaşdım. Bu ləqəb hər min illikdə İranda oyanışa səbəb olan şəxsə verilirdi. Firdovsinin yaşadığı min illikdə Məlik Əşşuəra Bəhar yazdığı qəsidələrin birində deyir: «Sənin min illiyinin hüsnü Huşəydərdi».

O, İranda zərdüştlüyü yayan ən qabaqcıl şəxslərdən biri və mərhum Qəzvini dediyi kimi, ərəblə bağlı olan hər bir şeylə, yəni İslamla kəskin şəkildə düşmənçilik etmişdir. Zərdüştlüyə dair yazdığı iki cildlik kitabda Yəqub Ləys Səffarinin tərcümeyi-halını yazarkən onu min illiyin bəhrəsi (islahatçısı) kimi vəsf edir. Deməк, İslam ruhu ilə müvafiq olmayan bütün deyilənlər tamamilə yalan və əsassızdır. Bəhainin qabaqcıl mübəlliğlərində biri olan Əbülfəz Qulnayəqaninin «Fəraid» adlı kitabını mütaliə edirdim. O, «Biharul-ənvar»-ın 13-cü cildində Peyğəmbər (s)-dan belə nəql etmişdir: «**Əgər ümmətim əməli-saleh olarsa, bin gün, fasiq və günahkar olduqda isə, yarım gün möhlətləri olar**» Sonra deyir: Peyğəmbər (s)-ın dediyi gün **«Rəbbinin dərgahında olan bir gün sizin saydıqlarınızın (hesabladığınız vaxtın) min ili kimidir»**[56] ayəsindəki gün mənasını daşıyır. Yəni əgər Peyğəmbər (s) «Əgər ümmətim əməli-saleh olarsa, bir gün, fasiq və günahkar olduqda isə, yarım gün möhlətləri vardır» buyurmuşsa bu o deməkdir ki, əgər əməli-saleh olarlarsa, bundan belə min il fasiq və günahkar olduqda isə, onlara beş yüz il möhlət veriləcəkdir. Yalan hədis nəql etməkdə şöhrət tapmış Əbdül Fəzl Qulpəyqani daha sonra bu hədisin Peyğəmbər (s)-dan nəql və mötəbər olduğunu bildirir. Nə üçün? Çünki əvvəllər saleh olun bu ümmət sonralar fasiq oldu və min ildən artıq da ömr etmədi. Çünki imam Həsən Əsgərinin vəfat etdiyi 260-cı ilədək imamlar Quran ayələrini camaat arasında bəyan etməklə məşğul olmuşlar. Bu dövr necə deyərlər, İslamın yayıldığı və daha geniş vüsət tapdığı bir dövrdür. Demək olar ki, ümmətin həyatı imam Həsən Əsgərinin (ə) vəfatından başlamışdır. Bu ümmətin doğulduğu bir ildir. İmam Həsən Əsgərinin (ə) vəfatından (260-cı ildən) min il sonra, yəni 1260-cı il Babın zühur etdiyi ildir. Demək, Peyğəmbər (s) əgər «ümmətim əməli-saleh olarsa, min il ömr edəcəkdir» - deyə buyurmuşsa bu o deməkdir ki, min ildən

[56] «Həcc» surəsi, ayə 47

sonra başqa birisi yeni din gətirərək, mənim dinimi nəsx edərək qüvvədən salacaqdır. Fasiq olduqda isə, bu iş beş yüz ildən sonra baş verəcəkdir.

Bu hədisi tapmaq üçün əvvəl «Biharul-ənvar»-a müraciət etdim, lakin bir şey əldə edə bilmədim. Sonra başqa bir yerdə gördüm ki, Mirzə Əbu Talib öz kitabında bu hədis barədə iki-üç vərəq söhbət açaraq, sanki Qulpəyqaniyə cavab vermək istəmişdir. Çünki o, belə bir hədisin mövcud olduğuna inanmışdı. O, bu hədisi Qulpəyqaninin kitabında gördükdə, onun belə bir hədis uydurduğuna inanmışdı. Nə qədər axtardımsa, bu məzmunda bir hədislə də olsun qarşılaşmadım. Yalnız «Biharul-ənvar»-da Kəbul-Əhbarın Peyğəmbər (s)-dan nəql etdiyi belə bir hədis gördüm. (Bir qədər başqa ibarətlə nəql olunan rəvayətdə deyilirdi): «İnsanlar əgər yaxşı və xeyirxah olarlarsa, hər biri min il, pis və günahkar olduqda isə, beş yüz il ömr edərlər».

Göründüyü kimi, bu hədisi Kəbul-Əhbar özü də camaat barədə nəql etmişdir. Lakin Əbülfəz Qulpəyqaninin fikrincə, bunu Kəbul-Əhbar deyil, Peyğəmbər (s) buyurmuşdur. Qarşılaşdığım bu məsələ mənə o qədər qəribə gəldi ki, Bəhailər barədə geniş məlumata malik olan doktor Təvanaya zəng edib, bu işdə mənə kömək etməsini xahiş etdim. Ona Əbülfəz Qulpəyqaninin dediklərinin Mirzə Əbu Talibin dedikləri ilə tam fərqli olduğunu və belə bir hədisin «Biharul-ənvar»-da yalnız Kəbul-Əhbardan nəql olunduğunu dedikdə dedi: «Düz deyirsən, bu, Kəbul-Əhbarın uydurduğu hədislərdən birini təşkil edir».

Bütün bunlar dini məsələlərdə səhlənkarlıq etməyin nə qədər pis iş olduğundan xəbər verir. Görün, Əbu Hüreyrənin (lə) Əbu Davudun hədis məcmuəsində nəql etdiyi və sonralar şiə alimlərinin də buna istinad etməsi, nəyə gətirib çıxarmışdır. Nadir şahı islahatçı kimi qələmə verməklə, ən azı tarixə xəyanət etmiş oluruq. Deməк, Əbülfəz Qulpəyqani kimi yalançı bir şəxsin iftirası, Mirzə Əbu Talib kimi bir alimi inandırır və o da, belə bir hədisin «Biharul-ənvar»da olub-olmamasına diqqət belə yetirmir. Sonralar yüzlərlə şəxs Mirzə Əbu Talibin kitabını mütaliə edib, belə bir hədisə istinad etməyə başlayır.

O ki, qaldı islahata, bu İslam dinində müsbət qarşılanan və mövcud məsələlərdəndir. Lakin yuxarıda deyilənlər kimi deyil, ya İmam Zaman (ə)-ın zühur etdikdən sonra aparacağı ümumdünya islahatı, ya da bütün dövrlərdə yaranmış bidətlərin aradan qaldırılması üçün ayrı-ayrı şəxslərin apardıqları islahat işləri kimi olur. Allah-təala da islahat işlərinin aparılması üçün heç bir müddət təyin etməmişdir. Başqa dinlərə gəldikdə bunu deməliyik ki, əvvəlki dinləri yaşatmaq üçün yeni peyğəmbərlər gəlməli və bu işi həyata keçirməli idi. Bu da, peyğəmbər göndərilmədən qeyri-mümkün idi. Lakin İslamı yaşatmaq üçün cüzi islahatlarla yanaşı, Peyğəmbər (s)-ın vəsi (nümayəndə) təyin etdiyi şəxs tərəfindən ümumi islahat həyata keçirilir. Bu da «xatəmiyyət»-ə - «sonuncu peyğəmbərlik» mövzusuna aiddir.

## İYİRMİ BEŞİNCİ FƏSİL

### *VİCDAN VƏ NİSBİ ƏXLAQ MƏSƏLƏSİ*

«**Pis əməli (Şeytan tərəfindən) özünə yaxşı göstərilib onu yaxşı görən, Allahın doğru yola yönəltdiyi kəs kimi ola bilərmi?!**»[57].

Əvvəlki fəsillərdə qeyd etdik ki, bəzilərinin fikrincə, əxlaq nisbi məfhumdur, yəni əxlaqın əsasını əsli hüsni və qübh (əqli gözəllik və çirkinlik) təşkil edir. Belə ki, bəşər öz ağıl və şüuru ilə yaxşını pisdən asanlıqla, müstəqil olaraq seçə bilər. O, yaxşı işləri gözəl əxlaq, pis işləri isə əxlaqsızlıq adlandırır. Daha sonra belə bir fikir irəli sürüldü ki, insanın əqli, gözəllik və çirkinliyə olan baxışı zaman keçdikcə dəyişərək, bir-birindən fərqli olur. Deməli, əxlaqın əsası sabit və ümumi deyildir. Belə ki, hər hansı bir şey müəyyən dövrdə müsbət qiymətləndirilərək gözəl əxlaq, müəyyən dövrdə isə öz əhəmiyyətini itirərək, əxlaqsızlıq kimi qələmə verilə bilər.

Bunun cavabında dedik ki, belə bir dəlil iki hissədən ibarətdir. Onlardan biri əxlaqın əsasını əqli hüsni qübhün təşkil etməsi, digəri isə bu iki məfhumun nisbi olmasıdır. Məntiq termini ilə desək, kiçik və böyük istidlaldan (dəlildən) ibarətdir.

Kiçik istidlal əxlaqın hüsn və qübhün üzərində qoyulmasından və onların nisbi olmasından, böyük istidlal isə əxlaqın nisbi olmasından ibarətdir və nisbi bir şeyin üzərində qurulan hər hansı başqa bir şey də nisbi olmalıdır. Deməli, əxlaq nisbi bir məfhumdur. Bir qədər əvvəl əqli hüsn və qübhə dair söhbət açdıq və bunun heç bir əsası olmadığını qeyd etdik. Belə bir nəzəriyyə qədim məktəblərdən birinin əsasını qoymuş Sokrat tərəfindən irəli sürülmüşdür. O, əxlaqın əsasını əqli hüsni və qübhün təşkil etdiyini hesab etmişdir. Lakin İslam əxlaqı bir qədər fərqli olaraq, belə bir məntiqə əsaslanmır. Deməli əgər belə bir irad tutularsa, ilk növbədə Sokratın irəli sürdüyü bu nəzəriyyəyə tutulmalıdır.

Əvvəlki fəsillərimizdə əqli hüsnü qübhün nisbi olmasına dair söhbət açıb, bunun tamamilə səhv və əsassız olduğunu qeyd etdik. Lakin deyilənləri daha geniş şəkildə açıqlamağa ehtiyac duyuram.

Gəlin söhbətimizə başqa bir istiqamətdən davam edək.

Vicdan kəlməsini siz hamınız eşitmisiniz və yəqin ki, bu kimi ifadələrə çox rast gəlmisiniz: «Vicdanla götürsək, filan iş belə olmalıdır», «filan qazi vicdanlı hökm çıxarır» və s. Vicdan dedikdə, nəyi nəzərdə tuturuq? Vicdan da dəyişgəndirmi? Yəni yaşadığımız əsrin insanlarının vicdanı ötən əsrin insanlarının vicdanından fərqlidirmi? Minik vasitələrinin, geyim əşyalarının rəngi dəyişildiyi kimi vicdan da dəyişgən olurmu?

---

[57] «Fatir» surəsi, ayə 8

Hər bir insanın daxilində elə bir hiss və ya daha dəqiq desək qüvvə vardır ki, insan onunla hətta özünü belə mühakimə edə bilir. Bu qüvvəyə vicdan deyilir. Deyilənlərə görə, görkəmli alman filosofu Kantın məşhur bir sözü olmuşdur və bu söz qəbri üzərinə yazılmışdır. O deyir: «İnsanı iki şey heyrətə gətirir, onlardan biri mütaliə olduqca daha da genişlənən başımız üzərindəki ulduzla dolu olan asiman, digəri isə insanın qəlbində özünə yer tapan vicdan hissidir.»

Bir qədər əvvəl qeyd etdik ki, insan bəzən hətta özü-özünü mühakimə edir. Yəni özü ilə başqa birisi arasında hər hansı bir məsələ ətrafında ixtilaf meydana gəldikdə, bəzən zahirdə özünə haqq qazandırıb tərəf müqabilini təqsirləndirsə belə, təklikdə özü-özü ilə götür-qoy edib, özünü danlamağa başlayır. Özü-özündən xəcalət çəkib, peşimançılıq hissi keçirir. Buna səbəb olan nədir?

Gözəl tərbiyə almış ədəb-ərkanlı bir uşaq içində mer-meyvə olan bir otağa daxil olur, lakin meyvələrdən birinə də toxunmayıb bir qədər sonra otaqdan çıxır. Ondan, «otaqda kim var idi» soruşulduqda uşaq, «heç kim» deyə, cavab verir. «Bəs nə üçün meyvələrdən birini də olsun yemədin» soruşduqda isə belə cavab verir: «Özüm ki, orada idim». Vicdan adlanan hiss də məhz budur. Quran vicdanı sahibini danlayan və onu mühakimə edəni «nəfsi-ləvvamə» adlandırır: «**And içirəm (günah etdiyi üçün, yaxud «yaxşı əməlim azdır»-deyə) özünü qınayan nəfsə!**»[58].

Elə bir qüvvə ki, insan hər hansı bir xoşa gəlməz bir iş gördükdə onunla danışır və onu tənbeh edərək danlayır: «Nə üçün mən bu işi gördüm?», «Əcəb pis iş gördüm!», «Başqalarının üzünə baxa bilməyəcəyəm…» və bu kimi sözlər.

Hər bir normal insan belə bir hissi keçirdiyi bir halda, bunu inkar etmək olarmı? Əlbəttə ki, yox. Allaha inamı olmayan şəxslər belə, vicdandan söhbət açır. Hətta onlar da «zərərimizə olsa belə haqq-ədalətin tərəfdarıyıq» deyirlər. Çünki hər bir insan insafla həqiqəti etiraf edir. Buna da insaniyyət adı verilir. İnsaniyyət də bizə, zülmə məruz qalan şəxsləri müdafiə etməyi əmr edir. Milliyyət, din və etiqadından asılı olmayaraq, hər bir insan belə bir tərzi-təfəkkürə yiyələnir. Vicdan və ya insaniyyət adlandırdığımız bu qüvvə, haqq-ədalət və həqiqətə arxalanır. Yəni kiminləsə mübahisə etdikdə onun haqlı olduğunu görüb, özünün səhvə yol verdiyini etiraf edirsiniz. Bəşər belə bir xüsusiyyətə indi də yiyələnir, min il, on min il bundan əvvəl də yiyələnmişdi. Biz zülmkarları bu gün də haqsız, min il, on min il bundan qabaq da haqsız hesab edirdik. Minlərlə günahsız insanın qanını tökmüş Çingiz xanı, Sezarı insaniyyətə zidd hərəkətləri üçün pisləyir və onları zülmkar hesab edirik.

Deməli, bəşər vicdan adlanan yeni insani xüsusiyyətə malikdir. Təqsiri olmayan bir insanı öldürməyi insan vicdanı beş min il bundan əvvəl necə pis hesab etmişsə, indinin özündə də bunu pis hesab edir. Əgər hüsn və qübh

---

[58] «Qiyam» surəsi, ayə 12

hökmən nisbi, yəni dəyişgən olmalıdırsa, onda gərək vicdan adlanan insani xüsusiyyət də nisbi olaraq zaman dəyişdikcə, o da dəyişgən olaydı. Təbii ki, belə bir fikir kimsə tərəfindən irəli sürülməmişdir. Fəlsəfədə də buna oxşar sözlər deyilsə də, əməldə heç vaxt belə bir fikir irəli sürülməmişdir. Maddiyyatın hər şeyin əsasını təşkil etdiyini hesab edən kommunislər belə bir fikirdədirlər ki, hər şeyi, o cümlədən insan vicdanını formalaşdıran ən başlıca şey iqtisadi amillərdir. Hər şey iqtisadiyyata tabe olduğu kimi, vicdan və insaniyyət də ona tabedir. İqtisadi amillər dəyişməklə, vicdan da dəyişilərək başqa bir hal alır. Belə bir tərzi-təfəkkürə əsasən həm vicdan, həm də insaniyyət öz dəyərini itirərək, heç bir məna kəsb etməyir. Lakin insan barədə araşdırmalar apardıqda, vicdanın bütün dövrlərdə sabit və dəyişilməz həqiqət olduğunu dərk etmiş oluruq. Quranın bir çox ayələrində bu mətləbə rast gəlmək olar: «**And içirəm qiyamət gününə; And içirəm (günah etdiyi üçün, yaxud yaxşı əməli azdır deyə) özünü qınayan nəfsə!**»[59].

Yəni dediklərin o qədər qətidir ki, inandırmaq üçün hətta and belə içərəm. Sanki demək istəyir ki, «yox, sənin canın üçün dediklərim olduğu kimidir». Göründüyü kimi, ikinci ayədə də «özünü qınayan nəfsi» birinci ayədəki «qiyamət» kəlməsilə sinonim olaraq gətirilmişdir. Qiyamət haqq-hesab çəkiləcək bir gündür. Elə bir gün ki, ədalət, məhkəməsi qurularaq, Allah-təala insanın vücudunda ədalət tərəzisi yaratmışdır: «**Göyü O ucaltdı, tərəzini (ədalət tərəzisini) O qoydu**»[60].

Çünki vicdan insanın vücudunda qiyamət gününədək haqqı batildən ayıran ədalət tərəzisinin rolunu oynayır. Allah-təala bunu demək istəyir ki, biz insanın vücudunda elə bir qüvvə yaratmışıq ki, həqiqəti üzər çıxarır və onun nədən ibarət olduğunu ona başa salır.

Başqa bir yerdə buyurulur: «**And olsun günəşə və onun işığına (günəşin qalxdığı vaxta), And olsun günəşin ardınca çıxan aya, And olsun günəşi parlaq edən gündüzə, And olsun günəşi örtən gecəyə, And olsun göyə və onu yaradana. And olsun yerə və onu yaradana. And olsun nəfsə (insanı və ya insan nəfsini) yaradana. Sonra da ona günahlarını və pis əməllərdən çəkinməsini (xeyir və şəri) öyrədənə!**»[61].

Quranın heç bir yerində Allah-təala bu qədər (10 dəfə) and içməmişdir. Bu da and içilən şeylərin, yəni günəş, onun işığı, ay, insan nəfsi və s.-in böyük əhəmiyyət kəsb etməsindən xəbər verir. Allah-təala insana ilham etməsi, o da tərbiyəçi və ya müəllimin köməyi olmadan yaxşını pisdən, haqq-ədaləti ədalətsizlikdən ayıra bilmir.

Ənbiya surəsinin 73-cü ayəsində deyilir: «**Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və oruc tutmağı vəhy etdik**».

---

[59] «Qiyam» surəsi, ayə 1-2

[60] «Rəhman» surəsi, ayə 7

[61] «Şəms» surəsi, ayə 1-8

Göründüyü kimi, «Biz onlara xeyirli işlər görməyi, namaz qılmağı və oruc tutmaq üçün vəhy göndərmədik» deyil, «vəhy etdik» deyilir.

Başqa bir yerdə Maidə surəsinin 2-ci ayəsinin təfsirində «**Yaxşılıq etməkdə və pis əməllərdən çəkinməkdə əlbir olun, günah iş görməkdə və düşmənçilik etməkdə bir-birinizə kömək göstərməyin**» nəql olunan hədislərdən birində deyilir: «Vabisə adlı biri (ayə nazil olduqdan sonra) Peyğəmbər (s)-ın yayına gəlib deyir: «Ey Peyğəmbər (s)! Bir sualım var». Peyğəmbər (s) sualını verməzdən əvvəl buyurdu: «Günaha dair sual verib, onun nədən ibarət olduğunu bilmək istəyirsən?». Vabisə dedi: «Bəli». Peyğəmbər (s) buyurdu: «Günah və pis işlər qəlbinin qəbul etmədiyi işlərdir. Allah-təala insana yaxşı işlərə qoşulmaq və pis işlərdən çəkinmək üçün pisi yaxşıdan ayıran ürək vermişdir». Sonra iki barmağı ilə sinəsinə vurub dedi: «Öz ürəyindən soruş, ey Vabisə».

İnsan şəri məsələlərə müctəhiddən fətva aldığı kimi, bir çox məsələlərdə də qəlbinə müraciət edərək, ondan cavab ala bilir.

Bütün bunlarla yanaşı, İslam dininin vicdana xüsusi yer verdiyinə dair əsaslı faktlarla qarşılaşmaq olar. Peyğəmbər (s)-dan nəql olunmuş bu hədisi, deyilənlərə misal çəkmək olar: «Doğruluq və düzgünlük qəlbə arxayınlıq, yalan isə şəkk-şübhə gətirir».

Arada heç bir vasitə olmadan, ürək həqiqəti dərhal qəbul edir. Yalanı isə dəlil və sübut gətirilsə belə, qətiyyətlə inkar edir.

Moləvi şerlərinin birində deyilir:

Doğru söz qəlbi aram edir,
Doğrular qəlbə dən səpir.

Son altı-yeddi əsrin ədəbiyyatına nəzər saldıqda, ürək oxşayan bu kimi zərif incilər tapmaq olmur. Bəs belə bir gözəl ədəbiyyatı onlra kim irs qoymuşdur? Əlbəttə ki, Peyğəmbər (s). Sədinin, Nizaminin, Nəsiminin, Hafizin, Moləvinin əsərlərində gözəl şerlərə çox rast gəlmək olur. İslama vurğun olan bu ariflər, bu İlahi dindən ilham alaraq qəlblərindəki kağız üzərinə köçürüb, bu günkü zəngin ədəbiyyatımızı bizlərə miras qoymuşlar.

Şeyx Ənsari öz hədis kitabında Peyğəmbər (s)-dan belə bir hədis nəql edir: «Haqla batil bərabər deyildir, hər haqqın bir həqiqəti, onun da bir batini vardır və hər bir doğru sözün bir nuru vardır. Elə bir nur ki, onu qəlb üzə çıxarır»[62].

Demək, vicdan insan vücudunda mövcud həqiqət və gerçəklikdir. Bu həqiqətin dəyişgən olub-olmamasına gəldikdə isə, iki mətləbə işarə etməliyik. Vicdanın dəyişgən olması adi hallardan biridir. Lakin dəyişgən dedikdə, nəyi nəzərdə tutmalıyıq? O da bütün qüvvələr kimi bəzən xarab, bəzən də fəal olurmu? Hər-hansı bir şey öz müsbət təsirini sağlam və fəal olduğu zaman qoyur. Sağlam və fəal olmadıqda isə təbii ki, ehtiyacı ödəməyəcəkdir.

---

[62] Üsuli-kafi, 2-ci cild

Götürək adi minik avtomobillərini. Mühərrikin hər hansı bir hissəsi xarab olduqda, artıq yaxşı işləmir. Göz də bir vaxtlar yaxşı görür, insan yaşlaşdıqca, o da zəifləyib öz funksiyasını itirməyə başlayır. İnsan ağır xəstə olduqda da gözləri saralır və ətrafı yaxşı görmür. Lakin bu gözün zəifliyinə dəlalət etmir. Gözün özündə nöqsan olduqda ya ətrafı qaranlıq, ya bir şeyi iki, ya da əyri görür. Xəstəlik nəticəsində gözün zəifləməsi isə bütün bunlardan olduqca fərqlidir.

Vicdanın dəyişgən olduğuna dair irəli sürülən fərziyyəni Quran qətiyyətlə rədd edir. Quran nöqteyi-nəzərindən vicdan daim sabit qalır, lakin bəzi hallarda o, necə deyərlər, zəifləyərək xəstələnir. Xəstələndikdə də, tam əksinə işləməyə başlayır. Bununla vicdanın dəyişgən olması arasında olduqca böyük fərq vardır. Söhbətimizin əvvəlində oxuduğumuz ayə bu mətləbə dəlalət edir: «**Pis əməli (şeytan tərəfindən) özünə yaxşı göstərib onu yaxşı işlər görən, Allahın doğru yola yönəltdiyi kəs kimi ola bilərmi?!**»[63].

Quran, insanın bəzən özünün xoşa gəlməz işini yaxşı görməsini qəbul edir, lakin bu heç də vicdanın dəyişgən olmasına dəlalət etmir. Sadəcə olaraq demək istəyir ki, vicdan da başqa şeylər kimi sağlam olduqda yaxşı, xəstə olduqda isə, pis işləyir.

Yaxşı işlərə dəvət, pis işlərdən çəkindirmək məsələsinə dair nəql olunmuş məşhur hədislərdən birində deyilir: «Peyğəmbər (s) son həcc ziyarətində və ya ümrə ziyarətlərinin birində Kəbə evinə daxil olub, əlinin birini qapısının bir tərəfinə, birini də başqa bir tərəfinə qoyub üzünü camaata tutaraq buyurur: «Elə bir zaman gələcəkdir ki, camaat bir-birlərini yaxşı işlərə dəvət, pis işlərdən də çəkindirməyəcəkdir». Salman Peyğəmbər (s)-dan soruşdu: «Ey Peyğəmbər (s)! Doğrudan da camaat bir-birlərini yaxşı işlərə dəvət etməyib, pis işlərdən çəkindirməyəcəkmi?». Peyğəmbər (s) buyurdu: «Bəli! Hətta bundan da pis olacaqdır. Onlar bir-birlərini pis işlərə dəvət edib, yaxşı işlərdən çəkindirəcəklər». Salman daha da təəccüblənərək sualını təkrar etdi. Peyğəmbər (s) buyurdu: «Bəli! Hətta bundan da pis olacaqdır». Salman soruşdu: «Bundan da pis nə ola bilər?». Peyğəmbər (s) buyurdu: «Elə bir zaman gələcəkdir ki, insanlar yaxşını pis, pisi də yaxşı qələmə verəcəklər. Yəni vicdanları o qədər xarab olacaqdır ki, yaxşını pis, pisi də yaxşı görməyə başlayacaqlar». {mənbə qeyd olunmayıb}

Hədislərdən birində deyilir: «İnsanın qəlbində bir ağ nöqtə, onun da ortasında başqa bir qara nöqtə vardır. İnsan günah etdikcə, həmin qara nöqtə böyüyür və o yerə gəlib çatır ki, həmin qara nöqtə bütün ürəyi tutub, onu daş parçasına çevirir. Tövbə edib xeyixah işlər gördükdə isə, qara nöqtə kiçilib, ağ nöqtə isə böyüməyə başlayır». {mənbə yoxdur}

Başqa bir hədisdə deyilir: «Ürəklər üç hissəyə bölünür: işıqlı, qaranlıq və çevrilmiş ürəklər. Yaxşını pis, pisi də yaxşı görən ürəklər də məhz çevrilmiş ürəklərdir». {mənbə yoxdur}

---

[63] «Fatir» surəsi, ayə 8

Deməkk vicdan da insanın digər xüsusiyyətləri kimi bəzən sağlam, bəzən də xəstə və yorğun olur və bu heç də onun qeyri-sabit olmasından xəbər vermir.

Başqa bir məsələ: Müsbət qiymətləndirdiyimiz işlər iki hissəyə bölünür: Onlardan bəziləri özü-özlüyündə, bəziləri də yaxşı şeylər üçün bir növ vasitə olduğu üçün yaxşı hesab olunur. Eyni qayda olaraq, xoşa gəlməz işlərin də bəziləri özü-özlüyündə pis, bəziləri də xoşa gəlməz şeylərə səbəb olduğu üçün mənfi qiymətləndirilir. Bəzən hər hansı bir şeyin əsasını yaxşı şeylər təşkil etdiyi üçün müsbət, pis və xoşa gəlməz şeylər təşkil etdiyi üçün mənfi qiymətləndiririk. Müxtəlif dövr və məkanlarda camaatın bəzən yaxşı, bəzən də pis hesab etdiyi şeylərin özləri pis və ya yaxşı deyil, onların əsasını qoyan şeylər pis və ya yaxşı olur. Yəni bir zamanlar camaat hər hansı bir şeyi başqa bir şeyin əsasını qoymaq üçün faydalı, zaman dəyişməklə həmin şeyi faydasız hesab edə bilər. Lakin insanın həmin yaxşı və ya pis şeyə olan baxışı dəyişilmir. Əlbəttə, insan səhvə də yol verə bilər, lakin bu onun vicdanının dəyişilməsinə və ya ona xələl gəlməsinə səbəb olmur.

Məsələn, bəzi millətlər örpəyə müsbət, bəziləri də mənfi münasibət bəsləyir. Demək, yaxşı və ya pis qeyri-sabit və dəyişgən bir məfhumdur. Cavabında deyirik: Haqqında söhbət açdığımız məsələyə dair örpəyi misal çəkmək, bir o qədər də düzgün olmazdı. Çünki insanın fitrətindəki hicab deyil, onun həya və namusudur. Yəni Allah-təala xüsusilə qadını elə yaratmışdır ki, hər şeydən əvvəl ailə hüquqlarına hörmətlə yanaşsın. Həm qadının, həm də kişinin vicdanı öz həyat yoldaşına xəyanət etməyə yol vermir. Mən həmişə belə hesab edirəm ki, qadın öz ərinə, kişi də başqa bir qadına xəyanət etməməlidir. Çünki xəyanət etdikdə, hər şey nəslə qayıdır. Belə ki, istər qanuni olsun, istərsə də qeyri-qanuni nəsil, qadının öz nəslidir və dünyaya gətirdiyi uşaq da, onun öz uşağıdır. Lakin qeyrət hissi elə yaradılmışdır ki, övladının həqiqətən onun nəslindən olduğu üçün daim öz qadınının qayğısına qalır və onun namusunu çəkir. Lakin hər bir kişinin və qadının fitrət və vicdanında həya və namus adlı bir hiss vardır ki, bunun da əsasını bəzi şeylər təşkil edir. Yəni örpəyi müsbət qiymətləndirən şəxs onu həya və namus baxımından deyil, məhz örpək olduğu üçün belə bir münasibət bəsləyir. Qadın örpəksiz olduğu vaxtdan son dərəcə əxlaqsız olsa belə, əgər örpəyi olarsa, yaxşı hal kimi qiymətləndirməlidirmi? Hicaba müsbət münasibət bəsləyən şəxslər buna həya və namus baxımından belə yanaşırlarmı?

Örpəyə yaxşı münasibət bəsləməyən şəxsdən «həya və namus pis şeydirmi?» soruşsaq, «xeyr» deyəcəkdir. Dünyanın ən pozğun qadınları belə, həya və namusu yüksək qiymətləndirirlər, lakin onlardan nə üçün buna yol verdiklərini soruşsaq deycəklər: «Başqaları da belədirlər, lakin onların tutduqları işləri kimsə görmür, təkcə bizi görürlər».

Nə üçün kommunistlər müştərək cinsi üsulla inkişaf edə bilmədilər? Buna əl atsalar da, onun insanın fitrət və təbiəti ilə zidd olduğu üçün 1936-cı ildən

etibarən belə bir siyasəti kənara qoyub, müştərək mülkiyyət siyasətini tətbiq etməyə başladılar.

Burada bir misal çəkmək istəyirəm: Bir vaxtlar hamıya qənaətcil olmaq tövsiyə olunurdu və o vaxtlar qənaət müsbət qiymətləndirilirdi. Lakin indi bu işə yaxşı baxılmır və kiməsə qənaət etmək tövsiyə olunmur. Demək, qənaət bir vaxtlar yaxşı, sonralar isə pis qələmə verilməyə başlanılmışdır.

Ümumiyyətlə, qənaət dedikdə, biz nəyi nəzərdə tutmalıyıq? Qənaət, tamahın əks mənasını daşıyır. Hədislərdən birində deyilir: «İxtiyarında olan şeylərə qane ol və başqalarına tamah əlini uzatma»[64].

Belə bir xüsusiyyət həm dünən yaxşı idi, həm də bu gün. Lakin bəziləri belə güman etmişlər ki, qənaət dedikdə, halal şeylərdən çox az miqdarda götürüb, qalanını kənara qoymaq nəzərdə tutulur. Xeyr, qənaət bu demək deyildir, qənaət tamahın əks mənasını daşıyır. İnsan ixtiyarında olan şeylərə qane olub, başqalarının malına göz tikməməlidir. Din və milliyyətindən fərqli olmayaraq, bütün dövrlərdə vicdan insana öz malına qane olub, başqasının malına göz dikməməyi əmr etmişdir. «Keçmişdə dünyaya göz yummaq (tərkidünyalıq) yaxşı idi, indi isə yox» deyənlərin cavabında deməliyik ki, dünən yaxşı olan tərkidünyalıq bu gün də yaxşı, dünən pis olan tərkidünyalıq dedikdə tənbəllik, təklik və insanlardan uzaq düşməkdirsə, bu iş dünən də pis olmuş, bu gün də pisdir. Hədid surəsinin 27-ci ayəsində deyilir: «**Onlar özlərindən rahiblik (tərkidünyalıq) icad etdilər**».

Rahibliyi camaata biz öyrətməmişik, bu iş İsa (ə)-ın zamanında yox idi. Onu insanlar özlərindən icad etmişlər. Yox əgər tərkidünya dedikdə dünyapərəstlik nəzərdə tutulursa, bu iş dünən də yaxşı idi, bu gün də.

Müxtəlif dövrlərdə camaatın yaxşı və ya pis hesab etdikləri şeylər, tam mənada həmin şeylərin yaxşı və ya pis olmasından xəbər vermir. Mətləbi daha da aydınlaşdırmaq üçün belə bir misal çəkmək istəyirəm: Deyirlər: «çoxarvadlıq əvvəllər yaxşı, indi isə xoşa gəlməz bir haldır». Cavabında deyirik: «Əgər çoxarvadlıqdan məqsəd eyş-işrət olarsa, bu nə əvvəllər yaxşı olmuş, nə də indi yaxşı haldır. Lakin bu iş zəruri səbəblər üzündən olarsa, əvvəllər necə yaxşı olmuşsa, indi də çox yaxşı və müsbət bir haldır. Yəni əgər bu işin həyata keçməsi üçün lazımı şərait yaranarsa, istər indi, istərsə də keçmiş zaman üçün müsbət qiymətləndirilməlidir.

[64] Ğurərul-hikəm, 3-cü cild, səh 528

## İYİRMİ ALTINCI FƏSİL

### *DÖVRÜ CƏBR VƏ ƏDALƏT MƏSƏLƏSİ*

«**And olsun ki, Biz peyğəmbərlərimizi açıq-aşkar dəlillərlə (möcüzələrlə) göndərdik. Biz onlarla birlikdə (Allahın hökmlərini bildirən səmavi) kitab və ədalət tərəzisi (şəriət) nazil etdik ki, insanlar (bir-biri ilə) ədalətlə rəftar etsinlər**»[65].

Haqqında söhbət açmaq istədiyimiz məsələ, bir növ tarixi təfsir xarakteri daşıyır və bu məsələ bu günlər dünyada olduqca böyük əhəmiyyət kəsb edir. Yəqin ki, tarix kitablarında «dövrü cəbr» kimi ibarətlərlə tez-tez rastlaşmısınız. Dövrü cəbr dedikdə, təxirə salınması və ya qarşısı alınması qeyri-mümkün olan baş verəcək hadisələrə deyilir. Ümumiyyətlə, belə bir ibarətdən istifadə etmək nə dərəcədə düzgündür? Biz bunu iki cür açıqlaya bilərik (onlardan biri düz, digəri isə düz deyildir).

Düzgün olan açıqlama bundan ibarətdir ki, dövrün cəbri ümumi fəlsəfi bir məfhumdur. Bu mənada ki, aləmdə baş verən bütün hadisələr, qarşısı alınmaz hadisələr əsasında baş verir. Yəni yaşadığımız bu dünyada baş verən bütün hadisələr müəyyən səbəblər üzündən həyata keçir və heç bir hadisə təsadüfü olaraq, heç bir səbəb olmadan baş vermir. Hadisələrin səbəbsiz olaraq baş verməsini nə ağıl qəbul edir, nə də məntiq və bu məsələ istər ateist olsun, istərsə də materialist, hər bir filosof tərəfindən yekdilliklə qəbul olunmuşdur. Biz yaradıcının mövcudluğunu isbat etmək üçün məhz belə bir məntiqdən istifadə edirik. Bizim fikrimizcə, dünyada baş verən hadisələr əvvəllər olmamışdır və hər şeyin bir səbəbi olmalıdır.

Varlıq aləmi də elə bir həqiqət olmalıdır ki, həmin həqiqət baş vermiş hadisədən yeni olmasın. Səbəb və nəticə qanunu da öz ardınca zərurət məsələsini gətirir. Bu da səbəb və nəticə qanunun ən başlıca xüsusiyyətlərindən birini təşkil edir. Lakin necə?

Səbəbi olan hər hansı bir şeyin mövcud olmaması, {BAX: «olması» olmalıdır} səbəbi olmayan şeyin də mövcud olması qeyri-mümkündür.

Qədim hikmət alimləri bu fikirdə olmuşlar ki, mövcud olması mümkün olan hər bir hadisəni ya iki zərurət, ya da iki imtina əhatə edir. Vücuda o zaman gəlir ki, onu iki zərurət əhatə etmiş olsun. İki imtina (yəni baş verməsinin qeyri-mümkün olması) əhatə etdikdə isə, heç vaxt vücuda gələ bilmir. Zərurət hökmən vaxtı da təyin etməlidir (buna vaxt zərurəti deyilir). Yəni hər hansı bir zamanda baş verməli olan hadisə, gərək hökmən həmin vaxtda baş versin və onun başqa bir vaxtda baş verməsi, qeyri-mümkündür. Hətta bir an tez, bir an da gec baş verməsi qeyri-mümkündür. Hər bir

---

[65] «Hədid» surəsi, ayə 25

hadisənin özünün müəyyən vaxtı vardır və baş verəcək hadisə nə bir an qabağa düşür, nə bir an təxirə salınır.

Qurani-kərim ümmətlərin əcəl vaxtının gəlib çatması haqda buyurur: «**Hər bir ümmətin (əzəldən müəyyən edilmiş) əcəl vaxtı (ölüm, tənəzzül və ya əzaba düçar olacağı) vardır. Onların əcəli gəlib çatdıqda, bircə saat belə nə yubanar, nə də tələsərlər**»[66].

Aləmdəki adət və qayda-qanun haqda isə buyurulur: «**Sən Allahın qoyduğu qayda-qanunda heç bir dəyişikliklər tapmazsan**»[67].

Məsələn, adi ağac yarpağı gözlərimiz önündə budaqdan qoparaq yerə düşür. Onu başqa bir vaxta, yəni əgər 18 aprel 2002-ci ildə saat 14-də ağacdan düşmüşsə, onun nəinki bir gün, bir dəqiqə belə tez və ya gec düşməsi qeyri-mümkündür. Onun yerə düşməsinə də təbii ki, hansısa amil səbəb olmuşdur və bu amil küləkdir. Küləyin əsməsinə də başqa bir amillər səbəb olmuşdur və əgər həmin amillər olmasaydı, küləyin əməsi də qeyri-mümkün olardı.

Atmosfer qatında isti hava ilə soyuq hava bir-birini əvəz edir və ya havanın alt təbəqəsi istiləşməyə başlayır. İstilik yarandıqda, hər şey genişləndiyi kimi hava da genişlənir, daha da yüngülləşir və təbii ki, üstəki hava isə, soyuq və ağır olmalıdır. Soyuq hava aşağıdakı isti havaya, isti hava da soyuq havaya təzyiq göstərməyə başlayır. Yaranmış sıxlıq və dalğa nəticəsində külək meydana gəlir. Havanın istiləşməsi üçün də müəyyən səbəblar lazımdır. Buna da səbəb olan, günəş şualarının hər hansı bir məntəqəyə çatmasıdır. Zəncirvari olaraq bunun da öz səbəbləri vardır. Demək, yarpağın başqa bir vaxtda yerə düşməsi qeyri-mümkündür, çünki onun yerə düşməsinə müəyyən amillər səbəb olmuşdur və həmin amillərin baş verməsi üçün də başqa bir amil də öz təsirini göstərməli idi.

Fəlsəfi qanun (dövrü cəbr) baxımından hər bir şeyin öz zamanında baş verməsi və başqa bir vaxta baş verməsinin qeyri-mümkünlüyü tamamilə düzgün və əsaslıdır.

Aləmin idarə olunması bizim ixtiyarımızda olmadığı üçün bir çox məsələlərə dair təsəvvür və fərziyələr irəli sürürük. Əgər ixtiyarımızda olsaydı və fərziyələrimizə gülüb, artıq «nə olardı ki, biz Sədinin, Sədi də bizim zamanımızda yaşayaydı» - deməzdik. Lakin bu məsələnin fəlsəfəsinə vardıqda, bütün bunların qeyri-mümkünlüyünü dərk etmiş olacağıq. Bu birdən sonsuzluq ədədlərinə qədərki ədədlərin serini bir-bir ilə dəyişməyə bənzəyir. Məsələn, 3-ü 7-nin, 7-i də 3-ün yerinə qoyur.

Ağıl bunun qeyri-mümkünlüyünü hökm edir. Yəni əgər 3 ədədini 6 ilə 8 arasına qoyarıqsa, bu artıq 3 deyil 7, 7-i də 2 ilə 4 arasına qoyarıqsa, bu artıq 7 deyil 3 ədədi olacaqdır. Demək, ədədlərin bir-birini əvəz etməsi qeyri-mümkündür.

---

[66] «Ə`raf» surəsi, ayə 34

[67] «Fatir» surəsi, ayə 43

Dövrü cəbrin belə bir məna və məfhum daşıması, tamamilə doğru və əsaslıdır. Deməк dövrü cəbrin başqa bir məna daşıdığını hesab edənlər, böyük səhvə yol vermiş olurlar.

Dünyada elə şəxslər olmuşdur ki, həm maddi aləm, həm də insan haqda fikirləşmişlər. Yəni onlar maddi aləmin maddi olmayan bir varlıq tərəfindən meydana gəldiyini hesab etmirlər. Yaşadığımız dünya onların nəzərində, necə deyərlər, adi alət və dəzgahdan ibarətdir. İnsanı maddi bir varlıq hesab edən bu şəxslər belə bir fikirdə olmuşlar ki, insan bütün işlərini maddi nöqteyi-nəzərdən məişətini təmin etmək məqsədi ilə görür.

İnsanın gördüyü işlərin bəzisinin səbəbi bəzən bəlli olur. Məsələn, biri illik çörək təminatını ödəmək üçün tarlanı şumlayır, toxum əkir. Məhsul əldə etdikdən sonra yığır, təmizləyir və nəhayət, üyüddükdən sonra un halına salır. Hər hansı bir işçidən «nə üçün işləyib zəhmətə qatlaşdığını» soruşsaq, deyəcəkdir: «Ailəmin və özümün maddi ehtiyaclarını təmin etmək üçün». Lakin insanın gördüyü bir sıra işlərin səbəbi, bir o qədər də bəlli olmur. Məsələn, elmə yiyələnmək üçün neçə il elm və təhsil ilə məşğul olur, evdə azad mütaliə edir. Bəs bütün bunlardan məqsəd nədir? Kimsə deyə bilərmi ki, elm və təhsil ilə məşğul olmaqdan heç bir məqsədim yoxdur, sadəcə olaraq, mütaliə etdiyim kitabda nədən söhbət açdığını bilmək istəyirəm? Məsələn, əgər biri tarix kitabını mütaliə edirsə deyə bilərik ki, bu kitabı mütaliə etməklə, tarixdə baş verənləri bilmək istəyir. «Bəs bunun sənə nə kimi xeyiri vardır?» soruşsaq, deyəcəkdir: «Xeyiri budur ki, pisi yaxşıdan ayırır və həqiqəti dərk etmiş oluram». Məgər insanın gördüyü işlərin hamısının ona maddi xeyiri olmalıdırmı?

Deyilənlərə görə, Əbu Reyhan Biruni elmə böyük həvəs göstərirmiş və yiyələndiyi elmlərdə böyük nailiyyətlər əldə etmişdir. Alim olmaqla yanaşı, olduqca təqvalı bir şəxsiyyət olmuşdur. Ölüm ayağında olarkən fiqh alimi olan qonşularından biri onu görməyə gəlir. Yataqda olsa da, hələ huşu özündəydi. İqtisası riyaziyyat, astronomiya və ictimaiyyat olan Əbu Reyhan Biruni qonşusunu gördükdə, ona irsə (vərəsəliyə) dair bir sual verdi. Alim ona «bu nə vaxtın sual verməyidir» dedikdə, Əbu Reyhan Biruni belə cavab verir. Bilirəm ki, ölüm ayağındayam, amma bunu bilmədən ölməyim yaxşıdır, ya bildikdən sonra». Alim verdiyi suala cavab verib, öz evinə döndü və çatmamış Əbu Reyhan Biruninin evindən nalə səsləri eşidildi.

İnsan nə üçün elm və təhsilin ardınca gedir? Əlbəttə, bunu da qəbul etməliyik ki, insan elmə bəzən maddi rifahını yaxşılaşdırmaq üçün yiyələnir. Bu günlər kimdən «nə üçün dərs oxuyur, ali məktəblərə daxil olmağa can atırsan» soruşsaq, həkim, mühəndis və s. Olub, yaxşı gəlir əldə etmə istədiyini bildirəcəkdir. Bəşər doğrudanmı hər zaman elmə bunun üçün yiyələnir? Yoxsa, insan elə bir xüsusiyyətə yiyələnirmi ki, bəzən elm olduğu üçün yiyələnmiş olsun? Bəli, belə də olur. Elmin inkişaf edib bu günlər belə bir vüsət halı tapmasına səbəb olan da, məhz elmə maddiyyat üçün deyil, elm

olduğu üçün yiyələnən bir çox çətinliklərlə üzləşən həqiqi alimlərin zəhməti olmuşdur.

Mərhum Seyyid Hüccətül-İslam və məşhur tibb alimi olan Tasbur haqda iki maraqlı əhvalat nəql edirlər: «Hüccətül-İslamın toy günü qadınlar gəlini gəlin otağına gətirirlər. Hüccətül-İslam qadınların otaqda olduğundan istifadə edib, mütaliə etmək üçün öz şəxsi kitabxanasına gəlir və mütaliə etməyə başlayır. Qadınlar getdikdən sonra gəlin otaqda tək qalıb, ərini gözləməyə başlayır. Lakin nə qədər gözləyirsə, ondan bir xəbər çıxmır. Hüccətül-İslam mütaliə edərkən, birdən «Allahu Əkbər» sədasını eşidir və yadına düşür ki, bu gün onun zifaf gecəsi idi. Tez gəlinin yanına qayıdıb, ondan üzürxahlıq etdikdən sonra başının mütaliə qarışdığını bildirir».

Buna oxşar əhvalat Tatur üçün də nəql olunur. Onun da toy gecəsi başı mütaliə və tərcüməyə qarışır və gəlini otaqda tək qoyaraq, səhərədək öz laborotoriyasında qalır. Bazar günləri kilsədən qayıtdıqdan sonra istirahətlərini başa vurub evə qayıdar və dəfələrlə həyat yoldaşını otaqda tək qoyub gün batanadək laborotoriyada təcrübələrlə məşğul olardı.

Elmi inkişaf etdirən də, məhz bu kimi elm aşiqləri olmuşlar. Əgər bütün insanlar elmə bir parça çörək üçün yiyələnsəydi, elm bu qədər inkişaf etməzdi.

Əbu Əli ibni Sina bir zamanlar vəzir olduğu illərdə camaat onun barəsində olmayan şeylər danışır və adına iftiralar çıxarırdı. Bu da onun qəzəblənib dövlət işlərindən kənarlaşmasına səbəb oldu. Yaranmış imkandan istifadə edərək, xəlvətə çəkilib, elmi əsərlər təlif etməyə başladı. Şagirdləri gizlincə gəlib ondan dərs alır və diktə etdikləri şeyləri yazaraq, kitab halına salırdılar. İbni Sina «Şəfa» adlı məşhur kitablarından birini də həmin günlərdə təlif etdi. Söz-söhbətlər aradan qalxıb İbni Sina barədə deyilənlərin yalan və iftira olduğu məlum olduqda, dövlət adamları gəlib onu yenə də tutduğu vəzifədə çalışmağa dəvət etdilər. Lakin o xəlvətdə elmi işlərlə məşğul olmağı dövlət işlərində çalışmaqdan üstün tutur və oradan bayıra çıxmayırdı. Dəfələrlə saraya çağırılsa da, o hər dəfə dəvəti rədd və oradan çıxmağa imtina edirdi. Nəhayət, dövlət məmurları onun yerini öyrənib zorla məskun olduğu zirzəmidən çıxarıb, saraya aparırlar.

Elm və təhsilə yiyələnməklə yanaşı elə işlər də vardır ki, onlardan məqsəd heç də maddi rifahın yaxşılaşdırılması olmur.

Məsələn, xeyriyyə məqsədi ilə yoxsul və kimsəsizlərə əl tutur və ehtiyacı olanlara maddi yardımlar göstərir. Bəs bu kimi xeyriyyə işlərdən məqsəd nədir? İnsan bütün bunları şəxsi mənafei üçün görür, ya yox?

Bəzilərinin fikrincə, insan bu kimi işləri gözəl olduğu və müsbət qiymətləndirildiyi üçün görür. Məsələn, birisi çox gözəl və qiymətli maşın sürür, yeni və daha gözəl va daha qiymətli maşın çıxdıqda, əvvəlkini ucuz qiymətə satıb, həmin maşını alır.

İnsan ibadət edir və öz ibadətlərindən ləzzət alır. Onun ibadət etməkdə maddi marağımı varmı? Bəlkə də kimsə belə güman edə bilər ki, bu dünyada

ibadət edir, maddiyata isə axirət dünyasında nail olacaqdır. Lakin heç də hamı belə deyildir.

İbni Sina «İşarat» adlı kitabında yazır: «Arif nəyəsə xatir ibadət etməyir»[68].

Duaların birində deyilir: «İlahi! Sənə cəhənnəm odundan qorxduğum üçün və cənnətinə xatir ibadət etmirəm. Sənə ona görə ibadət edirəm ki, ibadət etməyə layiq ən yüksək varlıqsan». {mənbə yoxdur}

Əxlaqi baxımdan insanı maddi bir varlıq təsəvvür edən şəxslər belə güman edirlər ki, insanın gördüyü bütün işlər maddi xarakter daşıyır. Əgər mən çıxış edir, siz isə məni dinləyirsinizsə həm mənim, həm də sizin bunda maddi marağınız vardır.

İnsanın tək nəfsi istəklərini deyil, hissiyat, təfəkkür və ideologiyasını da eyş-işrət və maddiyyat vurğunu hesab edən materialistlər hissiyyat, ağıl və təfəkkürə qiymət vermirlər. Onlara «insanın ağılı və şüuru, ürək və hissiyyatı vardır» dedikdə, qətiyyətlə belə cavab verirlər: «Ağıl və şüur da, ürək və hissiyyat da nəfsə tabedir, nəfs nəyi istəyirsə ağıl, şüur, ürək və hissiyyat da onu istəyir». Materialistlər insanı əxlaq, istək və hədəf baxımından belə bir maddi varlıq hesab edirlər. Marksizm əsasında qurulan kommunizm fəlsəfəsi də, məhz belə bir məntiqə əsaslanır.

Sənətdə əldə olunan nailiyyətləri gördükdə bəzən belə güman edirik ki, əldə olunan tərəqqi və nailiyyətlər, həyatın bütün sahələrində eyni səviyyədədir. Bir halda ki, həyatın bəzi sahələri hələ də faciəvi şəkildə qalmaqdadır.

Hal-hazırda dünya əhalisinin yarısı belə güman edir ki, hər şeyin əsasını, maddiyyat təşkil edir. Onlar belə bir məntiqə əsaslanırlar ki, əgər belə bir tərzi-təfəkkür düz olmasaydı, sənaye bu qədər inkişaf etməzdi. Qəribədir, görəsən bunun sənaye ilə nə əlaqəsi ola bilər? Bu yalnış ideologiyaya, tərzi-təfəkkürə bu günlər (hərçənd əvvəllər də özünə yer tapmamışdır) və hal-hazırda materialistlərin özləri belə qeyri-məntiqi yanaşırlar. Lakin sonralar başqa bir materialist məktəbi meydana gəlib, başqa bir fikir irəli sürmüşdür. Marks və başqaları bu fikirdə olmuşlar ki, bütün şeylərin əsasını, nəfs və maddiyyat təşkil edir. Polşalı psixoloq Froyd isə, başqa bir fikir irəli sürərək demişdir: «İnsanın bütün fəaliyyətlərinin əsasını və daha dəqiq desək təməlini, cinsi əlaqələr təşkil edir. İnsan maddi şeyləri də cinsi təlabatı üçün istəyir. Sözün əsl mənasında, insanın eyş-işrəti onun cinsi əlaqədə olmasından ibarətdir. İfrata vardığını gördükdə isə, fərziyyələrində bir qədər yumşaqlıq etmişdir.

Ümumi kütlənin təsəvvür etdiyi dövrü cəbr bir qədər əvvəl qeyd etdiyimiz ümumi fəlsəfədən bir qədər fərqlidir. Deyirlər, insan bütün işləri iqtisadi amillərin təsiri altında görür. İqtisadiyyatı hər şeyin əsasını hesab edən şəxslər bu fikirdədirlər ki, insan iqtisadi bir varlıq olduğu üçün bütün işlərini iqtisadiyyata xatir və iqtisadi amillərin təsiri altında görür. Yəni dünyada baş

[68] 3-cü cild, 370-ci səh

verən bütün hadisələrin kökü iqtisadiyyatla bağlıdır. Dövrü cəbr dedikdə də, iqtisadi cəbri nəzərdə tuturlar. Elə bir cəbr ki, iqtisadi amillərdən meydana gəlir. Materialistlər dövrü cəbr dedikdə, hər şeydən əvvəl ictimai cəbr (belə olduqda, ictimai hadisələr müəyyən dövrdə mütləq baş verir) sonra isə dövrü zəruriyyəti meydana gətirən amilləri nəzərdə tuturlar. Bu amillər də iqtisadi amillərdir. Demək, bütün tarixi hadisələr iqtisadi amillərlə müqayisə olunur. Məsələn, onlardan Makedoniyalı İskəndərin İran və ətraf məntəqələrə hücum edib onları fəth etməsinin səbəblərini soruşsaq, yalnız iqtisadi amilə işarə edərək, bununla kifayətlənəcəklər.

İsa (ə)-ın necə o zaman zühur etdiyini soruşsaq, yenə də bunun köklərini iqtisadi amillərlə əlaqələndirəcəklər. Renosansın (elmi dirçəliş) necə meydana gəlməsini də soruşsaq, yenə də köklərini iqtisadi amillərdə axtaracaqlar. Demək, bütün bu cərəyanların baş verməsinə səbəb olan yeganə amil, iqtisadi amildir.

Lakin bu heç də belə deyildir. Səbəbini də bir qədər açıqlayarkən qeyd etdik ki, materialistlərin insan haqda əldə etdikləri anlam, tamamilə səhv və yanlışdır və bu günlər istər materialist olsun, istərsə də azad fikirli adi bir filosof, insanı iqtisadi alət hesab etmir. Məşhur ingilis filosofu Bertrand Rassel Allaha və dinə etiqadı olmadan materialist bir alim idi. İctimai məslək baxımından sosialist olsa da, kommunistlərə daha çox meyl edirdi. Lakin eyni zamanda, o belə bir tərzi-təfəkkürü qətiyyətlə rədd edirdi. Demək dünyada baş verən bütün hadisələrin baş verməsinə heç də hər zaman iqtisadi amillər səbəb olmamışdır.

*-*-*-*-*

Dövrü cəbri də biz bu mənada başa düşməliyik. Götürək Monqolların İrana hücumunu. Bəlkə də onların İrana hücum etmələrinə iqtisadi amillər səbəb olmuşdur. Lakin görəsən doğrudanmı buna səbəb olan iqtisadi amillər olmuşdur? Tarixə nəzər saldıqda tam əksini müşahidə edirik. İnsanın şan-şöhrət adlı başqa bir xüsusiyyəti vardır. O iqtisadi amillərin təsiri altında olduğu kimi insan şöhrət və şəxsiyyətə pərəstliyin də təsiri altında olur. Çingiz xan kifayət qədər güclü ordu toplasa da ilk vaxtlarda İrana hücum etmək fikrində deyildi. Bir neçə monqol taciri İrana gəlir və soltanın sarayına yol tapır. İranlılar onların mallarını əllərindən alır bu da monqolların narahatçılığına səbəb olur və iranlılardan bunun səbəbinin açıqlanmasını tələb edirlər. Lakin iranlılar nəinki üzr istəmirlər hətta monqolların göndərdikləri rəsmi nümayəndəni qətlə yetirirlər. Bir halda ki, dünyanın heç bir yerində hər hansı bir ölkənin rəsmi nümayəndəsi öldürülməməli idi. monqollar bundan xəbər tutduqda bərk qəzəblənir və özlərini təhqir olunmuş hiss etməyə başlayırlar.

Şəxsiyyətə pərəstlik hissi, onları İrana hücum etməyə təhrik edir. Nəhayət, monqollar İrana hücum edir və bunun nə ilə nəticələndiyi artıq hamıya məlumdur.

Bəs ərəblər nə üçün İrana hücum etmişlər? Bunundamı iqtisadi səbəbləri olmuşdurmu? Xeyr. Tarixdən bizə məlum olur ki, ərəblərlə iranlılar arasında gedən döyüşlər, dini və əqidəvi xarakter daşımışdır. Ərəblərin şuarı bundan ibarət idi: «Təkallahlıq dinləri qalmalı və bütpərəstlik məhv olub, aradan getməlidir! Məcburi olaraq hakimlərə tabe olan camaat da azad olmalıdır! Gəldik ki, Allah bəndələrini özü kimi insanlara bəndəlik etməkdən azad edək! Gəldik ki, hamını Allah bəndəsi edək!». Demək ərəblərlə iranlılar arasında gedən döyüşlərin dini və əqidəvi kökləri olmuşdur.

Tarixi maddi əsaslar üzərində təfsir edən şəxslərin nöqteyi-nəzərində, ədalət heç bir məna daşımır. Siz əgər Marks və marksistlərin dediklərini mütaliə etsəniz, sözdə fəhlə sinfinin maraqlarını dəstəkləsələr də, heç vaxt ədalət barədə söhbət açmadıqlarının şahidi olarsınız. Onlar kommunizmi dəstəkləsələr də, bunu ədalətlə müvafiq olduğu üçün müsbət hal kimi qiymətləndirməmişlər. Ədalət tərəfdarlarını sinfi iştirak (kommunizm) baxımından günahlandırır və onları xəyalpərəst sosialistlər adlandırırdılar. Onlar mənşəi ədalət deyil, dövrü cəbr olan sosializmi dəstəkləyirlər. Belə bir fikir irəli sürmüşlər ki, bəşər əvvəllər müştərək ictimai həyat tərzi sürmüş və sonralar iqtisadi amillərin təsiri altında az təminatlı təbəqəni öz ətrafına toplayan feodal adlı mülkədarlar meydana gəlmişdir. Feodalların övladları da onların qanuni varislərinə çevrilirdi. İstehsal alətləri inkişaf etdikdə kapitalizm artıq dava gətirə bilməyib, kommunizmə çevrilir. Bunun üçün də marksistlər kommunizmin mənşəyini dövrü cəbrdə axtarmağı tövsiyə edir.

Bu haqda geniş söhbət açmaq istəmirəm; yalnız bunu demək istəyirəm ki, onlar bu barədə iki əsaslı səhvə yol vermişlər. Onlardan biri, istehsal alətlərinin inkişaf nəticəsində insanların icbari olaraq sosializmə doğru gəlmələridir. Bu heç də belə deyildir. Çünki hal-hazırda dünyada elə bir yeni üsullar tətbiq olunmuşdur ki, kapitalizm müəyyən qədər də olsun həm özünü qoruyub-saxlaya bilmiş, həm də onların dedikləri sosializmin qarşısını ala bilmişdir. İkinci səhvləri isə, ədalətə olan baxışları ilə əlaqəlidir. Ədaləti qətiyyətlə inkar edən bu məktəb, insanın vicdan kimi yüksək xüsusiyyətə malik olmadığını hesab edir. Bunun üçün də kommunizmin köklərini ədalətdə axtarmağı əsassız hesab edir və bunu xəyalpərəstlik adlandırırlar. Belə bir fərziyyəni də biz tamamilə əsassız hesab edirik. Çünki ədalət hər şeyin əsasını təşkil edərək, ifrat və təfritçilikdən qoruyub saxlamalıdır. Biz cəmiyyətin ayrı-ayrı fərdlərdən ibarət olduğunu, başqa sözlə desək, cəmiyyətin tərkib hissəsini təşkil etdiyini hesab edirik. Əvvəlki fəsillərimizdə bu haqda söhbət açarkən qeyd etdik ki, ictimaiyyət təkcə ayrı-ayrı şəxslərdən deyil, bəlkə şəxslərin tərkib hissəsindən ibarətdir. Elə bir tərkib hissədən ki, hər şeydə olduğu kimi, onun da normal və qeyri-normal vəziyyəti vardır. Qeyri-normal vəziyyətdə o öz axarından çıxaraq, süqut və tənəzzülə doğru gedir. Normal vəziyyətdə olduqda isə, o öz həyat və fəaliyyətinə davam edir. Tərkib halında olan ictimaiyyətin də özü-özlüyündə normal vəziyyəti olur və əgər o özünün bu vəziyyətini qoruyub saxlayarsa, davam gətirərək uzun

müddət qala bilir. Əks təqdirdə, o, öz axarından çıxıb süquta uğrayır. Məsələn, insan bir sıra sadə və mürəkkəb maddələrə qandakı sulullara ehtiyac duyur. Orqanizmin də zamanla heç bir əlaqəsi olmayan özünəməxsus qanunları vardır. İki min il bundan əvvəl yaşayan insanların orqanizmi hansı qanunlara ehtiyac duyurdusa, indiki dövrün də insanlarının orqanizmi həmin qanunlara ehtiyac duyur. Orqanizmin sağlam olması, bu qanunların sabit olmasından asılıdır. Yəni qan dövr edərkən, o, öz funksiyasını itirməməlidir və orqanizm necə normal şəraitdə işləməlidirsə, ədalət də eyni qaydada, ictimaiyyətdə öz yerini taparaq, axarından çıxmamalıdır.

Əlbəttə, ədalətin də öz həddi-hüdudu vardır. Cəmiyyətdə ədalət yalnız o zaman bərqərar ola bilər ki, sağ və ya sol cinahlara meyl olunmadan, orta mövqe tutulsun. Ədalətə nə qədər çox riayət olunarsa, cəmiyyət də bir o qədər sağlam olar.

Biz belə hesab edirik ki, zaman yalnız ədalət bərqərar olunduqda təkamülə doğru gedə bilər. O, dünyadakı iqtisadi amilləri dəyişmədən, özü öz axarı ilə gedir. İqtisadi amillər isə, bəşəriyyətin gündəlik fəaliyyətinə böyük təsir qoyur. Yəni insan həyatında bir çox amillər olmalıdır ki, onlardan biri də, iqtisadi amillərdir. Bu amillər də gərək müəyyən çərçivədə olsun. O öz həddi-hüdudunu qoruyub-saxladıqda, ictimaiyyət sağlam olur. Əks təqdirdə isə, öz axarından çıxmış olur.

Mündəricat

BİRİNCİ CİLD ... 2
BİRİNCİ HİSSƏ ... 2
DÖVRLƏRDƏKİ TƏLƏBLƏRİN DƏYİŞMƏ SƏBƏBLƏRİ ... 2
ƏMANƏT NƏDİR? ... 4
İNSANIN İCTİMAİ HƏYATI İLƏ HEYVANLARIN İCTİMAİ HƏYATI ARASINDA OLAN FƏRQLƏR ... 5
İKİNCİ FƏSİL ... 7
ZAMANIN İKİ DƏYİŞİKLİK NÖVÜ ... 7
İNSANLA HEYVANLARIN İCTİMAİ HƏYATI ARASINDA OLAN ƏSASLI FƏRQLƏR ... 7
İNSANIN SÜQUT VƏ AZĞINLIĞA YUVARLANMASININ MÜMKÜNLÜYÜ ... 8
MÜSBƏT VƏ MƏNFİ DƏYİŞİKLİKLƏRİN MEYARI ... 10
AZAD VƏ ƏSARƏTDƏ OLAN ELM ... 12
ƏFLATUNUN «MƏDİNEYİ-FAZİLƏ» NƏZƏRİYYƏSİ ... 14
ÜÇÜNCÜ FƏSİL ... 16
İNKİŞAFDA OLAN İCTİMAİYYƏT ... 16
İSLAM ÜMMƏTİNİN İNKİŞAF VƏ TƏKAMÜLÜNÜN MİSALI ... 16
MÜSƏLMANLARIN İNKİŞAF SÜRƏTİ ... 17
QUSTAV LUBENİN SƏHVİ ... 18
AVROPA SİYASƏTİ ... 20
DÖRDÜCÜ FƏSİL ... 23
İFRAT VƏ TƏFRİTLƏR ... 23
İFRATÇILIQ VƏ YA CƏHALƏT ... 25
ƏLİ (Ə)-IN KƏLAMI ... 26
TƏFRİTƏ VARMAQ VƏ YA DONUŞLUQ ... 28
BEŞİNCİ FƏSİL ... 29
ORTA YOL ... 29
BAŞQA BİR MİSAL: DONUZ ƏTİNİN HARAM OLMASI ... 29
BAŞQA BİR MİSAL: ƏRƏB DİLİ – İSLAMDA DİNİ HÖKMLƏRİN İCRA VƏ ƏMƏL DİLİ ... 32
ALTINCI FƏSİL ... 35
ƏQL VƏ ORTA YOL ... 35
CƏHALƏT ÜÇÜN BAŞQA BİR MİSAL: ƏBU HƏNİFƏNİN QİYASI ... 35
MƏSUM İMAMLARIN QİYASLA MÜXALİFƏTÇİLİYİ ... 38
AĞILIN HÖKM VƏ QANUNLARI ... 38
YEDDİNCİ FƏSİL ... 41
XƏVARİC ... 41
MÖTƏZİLƏ VƏ ƏŞƏRİLƏR ... 41

XƏVARİCİN TARİXÇƏSİ ........................................................ 42
ƏLİ (Ə)-IN BAXIŞLARINDA XƏVARİCİN MAHİYYƏTİ ........................ 44
SƏKKİZİNCİ FƏSİL ........................................................ 46
İSLAM TƏFƏKKÜRÜNÜN SAFLAŞDIRILMASININ AMİLLƏRİ ............ 46
İSLAM DÜNYASINDA FİKRİ POZĞUNLUQLAR .............................. 47
İSLAMİ DÜŞÜNCƏNİN SAFLAŞDIRMA ÜSÜLLARI .............................. 48
İSLAM – TƏHRİFƏ MƏRUZ QALMAYAN YEGANƏ DİN ...................... 49
QURAN VƏ ƏQL ........................................................ 50
DOQQUZUNCU FƏSİL ........................................................ 52
ƏXBARİLİK ........................................................ 52
HƏDİS QONDARMAĞIN BƏZİ NÜMUNƏLƏRİ .............................. 54
MÜCTEHİDLƏRİN ƏXBARİLƏRLƏ MÜBARİZƏSİ .............................. 55
ƏXBARİLƏRİN QURANLA TOQQUŞMASI .............................. 55
ONUNCU FƏSİL ........................................................ 58
MƏŞRUTƏ ........................................................ 58
MƏŞRUTƏÇİLİYİN TƏRƏFDARLARI VƏ MÜXALİFLƏRİ ...................... 59
MƏŞRUTƏNİN TƏRİFİ ........................................................ 60
TƏRƏFDARLARIN ÜSUL VƏ MƏNTİQİ .............................. 61
ON BİRİNCİ FƏSİL ........................................................ 64
PEYĞƏMBƏRİN VƏZİFƏLƏRİ: RİSALƏT-QƏZAVƏT-HÖKUMƏT ........ 64
BU ÜÇ VƏZİFƏNİN İMAMA ÖTÜRÜLMƏSİ .............................. 65
AYƏTULLAH BİRUCƏRDİNİN SÖZLƏRİ .............................. 67
ON İKİNCİ FƏSİL ........................................................ 70
ZAMANIN TƏLƏBLƏRİ (1) ........................................................ 70
«ZAMANIN TƏLƏBLƏRİ» İFADƏSİNİN MƏNASI .............................. 70
ZAMANIN DOĞURDUĞU HADİSƏLƏR İKİ NÖVDÜR ...................... 71
ÜMUMBƏŞƏRİN AZĞINLIĞININ MÜMKÜNLÜYÜ .............................. 72
«ZAMANIN TƏLƏBLƏRİ» İFADƏSİNİN DÜZGÜN MƏNASI ................ 74
SABİT VƏ DƏYİŞƏN EHTİYACLAR .............................. 75
ON ÜÇÜNCÜ FƏSİL ........................................................ 77
ZAMANIN TƏLƏBLƏRİ (2) ........................................................ 77
BU MƏSƏLƏYƏ FƏLSƏFİ BAXIŞ .............................. 78
İNSAN RUHUNUN SABİTLİYİ .............................. 79
TƏBİƏT QANUNLARI SABİTDİR .............................. 80
İCTİMAİ BAXIŞ ........................................................ 82
ON DÖRDÜNCÜ FƏSİL ........................................................ 84
İSLAM TARİXİNDƏ ZAMAN DƏYİŞMƏLƏRİ .............................. 84
ŞİƏLƏRİN MALİK OLDUĞU BİR NEMƏT .............................. 84
ZAMANIN TƏLƏBİNİN DƏYİŞMƏSİNƏ AİD BİRİNCİ MİSAL ............... 85
İKİNCİ MİSAL ........................................................ 87
ON BEŞİNCİ FƏSİL ........................................................ 89
İSLAM DİNİNDƏ FİQH VƏ İCTİHAD .............................. 89
***ON BEŞİNCİ FƏSİL*** ........................................................ 89

*İSLAM DİNİNDƏ FİQH VƏ İCTİHAD* ........ 89
İQBAL LAHURİ VƏ İBNİ SİNANIN İCTİHAD BARƏDƏ DEDİKLƏRİ ... 89
QURANIN İŞLƏTDİYİ İFADƏ ........ 90
BU BARƏDƏ BİR MİSAL ........ 91
DİGƏR BİR MİSAL ........ 92
ON ALTINCI FƏSİL ........ 94
«MÜLAZİMƏ» QANUNU ........ 94
«MÜHÜM VƏ ƏN ƏHƏMİYYƏTLİ» QANUNU ........ 95
«TƏŞRİH» MƏSƏLƏSİ ........ 96
DİNİ GÖSTƏRİŞLƏRİN MÜXTƏLİF FORMALARI ........ 97
ON YEDDİNCİ FƏSİL ........ 99
ƏLİ (Ə) - HƏMİŞƏYAŞAR BİR ŞƏXSİYYƏT ........ 99
TARİXİN UNUDULMAZ ŞƏXSİYYƏTLƏRİ ........ 99
EDVARD BRAUNUN DEDİKLƏRİ ........ 101
CƏBRAN XƏLİL CƏBRANIN ƏLİ (Ə) HAQQINDA DEDİKLƏRİ ........ 103
ON SƏKKİZİNCİ FƏSİL ........ 104
ƏXLAQ VƏ ƏDƏB QAYDALARININ NİSBİLİYİ ........ 104
ƏXLAQ QAYDALARININ NİSBİLİK NƏZƏRİYYƏSİ ........ 104
ƏXLAQ VƏ ƏDƏB QAYDALARININ FƏRQİ ........ 105
MÜXTƏLİF PEŞƏ VƏ SƏNƏTLƏRƏ AİD OLAN QAYDALAR ........ 107
ON DOQQUZUNCU FƏSİL ........ 109
İBADƏT VƏ PƏRƏSTİŞ – İNSANIN DƏYİŞMƏZ EHTİYACI ........ 109
YENİYETMƏLİK İLLƏRİNDƏN BİR XATİRƏ ........ 110
ADƏT-ƏNƏNƏLƏRİN İKİ NÖVÜ ........ 111
PƏRƏSTİŞİN MƏNASI ........ 112
İBADƏT İSLAM TƏLİMLƏRİNİN SƏRLÖVHƏSİ ........ 113
İYİRMİNCİ CİLD ........ 116
NİSBİ ƏDALƏT NƏZƏRİYYƏSİNİN TƏHLİL VƏ ARAŞDIRILMASI ........ 116
İYİRMİ BİRİNCİ FƏSİL ........ 122
ƏDALƏTİN MƏFHUMU ........ 122
NİSBİ ƏDALƏT NƏZƏRİYYƏSİNİN RƏDDİ ........ 122
İYİRMİ İKİNCİ FƏSİL ........ 130
NİSBİ ƏXLAQ NƏZƏRİYYƏSİNİN ARAŞDIRILMASI ........ 130
İYİRMİ ÜÇÜNCÜ FƏSİL ........ 135
NƏSX VƏ SONUNCU PEYĞƏMBƏRLİK ........ 135
İYİRMİ DÖRDÜNCÜ FƏSİL ........ 143
XATƏMİYYƏT (PEYĞƏMBƏRLƏRİN SONUNCUSU) ........ 143
İYİRMİ BEŞİNCİ FƏSİL ........ 151
VİCDAN VƏ NİSBİ ƏXLAQ MƏSƏLƏSİ ........ 151
İYİRMİ ALTINCI FƏSİL ........ 158
DÖVRÜ CƏBR VƏ ƏDALƏT MƏSƏLƏSİ ........ 158